AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN TEXNOLOGİYA
UNİVERSİTETİ

# *İNNOVASİYALI İQTİSADİYYAT VƏ MENECMENT*
# *ИННОВАЦИОННАЯ ЭКОНОМИКА И МЕНЕДЖМЕНТ*
# *INNOVATIVE ECONOMY AND MANAGEMENT*

**№1/5**

**GƏNCƏ - 2021**

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
Azərbaycan Texnologiya Universiteti

# « *İnnovasiyalı iqtisadiyyat və menecment* »

**_Redaksiya heyəti_**

**_Baş redaktor_**
Süleymanov Akif Şamil oğlu
Texnika elmləri doktoru, professor

**_Baş redaktorun birinci müavini_**
İsmayılov Vüqar Ağamusa oğlu
İ.f.d, dosent

**_Baş redaktorun müavini_**
Əliyev Şakir Hüseynqulu oğlu
t.f.d, dosent

**_Məsul katib_**
Hümbətov Yusif Əbülfət
i.f.d, dosent

**_Redaksiya heyətinin üzvləri_**

Səmədzadə Ziyad Əliabbas oğlu
i.e.d.,professorAMEA həqiqi üzvü

Balayev Rəsul Ənvər oğlu
i.e.d.,professor

Ataşov Bəyalı Xanalı oğlu
- i. e.d., professor

Hüseynov Məhərrəm Cəlal oğlu
i.e.d., professor

Vəliyev Vilayət Məmməd oğlu
i.e.d.,professor

Süleymanov Elçin Bəhman oğlu
- i. f.d., dosent

İmanov Nazim Müzəffər oğlu
i.e.d. professor

Məmmədov Zahid Fərrux oğlu
– i.e.d.professor

Alıyev İsa Hüseyn oğlu
İ. e.d., professor

Hacıyeva Nüşabə Aslan qızı
i.f.d. dosent

Səbzəliyev Sifariz Mirzəxan,
i.e.d.profesor

Ataşov Bəyalı Xanalı oğlu
- i. e.d., professor

Həsənova Pəri Əmirəhməd qızı
i.e.d., profesor

İmanov Telman İman oglu
i.e.d., professor

Quliyev İlqar Qurban oğlu
xarici dil mütəxəssisi

Kompüter tərtibatçısı: E. İ. İslamova
Korrektor: Z. Ə.Cavadov
Dizayner: A.F. Sadıqova

*İldə iki dəfə çıxır*

Redaksiyanın ünvanı:
AZ2011, Azərbaycan, Gəncə ş. Şah İsmayıl Xətai prospekti, 103
Azərbaycan Texnologiya Universiteti
Tel: +(994-22) 57-56-29, Faks: +(994-22) 57-29-61
*E-mail:* info@uteca.edu.az

© *Azərbaycan Texnologiya Universiteti 2021*

**MÜNDƏRİCAT– СОДЕРЖАНИЕ- CONTENTS**

Həsənova P.Ə.,Haciyeva N.A.Təbii inhisarçı istehsal və xidmət subyektləri və onların ölkənin iqtisadi inkişafinda rolu........................................................................................................ 4
Zeynallı E. C. Səmərəlilik mühüm iqtisadi kateqoriya kimi................................................. 11
Həsənova S. Ə.Məşğulluq strategiyasının strateji hədəflərinin regionların iqtisadi inkişafina təsiri................................................................................................................................ 16
Hajiyeva N.U. Economic assessment of "green energy" potential in the liberated territories of Azerbaijan…………………………………………………………………………… 24
Rəhimov K.K.Özəl sahibkarlıq iqtisadi inkişafın əsas vasitəsi kimi..................................... 31
Hüseynli C. İ.Korporativ sosial məsuliyyətin (KSM) hərəkətverici amiləri............................ 37
Bayramov V.A.İnkişaf prosesində problemli situasiyalar: metodoloji aspekt........................ 43
Sultanova G. G.İqtisadi subyektlərin rəqabətə davamlılığının təmin olunması mexanizmi..... 51
Məmmədli Y. Z.Aqrar sahənin modernləşməsi səviyyəsi və ona təsir edən amillər............... 58
Mirzəyev N. S.Klaster təşəbbüsləri və aqrar sahədə sahibkarlığın inkişafina təsiri................ 64
Hüseynov A.M.Aqrar sahədə maliyyə-kredit münasibətlərinin inkişaf mexanizmi və onun infrastrukturu................................................................................................................ 73
Nəsibova Ç.N.Aqrar sahədə ixrac potensialının yaxşılaşdırılması istiqamətləri...................... 78
Qarayev M.T.Aqrar sahənin maddi-texniki bazasının fəaliyyət mexanizmi və xüsusiyyətləri. 82
Hümbətov Y. Ə.Qapaqov V. F.Müalicə - sağlamlıq turizminin, turizm sənayesinin inkişafına təsiri istiqamətləri.......................................................................................................... 89
Rəhimova M.F.Aqrar sahənin innovasiya potensialının formalaşmasına təsir edən amillər... 95
Abdiyeva G.Z.Yüngül sənaye müəssisələrinin idarəetmə strukturunun inkişaf istiqamətləri... 101
Tağıyeva G.A. Kənd təsərrüfatında biznes münasibətlərinin formalaşması ilə bağlı elmi baxışlar.............................................................................................................................. 107
Eldarlı C. A.Aqrar sferada istehsalın şaxələndirilməsinə təsir edən amillər........................... 113
Adıgözəlova A.Ə. Ticarət müəssisələrində seqment uçotunun təşkilinin və gəlirlərin artırılmasının bəzi məsələləri......................................................................................................... 119
Osmanova G. R.Aqrar sferada iqtisadi subyektlərin qarşıliqli əlaqələrinininkişaf mexanizmi. 127
Vəliyeva S. İ.. Ənənəvi olmayan və son dövrlər ixracına başlanılan bitkiçilik məhsullarının təhlili.............................................................................................................................. 132

**№ 1/2021** **səh.4 - 10**

**UOT 338.4**

# TƏBİİ İNHİSARÇI İSTEHSAL VƏ XİDMƏT SUBYEKTLƏRİ VƏ ONLARIN ÖLKƏNİN İQTİSADİ İNKİŞAFINDA ROLU

**[1]Pəri Əmirəhməd qızı Həsənova**
**[2]Nushabə Aslan qızı Haciyeva**

**[1]Bakı Dövlət Universiteti**
**Bakı şəhəri, Akademik Zahid Xəlilov küçəsi-23**
**[2]Azərbaycan Texnologiya Universiteti**
**Gəncə şəhəri,Atatürk prospekti,356**

**[1]perihesenova80@gmail.com**
**[2]nushaba.hajieva@mail.ru**

***Xülasə:** Bütün ölkələrdə olduğu kimi Azərbaycan Rerspublikasında da bazar iqtisadiyyatı şəraitində təbii inhisarçılıq xüsusiyyətlərinə malik olan sahələr fəaliyyət göstərir. Təbii inhisarçı subyekt kimi baxılan istehsal və xidmət sahələri çoxluq təşkil edir. Belə sahələrin müəyyən müddət ərzində olmasına təbii bir proses kimi baxılır və hüquqi qaydalar əsasında tənzimlənir. Təbii inhisarçı mövqeyə və xidmət sahələrinin xüsusi çəkisi və mövqeyi olan sahələr hələ də möhkəmdir. Təbii inhisarçılığın iki əsas növü nəzərdən keçirilir və təhlil olunur: təkrarsız təbii hadisələrin (iqlim, təbii ehtiyatlar, müəyyən xammalın nadir olması, yerləşməsi) nəticəsində yaranan təbii inhisar; yaranması ya iqtisadi, ya da iqtisadi səbəblər ilə diktə edilən texniki və iqtisadi inhisarlar. Təbii inhisarın müsbət və mənfi xüsusiyyətləri, müsbət və mənfi cəhətləri təyin olunur. Təbii inhisar subyektlərinin qanunla müəyyən edilmiş öhdəlikləri açıqlanır. Lakin, bazar iqtisadiyyatının nəticələrinin daha da səmərəli olması baxımından inhisarçılığa qarşı mübarizə aparılır və sağlam rəqabət mühiti yaradılır. Buna dövlətin iqtisadiyyatı tənzimləmə problemlərindən biri kimi baxılır.*

***Açar sözlər:** Təbii inhisarçı istehsal sahəsi, xidmət subyektləri, təbii inhisarçılıq, istehsal-xidmət sahələri, neft – qaz hasilatı, dəmiryolu nəqliyyatı, su və istilik stansiyaları.*

**Giriş:** Ölkədə bazar münasibətləri inkişaf etdikcə, yetkinləşdikcə inhisarçılıq fəaliyyətinin aradan qaldırılmasında, zəiflədilməsində effektiv rəqabət mühiti yaratmaq məqsədi ilə dövlət mexanizminin bu istiqamətdə təkmilləşdirilməsi problemi aktuallaşır. Səmərəli rəqabət mühiti yaratmaq və onun daimi olmasını təmin etmək təsərrüfat subyektləri arasında sağlam iqtisadi rəqabətin təmin edilməsinin vasitə və metodlarının sərbəst seçilməsinin səlahiyyətləri müvafiq dövlt orqanının üzərinə düşür.

Təbii inhisarlar haqqında qanunvericiliyin məqsədi cəmiyyətin maraqı naminə tənzimləmə nəzəriyyəsinə daxildir. Bu nəzəriyyənin məntiqi əsasını belə bir detal təşkil edir ki, əgər rəqabət yersizdirsə, onda nəzarətdənkənar hakimiyyət inhisarında sui-istifadədən qaçmaq üçün tənzimlənən inhisar yaratmaq lazımdır. Təcrübədə tənzimləməni həyata keçirənlər elə tariflər müəyyən etməyə çalışırlar ki, onlar istehsal məsrəflərini ödəməklə müəssisəyə ədalətli gəlir gətirsinlər

**Tədqiqatın metodikası:** Yerli və xarici iqtisadçı alimlərin bazar iqtisadi şəraitində təbii inhisarçılıq xüsusiyyətlərinə malik olan sahələrin fəaliyyətindəapardıqları tədqiqat və araşdırmalar, Azərbaycan Respublikası Prezidentinin Fərman və sərancamları, Statistika Komitəsinin, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin elektron xidmətlər portalının materialları təşkil edir.

**Tədqiqatın praktiki əhəmiyyəti**: Təbii inhisarçı istehsal və xidmət subyektləri və onların ölkənin iqtisadi inikşafında rolu böyükdür. Lakin, bazar iqtisadiyyatının nəticələrinin daha da səmərəli olması baxımından inhisarçılığa qarşı əsaslı mübarizə aparılması və sağlam rəqabət mühitinin yaradılması qarşıda dayanan ən önəmli vəzifələrdən biridir.Azad rəqabət mühitinin yaradılması dövlətin mühüm tənzimləyici vəzifələrindən biridir. Tədqiqat işində irəli sürülən təklif və nəticələrrespublikamızda fəaliyyət göstərən təbii inhisarçı subyektlərin dairəsinin müəyyən edilməsi və onların inhisarçılıq mövqelərinin daha da zəiflədilməsinə yönəldilən tədbirlərin həyata keçirilməsinə yönəldilmişdir.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

İqtisadiyyatı bazar münasibətlərinə əsaslanan bütün ölkələrdə olduğu kimi Azərbaycan Respublikasında da təbii inhisarçılıq xüsusiyyətlərinə malik olan istehsal-xidmət sahələri fəaliyyət göstərir. Ölkə iqtisadiyyatında belə sahələrin müəyyən müddət ərzində mövcud olmasına təbii bir proses kimi baxılır və müvafiq hüquqi qaydalar əsasında tənzimlənir. Bu zaman təsərrüfatçılıq subyektləri arasında həyata keçirilən iqtisadi münasibətlərdə inhisarçılığa və hədsiz rəqabətə yol verilməməsi əsas götürülür. Bununla əlaqədar olaraq qarşıya çıxan problemlərin aradan qaldırılması və azad rəqabət mühitinin yaradılması dövlətin mühüm tənzimləyici vəzifələrindən biri kimi qiymətləndirilir. Lakin bütün bunlara baxmayaraq ölkə iqtisadiyyatında təbii inhisarçı mövqeyinə malik olan istehsal və xidmət sahələrinin xüsusi çəkisi və daxili bazarda mövqeyi hələ də möhkəmdir.

Mükəmməl hüquqi tənzimlənmə bazarlarına malik olan ölkələrdə inhisarçılıq mövqelərində çıxış edən təsərrüfatçılıq subyektləri mövcuddur. Lakin bazar iqtisadiyyatının nəticələrinin daha da səmərəli olması baxımından inhisarçılığa qarşı əsaslı mübarizə aparılır və sağlam rəqabət mühiti yaradılır. Buna dövlətin iqtisadiyyatı tənzimlənmə prioritetlərindən biri kimi baxılır. Ona görə də respublikamızda təbii inhisarçılığın vəziyyətinin öyrənilməsi və inhisarçı subyektlərin daxili bazarda mövqeyinin tədricən zəiflədilməsi aktual bir problem kimi qarşıda durur. Bununla əlaqədar olaraq burada respublikamızda fəaliyyət göstərən təbii inhisarçı subyektlərin dairəsinin müəyyən edilməsi və onların inhisarçılıq mövqelərinin daha da zəiflədilməsinə yönəldilən tədbirlərin həyata keçirilməsi məqsədəuyğun bir vəzifə kimi gündəmdədir.

Ölkə iqtisadiyyatında tutduqları mövqeyə görə təbii inhisarçı subyekt kimi baxılan istehsal və xidmət sahələri çoxluq təşkil edir. Respublikamızın iqtisadiyyatında təbii inhisarçı mövqeyində çıxış edən sahələrdən birini neft və qazçıxarma sənayesi təşkil edir. Bazar iqtisadiyyatına keçid dövründə bu sahənin müəssisələrinin ölkənin iqtisadi böhrandan çılxarılmasında müstəsna xidməti olmuşdur. Dövlət mülkiyyətinin özəlləşdirilməsi istiqamətində müəyyən daha da möhkəmləndirə bilmişdir. Bunun başlıca səbəbini neft və qazçıxarma sahəsinə böyük həcmdə investisiya qoyuluşunun təmin edilməsi təşkil edir. Neft və qazçıxarma sahəsində fəaliyyət göstərən ən böyük inhisarçı subyekt Azərbaycan Dövlət Neft şirkətidir (ARDNŞ). ARDNŞ təkcə Azərbaycanın deyil, həm də dünyanın aparıcı neft şirkətlərindən biridir. Respublikanın neft sərvətlərindən istifadəni vahid dövlət siyasəti əsasında həyata keçirmək, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirmək, yanacaq enerji kompleksinin inkişafını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 13.09.1992-ci il tarixli fərmanı ilə “Azərneft” Dövlət Konserinin və “Azərneftkimya” İstehsal Birliyinin bazasında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti yaradılmışdır. [1]

ARDNŞ yarandığı vaxtdan onun strukturunda bir sıra dəyişikliklər edilmişdir. Belə ki, Azərbyacan Respublikası Prezidentinin 10 yanvar 1994-cü il ARDNŞ-nin strukturunun təkmilləşdirilməsi haqqında 50 saylı sərəncamına əsasən Dövlət Neft Şirkətinin strukturunda Dənizdə və Quruda Neft və

Qazçıxarma İstehsal Birlikləri yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin ARDNŞ-nin strukturunun təkmilləşdirilməsi əsasında 24 yanvar 2004-cü il tarixli 844 saylı fərmanına əsasən isə Dənizdə və Quruda Neft və Qazçıxarma Birlikləri birləşdirilərək "Azneft" İstehsalat Birliyi yaradılmışdır. ARDNŞ respublikanın bütün ərazisində, o cümlədən quru və dəniz ərazilərində neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, neftin, qazın, qaz kondensatının hazırlanması, emalı və nəqli, həmçinin onlardan alınan məhsulların daxili və xarici bazarlarda satışı ilə məşğul olur. O həmçinin böyük həcmdə elmi-tədqiqat və layihə işləri yerinə yetirir. Hazırda Azərbaycanda neftlə zəngin 57 yataq mövcuddur ki, bunun da 18-i Xəzər dənizinin Azərbaycan sektorunda, qalanı isə qurudadır.

Ümumiyyətlə, Xəzər hövzəsi 30 milyard tona yaxın neft, 18-20 trilyon kub metr həcmində qaz ehtiyatına malikdir ki, bu da dünyanın karbohidrogen resurslarının 15%-ni təşkil edir.

Hazırda ARDNŞ-də 58945 nəfər, o cümlədən 50 elmlər doktoru, 392 elmlər namizədi elmi dərəcəsinə malik olan 17,500 mühəndis, texnik və mütəxəssis çalışır. ARDNŞ respublikanın neft və neft məhsullarına olan tələbatını ödəmək, daxili tələbdən artıq hissəni isə ixrac etmək imkanına malikdir. Bunu təmin etmək üçün ARDNŞ müvafiq istehsal gücünə, inkişaf etmiş xidmət sektoruna, böyük elmi və texniki potensiala malikdir. ARDNŞ-də həm quru, həm də dəniz neft yataqlarının kəşfiyyatı, işlənməsi və abadlaşdırılması ilə bağlı bütün məsələləri həll etmək qabiliyyətinə malik yüksək ixtisaslı mühəndis, texnik və fəhlə kadrları vardır.

ARDNŞ-nin tabeçiliyində olan və fəaliyyət sahələrində inhisarçı mövqeyə malik olan subyektlərə aşağıdakılar aid edilə bilər.

"Azərneft" İstehsalat Birliyi; "Azəriqaz" İstehsalat Birliyi; "Geofizika və Geologiya" İdarəsi; Neft Kəmərləri İdarəsi; Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi; Sərmayələr İdarəsi; "Azərneftyağ" Neft Emalı Zavodu; Heydər Əliyev adına Neft Emalı Zavodu; Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodu; Qaz İxrac İdarəsi; Xəzər Dəniz Neft Donanması; "Neftqaztiktinti" Tresti; Kompleks Qazıma İşləri Tresti.

Azərbaycan Respublikasının vətəndaşlarının və hüquqi şəxslərinin enerjiyə olan tələbatının təmin olunmasında təbii inhisarçı mövqeyə malik olan subyekt "Azərenerji" Açıq Səhmdar Cəmiyyətidir. Bu cəmiyyət Azərbaycan ərazisində elektrik enerjisinin istehsalı və ötürülməsinin idarə olunması funksiyasını yerinə yetirir. [2]

"Azərenerji" ASC respublikamızın ən iri enerji istehsalçısı olmaqla yanaşı, paylayıcı şəbəkələr və elektrik veriliş xətlərinin sayına və uzunluğuna görə də regionda lider mövqe tutur.

"Azərenerji" ASC-nin tabeliyində bir neçə balaca SES istisna olmaqla, bütün elektrik stansiyaları, eləcə də ötürülmə sistemini təşkil edən elektrik verilişi xətləri və yarımstansiyaları daxildir.

Təbii inhisarçı enerji istehsalı subyekti olam cəmiyyətin tərkibində gərginliyi 500, 330, 220 və 110 kilovat olan 200-dən artıq yarımstansiya; "Mingəçevir", "Varvara", "Şəmkir", "Yenikənd", "Araz" və "Vayxır" daxil olmaqla 6 ədəd su elektrik stansiyası (SES), "Azərbaycan", "şirvan", "Şimal", "Bakı İEM", "Babaək", "Astara", "Şəki", "Xaçmaz", "Naxçıvan", "Bakı", "Sanqaçal", "Şahdağ" və "Sumqayıt" istilik elektrik stansiyaları daxildir. Yaxın bir neçə il ərzində bir sıra yeni stansiya və yarımstansiyaların, elektrik enerjisi xətlərinin tikintisi və mövcud obyektlərin əsaslı yenidən qurulması planlaşdırılır.

"Azərenerji" ASC-nin elektrik verilişi xətlərinin ümumi uzunluğu (gərginliyi 35, 10,6 və 0,4 kilovat olan paylayıcı xətlər də daxil olmaqla) 100000 kilometrdən artıqdır.

Aəzrbyacanın enerji sistemi Sovet İttifaqının dağılmasına qədər onun Vahid Enerji Sistemi ilə əlaəqdar olan Birləşmiş Qafqaz enerji sisteminin ayrılmaz hissəsi idi. Sovet İttifaqının dağılması Azərbyacanın enerji sisteminin başqa Qafqaz respublikalarından izolyasiyasına gətirdi və onun əlaqəsi hal-hazırda yalnız Rusiya Federasiyasının Şimali Qafqaz regionu ilədir.

Azərbaycanın enerji sistemi Rusiya Federasiyasının vahid enerji sistemi və Gürcüstanın enerji sistemi ilə gərginliyi 330-kV-luq, İranın enerji sistemi ilə isə gərginliyi 230 kV-luq elektrik enerji xətləri ilə elektrik enerjisinin idxalı və ixracını həyata keçirir.

Hal-hazırda Azərbaycanın enerji sisteminin generasiyası gücünün 80%-i respublikanın qərb hissəsində (gücü 2400 MVt olan Azərbyacan İES Buxar-turbin Elektrik Stansiyası, gücü 360 MVt olan Mingəçevir SES, gücü 380 MVt olan Şəmkir SES və gücü 150 MVt olan Yenikənd SES), istehlak olunan enerjinin 70%-i isə respublika ərazisinin şərq, şimal-şərq və cənub-şərq hissələrində cəmləşmişdir. Bunun nəticəsində Abçeron yarımadasında əsas elektrik stansiyaları sayılan 2400 MVt gücündə Azərbaycan İES və 1050 MVt gücündə Əli-Bayramlı İES üçün yüzlərlə kilometrlik məsafəyə yanacaq nəql edilir, istehsal olunan elektrik enerjisi isə əks istiqamətdə Abşeron yarımadasına geri qayıdır və eləcə də buradan Şimal və Cənub regionlarına ötürülür. Azərbaycanın Qərb və Şərq regionları arasında enerji mübadiləsi iki 500 kV-luq elektrik verilişi xətləri vasitəsilə həyata keçirilir.

Xidmətlərinin əhatə dairəsinə görə fərqlənən və diqqəti cəlb edən təbii inhisarçı xidmət sahələrindən biri su təchizatı sistemidir. Milyonlarla əhalinin, yüz minlərlə müəssisənin su təchizatı funksiyasını reallaşdıran təbii inhisarçı subyektlərdən biri də "Azərsu" Açıq Səhmdar Cəmiyyətidir. Bu cəmiyyətin üzərinə əhalinin sağlam həyat şəraitinin təmin edilməsi və müəssisələrin texniki suya olan tələbatının ödənməsi ilə əlaqədar olan mühüm vəzifələr qoyulmuşdur. Su təchizatı sahəsində inhisarçı mövqe tutan "Azərsu" ASC-nin başlıca məqsədi Azərbaycan Respublikasının yaşayış məntəqələrində aidiyyəti üzrə sosial-iqtisadi sifarişlərin yerinə yetirilməsi və ictimai tələbatın ödənilməsi üçün məhsul istehsal etmək, iş yerinə yetirmək, xidmət göstərmək və mənfəət əldə etməkdir. [3]

"Azərsu" ASC-nin əsas funksiyaları respublika ərazisində su təchizatını və kanalizasiya xidmətini təşkil etmək məqsədi ilə tabeliyində olan müəssisələri idarə etmək, onların fəaliyyətini əlaqələndirmək və işinə nəzarət etməkdən, habelə bu sahədə dövlət siyasətinin həyata keçirilməsi barədə təkliflər işləyib hazırlamaqdan ibarətdir.

Respublikamızda su təchizatı və kanalizasiya xidmətlərinin göstərilməsində təbii inhisarçı mövqeyinə malik olan "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin tərkibinə daxil olan müəssisələr aşağıdakılardır: Bakı Su Kəməri İstismar İdarəsi; Bakı Kanalizasiya İdarəsi; Suölçmə Cihazlarının İstismar Təsərrüfatı və Su Satış Müəssisəsi; Kür Su Kəmərləri İstehsalat İstismar İdarəsi; Ceyranbatan Su Kəmərləri İstehsalat İstismar İdarəsi; Xaçmaz Su Kəmərləri İdarəsi; H.Z.Tağıyev adına Su Kəmərləri İdarəsi; Sanqaçal Su Kəmərləri İdarəsi; "Birləşmiş Sukanal" Məhdud Məsuliyyətli Cəmiyyət; "Gəncə Sukanal" Törəmə Səhmdar Cəmiyyəti; "Sumqayıt Sukanal" Törəmə Səhmdar Cəmiyyəti; "Göyçay Sukanal" Törəmə Səhmdar Cəmiyyəti; "Ağdaş Sukanal" Törəmə Səhmdar Cəmiyyəti; Avtonəqliyyat və Mexanizasiya Müəssisəsi; "Sukanal" Elmi-Tədqiqat və Layihə İnstitutu; İstehsalat və Texniki Komplektləşdirmə İdarəsi; "Sutikinti" Müəssisəsi; "Büllur" Poliqrafiya Müəssisəsi; "Babək İdman Sağlamlıq Mərkəzi və sair təşkilatlar.

"Azərsu ASC-nin təbii inhisarçı mövqeyinə malik olması ölkədə su təchizatı sisteminin genişləndirilməsinə və daha da inkişaf etdirilməsində şərait yaradan iri investisiya layihələrinin həyata keçirilməsinə imkan verir. Bu onun təbii inhisarçı subyekt rolunda çıxış etməsini daha da möhkəmləndirir. [4]

"Azal" Milli Aviaşirkəti Azərbaycan Respublikasının milli aviadaşıyıcısı kimi 1991-ci ildən fəaliyyət göstərir. Şirkətin əsas vəzifəsi uçuşların təhlükəsizliyi və müntəzimliyindən, beynəlxalq və milli bazarların sərnişin xidmətlərinə olan tələbatın uyğunlaşdırılmasından ibarətdir.

Aviaşirkət, AZALAVIA kimi İSAO-da üçtərəfli AHY kodu ilə, IATA-da ikitərəfli J2 və 771 kodları ilə qeyd alınmışdır. Aviaşirkətin təyyarələr parkı 4 ədəd Boinq – 757-200; 2 ədəd Boinq – 727-

200; 4 ədəd TU-154, 4 ədəd TU-134, 2 ədəd Yak-40, A-320 və AN 140-100 təyyarələrindən ibarətdir. Eləcə də park yeni A-319-100 tipli təyyarələrlə təchiz olunacaq. Aviaşirkət tərəfindən Bakıdan Parisə, Londona, İstanbula, Ankaraya, Tel-Əvivə, Trabzona, Dubaya, Tehrana, Moskvaya, Tiflisə, Kiyevə, Minovda, Aktauya, Kabilə, Urumçiyə və s. ölkələrə müntəzəm beynəlxalq reyslər, habelə Naxçıvan və Gəncə istiqamətində yerli reyslər həyata keçirilir.

Aviaşirkət Avropa və Asiyanın istənilən ölkəsinə çarter reyslərini həyata keçirməyə qabildir. Şirkətin mövcud reyslərinə biletləri Amedeus, Gabriel və Galileo sisteminin köməyi ilə qabaqcadan qeydiyyatdan keçirmək olar. aviaşirkət IATA, AFTN, SITA, OAG və İNNOVATA LATA CLEARİNG HOUSE sistemlərinin üzvüdür.

Müntəzəm olaraq beynəlxalq uçuş reyslərini hyata keçirmək üçün Aviaşirkət Aeroflotun (qarşılıqlı), Air France (yük, sərnişin), DELTA AİRLİNES (sərnişin), EMİRATES (sərnişin), EL AL İSRAEL (qarşılıqlı), İMAİR (qarşılıqlı), LAUDA AİR (sərnişin) CYRİAN AİR (sərnişin), SWISS AİR (qarşılıqlı), RHY (qarşılıqlı), TURAN AİR (qarşılıqlı), SİBİR, PULKOVO aviaşirkətləri ilə İNTERLİNE müqavilələri bağlamışdır.

Aviaşirkətlərin reysləri barədə məlumatların və aviabiletlərin əldə olunması aşağıda göstərilən nümayəndəliklərdə mümkündür: Bakıda, Ankarada, İstanbulda, Trabzonda, Londonda, Parisdə, Kiyevdə, Dubayda, Kabulda, Moskvada, Tiflisdə, Aktauda, Tehranda, Tel-Əvivdə və Urumçidə.

“Azal” Milli Aviasiya Şirkətinin vəzifələrinin yerinə yetirilməsində Heydər Əliyev adına Beynəlxalq Aeroportu, “Naxçıvan” Beynəlxalq Aeroportu, “Gəncə” Beynəlxalq Aeroportu, “Yevlax” Aeroportu, Bakı “Azalhelikopter” aviaşirkəti, “Zabrat” Aeroportu, “Azərbaycan Hava Yolları” Dövlət Konserinin Yük aviaşirkəti; “Azəraeronaviqasiya” Müəssisəsi, “Azal” Aviasiya – Texniki Mərkəzi MMC, “Azaloil” Müəssisəsi və digər funksional bölmələr, idarələr və eləcə də Milli Aviasiya Akademiyası yaxından iştirak edir.

“Azal” MAŞ-ın fəaliyyətində Heydər Əliyev Beynəlxalq Aeroportu xüsusi yer tutur. Heydər Əliyev Beynəlxalq Aeroportu Azərbaycan Respublikasının əsas hava qapısıdır. O, Bakı şəhərində 20 km aralıda cənub-şərqdə və Binə qəsəbəsindən cənub-qərb istiqamətində doğru 2 km-lik məsafədə yerləşir.

Aeroprt ən yeni texnika və avadanlıqlarla (eskalatorlar, hidravlik liftlər, teleskopik sərnişin trapları, baqajın işlənməsi sistemləri – 2 çıxış və qayıtma xətləri (transportyorlar), baxış monitorları, kompüterlə qeydiyyat avadanlıqları, havasərinlətmə sistemi, ventilyasiya və istilik təchizatı) təchiz olunmuşdur.

Aeroportun telefon rabitəsinin səmərəliliyinin artırılması məqsədilə beynəlxalq standartlara müvafiq olaraq İngiltərənin “AIRSYS ATM” firması tərəfindən yeni telefon stansiyası inşa edilmişdir. Heydər Əliyev adına Beynəlxalq Aeroportun aerodromu iki süni uçuş-enmə zolağı (SUEZ), üç yönəldici yol (NN) ilə təmin olunmuşdur. SUEZ-1 aşağıdakı parametrlərə malikdir: MK 335-155, uzunluğu 2700 metr, eni 60 metr, SUEZ 2-yə müvafiq olaraq MK 355-175, 3200 metr, 45 metr. SUEZ-nin səthi asfalt-betondur (bərk deyil). SUEZ A, B, C, D, E kateqoriyasından olan hava gəmilərinin və İCAO-nun müəyyən etdiyi minimuma əsasən bütün növdən olan helikopterlərin qəbul olunması üçün hazırlanmışdır. Aerodromda SUEZ-1 üçün AII, SUEZ-2 üçün YII-1 radioişıq texniki avadanlıqları quraşdırılmışdır. [5]

Bütün bunlar Aeroportun səmərəli xidmət göstərməsinə real şərait yaradır. Azərbaycanda dəmiryolu xidmətlərində təbii inhisarçı subyekt DÖvlət Dəmir Yolları İdarəsidir. Bu idarə həm dəmiryolu ilə sərnişin, həm də yük daşımaları funksiyalarının yerinə yetirilməsində inhisarçı mövqeyə malikdir. bu təbii inhisarçı subyektin tərkibində ixtisaslaşdırılmış aşağıdakı birliklər fəaliyyət göstərir: Daşıma Proseslərin İdarəetmə Birliyi; Sərnişin Daşıma İstehsalat Birliyi; Maddi-Texniki Təchizat Birliyi; Fəhlə Təchizatı Birliyi; Lokomotiv İstehsalat Birliyi; Vaqonservis İstehsalat Birliyi.

№ 1/2021                                        səh.4 - 10

Qeyd edilən birliklərlə yanaşı bir sıra xüsusi təyinatlı müəssisələr də fəaliyyət göstərir. Onlara dəmir-beton konstruksiyalar zavodu; Vaqon təmiri zavodu; Qırmadaş zavodu; Rels qaynaq qatarı; Baş su təchizatı və sanitar-texniki qurğuları distansiyası; Texniki-inzibati binaların istismarı müəssisəsi; Dəmiryolu nəqliyyat vasitələrinin təminatı müəssisəsi və sairə daxildir.

Istər ölkə daxilində, istərsə də ölkəmizin xarici ölkələrlə əlaqələrində yük və sərnişin daşımaları xidmətini göstərən Azərbaycan Dövlət Dəniz Yolları İdarəsinin inhisarçı mövqeyi get-gedə güclənir. Belə bir vəziyyətin yaranmasında iri dövlət proqramlarına daxil olan investisiya layihələrinin həyata keçirilməsinin müstəsna rolu vardır.

**Nəticə**

Aparılmış tədqiqatlar və statistik məlumatlar göstərir ki, Azərbaycan Respublikasında təbii inhisarçı subyekt kimi baxılan istehsal və xidmət sahələri çoxluq təşkil edir. Respublikamızın iqtisadiyyatında təbii inhisarçı mövqeyində çıxış edən sahələrə neft və qazçıxarma sənayesini, xidmətlərinin əhatə dairəsinə görə fərqlənən və diqqəti cəlb edən təbii inhisarçı xidmət sahələrindən biri olan su təchizatı sistemini nümunə göstərmək olar. Bazar iqtisadiyyatına keçid dövründə bu xidmət sahələrinin ölkənin iqtisadi böhrandan çılxarılmasında müstəsna xidməti olmuşdur. Həmin sahələrə investisiya qoyuluşunun təmin edilməsi vasitəsilə bu sahələr daha da möhkəmlənə bilmişdir. Respublikanın neft sərvətlərindən istifadəni vahid dövlət siyasəti əsasında həyata keçirmək, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirmək, yanacaq enerji kompleksinin inkişafını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 13.09.1992-ci il tarixli fərmanı ilə “Azərneft” Dövlət Konserinin və “Azərneftkimya” İstehsal Birliyinin bazasında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti yaradılmışdır.

**Tədqiqatın elmi yeniliyi: Aparılan tədqiqat işinin elmi yenililikləri** aşağıdakılardan ibarətdir:

-investisiya layihələrinin həyata keçirilməsinin labüdlüyü

-inhisar birliklərin səmərəliliyinin artırılması;

-Respublikanın neft sərvətlərindən istifadəni vahid dövlət siyasəti əsasında həyata keçirilməsi, neft sənayesinin idarəetmə strukturunun təkmilləşdirilməsi;

-Azərbaycan Respublikasının yaşayış məntəqələrində aidiyyəti üzrə sosial-iqtisadi sifarişlərin yerinə yetirilməsi və ictimai tələbatın ödənilməsi üçün məhsul istehsalınının təmin olunması;

-təsərrüfatçılıq subyektləri arasında həyata keçirilən iqtisadi münasibətlərdə inhisarçılığa və hədsiz rəqabətə yol verilməməsi;

## Ədəbiyyat


1. Qasımov F.H. “Azərbaycanda innovasiya fəaliyyəti və onun inkişaf perspektivləri. AMEA-nın xəbərləri. “Elm və innovasiya”, 2009, N1.
2. Hüseynova A.D. “İnnovasiya fəaliyyətinin informasiya təminatı”. AMEA Xəbərləri. “Elm və innovasiya”, 2009, N1.
3. P.Ə.Həsənova. “Azərbaycanın qeyri istehsal sahələrində təbii inhisarçılıq. Bakı, “Elm və təhsil”, 2011, 267 s.
4. P.Ə.Həsənova. “Azərbaycanda Təbii inhisarçılıq sferasında innovasiya fəaliyyəti. Bakı – Elm, 2010, 300 s.
5. P.Ə.Həsənova. “Təbii nhisarçılığın dövlət tənzimlənməsininqiymətsiz üsullarının inkişaf prinsipləri”. AMEA-nın “İqtisadiyyat xəbərləri”. 2010, N1.

**№ 1/2021** **səh.4 - 10**

**УДК 338.4**

## СУБЪЕКТЫ ЕСТЕСТВЕННОГО МОНОПОЛЬНОГО ПРОИЗВОДСТВА И ОБСЛУЖИВАНИЯ И ИХ РОЛЬ В ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ СТРАНЫ

**Гасанова Пари Амирхмед**
**Гаджиева Нушаба Аслан**

**Аннотация**

Как и во всех странах, Азербайджанская Республика обладает сферами естественных монополий в рыночной экономике. Области производства и обслуживания, которые считаются субъектами естественных монополий, составляют большинство. Существование таких сфер в течение определенного периода времени считается естественным и регулируется правовыми нормами. Они имеют естественную монопольную позицию, а удельный вес и положение этих сфер по-прежнему сильны. Рассматриваются и анализируются два основных типа естественной монополии: естественная монополия, вызванная необратимыми природными явлениями (климат, природные ресурсы, редкие материалы, местоположение); техническая и экономическая монополия, которая продиктована либо экономическими, либо экономическими причинами. Определены положительные и отрицательные черты естественной монополии. Раскрываются уставные обязательства субъектов естественных монополий. С монополией борются и создают здоровую конкурентную среду, чтобы сделать рыночную экономику более эффективной. Это рассматривается как одна из проблем в регулировании экономики государства.

**UDC 338.4**

## THE SUBJECTS OF NATURAL MONOPOLY PRODUCTION AND SERVICES AND THEIR ROLE IN THE ECONOMIC DEVELOPMENT OF THE COUNTRY

**Hasanova Pari Amirahmad**
**Hajıyeva Nushaba Aslan**

**Summary**

As in all countries, the Republic of Azerbaijan has spheres of natural monopolies in a market economy. The areas of production and services, which are considered subjects of natural monopolies, make up the majority. The existence of such areas for a certain period of time is considered natural and is regulated by legal norms. They have a natural monopoly position, and the specific gravity and position of these spheres are still strong. Two main types of natural monopoly are considered and analyzed: natural monopoly caused by irreversible natural phenomena (climate, natural resources, rare materials, location); technical and economic monopoly, which is dictated by either economic or economic reasons. The positive and negative features of the natural monopoly are determined. The article discloses the statutory obligations of natural monopolies. They fight the monopoly and create a healthy competitive environment in order to make the market economy more efficient. This is considered as one of the problems in regulating the state economy.

Redaksiyaya daxilolma 16.11.2020
Çapa qəbul olunma 05.06.2021

**№ 1/2021** **səh.11 - 15**

**UOT 657.01**

# SƏMƏRƏLİLİK MÜHÜM İQTİSADİ KATEQORİYA KİMİ

**Elay Cəlal oğlu Zeynallı**
**Azərbaycan Dövlət Aqrar Universiteti**
**Gəncə şəhəri, Atatürk pr.,450**
elayzeynalli@yahoo.com

**Xülasə.***Məqalə səmərəliliyin iqtisadi mahiyyətini, iqtisadi kateqoriya kimi onun kəmiyyət və keyfiyyət tərəfini, ona təsir edən amilləri öyrənir, səmərəliliyin qiymətləndirilməsinə olan klassik və müasir yanaşmaları tədqiq edir. Bundan əlavə səmərəlilik göstəriciləri, onun təsnifatına dair nəzəri yanaşmalara da məqalədə yer verilir.*

***Açar sözlər:****səmərə, səmərəlilik göstərici, təsnifat,klassik və müasir yanaşma*

Müasir dövrdə müəssisənin maliyyə təhlilində müəssisənin fəaliyyətinin təhlilizamanı təhlil olunan mühüm istiqamətlərdən biri də, heç şübhəsiz, onun fəaliyyətinin səmərəliliyinin təhlilidir. Səmərəlilik hazırkı multidisiplinar mühitdə əhəmiyyətli anlayış kimi insan fəaliyyətinin bütün sahələrində, müxtəlifelmlərdə,habelə sosial-iqtisadi formasiyalarda -bazar iqtisadiyyatı və inzibati amirlik sistemlərində istifadə olunan universal terminə çevrilmişdir. Fəaliyyətin müsbət olan nəticəsini, onun məqsədyönlüyünü xarakterizə edir ki, bu da bazar iqtisadiyyatında kəskin rəqabət mühitində fəaliyyət göstərən müəssisələr üçün mühüm amildir.

**Tədqiqatın məqsədi**. Səmərəliliyin iqtisadi mahiyyətini, təsir edən amilləri və onun qiymətləndirilməsinə olan elmi yanaşmaları öyrənmək, müasir iqtisadi konyunktura uyğunluğunu qiymətləndirməkdir.

**Tədqiqatın metodikası.** Tədqiqatda sistemli yanaşma, müqayisə, təhlil, qruplaşdırma və məntiqi ümumiləşdirmə üsullarından istifadə olunmuşdur.

## Materiallar və müzakirələr

Səmərəliliyin mahiyyətini tam dəqiqləşdirmək üçün səmərə və səmərəlilik anlayışlarını fərqləndirməkləbaşlamalıyıq. Səmərə müvafiq fəaliyyətə yönəldilmiş təşkilati-texniki, iqtisadi-sosial və digər tədbirlərin reallaşdırılması ilə əlaqədar meydana gələn fayda, müsbət nəticə olaraq xarakterizə edilir. [1, 533], [2, 205] Zənnimizcə, səmərəlilikisə səmərənin nəticə ölçüsü olaraq, xərc və nəticə arasındakı nisbət kimi fəaliyyətin, sahənin, regionun və ya bütövlükdə dövlətin iqtisadi inkişafının yekun və keyfiyyət göstəricisidir.

Səmərəlilik mürəkkəb iqtisadi kateqoriyadır və onu hər iki tərəfdən - keyfiyyət və kəmiyyətcə xarakterizə etmək olar. Keyfiyyət tərəfi onun məntiqi, məzmununu, kəmiyyət tərəfi isə müəssisənin fəaliyyətinin bütün mərhələlərini, o cümlədən baş verən prosesləri əhatə edir və qəbul edilən dəyişikliklərin dəyər meyarlarını əks etdirir.[3] Qəbul edilən qərarların dəyərinin kəmiyyət meyarlarının qurulmasının onun əsasını təşkil edir, təsərrüfat fəaliyyətinin maddi-struktur, funksional və sistemli xüsusiyyətlərinin formalaşdırılması üçün istifadə olunur. Beləliklə, müəssisənin fəaliyyətinin bütövlüyü, kompleksliyi, dinamikliyi və s. kimi ən mühüm xüsusiyyətləri səmərəlilik kateqoriyası vasitəsilə öz əksini tapır.

Sektorda müəssisələrin artması və rəqabətlilik, maliyyə bazarlarının inkişafı, maliyyələşmə mənbələrinə olan tələbat, müəssisənin fəaliyyəti, xərclərə nəzarət kimi amillərin fonunda fəaliyyətin səmərəliliyinin təhlilinin əhəmiyyəti durmadan artır. Bu zərurət isə onun təhlilinə və qiymətləndirilməsinə müxtəlif yanaşmaların yaranmasına gətirib çıxarır.

Bir çox yerli və xarici tədqiqatçılar səmərəliliyi istehsal çərçivəsində nəzərdən keçirir, maliyyə hesabatlarının məlumatlarına əsasən maliyyə-təsərrüfat fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı istehsal resurslarının istifadəsinin intensivləşdirilməsi göstəricilərinin (fondverimi, materialverimi, əmək məhsuldarlığı) və rentabelliyin təhlilini vurğulayır.Bununla əlaqədar olaraq, sənaye müəssisələrində səmərəliliyinqiymətləndirilməsinin əsas məqsədi istehsalın səmərəliliyinin artırılmasıdır. İstehsalın təşkili zamanı istehsalın fasiləsizliyi və müntəzəmliyi, texnologiyanın ardıcıllığı, resurs təminatının davamlılığı, əmək resurslarında istifadənin düzgün təşkil olunması, iş vaxtı fondundan səmərəli istifadə olunması və s.kimi bir sıra amilləri nəzərə almaq lazımdır.

O.V.Efimova maliyyə təhlili kontekstində səmərəliliyi rentabellik və dövriyyə göstəriciləri ilə,V.V.Kovalyev isəmüvafiq artım tempi və rentabellik də daxil olmaqla, kommersiya təşkilatının maliyyə resurslarından istifadə göstəriciləri ilə əlaqələndirir [4]. Belə ki, ayrı-ayrı məhsul növlərinin və ya bütövlükdə müəssisənin səmərəliliyini yalnız mütləq mənfəət dəyərindən istifadə etməklə xarakterizə etmək kifayət deyil, buna görə də rentabellik göstəricisindən istifadə olunur. Rentabellik məhsulun istehsalı və satışı ilə bağlı maddi-pul xərclərinin məbləğinə mənfəətin faiz nisbətini ifadə edir.

Qərb ədəbiyyatında isə səmərəlilik maliyyə aspektindən - aktivlərin dəyərinin dinamikası, xalis pul axınının miqdarı, xalis aktivlərin və investisiya kapitalının rentabelliyi üzrə qiymətləndirilir. Xüsusən, D.Kaplan və R.Nortonsəmərəliliyin təhlilində iki göstəriciyə investisiyaların rentabelliyi və şirkətin əlavə dəyərinə diqqət yetirir [5].

Göründüyü kimi iqtisadi ədəbiyyatda səmərəliliyin şərhi eyniyyət təşkil etmir. Qərb təcrübəsi ilə ənənəvi təcrübə arasındakı bu fərqi müəssisənin fəaliyyətinin istehsal və maliyyə potensialının vəhdətinə sistemli yanaşmadan yarandığını hesab edilir, istehsal fəaliyyətinin (səmərəliliyinin) maliyyə fəaliyyətini (səmərəliliyini) şərtləndirdiyi vurğulanır. [6, 49] Fikrimizcə, ənənəvi səmərəlilik göstəriciləri əsas təsərrüfat subyektinin dövlət olduğu planlı iqtisadiyyatın tədqiqi nəticəsində formalaşdığı üçün mövcud resurslardan daha intensiv istifadənin ön plana çıxdığını nəzərə alsaq, bu yanaşmalar arasındakı əsas fərq məhz maliyyə bazarlarının inkişafı, müəssisənin maliyyələşmə imkanlarının genişliyi və korporativ idarəetmə ilə əlaqələndirilməlidir.

Tədqiqatçıların yanaşmalarının fərqli olması səmərəliliyin növlərinin də müxtəlifliyinə gətirib çıxarmışdır. Belə ki, xarici mənbələr biznesin səmərəliliyini göstəriciləri baxımından fərqləndirir və onu fəaliyyət, iqtisadi və maliyyə səmərəliliyi göstəricilərinə görə ayırır. [6, 49] Yerli mənbələrdə isə səmərəlilik sosial-iqtisadi xüsusiyyətlərinə görə sosial və iqtisadi səmərəliliyə [7], yaxud funksional xarakterinə görə istehsal-texnoloji, istehsal-iqtisadi, sosial və ekoloji səmərəliliyə ayrılır. [8, 368] Zənnimizcə, iqtisadi ədəbiyyatda səmərəliliyin növləri mahiyyət etibarilə fərqləndirilsə də, nəticə etibarı ilə az resurs sərfi hesabına yüksək nəticələrə nail olmaq prinsipindən yayınmır.

İqtisadi səmərəliliyə təbii, texniki-texnoloji, təşkilati, sosial, iqtisadi və siyasi amillər təsir edir. [9] Bu amilləri birbaşa və dolayı amillərə ayırmaq mümkündür. Səmərəliliyə birbaşa təsir edən amillərə məhsulun (resursun, işin, xidmətin) kəmiyyət və keyfiyyəti, istehsal (maliyyə) bazasının səviyyəsi, mövcud texnologiyanın uyğunluğu və s. daxildir. Dolayı amillər isə insan və dövlət amili, biznesin xarici mühiti, innovasiya, R&D və s. daxil etmək olar.

Maliyyə təhlilində müəssisənin fəaliyyətinin nə dərəcədə səmərəli olduğunu qiymətləndirmək üçün müxtəlif göstəriciləri tətbiq olunur ki, bu göstəricilər həm tətbiq məqsədləri, həm də onların hesablanması

və interpretasiyası metodikası ilə fərqlənir. Səmərəlik göstəriciləri fəaliyyət nəticələrini əks etdirən indikatorlar, əvvəlcədən müəyyənləşdirilən mütləq, nisbi və dinamik inkişaf meyarlarıdır. Səmərəliliyin qiymətləndirilməsi üçün vahid metodika mövcud olmasa da, fikrimizcə, iki fərqli yanaşma (klassik və müasir yanaşma) hamılıqla qəbul edilmişdir.

Klassik yanaşma mahiyyəti etibarı ilə maliyyə, maddi-texniki və əmək ehtiyatları, kapital qoyuluşu ilə bağlı natural, dəyər artımı və istifadəsi ilə bağlıdır. Buragəlir, xərc, mənfəət kimi mütləq göstəricilərlə yanaşı, rentabellik, resurs və fondların istifadəsi iləbağlı verim, əmək məhsuldarlığı kimi nisbi göstəricilər aiddir. N.A.Kazakova maliyyə, fəaliyyət və iqtisadi göstəricilərə ayırır. Hasilat, istehsal vətəchizathəcmi, əsas fondların xaricolma və yenilənmə əmsalları, fondların yaş strukturu ilə bağlı göstəriciləri fəaliyyət, əmək məhsuldarlığı,fondverimi, material verimi, istehsal gücündən istifadə göstəricilərini iqtisadi göstəricilərə aid edir. [6, 49] Nəticə etibarı ilə, bu göstəricilər müəssisənin fəaliyyəti dövründə istehsal və maliyyə potensialına baş verən dəyişikliklərin təsvirini özündə ehtiva edən göstəricilərdir.

Kəsik rəqabət mühiti ilə seçilən bazar iqtisadiyyatında fəaliyyət səmərəliliyini yalnız istehsal və maliyyə göstəriciləri əlaqələndirilərək müəyyən olunması, müəssisənin bazar iqtisadiyyatının digər rəqabət amillərindən özünü təcrid etməsi deməkdir. Məhz müasir yanaşmanın da kökündə bu məntiq dayanır. Belə ki, müəssisəninfəaliyyətinin səmərliliyini təhlil edərkən nəzərə alınacaq amillər yalnız rentabellik və qiymət siyasəti ilə bağlı göstəricilər yanaşı, bir sıra qeyri-maliyyə göstəriciləri də təhlil edilməlidir. Maliyyə hesabatlarının müştəri məmnuniyyətindən, sədaqətindən, marka dəyərindən, işçi heyətinin bacarıq və təcrübəsindən, müəssisənin strategiya və missiyasından, sosial vəzifələrindən kənarda şərhi mühasibat hesabları arasındakı riyazi əlaqəni izah etməkdən o tərəfə keçmir. Başda D.Kaplan və R.Norton olmaqla bir çox qərb tədqiqatçıları bu yanaşmanın tərəfdarı kimi öz nəzəriyyələrini elmə gətirmişdir.

İqtisadi ədəbiyyatda səmərəlilik göstəriciləri ümumi və xüsusi səmərəlilik göstəricilərinə ayrılır.Ümumi göstəricilər adında da göründüyü kimi müəssisənin fəaliyyətinin ümumi səmərəliliyini əks etdirir, buraya rentabellik göstəriciləri aid edilir. Xüsusi göstəricilər isə əsas fondlar, əmək və maliyyə resurslarının istifadə səviyyəsini, tərkibini və hərəkətini əks etdirən göstəricilərdir[10].

Müəssisənin fəaliyyətinin səmərəlilik göstəricisi kimi rentabellik, beynəlxalq təcrübədə satışların, aktivlərin və kapitalın rentabelliyi əsasında qiymətləndirilir.Qərb praktikasında,həmçinin xalis aktivlərin (RONA), cəlb edilmiş kapitalın (ROCE) və investisiya olunmuş kapitalın (ROİC) rentabelliyi əmsalları da istifadə olunur. Fikrimizcə, bu əmsallar müvafiq olaraq aktivlərin və kapitalın rentabelliyi əmsallarının həssaslaşdırılmış növləridir, aralarında ciddi məzmun fərqi yoxdur.

Xüsusi səmərəlilik göstəriciləri müəssisənin fəaliyyətinin korrekt istiqaməti üzrə əsas amillərinin səmərəliliyini xarakterizə edir. Zənnimizcə, bu göstəriciləri üç qrupda ümumiləşdirə bilərik - əsas fondlar və material resurslarının istifadəsinin səmərəlilik göstəriciləri, əmək resurslarının istifadəsinin səmərəlilik göstəriciləri və fond birjasında fəaliyyətin səmərəlilik göstəriciləri.

Əsas fondlardan istifadənin səmərəliliyinin qiymətləndirilməsində fonverimi, fondtutumu və əməyin fondla silahlanması əmsalları istifadə olunur.

Əmək resurslarından istifadənin səmərəliliyi əmək məhsuldarlığı, əməkverimi və iş vaxtından səmərəli istifadə göstəricisi əsasında müəyyən edilir.

Müəssisənin fond birjasındakı fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi üçün də xüsusi səmərəlilik göstəricilər vardır ki, bu göstəricilərə səhmə düşən mənfəət, divident gəliri və divident hasilatı əmsalları aiddir.

Qərb təcrübəsində aparıcı şirkətləri tərəfindən idarəetmə sahəsində inteqrasiya edilmiş maliyyə göstəricisinə - şirkətin dəyərinə əsaslanan VBM (ValueBasedManagement) konsepsiyası dəyərin

yaradılmasına yönəlmiş səmərəlilikgöstəriciləri intensiv şəkildə istifadə olunur. Bu zaman maliyyə göstəricilərindən istifadəsinə əsaslanan qiymətləndirmə əvəzinə, qiymətin yaranmasını əks etdirən bazar dəyəri göstəricilərinə əsaslanan qiymətləndirmə daha çox istifadə olunur.VBM konsepsiyasında iki qrup üsul müəyyən edilə bilər.Bir qrup, bazar əlavə dəyəri (MVA), iqtisadi əlavə dəyər (EVA) kimi maliyyə yönümlü göstəricilərə malikdir. Metodların ikinci qrupuna qeyri-maliyyə göstəricilərini də nəzərə alan BSC balanslaşdırılmış göstəricilər sistemini metodlar daxildir.

EVA modeli şirkətin mənfəətinin əldə edilməsi üçün istifadə olunan resursların dəyərinin hansı dərəcədə ödədiyini göstərir. EVA konsepsiyasını diqqət çəkən məqamı biznes məqsədinin mənfəətin maksimuma çatdırılması yox, şirkətin bazar dəyərinin maksimuma çatdırılmasıdır. MVA isə biznes menecerlərinin fəaliyyəti nəticəsində səhmdar kapitalının nominal dəyərinin nə qədər dəyişdiyini göstərir.

## Nəticə

İqtisadi səmərəlilik iqtisad elminin mürəkkəb kateqoriyası kimi insanın əməli fəaliyyətinin bütün sahələrini, istehsalın bütün mərhələlərini əhatə edir, müəssisənin maliyyə, maddi və əmək ehtiyatlarından istifadə səviyyəsinə, yüksək maliyyə nəticələrinə nail olmaq üçün vasitədir. Kəskin rəqabət şəraitində səmərəlilik yalnız təhrif olunma ehtimalı yüksək olan maliyyə göstəriciləri ilə yox, həm də müştəri məmnuniyyəti və sadiqliyi, kadr potensialı kimi qeyri-maliyyə göstəriciləri ilə də müəyyən olunur. Digər tərəfdən isə maliyyə göstəricilərinin təkmilləşdirilməsi prosesi baş verir ki, bu zamanda bilavasitə daxili informasiyalar hesabına formalaşmış göstəricilərdən başqa, bazardakı uğurlu fəaliyyətinə əsaslanan və makroiqtisadi hadisələrin fonunda müəyyənləşdirilən göstəricilərin öyrənilməsi iqtisad elmi üçün getdikcə daha aktual bir məsələyə çevrilir.

**Tədqiqatın elmi yeniliyi.**Səmərəliliyə iqtisadi kateqoriya kimi müxtəlif tədqiqatçılar tərəfindən formalaşdırılmış nəzəri yanaşmaların, göstəriciləri sistemi və onun təsnifat meyarlarının sistemləşdirilməsi.

**Tədqiqatın praktiki əhəmiyyəti.**Səmərəliliyin, onun meyar və göstəricilərinin qiymətləndirilməsinin öyrənilməsi.

## Ədəbiyyat

1. İbrahimov İ.H. Aqrar sahənin iqtisadiyyatı. Bakı: NBS - 2016, 655 s
2. Hüseynov T.Ə. Müəssisənin iqtisadiyyatı. – Bakı: Azərnəşr -2005, 560 s.
3. Оборина О.Е. Экономическаяэффективность: понятие и сущность// М:Молодой ученый. — 2020. № 23 (313). — С. 427-429
4. KnyazevaE., Shapoval E. Efficiency of theenterprise, and factorsaffecting it// Vestnik universiteta.-2018.№2, p. 112-115
5. Chavan M. Thebalancedscorecard: A newchallenge// Journal of ManagementDevelopment -2009, Vol. 28 No. 5,p.393-406
6. Казакова, Н. А. Финансовыйанализ в 2 ч. Часть 1 : учебник и практикумдлявузов. Москва: ИздательствоЮрайт-2020 - 297 с.
7. Sadıqov R.F. İdarəetmədə iqtisadi səmərəlilik göstəriciləri// Bakı: Audit-2016. № 2 – s.127-129
8. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi/ prof. İ.Ş.Qarayev [və b.] –Bakı: “İqtisad Universiteti” Nəşriyyatı – 2011 -522 s.
9. İbrahimov İ.H. Aqrar sferada istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi yollari// Bakı: Audit-2015. № 4 – s.32-35

10. Абдукаримов И.Т., Тен Н.В. Эффективность и финансовые результаты хозяйственной деятельности предприятия: критерии и показателииххарактеризующие, методикаоценки и анализа// М: Актуальныевопросыэкономики и управления -2011, № 5-6–с.11-21

**UDC 657.01**

**Efficiency as an important economic category**

**ZeynalliElay Jalal**

**Summary**

The article studies the economic nature of efficiency, its quantitative and qualitative aspects as an economic category, the factors that affect it, explores classical and modern approaches to efficiency assessment. In addition, the article provides theoretical approaches to efficiency indicators and their classification.

**Key words:**efficiency, efficiencyindicator, classification, classical and modern approach

**УДК 657.01**

**Эффективность как важная экономическая категория**

**Зейналлы Элай Джалал оглы**

**Резюме**

В статье исследуется экономическая природа эффективности, ее количественные и качественные аспекты как экономической категории, факторы, влияющие на нее, исследуются классические и современные подходы к оценке эффективности. Кроме того, в статье представлены теоретические подходы к показателям эффективности и их классификации.

**Ключевыеслова:**эффективность, показательэффективности, классификация, классический и современныйподход.

Redaksiyaya daxilolma 19.12.2020
Çapa qəbul olunma 05.06.2021

**№ 1/2021** **səh.16 - 23**

**UOT 331.5**

# MƏŞĞULLUQ STRATEGİYASININ STRATEJİ HƏDƏFLƏRİNİN REGİONLARIN İQTİSADİ İNKİŞAFINA TƏSİRİ

**Həsənova Sevda Əli qızı**
**Bakı Avrasiya Universiteti**
**Bakı şəhəri, Ak. Həsən Əliyev küçəsi, 135A**
**sevda.hesenova.73@mail.ru**

***Xülasə:*** Müasir dövrümüzdə Azərbaycan Respublikasında uğurla həyata keçirilən islahatlar regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə əsaslı təkan vermişdir. Görülmüş tədbirlər dövlətin ölkədə yoxsulluğun və işsizliyin səviyyəsinin minimuma endirilməsinə, məşğulluğun səmərəliliyinin artırılmasına, yeni iş yerlərinin açılmasına və vətəndaşların maddi rifah halının yaxşılaşdırılmasına yönəldilən sosial-iqtisadi siyasətidir. Məqalədə davamlı iqtisadi inkişafa nail olmaq istiqamətində qəbul olunmuş Azərbaycan Respublikasının Məşğulluq Strategiyasında ölkədə və Gəncə-Qazax iqtisadi rayonunda məşğulluğun tənzimlənməsi, işsizliyin səviyyəsinin aşağı salınması istiqamətində ardıcıl olaraq həyata keçirilən tədbirlər təhlil edilmişdir. Nəticə olaraq qeyd olunmuşdur ki, dövlət proqramları çərçivəsində məşğulluğun və işsizliyin təmin olunması 2030-cu il və ondan sonrakı dövrlər üçün də qurulacaq iqtisadiyyatın təməllərinin inkişafına imkan yaradır. Yekunda təhlildən əldə olunan nəticələr öz əksini tapmışdır.

***Açar sözlər: Məşğulluq strategiyası, strateji hədəflər, milli iqtisadiyyatın perspektivi, innovasiya fəallığı, məşğulluq imkanı, insan kapitalı, investisiya, sosial-iqtisadi inkişaf.***

**Giriş:** Ölkəmizdə davamlı sosial-iqtisadi inkişafın təmin olunması istiqamətində qəbul olunmuş Azərbaycan Respublikasının Məşğulluq Strategiyası uğurlu icrası müstəsna əhəmiyyət kəsb edir. 2004-cü ildən başlayarq bu günkü günə kimi həyata keçirilən Dövlət Proqramları regionlarda əsaslı dəyişikliklər etmiş, sosial-iqtisadi inkişaf potensialının gücləndirilməsinə, investisiya mühitinin genişləndirilməsinə, turizmin inkişafının təmin olunmasına, infrastrukturun inkişaf etdirilməsinə, məşğulluğun səviyyəsinin artırılmasına, insan resurslarının inkişaf etdirilməsinə, əhalinin rifahının yüksəlməsinə və ekoloji təhlükəsizliyin güclənməsinə şərait yaratmışdır. Son illərdə Azərbaycan Respublikasında əmək bazarı siyasəti əlverişli beynəlxalq iqtisadi meyllər, tələbə əsaslanan makroiqtisadi idarəetmə və əhəmiyyətli nəticələr əldə etmək üçün bir araya gələn məşğulluq məsələsinə siyasi yanaşma şəraitində inkişaf etmişdir. İnnovativ inkişafla iqtisadiyyatın modernləşdirilməsi ixtisaslı kadrlara tələbatı formalaşdırmış, yüksək məhsuldarlıq və layiqli əməkhaqqı ilə səciyyələnən səmərəli iş yerlərinin yaradılması ilə nəticələnmişdir. Əhalinin məşğulluğu və insan kapitalının inkişafı istiqamətində aparılan məqsədyönlü dövlət siyasəti məşğulluq sahəsində dövlət siyasətinin səmərəliliyinin artırılmasını, sahibkarlıq imkanlarının genişləndirilməsini, əmək bazarında işçi qüvvəsinin keyfiyyətini müasir iqtisadiyyatın tələblərinə uyğunlaşdırılmasını, rəqabətə davamlı kadr potensialının formalaşdırılmasını, gənc işçilərin və mütəxəssislərin sosial müdafiəsinin gücləndirilməsinə istiqamətləndirilən tədbirlərin həyata keçirilməsini, inklüziv məşğulluğun stimullaşdırılmasını təmin etmişdir.

**Mövzunun aktuallığı:** Ölkədə davamlı iqtisadi artımın təmin edilməsi və iqtisadiyyatın innovasiyanın keçid şərtlərinə adekvat olması üçün əmək bazarının inkişafı mühüm dövlət prioritetlərindən hesab olunur. Uzunmüddətli inkişaf məqsədlərinə nail olmaq üçün insan kapitalının keyfiyyətinin yüksəldilməsinə, əmək bazarı institutlarının inkişafına və onun fəaliyyətinin səmərəliliyinin

artırılmasına yönəlmiş tədbirlərin həyata keçirilməsi tələb olunur. Əhalinin məşğulluğu sahəsində ən aktual vəzifələrdən biri beynəlxalq təcrübə nəzərə alınmaqla əmək bazarının idarə edilməsinə yeni yanaşmaların araşdırılması, əhalinin səmərəli məşğulluğunun təmin edilməsi üçün sosial tərəfdaşlığın bütün tərəflərinin məsuliyyətinin artırılması və iş axtarışında çətinlik çəkən vətəndaşların işlə təmin olunmasına yardımın göstərilməsindən ibarətdir. Bu baxımdan mövzunun araşdırılması və təkmilləşdirmə istiqamətində təkliflərin verilməsi aktuallıq kəsb edir.

**Tədqiqatın məqsədi:** Tədqiqatın aparılmasında məqsəd dövlət siyasətinin prioritet istiqamətlərindən olan məşğulluq strategiyasının strateji hədəflərinin ölkəmizin, həmçinin Gəncə-Qazax iqtisadi rayonunun sosial-iqtisadi inkişafına təsirinin müəyyənləşdirilməsi və bu istiqamətdə təkmilləşdirici təkliflərin verilməsindən ibarətdir.

**Tədqiqat obyekti:** Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının strategi hədəfləri və regionların sosial-iqtisadi inkişafı.

**Tədqiqat metodları:**Tədqiqatın əsasını yerli və xarici iqtisadçı-alimlərin bu sahədə apardıqları tədqiqatlar, Azərbaycan Respublikasının Prezidentinin Fərman və sərəncamları, Dövlət Statistika Komitəsinin, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin materialları təşkil edir.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

Məşğulluğun qorunması, inkişaf etdirilməsi və profilaktikasına kömək məqsədi ilə məşğulluq sahəsində milli və yerli siyasətin müəyyən edilməsi işçi qüvvəsinin planlaşdırılması, işədüzəltmə xidmətləri və özəl məşğulluq xidmətlərində əmək qabiliyyətli əhalinin səmərəli məşğulluğunun təmin edilməsi istiqamətində fəaliyyəti əhatə edir. Məşğulluq sahəsində milli strategiyanın müəyyən edilməsi bu sahəsində milli siyasətin yaradılmasına kömək etmək, ölkədə məşğulluğun qorunması, inkişafı və yayılması üzrə tədbirləri müəyyən etmək, işsizliyin qarşısını almaq və tövsiyələr vermək məqsədi daşıyır. Yerli məşğulluq siyasətinin müəyyən edilməsi regionlarda işçi qüvvəsinə, məşğulluğa və peşə təhsilinə olan tələbatın təhlil edilməsini, peşə təhsili və məşğulluq məsələlərində səmərəliliyin artırılması məqsədilə yerli səviyyədə siyasətin işlənib hazırlanmasını qarşıya qoyur. Müasir dövrdə təhsil-əmək münasibətlərinin inkişaf etdirilməsi, əmək bazarının ehtiyacları çərçivəsində tədqiqatların aparılması, insan resurslarının davamlı inkişaf strategiyasının hazırlanması prioritet məsələlər hesab edilir [2, s.97-98]. Məşğulluq üzrə milli strategiyanın müəyyənləşdirilməsi ölkədə məşğulluq sahəsində məqsədlərə nail olmaq istiqamətində praktiki kompleks planın hazırlanması və tətbiqini əhatə edir. Məşğulluq sahəsində problemlərin getdikcə daha da mürəkkəbləşməsi baxımından ölkələrin bu siyasətə ehtiyacı vardır. Demoqrafik tendensiyaların əmək bazarına təsiri, insanların kənd təsərrüfatı sektorundan iri şəhərlərdə istehsal və xidmət sahələrinə keçməsi ilə əlaqədar problemlər, işləyənlərin sosial və hüquqi müdafiələrindəki boşluqlar, əməkhaqqının bərabərsizliyi problemləri, qeyri-rəsmi məşğulluğun inkişaf etməkdə olan dünyada hələ də mövcud olması bu sahənin təkmilləşdirilməsini aktual edir. İşləyənlərin iqtisadi artımdan daha az fayda əldə etmələri nəticəsində getdikcə daha çox işçinin işləyən yoxsullar kateqoriyasına düşməsi problemləri yaranır [4, s.12-13]. İnsanların zəif inkişaf edən rayonlardan inkişaf etmiş şəhər və rayonlara miqrasiyası nəticəsində regionların inkişafı ilə bağlı fərqlər kəskinləşir. Bəzi rayonlar daha çox gəlir əldə edir və əhalinin rifah səviyyəsi yüksəlir. İşçi qüvvəsinin inkişaf etmiş regionlara axını yerli regional inkişafa mane olur. Nəticədə, həmin bölgələrin kapital yığımı da miqrasiya edir. Zamanla işçi qüvvəsini itirən bölgələr rəqabət qabiliyyətini də itirir [2, s.82-83]. Ölkənin regionlarının iqtisadi inkişafı investisiya siyasətinin stimullaşdırılması, iş yerlərinin yaradılması siyasəti, kiçik biznesə dəstək, özünüməşğulluğun genişləndirilməsi, inzibati maneələrin azaldılması və s. sahələrdə tətbiq edilən təşəbbüslərdən və ugurlu nəticələrdən asılıdır [5, s.14]. Ölkədə məşğulluq strategiyasının

hədəflərinin müəyyənləşdirilməsində məqsəd əvvəlki dövrlərlə müqayisədə daha fəal əmək bazarı formalaşdırmaqdır. İşsizlərin gəlirlərinə dəstək vermək deyil, əsas diqqəti onların işsiz qalmasına imkan verməyən tədbirlərin gücləndirilməsinə yönəltməkdir. Bu məqsədlərə nail olmaq üçün işədüzəltmə imkanlarının genişləndirilməsi, yəni iş axtaranların bacarıqlarının artırılması (karyera üçün təhsil), müəssisə və əməkdaşların yeni texnologiyalara və dəyişən bazar şəraitinə uyğunlaşdırılması, sosial tərəflərlə işin müasir və çevik formalarının inkişaf etdirilməsi, əmək müqavilələrinin yeni növlərinin qəbul edilməsi və fərdi şəxslər, şirkətlər üçün gələcəkdə təhsilin cəlbediciliyinin stimullaşdırılması prioritet məsələlərdən olmalıdır. İş axtararkən sağlamlıq imkanları məhdud olan insanların, qadınların peşələrə və fəal əmək proqramlarına çıxışını asanlaşdıracaq tədbirlərin həyata keçirilməsi problemi diqqətdə saxlanılmalıdır [3, s.35-36]. Məşğulluq sahəsində dövlətin regional siyasəti mobillik və bacarıqların inkişafına yönəldilməlidir. Azərbaycanda da dövlətin sosial-iqtisadi siyasətinin əsasını davamlı iqtisadi tərəqqinin təmin edilməsi məqsədilə insan kapitalının inkişaf etdirilməsi təşkil etmişdir. Ölkə üzrə əhalinin səmərəli məşğulluğunun təmin edilməsi, regionlarda sahibkarlıq subyektlərinin fəaliyyətinin genişləndirilməsi, rəqabətqaqbiliyyətli işçi qüvvəsinin formalaşdırılması, layiqli əməyin dəstəklənməsi istiqamətində dövlət proqramları qəbul edilmişdir. 2005-ci ildə "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006–2015-ci illər)"nın tətbiqinin nəticəsi olaraq ölkədə məşğulluq sahəsindəki problemləri qismən aradan qaldırmışdır. Lakin, ölkənin demoqrafik inkişaf perspektivləri nəzərə alınmaqla əmək bazarının mövcud problemləri, bu istiqamətdə qabaqlayıcı tədbirlərin görülməsini labüd etmişdir. 6 dekabr 2016-cı il tarixində təsdiq edilmiş iqtisadiyyatın əsas sahələrini əhatə edən strateji yol xəritələri, həmçinin "2016–2020-ci illər üzrə Azərbaycan üçün Layiqli Əmək Ölkə Proqramı" və s. strategiyalar və sosialyönümlü dövlət proqramları ölkəmizdə həyata keçirilən məşğulluq siyasətinin istiqamətlərindən olmuşdur [1,s.2]. İqtisadi prioritetlərdən irəli gələn uzunmüddətli səmərəli məşğulluq siyasətinin formalaşması məqsədilə "2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" təsdiq edilmişdir. Qəbul edilmiş strategiyanın hədəf və prioritet istiqamətləri müəyyənləşdirilmişdir. Strategiyada 15 il müddətində ölkədə 1,96 milyon iş yerinin yaradıldığı qeyd edilmişdir. Yaradılmış iş yerlərinin 73,3%-i daimi iş yerləri olmuşdur ki, bunun da 70%-i məhz regionların payına düşmüşdür [1,s.3]. Ölkədə layiqli və məhsuldar əməyi təmin etməklə məşğulluq siyasətini ekstensiv mərhələdən intensiv mərhələyə keçidini təmin etmək məşğulluq strategiyasının hədəflərindən olmuşdur. Hədəfə nail olmağın əsas istiqaməti kimi təhsilin bütün pillələri üzrə keyfiyyətin artırılması məqsədilə təlimlər vasitəsilə işçilərin bilik və bacariqlarının inkişaf etdirilməsi göstərilmişdir. Həmçinin əmək bazarının tələblərinə cavab verən bütün peşələr üzrə peşə standartlarının hazırlanması öz əksini tapmışdır. Məşğulluq strategiyasının qarşıya qoyduğu 2030-cu ilədək Regional Peşə Mərkəzlərinin sayının artırılmasının nəticəsi olaraq, 2019-cu ildə Gəncə şəhərində 55-60 peşə üzrə tədrisi aparılacaq, 850-900 nəfərin peşə hazırlığı keçəcəyi Peşə Tədris Mərkəzi yaradılmışdır. Mərkəz Gəncə və ətraf rayonlarda işsiz və iş axtaran vətəndaşların peşə bacarıqlarının formalaşdırılması və ya artırılması istiqamətində işsiz əhalinin səmərəli məşğulluq imkanları əldə etmələrinə xidmət göstərmişdir. Məşğulluq strategiyasının hədəflərinə çatmaq, regionlarda səmərəliliyi artırmaq məqsədilə 2020-ci ildə ölkə üzrə 22 Ərazi Məşğulluq Mərkəzləri yaradılmışdır. Dövlət Məşğulluq xidmətlərinə müraciyət edən vətəndaşların peşə hazırlığı kurslarına cəlb edilməsi strateji hədəflərdən olmuşdur. Məşğulluqyönümlü iqtisadi siyasətin dəstəklənməsi istiqamətində kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi, regionlara daxili və xarici investisiya axıcılığının təmin edilməsi dövlətin siyasətinin strateji hədəflərindən olmuşdur. Uyğun olaraq 2018-ci ildə ölkə Prezidentinin Sərəncamı əsasında "2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nın 2019–2025-ci illəri əhatə edən Tədbirlər Planının layihəsi hazırlanmışdır. 2019-cu ildən başlayaraq dünyanı bürümüş COVİD-19 pandemiyasının davam etdiyi

2020-ci ildə də iş yerlərinin bağlanılması və ya fəaliyyətini müvəqqəti dayandırması nəticəsində ölkəmizdə işsizlik probleminin aktuallaşması baş vermişdir. Lakin buna baxmayaraq Azərbaycanın ən böyük rayonlarından olan Şəmkir rayonunda iqtisadiyyatın sənaye, tikinti, kənd təsərrüfatı, rabitə, nəqliyyat, ticarət və xidmət sahələrində inkişaf müşahidə olunmuşdur. Sahibkarlığa Kömək Milli Fondu tərəfindən rayonda 67 milyon 355 min 410 manat həcmində güzəştli kredit vasitəsilə 1135 layihə həyata keçirilmişdir ki, bunun da nəticəsində 3805 yeni iş yerləri yaradılmışdır. 2020-ci ilin ikinci yarım ilində daha 66 min manat həcmində güzəştli kredit cəlb etməklə 4 layihə reallaşdırılaraq 4 yeni iş yeri yaradılmışdır. 2020-ci ilin 6 ayı ərzində Şəmkir rayonunda ümumi məhsul buraxılışı 2019-cu illə müqayisədə 11.4% çox olmaqla, 434 milyon 415 min manat, adambaşına düşən ümumi məhsul buraxılışı isə 1974 manat təşkil etmişdir. Ümumi məhsul buraxılışının 32 milyon 757 min manatı sənaye məhsullarının payına düşmüşdür ki, bu da əvvəlki illə müqayisədə 16.6% çoxdur. 275 milyon 764 min manatını kənd təsərrüfatı istehsalı məhsulları təşkil etmişdir ki, bu da əvvəlki ilə nisbətən 26.4% çoxdur. 70 milyon 537 min manat isə ticarət xidmətlərinin həcmi təşkil etmişdir. 2020-ci ilin ilk yarım ilində Şəmkir rayonu büdcəyə 9.94 milyon manat vergi və tədiyyələr ödəmişdir ki, bu da nəzərdə tutulan məbləğdən 1 milyon 7 min 500 manat artıq vəsaitdir. Beləliklə, Şəmkir rayonu büdcənin proqnoz göstəricisi 111,3% yerinə yetirmişdir. Gəncə şəhəri üzrə iqtisadi artım 26,5%, Goranboy rayonunda 26,9%, Tovuz rayonunda 8,7%, Şəmkirdə 2,6%, Ağstafa rayonunda 1,2%, Samux rayonunda 0,5%, təşkil etmişdir [6]. Lakin pandemiyanın nəticəsi olaraq bəzi rayonlarda iqtisadi geriləmələr də baş vermişdir. Gədəbəy rayonunda 7,6%, Daşkəsəndə 8,3%, Qazax rayonunda 10,3%, Göygöldə 13,0%, Naftalan şəhərində isə 37,5% iqtisadi geriləmə baş vermişdir. 2020-ci ildə Gəncə-Qazax iqtisadi rayonuna daxil olan şəhər və rayonlar üzrə əsas kapitala yatırılan investisiyaların həcmi diaqram 20-də təsvir olunmuşdur.




**Diaqram. Rayonlarda əsas kapitala yatırılan investisiyaların həcmi, min manat**
Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

Əsas kapitala yatırılan investisiyaların həcmi regionların iqtisadi durumunu təyin edən əsas göstəricilərdəndir. Eyni zamanda bu göstərici regionun əhalisi, ərazisi və iqtisadi quruluşu ilə də bağlıdır. Həmçinin rayonlar üzrə əsas kapitala yönəldilən investisiyaların həcmi regionlarda biznes və özəl sektorun fəaliyyətinin vəziyyəti haqda fikir söyləməyə imkan yaradır. Diaqram 20-də nəzər saldıqda görünür ki, 2020-ci ildə Gəncə şəhərində əsas kapitala yatırılan investisiyaların həcmi 85679 min manat,

№ 1/2021 səh.16 - 23

Şəmkir 54199 min manat, Qazax 35252 min manat, Ağstafa 33577 min manat, Tovuz 30719 min manat, Goranboy 16550 min manat, Göygöl 15165 min manat, Daşkəsən 7010 min manat, Gədəbəy rayonu üzrə 5000 min manat, Samux 3425 min manat, Naftalan şəhərində isə 1077 min manat təşkil etmişdir. Göstəricilərdən də məlum olur ki, 2020-ci ildə ən çox investisiya Gəncə şəhərinə, ən az investisiya isə Samux rayonuna yatırılmışdır[7]. Əsas kapitala yönəldilən investisiyaların nəticəsi olaraq Gəncə-Qazax iqtisadi rayonu üzrə mühüm əhəmiyyətli obyektlər istifadəyə verilmişdir. Şəmkir rayonunda "Şəmkirşay" Sutəmizləyici Qurğular Kompleksi, Ağstafa rayonunda Aqrar Sənaye Kompleksi, Qazax və Tovuz rayonlarında "Azərxalça" ASC-nin filialı fəaliyyət göstərmişdir ki, bu da regionda yeni iş yerlərinin yaradılmasına şərait yaratmışdır [7].

Azərbaycanda 2020-ci ilin yanvar- mart ayları ərzində əsas kapitala 2929.4 milyon manat investisiya yatırılmışdır. Bu da 2019-cu ilin uyğun dövründə əsas kapitala yönəldilən vəsaitdən 6,5% çox olmuşdur. Məşğulluq strategiyasının prioritet istiqamətlərindən olan mikro, kiçik və makro sahibkarlıq fəaliyyətinin dəstəklənməsi tədbirləri nəticəsində 2019-cu ildə iqtisadi rayon üzrə sahibkarlıq subyektlərinin statistikasının təhlilicədvəl 2-də təsvir edilmişdir.




**Cədvəl . Gəncə-Qazax iqtisadi rayonu üzrə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin bölgüsü, 2019-cu il.**

Təhlildən aydın olur ki, həmin ildə fəaliyyət göstərən 24825 sahibkarlıq subyektinin 98,2%-ni mikro sahibkarlıq, 1,2%-ni kiçik, 0,65%-ni isə orta sahibkarlıq subyekti təşkil etmişdir.İqtisadi rayon üzrə ən çox investisiya mikro sahibkarlıq fəaliyyəti üzrə yatırılmışdır. Nəticədə regionda yeni iş yerləri yaradılmışdır ki, bu da öz növbəsində əhalinin məşğulluq səviyyəsinə müsbət təsir göstərmişdir.

**Nəticə**

Tədqiqat nəticəsində aydın olur ki, regional dövlət proqramları ölkə iqtisadiyyatında mühüm prioritetə çevrilən əsas inkişaf istiqamətlərinin reallaşdırılmasını sürətləndirir. Yalnız infrastrukturun irimiqyaslı inkişafı və daxili investisiyaların cəlb edilməsi yolu ilə regional inkişafa tam nail olmaq

mümkün deyildir. Bunun üçün eyni zamanda iqtisadi potensialdan lazımınca istifadə edilməsi və sosial həmrəyliyin gücləndirilməsi siyasətinin həyata keçirilməsi vacib şərtlərdəndir. Ölkəmizdə uğurla həyata keçirilən iqtisadi siyasət dövlətimizin iqtisadi qüdrətini daha da artırmaqla bərabər regionların da sosial-iqtisadi durumuna, infrastrukturunun inkişafına güclü təsir göstərir.

**Tədqiqatın elmi yeniliyi:** Aparılan tədqiqat işinin elmi yenilikləri aşağıdakılardan ibarətdir:

- Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının strateji hədəfləri təhlil edilərək müvafiq ümumiləşdirmələr aparılmışdır;
- strateji hədəflərin regionların sosial-iqtisadi inkişafına göstərdiyi təsir müəyyən edilmişdir;
- təhsil-əmək münasibətlərinin inkişaf etdirilməsinin təkmilləşdirilməsi istiqamətləri əsaslandırılmışdır;
- əmək bazarının ehtiyacları çərçivəsində tədqiqatların aparılması və insan resurslarının davamlı inkişaf strategiyasının hazırlanmasının əhəmiyyəti göstərilmişdir;
- Gəncə-Qazax iqtisadi rayonu üzrə əsas kapitala yatırılan investisiyaların həcmi təhlil edilmiş və müvafiq ümumiləşdirmələr aparılmışdır;
- məşğulluq strategiyasının prioritet istiqamətlərindən olan mikro, kiçik və makro sahibkarlıq fəaliyyətinin dəstəklənməsi tədbirlərinin iqtisadi inkişafa təsiri əsaslandırılmışdır;

**Tədqiqat işinin əhəmiyyəti:** Regionlarda əmək ehtiyatlarından səmərəli istifadə etməklə məşğulluğun təmin edilməsi istiqamətində məşğulluq strategiyasının hədəflərinin həyata küçirilməsiəhalinin məşğulluğunun təminatı, işsiz və işaxtaran vətəndaşların sosial müdafiəsi sahəsində aparılan dövlət siyasətinin və məşğulluq xidmətlərinin fəaaliyyətinin təkmilləşməsinə xidmət edir.Strategiya eyni zamanda bu sahədə innovativ yanaşmaların tətbiqi ilə səmərəli iş mexanizmlərinin formalaşdırılmasına, aktiv əmək bazarı proqramlarının genişləndirilməsinə istiqamət verir. Regionların inkişafını eyni səviyyəyə gətirmək və onların davamlı inkişafına nail olmaq Azərbaycan Respublikasında qəbul edilmiş strategiyanın vacib məsələlərindəndir. Ölkə iqtisadiyyatının neft sektorundan asılılığını azaltmaq, bununla yanaşı ölkənin mövcud iqtisadi potensialından səmərəli istifadəyə nail olunması üçün qeyri-neft sahəsinin inkişfı ön plana çəkilmişdir. Bunun üçün də regionların iqtisadi və sosial inkişafına istiqamətlənmiş tədbirlərin maliyyə təminatının artırılması diqqət mərkəzində olmalıdır. Milli işçi qüvvəsinin rəqabətqabiliyyətliliyi artırılmalı, ixtisaslı kadr potensialı inkişaf etdirilməlidir.. Əmək ehtiyatlarının əsas hissəsi paytaxt Bakıda və Abşeron yarmadasında cəmlənmişdir. Bu həm ölkənin iqtisadi inkişafına mənfi təsir göstərir, həm də regionların inkişafına zərbə vurur. Belə halda əmək qüvvələrinin də coğrafi bölgüsündə bərabərsizlik get-gedə daha da dərinləşir. Ona görə də əmək ehtiyatları regionlar üzrə düzgün bölüşdürülməlidir. Regionlarda investisiya cəlb ediciliyinin artırılması məqsədilə investorlar üçün münbit şərait yaradılmalıdır. Əgər investorların hüquq bərabərliyi təmin edilərsə daha çox sosial-iqtisadi səmərə əldə etmək olar. Regionlar üzrə resurs potensialını nəzərə alaraq məhsul istehsalı ilə məşğul olan müəssisələrin yaradılması da məqsədə uyğun hesab edilə bilər. Sosial-məişət infrastrukturlu obyektlərin tikilməsi regionlarda iş yerlərinin artmasını və eyni zamanda həmin məhsullara tələbatının ödənilməsini təmin edər.

**Tədqiqat işinin iqtisadi səmərəsi:** Regionlarda davamlı iqtisadi tərəqqiyə yalnız məşğulluq və sosial siyasət sahəsində qarşılıqlı tədbirlər kompleksinin həyata keçirilməsi nəticəsində nail olmaq mümkündür. Məşğulluğun qorunması və stimullaşdırılması məqsədilə əmək tutumlu sahələrə birbaşa maliyə dəstəyinin göstərilməsi, Dövlət Məşğulluq Xidməti tərəfindən həyata keçirilən əmək bazarının tələblərinə uyğun peşəkar hazırlıq proqramlarının davamlı icrası regionların iqtisadi artıma nail olmağa imkan verər. Regionlar üzrə tarazlaşdırılmış inkişaf modeli tətbiq etməklə, regionun ənənəvi və

müqayisəli üstünlüklərə malik olduğu mövcud sektorlarda məhsuldarlığın, rəqabətqabiliyyətliliyin və məşğulluğun səviyyəsini artırmaqla, əlavə dəyərlə yeni sahələrə diversifikasiyanı təşviq etməklə, iqtisadiyyatın "yaşıllaşdırılması" siyasətini icra etməklə iqtisadi inkişafa nail olmaq mümkündür.

## ƏDƏBİYYAT

1. “2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası”, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir, 11s.
2. Yahya Kulaksız, “Türkiyede bölgesel gelişmişlik farkları, istihdam ve kurum hizmetlerinin çeşitlendirilmesi”, Ankara 2008, 120s.
3. Mehmet Rauf Kesici, Ahmet Selamoğlu, “Genel hatlarıyla Avrupa istihdam stratejisi ve geçirdiği dönüşüm”, “İş, Güç” Endüstri İlişkileri ve İnsan Kaynakları Dergisi Cilt:7 Sayı:2, Haziran 2005)
4. “Национальная политика в сфере занятости”, Руководство для представительных организаций работников, Международная организация труда, 2015, 218s.
5. “Стратегия развития рынка труда и занятости в условиях инновационной экономики в Росии», Материалы конференции, организованной Министерством здравоохранения и социального развития Российской Федерации и Международной организацией труда Москва, 15 сентября 2011 г, 73s.
6. https://fed.az/az/regionlar
7. https://www/stat.gov.az

**УДК331.5**

# ВЛИЯНИЕ СТРАТЕГИЧЕСКИХ ЦЕЛЕЙ СТРАТЕГИИ ЗАНЯТОСТИ НА ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ РЕГИОНОВ

**Гасанова С.А.**

**Бакинский Евразийский Университет**

***Ключевые слова:*** стратегия занятости, стратегические цели, перспектива, инновационная деятельности, занятость, возможность трудоустройства, человеческий капитал, инвестиции, социально-экономическое развитие.

В современные времена реформы, успешно реализованные в Азербайджанской Республике, дали фундаментальный импульс для ускорения социально-экономического развития регионов. Предпринятые меры являются социально-экономической политикой, направленной на минимизацию нищеты и безработицы в стране, повысить эффективность трудоустройства и улучшения новых рабочих мест и улучшение благополучия граждан. В статье проанализирована деятельность в области трудоустройства Азербайджанской Республики, принятой в стратегии трудоустройства Азербайджанской Республики в области занятости в стране и экономическом регионе Гянджа-Газах, который последовательно реализуется на уровне безработицы страны. В результате отмечается, что предоставление трудоустройства и безработицы в государственных программах позволяет разработать основы экономики для создания в 2030 году и на другие периоды. В заключении отражены результаты, полученные из анализа.

№ 1/2021 səh.16 - 23

UDC331.5

**THE IMPACT OF THE STRATEGIC GOALS OF THE EMPLOYMENT STRATEGY ON ECONOMIC DEVELOPMENT OF THE REGION**

**Hasanova S.A.**

**Summary**

In modern times of reform, successfully implemented in the Republic of Azerbaijan, gave a fundamental impetus to accelerate the socio-economic development of the regions. The measures taken are socio-economic policies aimed at minimizing poverty and unemployment in the country, improve the efficiency of employment and improving new jobs and improving the well-being of citizens. The article analyzes the employment activities of the Republic of Azerbaijan, adopted in the employment strategy of the Azerbaijan Republic in the field of employment in the country and the economic region of Ganja Gazakh, which is consistently implemented at the level of unemployment of the country. As a result, it is noted that the provision of employment and unemployment in government programs allows you to develop the foundations of the economy to create in 2030 and for other periods. The conclusion reflects the results obtained from the analysis.

***Keywords:*** employment strategy, strategic goals, perspective, innovation, employment, employment opportunity, human capital, investment, socio-economic development.

Redaksiyaya daxilolma 11.12.2020
Çapa qəbul olunma 05.06.2021

№ 1/2021 səh.24- 30

UOT339.33

# ECONOMIC ASSESSMENT OF "GREEN ENERGY" POTENTIAL IN THE LIBERATED TERRITORIES OF AZERBAIJAN

*Nargiz Uzeyir Hajiyeva*

**International relations manager, International Cooperation Department**
**Political Science and Sociology lecturer, International School of Economics (ISE)**
**Azerbaijan State University of Economics (UNEC), Baku, Azerbaijan**
**nargiz_hajiyeva@unec.edu.az**

***Abstract:****The article mainly scrutinizesthe economic opportunities of renewable energy resources in the liberated territories of Azerbaijan. During the 30-year occupation of Nagorno-Karabakh and its surrounding areas, energy resources in these regions were illegally exploited by Armenia. Thus, it is not accidental that in the post-liberation period, high priority is placed on the establishment of a "green energy" zone in the territories. At present, the prevailing source of electricity generation in the world is traditional energy sources. In this regard, the ever-increasing energy demand in the world accelerates the nation-states to gradually switch to green energy. As in many countries, the production of electricity from renewable energy sources continues to grow. The production and effective use of renewable energy resourcesare in the focus of state attention in Nagorno-Karabakh and seven adjacent regions. Therefore, ensuring harmony in the gradual use of renewable and traditional energy resources will play a crucial role in the socio-economic development, environmental sustainability, and energy security of the country. The economic analysis related to the potential of renewable energy and the creation of a "green energy" area in these regions is conducted in the paper.*

***Keywords:*** *Azerbaijan, energy security, green energy, Nagorno-Karabakh, post-liberation period, renewable energy resources.*

## 1. Introduction

The reduction in oil and gas reserves, as well as production decline in Azerbaijan in the future, compels Azerbaijan to draw attention to renewable energy resources, in addition to,undertake an appropriate action plan developed and implemented in this area. As a result, one of the essential aspects of the energy security strategy for achieving socio-economic stability in the country is the stability and efficacy of energy resources. In this regard, Azerbaijan should therefore make efficient use of its existing or conventional energy resources while also fostering the development of renewable energy resources (RES).One of the most pressing issues confronting Armenia today is the country's inability to meet its energy demands. The liberated countries' power resources were instrumental in meeting the energy needs of Armenia. The loss of most of these resources creates further energy needs glitches leading to higher energy imports and increased domestic energy prices.As a result, household electricity prices have risen since February 1, 2021. The rise in prices is worsening Armenia's economic and social situation. Furthermore, Armenia's inability to pursue an independent energy policy makes the energy sector vulnerable to external shocks, exacerbating the situation in the Armenian energy sector. [1]

On December 5, 2019, order No 1673 "on measures to implement pilot projects in the use of renewable energy sources" was signed in Azerbaijan. As a result, it should be noted that Azerbaijan has launched a new large-scale campaign in the field of renewable energy since 2019. [2] The fact that the

№ 1/2021 səh.24- 30

country's electricity sector will gain more power and kilowatts in the coming years eliminates any doubt that it will meet the country's growing demand for electricity on the one hand while increasing exports on the other.The country's goal is to increase the share of renewable energy sources in electricity production to 30%. [3] A favorable investment climate has been created in Azerbaijan as a result of the decrees, as in other areas of energy, in the use of renewable energy sources, consistent measures are being taken to attract private investment and implement large-scale projects.According to the Ministries of Economy and Energy, discussions are currently underway with investors to attract private investment in the use of renewable energy sources to create a "green energy" zone following the liberation of these lands. Moreover, international organizations have positively assessed calls for the establishment of a "green energy" zone in Nagorno-Karabakh and surrounding areas, and interest in cooperation in this region has also been expressed. [4] Hence, Azerbaijan's liberated territories would become "green energy" zones, with new opportunities for the sustainable development of these regions.

## 2. Materials and Methods

It is no coincidence that Azerbaijan places a high value on the establishment of a "green energy" zone, particularly in Nagorno-Karabakh and its surrounding districts. Thus, on 3 May 2021, Azerbaijan's President, IlhamAliyev, signed an order establishing a "green energy" zone after the liberation of these territories from Armenian occupation during the Second Karabakh War.The Energy Ministry of Azerbaijan and the Japanese TEPSCO company signed an agreement to establish a "green energy" zone in the country's liberated territories. According to the project, it is planned to develop energy-efficient technologies based on modern energy management approaches to effectively use renewable energy potential such as wind, solar, hydro, geothermal, and bio-energy in Azerbaijan's liberated territories. The project also envisionsresearching international experience, regional energy demand, and power supply, as well as network integration of renewable energy resources.[5] The company founded in 1960, has completed projects in over 90 countries, and has international experience in the field of "green energy", providing "green solutions" as part of "smart city" projects in Japan, Vietnam, Malaysia, Indonesia, Brazil, and Thailand. In addition, the company has also been involved in the implementation of a number of projects in Azerbaijan, including consulting services in the project for the construction of the "Shimal-1" and "Shimal-2" power plants, field analysis of the energy sector, and others in Azerbaijan. [6]

Although traditional energy sources are currently the world's dominant source of electricity generation, electricity generation from renewable energy sources is increasing in many countries. The production of this type of energy is also a hot topic in the country. The creation of a green zone or "green space" concept in Nagorno-Karabakh and its surrounding regions, which will cover the use of renewable energy sources, energy efficiency, environmentally friendly technologies, including the use of vehicles, and other issues, is currently underway. Discussions with the International Renewable Energy Agency in this direction have been in the spotlight. According to the International Energy Agency, global renewable energy production will increase by 50% by 2024 compared to 2018. [7]Azerbaijan also has a great potential for using renewable energy. Taking into account the potential of the country's renewable energy sources, the goal is to increase renewable energy's share of total investment capacity to 30% by 2030. [3]

The availability of renewable energy potential is a crucial element of green energy zones. Karabakh and its environs are abundant in solar and wind energy. More than 4,000 megawatts of solar energy potential and around 500 megawatts of wind energy potential are estimated to be available in the

**№ 1/2021** **səh.24- 30**



**Picture 1.** Layout view of solar power plants (SPP) in the Nagorno-Karabakh region.

territories. Small hydropower plant inventories have also begun. Around 20 such stations have become inoperable during the occupation, according to preliminary data. In addition, clear-cut measures are already being taken to begin the process of identifying renewable energy sources and sites in all other liberated lands, in parallel with the construction of hydropower plants. As a result, the liberated lands will be designated as a "green energy" zone in the coming future. Wind energy has broad potential in the Kalbajar and Lachin regions, and solar power in Zangilan and Jabrayil. There are large areas in Karabakh's mountainous region with an average annual wind speed of 7-8 meters per second at an altitude of 100 meters.The average annual wind speed in the Kalbajar and Lachin regions, bordering Armenia, exceeds 10 meters per second. The southern part of the Karabakh plain - Fuzuli, Jabrayil, and Zangilan regions - ranks second after the territory of Nakhchivan AR in terms of solar radiation falling on the earth's surface. The solar radiation falling on a horizontal surface of one square meter here constitutes 1600-1700 kWh per year. [8]

Furthermore, Karabakh accounts for 25% of Azerbaijan's local water resources, the prospects of using the rivers namely Tartar, Bazarchay, Hakari, and their creeks for electricity generation are being considered. Along with this, the Kalbajar region has 3,093 m3 / day thermal water reserves and Shusha has 412 $m^3$ / day thermal water reserves. Following the liberation of those areas, the possibility of using thermal sources for energy is also being investigated.Coal reserves are also present in the Karabakh region. Thus, the Chardagli village of the Tartar region possesses 8.5 million tons of coal reserves. [8]

In a nutshell, Azerbaijan tries to catch the global trend of transitioning to a "green" economy on the fly. Despite the country's continued reliance on the oil factor for state revenues, the country is content to steer its future economic and energy policy in a "green" direction.Therefore, improving energy security, developing decentralized power grids, reducingthe share of power outages, and diversifying energy sources provide and accelerate access to energy for Azerbaijani residents and remote locations in these territories.

## 3. Discussion and results

The oil and gas sector has long dominated Azerbaijan's economy, and this trend is likely to last in the near future. However, new laws and model agreements are now being drafted, which will provide a clear

**Table 1.**The renewable energy supply of Azerbaijan between 2015-2019, thousand TOE.

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| **Total energy supply** | **15 569,4** | **15 393,5** | **15 471,9** | **15 556,1** | **17 041,9** |
| **from those:** | | | | | |
| **Hydropower** | 140,8 | 168,5 | 150,2 | 152,0 | 134,6 |
| **Share of hydropower in total energy consumption, in percent** | 0,9 | 1,1 | 1,0 | 1,0 | 0,8 |
| **Biomass and waste** | 160,7 | 100,8 | 102,4 | 110,7 | 115,9 |
| **Share of biomass and waste in total energy consumption, in percent** | 1,0 | 0,7 | 0,7 | 0,7 | 0,7 |
| **Wind power** | 0,4 | 2,0 | 1,9 | 7,1 | 9,1 |
| **Share of wind power in total energy consumption, in percent** | 0,0 | 0,0 | 0,0 | 0,1 | 0,1 |
| **Solar (photovoltaic) power** | 0,4 | 3,0 | 3,2 | 3,4 | 3,8 |
| **Share of solar power (photovoltaic) in total energy consumption, in percent** | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 |
| **Total renewable energy supply** | 302,3 | 274,3 | 257,7 | 273,2 | 263,4 |
| **Share of total renewable energy supply in total energy consumption, in percent** | 1,9 | 1,8 | 1,7 | 1,8 | 1,6 |

**Source:**State Statistical Committee of the Republic of Azerbaijan.[9]

№ 1/2021 səh.24- 30

According to the Dentons publication "Investing in renewable energy projects in Europe", Dentons' Guide 2021, eight territories with high solar potential are being explored by Azerbaijani authorities in the Kalbajar, Lachin, Gubadli, Zangilan, Jabrayil, and Fuzuli regions, with the wind power potential of the first two also being assessed. The Dentons 2021 guide also highlighted that Azerbaijan's Ministry of Energy currently estimates a potential RES capacity of 3,000 MW for wind, 23,040 MW for solar, 380 MW for biomass, and 520 MW for small hydropower. Azerbaijan's strategic priority in the coming years is to rebuild damaged energy infrastructure and significantly increase its wind and solar energy capabilities. [10]

## 4. Conclusion

To summarize, the practice, known as "green energy" is common throughout the world and thought to be successful in Azerbaijan. To achieve it, some preparations should be made in the country, such as determining the characteristics of the technical connection of households to electricity networks, developing a mechanism for selling unused energy, and keeping commercial records. Besides, complex preparations are required, such as determining the characteristics of the technical connection of households to the electricity grid, improving the mechanism of selling unused surplus energy, and maintaining commercial records. Simultaneously, it is necessary to calculate the maximum amount of electricity that each house, residential complex, or social facility can contribute to production.

Transforming Nagorno-Karabakh and seven adjacent regions into a green energy zone will, first and foremost, diversify the country's energy production sources. The transition to inexhaustible energy will also reduce the number of carbon emissions into the atmosphere and ensure environmental sustainability. In addition, it will save natural gas, which is the core source of electricity generation. Saving natural gas will have a positive impact on increasing the country's foreign exchange earnings by expanding export opportunities. Renewable energy sources can also meet the energy needs of areas where natural gas extraction is technically impossible or economically inefficient. Given the high mountainous terrain of the Kalbajar and Lachin districts, the use of renewable energy sources would be more efficient. The establishment of a green energy zone will also help to increase employment. The advancement of renewable energy sources is also essential for the sustainability of Azerbaijan's power system.Thus, the attraction of new investments in liberated territories, as well as the use of renewable energy potential, will play a vital role in Azerbaijan's international recognition as a green energy country.

## ƏDƏBİYYAT

1. Center of Analysis of International Relations, The situation in the energy sector of Armenia and its economic and political aspects, (2021). Available at https://aircenter.az/uploads/files/tehlil%20enerji%20problemleri.pdf

2. Order of the President of the Republic of Azerbaijan on measures to implement pilot projects in the use of renewable energy sources, (2019). Available at https://president.az/articles/35117

3. IRENA, Renewable Readiness Assessment of the Republic of Azerbaijan, (2019). Available at https://www.irena.org/-/media/Files/IRENA/Agency/Publication/2019/Dec/IRENA_RRA_Azerbaijan_2019.PDF

4. Ministry of Energy of the Republic of Azerbaijan, Joint information of the Ministries of Economy and Energy, (2021). Available at https://minenergy.gov.az/en/xeberler-arxivi/iqtisadiyyat-ve-energetika-nazirliklerinin-birge-melumati

№ 1/2021 səh.24- 30

5. Ministry of Energy of the Republic of Azerbaijan,Ministry of Energy signs contract with the Japanese company, (2021). Available at https://minenergy.gov.az/en/xeberler-arxivi/energetika-nazirliyi-yaponiya-sirketi-ile-muqavile-imzalayib
6. Azerbaijan, Japan ink deal on green energy zone in liberated territories, (2021). Available at https://www.azernews.az/business/178701.html
7.International Energy Agency, Renewables 2019, (2019). Available at https://www.iea.org/reports/renewables-2019
8. Ministry of Energy of the Republic of Azerbaijan, Energy potential of Nagorno-Karabakh and neighboring regions (2020). Available at https://minenergy.gov.az/az/xeberler-arxivi/dagliq-qarabag-ve-etraf-regionlarin-enerji-potensiali
9. State Statistical Committee of the Republic of Azerbaijan, Renewable energy supply of Azerbaijan (2019). Available at https://www.stat.gov.az/source/balance_fuel/?lang=en
10. Investing in renewable energy projects in Europe. Dentons' Guide 2021, (2021). Available at file:///C:/Users/User/Downloads/Dentons_%20Guide%20to%20Investing%20in%20renewable%20energy%20projects%20in%20Europe%202021.PDF

**УДК339. 33**

## ЭКОНОМИЧЕСКАЯ ОЦЕНКА ПОТЕНЦИАЛА “ЗЕЛЕНОЙ ЭНЕРГИИ” НА ОСВОБОЖДЕННЫХ ТЕРРИТОРИЯХ АЗЕРБАЙДЖАНА

**Наргиз ГаджиеваУзеир кызы**

**Резюме**

В статье в основном исследуются экономические возможности, которые возобновляемые источники энергии могут предоставить на освобожденных территориях Азербайджана. Во время 30-летней оккупации Нагорного Карабаха и его окрестностей энергетические ресурсы в этих регионах незаконно эксплуатировались Арменией. Таким образом, не случайно в послевоенный период большое внимание уделяется созданию на территориях зоны «зеленой энергетики». В настоящее время преобладающим источником производства электроэнергии в мире являются традиционные источники энергии. В статье проводится экономический анализ, связанный с потенциалом возобновляемых источников энергии и созданием зоны «зеленой энергии» в этих регионах.

***Ключевые слова:*** Азербайджан, энергетическая безопасность, зеленая энергия, Нагорный Карабах, послевоенный период, возобновляемые источники энергии.

**UOT339.33**

## AZƏRBAYCANIN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNDƏ “YAŞIL ENERJİ” POTENSİALININ İQTİSADİ DƏYƏRLƏNDİRİLMƏSİ

**Nərgiz Hacıyeva Üzeyir qızı**

**Xülasə**

***Açar sözlər:*** *Azərbaycan, enerji təhlükəsizliyi, yaşıl enerji, Dağlıq Qarabağ, müharibədən sonrakı dövr, bərpa olunan enerji mənbələri*

Məqalədə Azərbaycanın azad olunmuş ərazilərindəbərpa olunan enerji mənbələrinin təmin edə biləcəyi iqtisadi imkanlar araşdırılır. Dağlıq Qarabağ və ətraf regionların 30 illik işğalı zamanı bu

bölgələrdəki enerji mənbələri Ermənistan tərəfindən qanunsuz istismara məruz qalmışdır. Beləliklə, sözügedən ərazilərin işğaldan azad olunduğu sonrakı dövrdə bu ərazilərdə "yaşıl enerji" zonasının yaradılmasına böyük üstünlük verilməsi təsadüfi deyil. Hazırda dünyada elektrik enerjisi istehsalının hakim mənbəyi ənənəvi enerji mənbələridir. Məqalədə bərpa olunanenerji potensialı və bu bölgələrdə "yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar iqtisadi təhlil aparılmışdır.

Redaksiyaya daxilolma 22.02.2021
Çapa qəbul olunma 05.06.2021

**№ 1/2021** **səh.31- 36**

**UOT 334.722**

# ÖZƏL SAHİBKARLIQ İQTİSADİ İNKİŞAFIN ƏSAS VASİTƏSİ KİMİ

**Rəhimov Kənan Kamal oğlu**
**Gəncə Dövlət Universiteti**
**H. Əliyev prospekti - 187**
**Kanan.ragimov.95@inbox.ru**

**Xülasə:***Özəl sahibkarlıq iqtisadi inkişaf prioritetlərinin müəyyənləşdirilməsinin əsas vasitələrindən hesab edilir. Çünki özəl subyektlər iqtisadiyyatın inkişaf istiqamətlərini optimallaşdırmaq üçün böyük potensiala malikdir. Özəl sahibkarlıq subyektləri rəqabət mühitini inkişaf etdirməklə istehsal və istehlak sektorunun genişlənməsini təmin edir, istehsal resurslarından daha səmərəli istifadəyə zəmin yaradır. Bunlar iqtisadiyyatın rasional göstəricilərini yüksəltmək üçün ən vacib amillər olaraq qəbul edilir. Ona görə iqtisadi siyasətin prioritetləri sırasında iqtisadi inkişafı sürətləndirməyə xidmət edən özəl sahibkarlığın genişləndirilməsi tədbirləri xüsusi yer tutur.*

**Açar sözlər:***sahibkarlıq, potensial, məşğulluq, gəlir, rəqabət, şaxələndirmə.*

**Giriş.** Özəl sahibkarlıq iqtisadiyyatın və bütövlükdə cəmiyyətin inkişaf istiqamətlərini optimallaşdırmaq üçün böyük potensiala malik olmaqla, iqtisadi inkişaf prioritetlərinin müəyyənləşdirilməsinin əsas vasitələrindən hesab edilir. Xüsusilə qlobal iqtisadiyyatda baş verən kəskin dəyişikliklər şəraitində özəl sahibkarlıq subyektlərinin fəaliyyəti ölkə iqtisadiyyatının əsas müdafiəçisi rolunu oynayır. Özəl sahibkarlıq subyektlərinin xarakterik xüsusiyyəti bütün növ ehtiyatlardan istifadənin yüksək intensivliyi və optimallaşdırılması, mövcud şərtlər daxilində ən rasional nisbətin təmin edilməsi kimi mühüm fəaliyyətlərlə müşayət olunur. Ümumiyyətlə, özəl sahibkarlıq iqtisadi inkişafın, əhalinin məşğulluğunun və gəlirlərin artımının ən vacib amillərdən biridir. Özəl sahibkarlıq subyektləri ölkə iqtisadiyyatının şaxələndirilməsində də mühüm rol oynayır. Beləliklə, özəl müəssisələr bütövlükdə iqtisadiyyatın bərpası üçün əlverişli şərait yaradır, o cümlədən rəqabət mühitini inkişaf etdirir, daxili bazarın əmtəə və xidmətlərə olan tələbatını ödəməklə yanaşı idxalın ixracla əvəzlənməsində bilavasitə iştirak edir, istehlak sektorunun genişlənməsini təmin edir və onun dinamik şəkildə dəyişməsinə zəmin yaradır, istehsal resurslarından daha səmərəli istifadəni təmin edir və s. Qeyd edilənlər bütövlükdə iqtisadiyyatın rasional göstəricilərini yüksəltmək üçün ən vacib amillər olaraq qəbul edilir.

**Mövzunun aktuallığı.**Araşdırmalar göstərir ki, özəl sahibkarlığın inkişafı güclü hüquq normalarının və mülkiyyət hüquqlarının təminatı sistemini formalaşdırması, bu əsasda dövlətin iqtisadi və sosial dəstəyinə əsaslanan geniş özəl mülkiyyətçi təbəqəsinin yaradılması vasitəsi ilə mümkündür. Bu baxımdan özəl sahibkarlığı daha da inkişaf etdirmək, görüləcək tədbirləri təkmilləşdirmək üçün aşağıdakı istiqamətlərə xüsusi diqqət yetirmək vacib şərtlərdəndir:

- özəl sahibkarlığın səmərəli fəaliyyət göstərməsi üçün problemlərin öyrənilməsi, vaxtında aşkara çıxarılması və aradan qaldırılması;
- özəl sahibkarlıq subyektlərinin səmərəli fəaliyyəti üçün zəruri infrastrukturun formalaşdırılması;
- özəl sahibkarlıq sahəsində daha effektiv stimullaşdırıcı şəraitin yaradılması məqsədi ilə hər bir ərazinin özünəməxsus xüsusiyyətlərinin müəyyənləşdirilməsi və bu əsasda mövcud ehtiyatların müəyyən edilməsi;
- biznes mühitini inkişaf etdirmək üçün mövcud imkanların müəyyən edilməsi;
- elmin qabaqcıl nailiyyətlərinə əsaslanan özəl biznes və özəl sahibkarlığın inkişafının təşviq edilməsi [4, s.58];

№ 1/2021 səh.31- 36

- özəl sahibkarlığın xarici iqtisadi fəaliyyət sahəsindəki iştirakının genişləndirilməsi;
- özəl sahibkarlıq subyektlərinin güzəştli şərtlərlə maliyyələşdirilməsinin təmin edilməsi;
- özəl sahibkarlığın həm daxili, həm də xarici bazarlarda rəqabət qabiliyyətli məhsullar təklif edən və özəl müəssisələrin rəqabətə davamlı subyektlərə çevrilməsi üçün zəruri dövlət dəstəyinin həyata keçirilməsi.

Göstərilənlər özəl sahibkarlığın iqtisadi inkişafdakı əhəmiyyətini və bu problemin aktuallığını təsdiq edir.

**Tədqiqatın məqsədi.**Tədqiqatın məqsədi iqtisadi inkişafda mühüm rol oynayan özəl sahibkarlığın elmi və praktiki aspektlərini araşdırılmaqdan, bu sahədə mövcud vəziyyəti təhlil etməklə özəl sahibkarlıq subyektlərinin inkişaf istiqamətlərini müəyyənləşdirməkdən ibarətdir.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

Özəl sahibkarlığın inkişafı insanların tələbatlarını ödəməyə xidmət etməklə cəmiyyətdəki iqtisadi və sosial vəziyyətin normallaşmasına töhfə verən mühüm fəaliyyət sferasıdır. Özəl sahibkarlıq bazarın zəruri istehlak məhsulları və xidmətləri ilə təmin olunmasına xidmət etməklə yanaşı, əhalinin əsas gəlir mənbəyi hesab edilir. Ona görə dövlət özəl sahibkarlığın inkişafında maraqlı olmaqla bu istiqamətdə davamlı olaraq zəruri tədbirlər həyata keçirir. Təsadüfi deyil ki, ölkəmizdə mövcud qanuvericilik sənədləri çərçivəsində sahibkarlığa dövlət köməyi “qanunvericilik, inzibati-hüquq, büdcə, vergi və pul-kredit sistemləri vasitəsi ilə tənzimlənir. Sahibkarlığın sürətli inkişafını təmin etmək üçün dövlət sahibkarlıq fəaliyyətinin öncül istiqamətlərini və buna müvafiq olaraq güzəştlər sistemini müəyyənləşdirir. Dövlət sahibkarlığa kömək məqsədi ilə informasiya, məsləhət, elm və tədris mərkəzləri, maliyyə fondları yaradır, vergi ödənişlərinin, Azərbaycan Respublikası Mərkəzi Bankı ssudalarının faizlərinin, amortizasiya ayırmalarının güzəştli dərəcələrini və vergi tutulmayan digər ayırmaları müəyyənləşdirir” [1].

Nəzərdə tutulan və reallaşdırılan bu cür tədbirlərin nəticəsidir ki, sahibkarlıq subyektlərinin strukturunda son illər özəl sahibkarlığın xüsusi çəkisi artmaqdadır. Belə ki, araşdırmalar nəticəsində məlum olur ki, 2019-cu ildə ölkə iqtisadiyyatında fəaliyyət göstərən sahibkarlıq subyektlərində fərdi sahibkarların payı 88,5% təşkil etmişdir. İqtisadi fəaliyyət və mülkiyyət növləri üzrə fəaliyyətdə olan sahibkarlıq subyektlərinin sayında xüsusi mülkiyyətdə olan subyektlərin xüsusi çəkisi 98,2% səviyyəsindədir [6]. Qeyd edilənlər özəl sahibkarlığa meylin əhəmiyyətli dərəcədə yüksəldiyini təsdiq edir.

Hazırda beynəlxalq səviyyədə iqtisadi inkişafın sürətləndirilməsi problemi ön plana çıxmaqdadır. Bu problem qlobal çağırışların kəskinləşməsi, əsas dünya güclərinin maraqlarına uyğun əsas ziddiyyətlərin aşkar edilməsi kontekstində xüsusilə qabarıq şəkildə özünü göstərir. Ona görə müəyyən bir ölkənin iqtisadi cəhətdən inkişaf etməsi onun kifayət qədər elmi məhsul istehsal edə biləcəyindən, ən müasir texnologiyaları inkişaf etdirə biləcəyindən, ərzaq təhlükəsizliyini tam şəkildə təmin edə biləcəyindən bilavasitə asılıdır. Belə şərtlərdə iqtisadi dayanıqlığın təmin edilməsi problemi ölkənin iqtisadi təhlükəsizliyi ilə xarakterizə olunur. Əslində ölkənin prioritetləri sırasında iqtisadi inkişafı sürətləndirməyə xidmət edən özəl sahibkarlığın genişləndirilməsi tədbirləri xüsusi yer tutur.

Araşdırmalara əsaslanaraq iqtisadi inkişafın əsas amili olan özəl sahibkarlıq subyektlərinin fəaliyyətinin əhəmiyyəti barədə ümumi bir fikir formalaşdırarmaq mümkündür. Belə ki, qeyd etdiyimiz kimi özəl sahibkarlığı genişləndirməklə, subyektlərin fəaliyyətini stimullaşdırmaqla ölkənin sosial-iqtisadi inkişafını təmin etmək mümkündür. Müasir inteqrasiya şəraitində qarşılıqlı faydalı iqtisadi

münasibətlər qurmadan ticarət əməliyyatları aparmaq, investisiya layihələri həyata keçirmək, istehsal və xidmət sferasını inkişaf etdirmək mümkün deyil. Bu məsələ kəskin problemlərin müəyyənləşdirilməsi kontekstində xüsusilə vacibdir.

Elmi ədəbiyyatlarda sürətli iqtisadi inkişafda özəl sahibkarlığın rolunun yüksəlməsinin təmin edilməsi, cəmiyyətin ehtiyatları ilə əlaqələndirilir. Çünki tələb olunan biznes və sahibkarlıq ideyaları intellektual və əmək potensialını şərtləndirir [3, s.73]. Özəl sahibkarlıq sektoru miqyasında insan fəaliyyətinin demək olar ki, bütün sahələrində çox sayda təşəbbüsün meydana çıxması müşahidə edilir. Bu səbəbdən modernləşmə tələb edən yeni fəaliyyət sahələri meydana çıxır ki, belə sahələr özəl sahibkarlığa söykənir. İqtisadiyyatda böyük rol oynayan, dünyanın əksər ölkələrində struktur və innovativ dəyişikliklərin aparıcı qüvvəsi rolunu oynayan özəl subyektlər məhz intellektual ideyalara əsaslanaraq inkişaf edir.

Yenilikçi təşəbbüslər özəl qurumların rəqabət mövqelərini ciddi şəkildə möhkəmləndirir və onların iqtisadi fəaliyyətlərində yüksək səmərə əldə etməyə imkan verir. Ölkəmizdə xammal və enerji ehtiyatlarının da kifayət səviyyədə olması, zəruri biznes mühitində özəl sahibkarlığın inkişafına zəmin yaradır.

- Özəl sahibkarlığın inkişafına mane olan amillər də mövcuddur. Onlara aşağıdakıları aid etmək olar:

- əsas fəaliyyət prinsiplərində baş verən dəyişikliklər;
- maliyyə və kredit mənbələrinə, dövlət satınalmalarına, iri şirkətlərin satınalmalarına girişlə bağlı müəyyən məhdudiyyətlər;
- özəl sahibkarlıq subyektlərinin maliyyə mənbələrinin və investisiya cəlb etmək imkanlarının məhdudluğu;
- istehsal infrastrukturunda çatışmazlıq;
- ixtisaslı kadrların çatışmazlığı; istehlak bazarlarına çıxışla bağlı problemlər və s.

Belə problemləri həll etmək üçün son illərdə sahibkarlığa dövlət dəstəyi tədbirləri sistemi müəyyənləşdirilmişdir:

- sahibkarlıq fəaliyyəti, mikro kreditlər və zəmanətlər, vergi güzəştləri ilə bağlı xərclərin bir hissəsini ödəmək üçün subsidiyaların verilməsi;
- məlumat, məsləhət və təhsil dəstəyi;
- sahibkarlıq subyektlərinin ixrac potensialının inkişafına təşkilati dəstəyin göstərilməsi;
- normativ-hüquqi aktların qəbulu və bu istiqamətdə təkmilləşdirmələr və s.

Özəl sahibkarlığın dəstəklənməsinin əsas məqsədi əhalinin həyat səviyyəsinin və keyfiyyətinin artırılmasını, iş yerlərinin açılmasını, istehlak bazarının məhsul və xidmətlərlə təmin edilməsini, sahibkarlıq subyektlərinin dinamik və davamlı inkişafını təmin etməkdir. Bu hədəflərə çatmaq üçün əsas fəaliyyət sahələrinə daxildir: özəl və digər sahibkarlıq subyektləri arasında qarşılıqlı əməkdaşlıq sisteminin inkişafı; dövlət satınalmaları sisteminin, o cümlədən özəl sahibkarlıqdan satınalma sisteminin təkmilləşdirilməsi; mikromaliyyələşmə və zəmanət mexanizmlərindən istifadə edilməsi;, dövlət-özəl tərəfdaşlıq mexanizmlərindən istifadə daxil olmaqla iqtisadi fəaliyyətin prioritet sahələri üçün maliyyə dəstəyi sisteminin inkişafı [5, s.26]; “bir pəncərə” prinsipi ilə dövlət xidmətlərinin göstərilməsi mexanizminin inkişaf etdirilməsi; təşəbbüskarlıq fəaliyyətində sahibkarların savadlılıq səviyyəsinin artırılması tədbirləri; sahibkarlara məlumat və məsləhət dəstəyinin göstərilməsi; özəl sahibkarlıq sahəsində qeyri-rəsmi məşğulluğun azaldılmasına təkan verən maliyyə, vergi və təşkilati-hüquqi şəraitin yaradılması; özəl sahibkarlıq müəssisələri tərəfindən istehsal olunan məhsul və xidmətlərə tələbatın formalaşdırılması və s.

№ 1/2021 səh.31- 36

Qeyd edilən istiqamətlərdə prioritetlər "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə öz əksini tapmışdır. Belə ki, kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar strateji məqsədlərə nail olmaq və müvafiq imkanlardan maksimum istifadəni təmin etmək istiqamətində aşağıdakı hədəflər müəyyənləşdirilmişdir:

- uzunmüddətli perspektivdə kiçik və orta sahibkarlığın Azərbaycanın ÜDM-nə təsirini artırmaq məqsədilə ölkədə biznes mühitinin və tənzimləyici bazanın daha da yaxşılaşdırılması;
- kiçik və orta sahibkarlığın subyektlərinin dayanıqlı şəbəkəsinin yaradılması məqsədilə maliyyələşmə resurslarına sərfəli və səmərəli çıxışın təmin edilməsi;
- ölkənin valyuta ehtiyatlarının artırılması və ölkədə istehsal olunan malların beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi məqsədilə kiçik və orta sahibkarlıq fəaliyyətinin beynəlmiləlləşdirilməsi və xarici bazarlara çıxış imkanlarının artırılması;
- ixtisaslı işçi qüvvəsinin hazırlanmasına və kiçik və orta sahibkarlıq subyektlərinin bacarıqlarının inkişafına xüsusi diqqət ayırmaqla, regional bazarlarda keyfiyyətli məhsul vəxidmətlər təklifinin artırılması;
- kiçik və orta sahibkarlıq subyektlərinin rəqabət qabiliyyətinin artırılması üçün innovasiyaların təşviqi, bu sahə ilə bağlı araşdırma və inkişaf fəaliyyətinin gücləndirilməsi [2].

## Nəticələr

Göstərilənlər təsdiq edir ki, özəl sahibkarlıq müəssisələri yeniliklərin əhalinin iş və həyat fəaliyyətinə ötürülməsinin əsas vasitəsinə çevrilir. Eləcə də özəl strukturlar bazar tələblərinə ən çevik şəkildə uyğunlaşa bilmək imkanına malikdir. Çünki sahibkar, iqtisadi inkişafa nail olmaq üçün əmək məhsuldarlığını artırmağın ən vacib amili olan elm və texnikanın yeni nailiyyətlərindən maksimum istifadə etməyə çalışır. Bunlar, nəticədə davamlı iqtisadi inkişafa gətirib çıxarır. Özəl subyektlərin üstünlükləri sırasında daha az maliyyə resursu istifadə etməklə yeni iş yerlərinin açılması imkanlarını da qeyd etmək olar. Özəl sahibkarlıq məşğulluğun təmin edilməsinin mühüm sahəsi kimi əhalinin əhəmiyyətli bir hissəsinin gəlir mənbəyidir. Bu, əmək bazarının aşağı ixtisasa və kifayət qədər təcrübəyə malik olmayan əmək ehtiyatlarının böyük hissəsini işlə təmin edə bilən ən çevik bir fəaliyyət sahəsidir. Özəl sahibkarlıqda əhalinin sosial cəhətdən həssas qrupları da - gənclər, qadınlar və s. iş tapa bilir.

Beləliklə, özəl sahibkarlığın iqtisadi və sosial sferadakı əhəmiyyətini nəzərə alaraq onun inkişafını stimullaşdırmaq üçün aşağıdakı tədbirləri məqsədəuyğun hesab etmək olar:

- özəl sahibkarlıq subyektlərinin xərclərini azaltmağa və maliyyə sabitliyini təmin etməyə imkan verən kreditləşmə mexanizminin tətbiqi. Bu zaman kredit faizlərinin aşağı salınması prioritet təşkil etməlidir, çünki dünya təcrübəsində kredit dərəcəsi nə qədər aşağı olarsa, istehsalın artımı və istehlakçı tələbi bir o qədər stimullaşdırılmış hesab olunur;
- əhalinin özünüməşğulluğu üçün özəl sahibkarlığın inkişafına bilavasitə təsir göstərən sahibkarlıq bacarıqlarına malik kadrların hazırlanmasına xüsusi diqqətin göstərilməsi;
- özəl müəssisələrlə digər müəssisələr arasında kooperativ əlaqələrin gücləndirilməsi;
- özəl sahibkarlığın inkişafına xidmət edən işgüzar mühitin inkişafı üçün dövlət və yerli idarəetmə orqanlarının fəaliyyət meyarlarının hazırlanması və onların mütəmadi olaraq yenilənməsi;
- sahibkarlıq və investisiya risklərinin azaldılmasına, yeni texnologiyaların tətbiqinin genişləndirilməsinə yönəlmiş dövlət-özəl tərəfdaşlığın inkişafı.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- özəl sahibkarlığın iqtisadi inkişafdakı əhəmiyyəti ilə yanaşı sosial mahiyyəti əsaslandırılmışdır;
- rəqabət mexanizminin özəl sahibkarlıq və biznes mühitinin inkişafına əlverişli zəmin yaratdığı müəyyən edilmişdir;

- sahibkarlıq təşəbbüsünün cəmiyyətin sosial problemlərinin həllindəki əhəmiyyəti müəyyən edilmişdir;
- özəl sahibkarlıq subyektləri ilə dövlət strukturları arasında qarşılıqlı əməkdaşlığın və kooperativ əlaqələrin əsas istiqamətləri müəyyənləşdirilmişdir.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti.**Tədqiqatın praktiki əhəmiyyəti özəl sahibkarlıqda intensiv ehtiyatlar hesabına iqtisadi və sosial inkişafı təmin etmək üçün yeni resurslardan istifadəni, habelə sahibkarlıq mühitinin yaxşılaşdırılması hesabına daha yüksək iqtisadi səmərə əldə etmək imkanlarını müəyyən edən təkliflərlə xarakterizə olunur.

**Tədqiqat işinin iqtisadi səmərəsi.** Özəl sahibkarlıq subyektlərinin fəaliyyətinin səmərəliliyi özünü həm iqtisadi, həm də sosial baxımdan göstərir. Bu baxımdan tədqiqat işinin sosial səmərəsi cəmiyyətin həyatında özəl sahibkarlıq fəaliyyətinin sosial ehtiyacların ödənilməsinə, əhalinin rifahının yaxşılaşdırılmasına yönəlmiş fəaliyyətlə xarakterizə olunur. İqtisadi səmərəsi isə iqtisadi inkişafın intensiv yollar və innovativ resurslardan istifadə hesabına təmin edilməsini ehtiva edir.

## Ədəbiyyat

1. “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu. 15 dekabr 1992-ci il.
2. “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi”. 2016-cı il 6 dekabr.
3. Асаул А.Н. Организация предпринимательской деятельности: учебник. – СПб.: АНО ИПЭВ, 2009. 336 с.
4. Буров В.Ю. Основы предпринимательства: Практика малого бизнеса. Часть III, учебное пособие: Забайкал. гос. ун-т. – Изд. 2-е, доп. и перераб. – Чита, ЗабГУ, 2018. 284с.
5. Герчикова И. Н. Регулирование предпринимательской деятельности: государственное и межфирменное: учебное пособие / И. Н. Герчикова. Москва: Косалтбанкир, 2002. 704 с.
6. www.stat.gov.az

## Частное предпринимательство как основной фактор экономического развития

Рагимов Канан Камал оглы

**Аннотация**

Частное предпринимательство считается одним из основных средств определения приоритетов экономического развития. Так как у частных лиц есть большой потенциал для оптимизации развития экономики. Субъекты частного предпринимательства обеспечивают расширение сектора производства и потребления за счет развития конкурентной среды, создавая основу для более эффективного использования производственных ресурсов. Они считаются самыми важными факторами в повышении рациональных показателей экономики. Поэтому расширение частного предпринимательства, служащего ускорению экономического развития, занимает особое место среди приоритетов экономической политики.

**Ключевые слова:** предпринимательство, потенциал, занятость, доход, конкуренция, диверсификация.

**№ 1/2021** **səh.31- 36**

## PRIVATE ENTREPRENEURSHIP AS THE MAIN FACTOR OF ECONOMIC DEVELOPMENT

**Rahimov Kanan Kamal**

**Summary**

Private entrepreneurship is considered one of the main means of determining the priorities of economic development. Since business entities have great potential to optimize economic development. Private enterpreneur entities ensure the expansion of the production and consumption sector through the development of a competitive environment, creating the basis for a more efficient use of production resources. They are considered the most important factors in improving the rational performance of the economy. Therefore, the expansion of private entrepreneurship, which serves to accelerate economic development, occupies a special place among the priorities of economic policy.

**Key words:** entrepreneurship, potential, employment, income, competition, diversification.

Redaksiyaya daxilolma 18.01.2021
Çapa qəbul olunma 05.06.2021

**№ 1/2021** **səh.37- 42**

**UOT 338.1**

# KORPORATİV SOSİAL MƏSULİYYƏTİN(KSM) HƏRƏKƏTVERİCİ AMİLƏRİ

**Hüseynli Cavid İftixar oğlu**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Bakı ş., Lermontov 76**
**cvdhsynl@gmail.com**

***Xülasə:****Məqalədə KSM hərəkətverici amillər "daxili və xarici amillər" üzrə araşdırılmışdır.Korporativ strukturların iqtisadi münasibətlərində müasir tendensiyalar onların rəqabətin artması, texnologiyaların təkmilləşdirilməsi, istehlakçı uğrunda mübarizə və məhsulun keyfiyyəti və sair kimi məsələlərə diqqətin artmasını, yeni yanaşmaların olmasını tələb edir. İşdə sosial məsuliyyətin korporativ strukturlar tərəfindən tətbiq olunduğu üsullar haqqında təsəvvürlərimizi yaxşılaşdırmaq üçün mövcud nəzəriyyələri təkmilləşdirməklə yeni yanaşmaların olması zərurətinə gəlinmişdir.Müasir KSM nəzəriyyələrinin işgüzar praktika üzrə qənaətbəxş təlimatı təmin edə bilməməsi ilə əlaqəli üç əsas çatışmamazlıq tədqiq edilmiş və əsaslandırılmışdır.*

***Açar sözlər:*** *KSM, Korporativ struktur, dəyişikliklərin idarə olunması.*

**Giriş:** Menecerlər bir çox hallarda sosial məsuliyyətin faktor olduğu qərarların verilməsi zərurəti ilə üzləşirlər. KSM önəmi daha çox 1960-cı illərdə ortaya çıxdı. O zaman sosial cəhətdən aktiv olanlar bizneslərin vahid iqtisadi hədəflərini sorğulamağa başlamışlar. Artıq zaman və arqumentlərin dəyişdiyi dövrdə menecerlər bizneslərin sosial məsuliyyətli olması xeyrinə(ictimai gözləntilər, uzunmüddətli gəlirlər, etik öhdəliklər,ictimai imic, daha yaxşı mühit,məsuliyyətlə gücün balanslaşdırılması, tərəfdaş maraqları, resurslara sahiblik,qabaqlayıcı tədbirlər üstünlüyü) və əleyhinə(gəlirin artmasına mane olması, məqsədin bölünməsi, xərclər, qabiliyyətsizlik, sosial məqsədlərin izlənilməsi, hesabatlılığın olmaması), bir sözlə sosial məsuliyyətlilik ölçüsü olan qərarlar verməklə üzləşirlər. Yəni,Korporativ Sosial Məsuliyyət(KSM) korporativ strukturların tələbatlarının resurs bazasının öz həyat fəaliyyətlərini təmin etmək baxımından yaranması zərurətindən üzə çıxır. Bu hər şeydən əvvəl əmək resurslarıdır və korporativ strukturların rəqabət mühitində inkişafının əsas amillərindəndir.

**Mövzunun aktuallığı.**Korporativ strukturların iqtisadi münasibətlərində müasir tendensiyalar onların rəqabətin artması, texnologiyaların təkmilləşdirilməsi, istehlakçı uğrunda mübarizə və məhsulun keyfiyyəti və sair kimi məsələlərə diqqətin artmasını, yeni yanaşmaların olmasını tələb edir. İdarəetmədə yeni texnologiyaların nüfuzu işçiyə qarşı olan tələbləri dəyşdirdi. Bu da idarə edənlərdə yüksək sosial məsuliyyət yaratdı. Ona görə də təşkilati dəyşikliklərə və xarici mühitdəki dəyişikliklərə fasiləsiz adaptasiya olması zərurəti yaranır.Sosial hərəkətlərlə iqtisadi nəticələr arasında pozitiv münasibətləri göstərən nəticələr əldə olunsa da, ümumilikdə yekun fikirlər hələ də formalaşmayıb, cünki tədqiqatlar göstərir ki, münasibətlər müxtəlif faktorlardan- miqyasındam, sahədən, iqtisadi şərtlərdən və qanunvericilik mühitindən asılıdır. Odur ki, KSM-in hərəkətverici amillərinin təhlili önəmlidir . Bütün bunlar mövzunun aktuallığına dəlalət edir.

**Tədqiqatın məqsədi.**Korporativ sosial məsuliyyətin(KSM) əhəmiyyətini və hərəkətvericiamilərini araşdirmaq catişmayan cəhətləri üzə çixarmaqdir.

**Tədqiqatın metodikası:** Tədqiqatın metodikasını sistemli və müqayisəli təhlil, analiz, sintez və s. təşkil etməkdədir.

**Tədqiqatın praktiki əhəmiyyəti**: Sosial məsuliyyət - Korporativ təşkilatıar vasitəsi ilə cəmiyyət maraqlarını nəzərə alan sifarişçilərin, işçilərin, səhmdarların, yerli icmaların və s. fəaliyyəti üzərində məsuliyyəti öz üzərinə götürən konsepsiyadır. KSM tətbiqi korporativ strukturların çoxsaylı üstünlük əldə etməsidir.

**MATERİALLAR VƏ MÜZAKİRƏLƏR**

Korporativ strukturların iqtisadi münasibətlərində müasir tendensiyalar onların rəqabətin artması, texnologiyaların təkmilləşdirilməsi, istehlakçı uğrunda mübarizə və məhsulun keyfiyyəti və sair kimi məsələlərə diqqətin artmasını, yeni yanaşmaların olmasını tələb edir. İdarəetmədə yeni texnologiyaların nüfuzu işçiyə qarşı olan tələbləri dəyşdirdi. Bu da idarə edənlərdə yüksək sosial məsuliyyət yaratdı. Biz sosial məsuliyyətdən danışarkən korporativ strukturların iqtisadi və hüquqi öhdəliklərindən əlavə, cəmiyyət üçün faydalı şəkildə davranmaq və doğru addımlar atmaq kimi məqsədlər başa düşürük.

Cəmiyyət üçün yaxşı bir addım atmaq cəhdi doğru və ya yanlış addımlarla atmaq arasındakı fərq bilinməlidir. Həmdə "sosiaı cavabdehlik"lə, "sosial məsuliyyət"i fərqləndirmək kazımdır. "Sosial cavabdehlik" elə biznes şirkətə aiddir ki, sosial ehtiyaca cavab olaraq addımlar atır və menecerlər bazara uyğun qəraralar verirlər, "sosial məsuliyyət" isə biznes şirkətinin konkret iqtisadi və hüquqi öhdəlikləri vastəsiləatdığı sosial öhdəliklərdir. Bu qanunun tələb etdiyinin minimumunu həyata keçirir və öz iqtisadi məqsədlərinə xidmət edən çərçivədə sosial məqsədlər daşıyır.KSM-nin aspektlərinin inkişaf etmiş ölkələrdə, Avropa və Amerika üçün tipik olan klassik təzahüründən fərqli olaraq, inkişaf etməkdə olan ölkələrdə əsas məsələ bu ölkələrin hamısında korporativ məsuliyyətin çoxsaylı motivatorlarının olmasındadır.

Araşdırmalar göstərir ki, inkişaf etmiş ölkələrdə biznesin məsuliyyətinin əsas hərəkətverici amillərinin bir qayda olaraq "daxili və xarici amillər" üzrə qruplaşdırıldığını bildirirlər.

Xarici hərəkətverici amillər olaraq:

- KİV
- QHT tərəfində təzyiq
- investisiya təzyiqi vasitəsilə hökumətin idarəetmənin davamlılığına və rəhbər prisiplərinə təsir göstərən siyasi hərəkətləri
- qloballaşma
- ətraf mühitin qorunması məsələləri
- davamlı inkişaf problemlərinin həlli üçün korporativ qruplar tərəfindən həyata keçirilən beynəlxalq müəssisələri göstərmək olar.

Yanaşmalarda daxili hərəkətverici qüvvələr brend dəyəri, xərclər və gəlirlər, rəqabət üstünlüyü, risklərin idarə edilməsi, habelə istehlakçılar və heyət tərəfindən təzyiq kimi müəyyən edilir.

Bundan başqa, əməkdaşlar daxili hərəkətverici qüvvələrə təsir gücünə malikdirlər və bu baxımdan aktivlik nümayiş etdirə bilərlər, lakin xarici hərəkətverici qüvvələrə münasibətdə eyni təsir həyata keçirilə bilməz. Nəticədə xarici hərəkətverici qüvvələr reaktivliyə meylli olur.

Buna bənzər şəkildə Visser 2008-ci ildə inkişaf etməkdə olan iqtisadiyyatları araşdırmış və inkişaf etməkdə olan ölkələrdə bu gün korporativ hesabatlılığın necə tətbiq olunması və qavranılmasına dair on əsas hərəkətverici qüvvəni qeyd etmişdir.

Müasir KSM nəzəriyyələrinin işgüzar praktika üzrə qənaətbəxş təlimatı təmin edə bilməməsi ilə əlaqəli üç əsas çatışmamazlıq var. Birincisi, bu mövzu ilə əlaqəli universal bir konseptual metod yoxdur ki, bu da KSM sahəsində gələcək tədqiqatlara mane olur, eyni zamanda korporativ sosial məsuliyyətlə

№ 1/2021 səh.37- 42

əlaqəli hər hansı praqmatik iştirakı əlaqəni azaldır.

Bundan əlavə, alimlər arasında KSM-lə bağlı ortaq terminlər dəsti yoxdur ki, bu da terminin çox sərbəst istifadə olunmasına və ümumi qarışıqlığa səbəb olur. Digər tərəfdən də universal tərifin olmaması alimləri öz fərdi termin və anlayışlarını yaratmağa vadar edir ki, bu da KSM ideyasına daha bir qarışıqlıq gətirir.

Növbəti çatışmamazlıqlar dəsti geniş yayılmış belə bir fərziyyə ilə bağlıdır ki, iqtisadi rasionallıq maraqlı tərəflərin idarəetmə nəzəriyyəsini, habelə korporativ sosial təsir nəzəriyyəsini əhatə edən aparıcı KSM nəzəriyyələrinin əsas komponentidir

KSM-i neokassik nöqteyi-nəzərdən qiymətləndirərkən aydın olur ki, özəl sektorun mənfəətə can atmasına müəssisələrin dövlətin müəyyən etdiyi qanunvericiliyə əməl etməsi şərti ilə bəraət qazandırmaq olar.

Bununla yanaşı unutmamalıdır ki, dövlətin qanunlarına riayət edilməsi heç də mütləq sosial məsuliyyətli davranışların həyata keçirilməsi demək deyil.

Qlobal istehlakçılıq səviyyəsinin yüksəlməsi və korporasiyaların korporativ hakimiyyəti məhdudlaşdırmaq imkanına malik olan sosial, etik və hökumət strukturlarına təsir göstərmək qabiliyyətinin artması səbəbindən ortaya çıxan ciddi problemlər də mövcuddur ki, bu da ictimaiyyətin sosial məsiliyyətli olmağın nə demək olduğunu dərk etməsinə mane olur.

Daima qloballaşan dünyada hökumətlər daxili işlərə müdaxilə etmək və yerli bazarların yaxşı işləməsi üçün lazım olan iqtisadi mühitin yaradılmasına səbəb olmaq imkanını itirirlər. KSM-nin yalnız maliyyə nəticələri baxımından dərk edilməsi və yuxarıda göstərilən mürəkkəbliklərin nəzərə alınmaması mahiyyəti tam açmır.

Van Oosterhout və Hyugens hesab edirlər ki, tədqiqat layihələrinin əksəriyyəti bu tendensiyaya əməl etdiyindən, KSM-yə nisbətən zəif izahlar verilir.

Korporativ davranışın təsirinin hərtərəfli başa düşülməsinə mane olan üçüncü və sonuncu çatışmamazlıq, şirkətləri könüllü olaraq sosial məsuliyyətli aksiyalarda iştirak etməyə sövq edən amillərlə bağlı razılığın olmamasıdır.

Ziddiyyətli tədqiqatlar qarışıqlıqla nəticələndi və könüllü özünütənzimləmə effektivliyinin ziddiyyətli şəkildə şərh olunmasına səbəb oldu. Şirkətlərin öz əməliyyat hədlərini korreksiya etməklə əməliyyatların aparılması yollarına yenidən baxdıqlarını təsdiq edən məlumatlar mövcuddur.

Digər tərəfdən, görünür ki, bəzi şirkətlər KSM üzrə fəaliyyətlərindən sosial və ekoloji davranışını yaxşılaşdırmaq üçün deyil, öz maraqlarını təmin etmək üçün istifadə edirlər.

Beləliklə, hazırda müəssisələrin KSM üzrə hərəkətlərdə sosial məsuliyyətə münasibətlərini dəyişdirmək üçün pozitiv bir addım olaraq yoxsa sadəcə ictimaiyyətlə əlaqələri yaxşılaşdırmaq üçün bir taktika olaraq iştirak etdikləri aydın deyil.

Bu çatışmazlıqları aradan qaldırmaq və KSM-lərin firmalar tərəfindən tətbiq olunduğu üsullar haqqında təsəvvürlərimizi yaxşılaşdırmaq üçün mövcud nəzəriyyələri təkmilləşdirməklə yeni metodların olması zərurətinə gəlirik.

Bir çox firmalar sosial məsuliyyəti biznes əməliyyatlarının mühüm bir hissəsi kimi nəzərdən keçirsələr də, firmaların sosial məsuliyyətli davranışı qəbul etməsinin səbəblərinə və ya bu cür hərəkətləri gündəlik fəaliyyətə inteqrasiya etdirmək üçün istifadə olunan metodlara həsr olunan akademik araşdırmalar hələ də yoxdur(3)

Buna cavab olaraq KSM üzrə ədəbiyyatda iki mövzuya dair məlumat toplamaq üçün sorğuların və müsahibələrin keçirilməsi vacib olur. Alimlər cəmiyyətin kollektiv hədəflərinə konkret fəlsəfi bir sadiqliyi nümayiş etdirən şirkətlərin xüsusi siyasətlərinə dair akademik tədqiqatların aparılmasını təklif

edirlər.

Son vaxtlara qədər alimlər KSM təsirlərinin bir neçə müxtəlif dolayı indikatorlarından istifadə etməklə KSM anlayışlarının korporativ davranışa təsir dərəcəsini təyin etməyə cəhd göstərmişdirlər.

Eynilə, KSM təşəbbüsləri və sosial məsuliyyətli investisiyalarda iştirak barədə informasiya onu göstərir ki, bu cür davranışa doğru ümumi bir hərəkət var, lakin şirkətlərin sosial məsuliyyət göstəricilərini təyin etmək üçün az informasiya verir.

Yoxlanılmamış və zəif olması ilə yanaşı, KSM təcrübələrinin dolayı göstəricilərinə aid tədqiqatların məlumatları çox vaxt natamam və qeyri-dəqiq olur, bir çox tədqiqat layihələrinin metodologiyalarında uyğunsuzluqlar var.

Məsələn, subyektiv qiymətləndirilən məlumatlar obyektiv olaraq KSM-nin nəticəsi kimi nəzərdən keçirilir, zamanda geriləmə çox vaxt nəzərə alınmır, tədqiqatlarda az ölçüdə seçmədən istifadə olunur, tənzimləyici dəyişkənlər isə yoxlanılmır.

Beləliklə, KSM-nin biznes əməliyyatlarına təsirini etibarlı və səmərəli şəkildə qiymətləndirmək imkanı verən indikativ göstəricilərin müəyyənləşdirilməsində əsas maneə hələ aradan qaldırılmamışdır.

Friedman 1970-ci ildə belə bir qənaətə gəlmişdir ki, şirkətlər səhmdarları adından mənfəətin maksimmallaşdırılmasına diqqət yetirməlidirlər. Lakin bu ənənəvi iqtisadi baxış hər bir konkret cəmiyyətin normaları kontekstinə uyğun fəaliyyət göstərən şirkətlər haqqında təsəvvürlərə bir qədər ziddir(2).

Draker  Fridmanın iddiaları ilə qismən razılaşdığını dilə gətirərək qeyd edir ki, firmalar öz enerjilərini hər şeydən əvvəl mənfəət əldə etməyə yönəltməlidirlər, çünki məqbul bir mənfəət səviyyəsi olmasa, sosial məsuliyyətli davranışı həyata keçirmək üçün yetərli həcmdə əlçatan vəsait olmazdı.

Bunun əksinə olaraq, Draker şirkətin müstəsna məsuliyyətinin mənfəət olması fikri ilə razılaşmır, bunun əvəzinə belə bir fikir irəli sürür ki, sosial məsuliyyət istənilən şirkətin uzunmüddətli strategiyasının ayrılmaz hissəsidir(1).

Drakerin  fikirlərinə görə, şirkətlər “uğur qazanmaq üçün yaxşılıq etməlidirlər’, çünki dövlətlə müqayisədə onların cəmiyyətin inkişafını idarə etmək üçün daha yaxşı alətləri var.

Bu, onunla bağlıdır ki, şirkətlər, xüsusən də həll yolu qarşılıqlı faydalı optimal nəticələri təmin etmək şansı kimi nəzərdən keçirildikdə, adətən problemin həlli üçün resursları daha sürətli və daha səmərəli şəkildə bölüşdürürlər (1).

Davranışla əlaqəli potensial problemlər menecerlərin diqqətini cəlb etdikdə, etiraf etmək lazımdır ki, bəzi problemlər zaman keçdikcə daha da güclənərsə, şirkətdə narahatlıq doğura bilər

Bu, çoxsaylı maraqlı tərəflər, ilk növbədə şirkəti şirkətlə mütləq şəkildə əlaqəli olmayan fərz edilən problemdə iştirak etməyə vadar edən fəallar və müştərilərlə bağlı ola bilər.

Digər mühüm bir məqam bundan ibarətdir ki, korporativ sosial məsuliyyət heç də mütləq şirkətin maliyyə göstəricilərinin artırılmasına can atmamalıdır.

Draker  qeyd edir ki, KSM ilə əlaqəli hərəkətlər çox vaxt problemi sosial çağırışdan maliyyə faydasını əldə etmək imkanına çevirə bilər. Bu cür fəaliyyətlər uzunmüddətli və müəyyən dərəcədə eksperimental kimi qəbul edildiyi təqdirdə, KSM üzrə fəaliyyətinin şirkətə üstünlük verəcəyi gözlənilir (1).

Bu nöqteyi-nəzərdən belə qənaətə gəlmək olar ki, KSM iş yerlərinin yaradılması, innovativ imkanların artırılması, texniki tərəqqi və insanların və ətraf mühitin ümumi rifahının yüksəldilməsi yolu ilə müəssisə və yaşadıqları daha geniş sosial qurumlar üçün iqtisadi çiçəklənmənin təmin edilməsinə təsir göstərir.

Bu cür təkmilləşdirmələr KİV, hökumət və bir çox üçüncü tərəflərdən problemlərin yaranma riskinin səviyyəsinin azalmasına gətirib çıxara bilər. Şirkət müştərilərinin maraqlarına diqqət yetirilməsi səhmdarların mənafelərinə cavab verən hal kimi qəbul edilə bilər.

Beləliklə, şirkətlərin KSM ilə əlaqəli fəaliyyət nəticəsində hər hansı bir fayda əldə etmək üçün ən yaxşı strategiya olaraq məsələyə yanaşmağın planlı taktiki metodlarını tətbiq etmək məqsədə uyğundur.

Firmalara KSM ilə əlaqəli olmayan korporativ təşkilati qərarlar və ya rəhbərliyin hərəkətləri hallarında istifadə edəcəkləri eyni qərar qəbul etmə strukturundan istifadə etmək məqsədə müvafiqdir. KSM üzrə nəzərdə tutulan öhdəliklərini müzakirə edilməsi və ya qiymətləndirilməsi üçün çox tövsiyə olunan metod ətraf mühitə təsiri, məsələn, tullantıların azalması baxımından daha aşkar və ölçülə bilən konsepsiyanın formalaşdırılması ola bilər.

KSM sahəsində alimlərinin bölüşdüyü üstünlük təşkil edən fikrə görə, bunu xərclər baxımından deyil, biznes üçün uzunmüddətli nəticələrə investisiya qoyma imkanı baxımından qəbul etmək lazımdır. Mümkün fəsadların mənfi təsirindən əvvəl bu fəsadların planlaşdırılması, risklərin idarə edilməsinin sağlam bir forması, habelə gələcək perspektivlərə hərtərəfli hazırlaşmağın bir üsulu kimi nəzərdən keçirilir, bu səbəbdən də şirkətlər üçün strateji əhəmiyyət daşıyır.Korporativ sosial məsuliyyət həmçinin onunla bağlı olan investisiyaların istiqamətinə müvafiq daxili və xarici olaraq iki yerə bölünür və korporativ sosial problemlərin reallaşdırılmasına yönəldilmiş olur, iqtisadi səmərəni əldə etmıyiə imkan verir. Menecment təcrübəsi göstərir ki, davamlı inkişaf üçün zəmin yaradaraq, sosial məsuliyyətli davranış ayrıca firmaya və ümumiyyətlə bütünlükdə iqtisadiyyata uzunmüddətli perspektivdə nəzərə çarpacaq iqtisadi səmərə verə bilər.

**Nəticə**

Beləliklə, yekun olaraq onu qeyd etmək lazımdır ki KSM sahəsində alimlərinin bölüşdüyü üstünlük təşkil edən fikrə görə, bunu xərclər baxımından deyil, biznes üçün uzunmüddətli nəticələrə investisiya qoyma imkanı baxımından qəbul etmək lazımdır. Mümkün fəsadların mənfi təsirindən əvvəl bu fəsadların planlaşdırılması, risklərin idarə edilməsinin sağlam bir forması, habelə gələcək perspektivlərə hərtərəfli hazırlaşmağın bir üsulu kimi nəzərdən keçirilir, bu səbəbdən də şirkətlər üçün strateji əhəmiyyət daşıyır.

Hərəkətverici amillər olaraq:

- KİV
- QHT tərəfində təzyiq
- İnvestisiya və investisiya təzyiqi vasitəsilə hökumətin idarəetmənin davamlılığına və rəhbər prinsiplərinə təsir göstərən fəaliyyəti
- qloballaşma
- ətraf mühitin qorunması məsələləri
- davamlı inkişaf problemlərinin həlli üçün korporativ qruplar tərəfindən həyata keçirilən beynəlxalq müəssisələr
  - brend dəyəri
  - xərclər və gəlirlər,
  - rəqabət üstünlüyü,
  - risklərin idarə edilməsi,
  - habelə istehlakçılar və heyət tərəfindən təzyiq və sair göstərmək olar.

**Tədqiqatın elmi yeniliyi:** Aparılan tədqiqat işinin elmi yeniliklərinə əsasən işdə KSM üstünlükləri və çatışmazlıqlar aşkarlanmış, hərəkət verici amillər tədqiq olunmuşdur,əsaslandırılmışdır.

**Ədəbiyyat**


1. Peter Ferdinand Drucker**.** 1984: *The Temptation to Do Good* (London: William Heinemann Ltd.)
2. Milton Friedman**.**The Social Responsibility of Business Is To Increase Its Profits / Published in: The New York Times Magazine, September 13, 1970. Copyright @ 1970 by The New York Times Company. Reprinted by permission
3. Porter M. 2003**.** CSR-a religion with too many priests? European Business Forum(15). http://www.ebfonline.com f The New York Times Syndicate, Paris, France.
4. Schwartz M. Carroll A.B.2003. Corporate social responsibility: A three domain approach. Business EthicsQuarterly 13 (4):503–530.


**Двигающие факторы корпоративной социальной ответственности (КСО)**

**Гусейнли Джавид Ифтихар**

**Резюме:**В статье рассматриваются движущие факторы КСО на "внутренние и внешние факторы". Современные тенденции в экономических отношениях корпоративных структур требуют от них усиления конкуренции, совершенствования технологий, борьбы за потребителя и большего внимания к таким вопросам, как качество продукции и так далее, чтобы иметь новые подходы.

Для улучшения нашего понимания методов, используемых КСО в корпоративных структурах, необходимо иметь новые методы, совершенствуя существующие теории.Были рассмотрены и обоснованы три основных недостатка в неспособности современных теорий КСО обеспечить удовлетворительное управление деловой практикой.

**Ключевые слова:**КСО, корпоративная структура, управление изменениями.

**Driving factors of corporate social responsibility (CSR)**

**Huseynli Javid Iftikhar**

***Summary:***This article examines the drivers of CSR into "internal and external factors". Current trends in economic relations of corporate entities require them to increase competition, improve technology, fight for the consumer and pay more attention to issues such as product quality and so on to have new approaches.

To improve our understanding of the methods used by CSR in corporate structures, it is necessary to have new methods, improving existing theories.Three major flaws in the failure of contemporary CSR theories to provide satisfactory guidance on business practices have been examined and justified.

***Keywords:****CSR, corporate structure, change management.*

Redaksiyaya daxilolma 29.03.2021
Çapa qəbul olunma 05.06.2021

№ 1/2021 səh.43- 50

UOT: 338.1; 330.34/.35; 338.26/.27; 338.12; 330.34; 330.35;

# İNKİŞAF PROSESİNDƏ PROBLEMLİ SİTUASİYALAR: METODOLOJİ ASPEKT

*Bayramov Vüqar Avtandil oğlu*
*AMEA İqtisadiyyat İnstitutu, aparıcı elmi işçi*
*Azərbaycan Respublikası,Bakı şəh., H.Cavid pr.115.*
Bayramov.vugar@gmail.com

***Xülasə***.*Məqalədə iqtisadi inkişaf prosesinin nəzəri dərki anlamında problemli situasiyalar yaradan konseptual baxışların müqayisəli formada araşdırılması aparılmışdır. Prosesin nəzəri dərkində anlaşılmazlıq və ziddiyyətlilik yaradan yanaşmaların tənqidi aspektdən ümumiləşdirilməsinə cəhd göstərilmişdir.*

*Əsas məqsəd iqtisadi inkişafın rəvan gedişinə dəstək ola biləcək nəzəri konstruksiyanın formalaşması prosesinə dəstək verməkdən ibarətdir.*

***Açar sözlər***: *inkişaf, situasiya, nəzəriyyə, metodologiya, açıqlıq, fluktuasiya, sinergetika*

## Giriş

Milli iqtisadiyyat nöqteyi-nəzərindən sözügedən problem xüsusilə böyük aktuallıq kəsb edir. Bir tərəfdən, qlobal münasibətlər sistemi və dünya iqtisadiyyatında baş verən dəyişikliklər, qlobal bütövlüyü «parçalayan» ziddiyyətli proses və fəsadlı situasiyalar, adaptasiya mexanizminin praqmatik məzmununun yetərsizliyi, digər tərəfdən isə milli iqtisadi situasiyanın müxtəlif mənatutumlu amillər çoxluğu, qlobal səviyyədən birtərəfli asılılığa düşməsi, kapitalın transmilliləşməsi nəticəsində ölkənin «ölkə-sistemə» transferi və s. inkişafın dayanıqlılığı probleminin son dərəcə mürəkkəb mahiyyətdə formalaşdığını ortalığa qoyur.

**Mövzunun aktuallığı.**İnkişaf prosesinin normal gedişinə nail olma problemi, əksər ölkələr (inkişaf səviyyəsindən asılı olmayaraq) bölümündə, müasir dövrün ən aktual probleminə çevrilmişdir. Dayanıqlıq, effektlik və rasionallıq sosio-iqtisadi prosesin təşkili və tənzimlənməsinin fundamental bazasına kimi həlledici əhəmiyyət kəsb etməyə başlamışdır.

**Tədqiqatın məqsədi.** İnkişaf prosesində problemli situasiyaların metodoloji aspektdən müəyyən edilməsi və təhlil edilməsidir.

Problemin nəzəri dərki sferasında da belə metodoloji kasadlıq qabarıq şəkildə ifadə olunmaqdadır.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyekti kimi qlobal çoxölçülü kommunikativ məkanda – qloballaşma prosesi və cəmiyyətin tip dəyişikliyi kontekstində milli iqtisadi inkişafın reallaşma imkanları və spesifik xüsusiyyətləri seçilmişdir.

**Tədqiqat metodları**Tədqiqatın əsasını yerli və xarici iqtisadçı-alimlərin bu sahədə apardıqları tədqiqatlar, Azərbaycan Respublikasının Prezidentinin Fərman və sərəncamları, Dövlət Statistika Komitəsinin, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin materialları təşkil edir.

№ 1/2021 səh.43- 50

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

Bu aspektdən müasir elmi fikirdə dominant mövqeni problemin neoliberal modelli bəsit həll üsulları tutur. İlkin çıxış nöqtəsi kimi iqtisadiyyatın açıqlıq dərəcəsi götürülür. Və bütün bundan sonra gələn konseptual müddəalar məhz həmin «nöqtəyə» istinadla formalaşır.

Fikrimizcə qeyd edilən aspektin əhəmiyyətliliyini mütləq anlamda qəbul etmək yanlış olardı. İqtisadiyyatın həm funksional, həm də institutsional açıqlıq (ikincinin öncüllüyü prizmasından) dərəcəsi konkret ölkənin konkret inkişaf səviyyəsindən, geoiqtisadi məkanda sərgilədiyi mövqenin xarakterindən və milli iqtisadi inkişafın strateji məqsədlərindən asılı olaraq formalaşır.

İqtisadiyyatın açıqlığı yaxud qapalılığı istənilən situasiyada nisbi səciyyə daşıyır:

1) Hər bir milli iqtisadiyyat ekzogen təsirə fərqli mövqe sərgiləyir. Bütün təsirlərə açıqlıq mümkün deyildir. Belə olan halda iqtisadiyyatın «milliliyi», tamlığı, bütövlüyü olmayacaqdır.

2) Açıqlıq/qapalılıq selektiv xarakterlidir. Bəzi sferalarda açıqlılıq, bəzilərində qapalılıq, üçüncülərdə isə hər ikisinin müxtəlif nisbətli kombinasiyası ola bilər;

3) Mütləq anlamda açıqlıq, yaxud qapalılıq, prinsipcə mümkün deyildir.

«Açıq» iqtisadiyyatın əsas xassələri sırasına aşağıdakıları aid etmək olar:

1) Spontan qaydanın dominantlığı: Endogen və ekzogen xarakterli fluktuasiyaların fasiləsiz axınını doğurmaqla milli iqtisadiyyatın dinamikliyini, fasiləsiz dəyişkənliyini və natarazlığını meydana çıxarır;

2) İqtisadiyyat – özünütəşkil keyfiyyəti əxz edir;

3) Əksər ünsürlər (elementlər) arası əlaqə bazar məzmunlu olur və bu elementlərin özü də açıq xarakter daşıyır;

4) İqtisadiyyat – polisentrik hala gəlir («çoxşaxəli»).

5) Təklifi limitləşdirən rolunda resurs təminatı deyil, tələb çıxış edir (Qapalı iqtisadiyyatdan fərqli olaraq). Potensialdan istifadə gərginliyi yaranmır;

6) İnvestisiyaların idarə edilməsi normalara əsaslanır;

7) Və nəhayət, açıq iqtisadiyyat həmişə natarazlıq halında olur.

Sineqretikanın bifurkasiya nöqtəsi adlandırdığı sərhəd situasiyasının dövlət tənzimlənməsinin aşağıdakılara adekvatlığını inkişaf prosesinin daxili məntiqindən doğan zərurət kimi qəbul etmək gərəkdir:

1) Tənzimləmənin zamanca özvaxtlılığı; Vaxtında edilməyən hərəkət, sonrakı mərhələlərdə nəinki gözlənilən effekti vermir, hətta neqativ xarakterli geridönüşü mümkün olmayan dəyişikliklərə rəvac verməklə inkişaf prosesində çoxlu sayda problemli situasiyalar yarada, yaxud prosesi ümumiyyətlə, dayandıra bilər.

2) Tənzimləmə – iqtisadiyyatda baş verən dəyişikliklərin əsas təmayülünə, prosesin daxili təbiəti və məntiqinə adekvat olmalıdır. İnkişaf prosesinin məqsədyönlülüyü o demək deyildir ki, reallığa adekvat olmayan, anaxronizm, yaxud futuroloji məzmun daşıyan elementləri prosesə daxil etmək olar. Subyektiv amilin dominantlığı – prosesdaxili determinasiyanın xarakterinə istinadla mövcud ola bilir. Əks halda, anarxiya və xaosun yaranması inkişaf oriyentirlərinin itirilməsi baş verəcəkdir.

3) Tənzimləmə – iqtisadi proseslərlə əks-əlaqəni nəzərə almalıdır. Əks-əlaqənin zəruriliyini əsaslandıran başlıca məqam tənzimləmə üsul, metod və prinsiplərinin verifikasiyası ilə şərtlənir. Ümummiyyətlə tənzimlənmənin (inkişaf prosesini) seçilən məqsədə, yaxud strateji oriyentirə uyğunluğunu yoxlamağın digər bir yolu mövcud deyildir. Əks-əlaqənin nəzərə alınması prosesin nəticələrini gözləmədən tənzimlənmənin inkişaf trayektoriyasına adekvatlığını təmin etməyə, müxtəlif

məzmunlu və müxtəlif kəmiyyətli itkilərdən qorunmağa imkan verir. Bir sözlə, inkişaf prosesinin normal gedişinin təminatında mühüm əhəmiyyət kəsb edən amillərdən biri kimi çıxış edir.



№ 1/2021 səh.43- 50




**Şəkil 1.***Milli iqtisadiyyatın inkişaf prosesinə sineqretik baxışın sadələşdərilmiş blok-sxemi*

Mühüm problemlərdən biri (iqtisadi inkişafın dayanıqlılığı ilə bağlı) inkişaf etməkdə olan ölkələrin dünya iqtisadiyyatına inteqrasiyasının (qloballaşma anlamında) dərəcəsi ilə bağlıdır. Nəzəri baxışları, bu aspektdə 4 qrupa bölmək olar:

1) Neoklassik (neoliberal) modelli qloballaşma: əsas ideya ondan ibarətdir ki, qloballaşma prizmasından inkişaf etməkdə olan ölkələr inkişaf etmiş ölkələrin hərəkət trayektoriyasına adaptasiya olunmalıdırlar. Son 30 ilin təcrübəsi göstərir ki, deyilən aspektdə «təqlidçilik» qloballaşmadan gözləntilərin gerçəkləşməsi nöqteyi-nəzərindən daha çox istisnalar sinfinə aiddir.

2) Yenikeynsçi yanaşma: qloballaşmanın müsbət yönümlü təsiri inkar olunmur. Lakin hesab edilir ki, beynəlxalq ticarət razılaşmalarına, eləcə də inkişaf etməkdə olan ölkələrə qarşı yeridilən siyasətə yenidən baxılmalı, qloballaşma mexanizmi yenidən qurulmalıdır inkişaf etməkdə olan ölkələrə inkişaf etmiş ölkələrdə hazırlanan modellər deyil, «Dayanıqlı, ədalətli və demokratik artımı»(1;7) təmin edə biləcək siyasət lazımdır. İnkişaf məhz bunun üzərində qərarlaşır. O.Kolodko da eyni mövqeni paylaşır.(2;160)Qloballaşmadan bir qrup fayda əldə edir, digər qrup isə zərərə düşür. Hansı ki, təsir göstərə bilərdilər.(3;14)

3) Dünya – sistem yanaşması: əyalət iqtisadiyyatı konsepsiyası – F.Brodelin dünya – iqtisadiyyatları tezisinə istinad edir. Müasir dünya – sistemi 3 qruplaşmanı özündə ehtiva edir: 1) «Mərkəz»; 2) Yarıməyalət; 3) Əyalət. İ.Vallerstain hesab edir ki, müasir dünya-sistemi transformasiya dövrünə qədəm qoyubdur. Və, onun konkret konturları 25–50 ildən sonra aşkarlanacaqdır.

Eyni zamanda yeni sistemin qərb iqtisadi modeli əsasında formalaşacağı anlamında heç bir zərurət yoxdur.

4) Siyasi trilemma yanaşması: əsas ideya ondan ibarətdir ki, tam qloballaşma qlobal bazar deməkdir və qlobal hökumətdən söhbət belə gedə bilməz, reallıqda isə bu təsbit suveren milli dövlətlərlə və müvafiq olaraq, fərqli milli iqtisadi siyasətlərlə bir araya sığmır. D.Rodrikin fikrincə, müxtəlif milli iqtisadi modellərin diferensiasiyasından doğan milli institutlar arasındakı fərqliliklər əcnəbi ölkədə qeyri-rezidentlərin transaksiya xərcləri ilə bağlı böyük problemlər yaradır ki, bu da tam formatlı qloballaşmanı inkar edir. Yalnız milli suverenlikdən və müstəqil milli iqtisadi siyasətdən imtina milli iqtisadiyyatların tam şəkildə qloballaşmasına yol aça bilər. Və bu halın yalnız konkret çərçivəli inteqrasiya bloklarında reallaşması mümkündür. Təbii, çox uzun müddətli zaman intervalı çərçivəsində həyata keçə bilər. Buna görə də dünya iqtisadiyyatına tam şəkildə inteqrasiyaya canatma həm məqsədəuyğun deyildir, həm də reallaşma mexanizmi nöqteyi-nəzərindən sırf nəzəri təxəyyül səciyyəsi daşıyır. «Bizə yol hərəkətinin elə qaydaları lazımdır ki, müxtəlif ölçülü, formalı və dəyişkən sürətli avtomobillərlə digər avtomobillər arasında öz yolunu açmağa imkan versin – Bütün avtomobillər üçün eyni tip və sürət tətbiq olunmasın».(4;243)

Bizim araşdırdığımız problemin mahiyyəti prizmasından qloballaşmanı milli (dövlət) institutların, fəaliyyət subyektlərinin və münasibətlər məcmusunun qlobal sistemin qanunauyğunluqları və inkişaf təmayüllərinə adaptasiya prosesi kimi təsəvvür etmək olar. Əgər nəzərə alsaq ki, inkişafın dayanıqlılığı problemi ilə sözügedən adaptasiyanın real məzmunluğu arasında funksional bağlılıq mövcuddur, onda fəaliyyətin konseptual vektorlarını da adekvat müstəviyə keçirmək qaçılmaz hala gələcəkdir. İqtisadi anlamda milli bütövlüyün anaxronizmə çevrildiyi bir situasiyada inkişafın dayanıqlılığı problemi də «qloballaşır».

Bununla yanaşı, qlobal səviyyədə aparılan sinxronlaşma və unifikasiya proseslərinin ayrı-ayrı ölkələrin dayanıqlı iqtisadi inkişafına təsiri problemi heç də birmənalı xarakter daşımır və əksər hallarda asimmetrik effektlə yekunlaşır.

Digər tərəfdən, qloballaşmanın mahiyyət çalarları arasında yer alan qarşılıqlı asılılığın güclənməsi təmayülü ilə bağlı problemin ziddiyyətli məzmun daşıması məsələsi bu gün də açıq qalmaqdadır. Ölkələr və regionlar arasında formalaşan qarşılıqlı asılılıq birmənalılıqdan uzaqdır və mahiyyət etibarı ilə asimmetrik səciyyə daşıyır. Bir sıra tədqiqatçıların(5;) da qeyd etdiyi kimi, inkişaf etməkdə olan ölkələrin böyük əksəriyyəti inkişaf etmiş ölkələrdən birtərəfli asılılığa düşmürlər. Son illər bu təmayül getdikcə daha intensiv xarakter almağa başlamışdır. Asılılığın birtərəfliliyi, əsasən, aşağıdakı istiqamətlər üzərində formalaşır.

İnkişaf etmiş ölkələrdə:

1) Bəşəriyyətin intellektual və texnoloji potensialının əhəmiyyətli hissəsinin bu ölkələrdə təmərküzləşməsi;

2) Ticarət dövriyyəsinin böyük həcminin sözügedən ölkələrdə təmərküzləşməsi;

3) İnvestisiya axınlarının əsas hissəsinin bu qrup çərçivəsində təmərküzləşməsi;

4) İnkişaf etməkdə olan ölkələrdən gələn miqrasiya axınlarının (inkişaf etmiş ölkələrə yönəlik) məhdudlaşdırılması.

Hesab edirik ki, qloballaşmanın doğurduğu nəticələrə münasibətdə milli iqtisadi inkişafın dayanıqlılığı iki aspektdən dəyərləndirilə bilər:

1) Sosio-iqtisadi, sosio-mədəni, o cümlədən institutsional prizmadan məcmu faydalılığın ümumcəmiyyət miqyasında proporsional paylanması imkanlarının mövcudluğu;

2) Məcmu faydalılığın ən azı ortamüddətli (7–10 il) dövr üçün zərərlə əvəz olunmaması; ortamüddətli dövr, nəinki baş verən prosesin inkişaf olub-olmamasını, həm də inkişafın keyfiyyətcə, yeniləşmə prosesinə təsiri dərəcəsini müəyyənləşdirmək üçün optimal zaman kəsiyidir. Belə ki, qısamüddətli (1–3 il) dövr ərzində nəyin baş verdiyini birmənalı şəkildə dəyərləndirmək mümkün deyildir. Eynilə uzunmüddətli zaman intervalında (20–30 il) – yəni uzaq gələcəyə münasibətdə keyfiyyət dəyişiklikləri vektorlarının «davranış» xarakterini bəri başdan müəyyənləşdirmək imkansızlığı mövcuddur.

Bu prizmadan neytrallıq (fayda→zərər ikiliyində) yoxdur (inkişafın dayanıqlılığı nöqteyi-nəzərindən). «Neytral» faydalılıq - dayanıqlılığı deyil, sabitliyi ifadə edir. Yəni, dinamiklikdən xalidir, situasiyanın statik vəziyyətdə olduğunu ortalığa qoyur. Məlumdur ki, statiklik – əslində, proses→mərhələ qarşılaşdırılmasının abstraksiyasında başqa bir məzmun daşımır. Başqa sözlə, statiklik (sabitlik) çox qısa bir zaman kəsiyində mövcud olur. Və zaman kəsiyinin ifrat qısalığı ucbatından onun (statik situasiyanın) gerçək məzmununu belə aşkarlamaq çətinliyi yaranır.

Qlobal miqyasda baş verən dəyişikliklərin milli iqtisadiyyata təsir gücü sürətlə artmaqdadır. O dərəcədə ki, ölkə iqtisadiyyatının inkişafında dayanıqlılığa nail olma imkanları bütünlüklə qlobal sistemin «səlahiyyət» dairəsinə keçmişdir. Fasiləsiz dəyişikliklərin (xarici mühitdə) getdiyi bir situasiyada milli

iqtisadi inkişafın dayanıqlılığına nail olma, sözügedən dəyişikliklərə adaptasiya olunma dərəcəsindən birbaşa asılılığa düşmüşdür. Adaptasiya olunma – inkişaf trayektoriyası və bütövlükdə dinamik proses qlobal proseslərə sinxron olmaq anlamını daşıyır.

Təbii ki, o prosesləri qabaqlamaq iqtidarında olan və gələcəyə yönəlik resurs (o cümlədən zaman resursu)potensialına malik milli iqtisadiyyat inkişaf prizmasından daha böyük üstünlüklər əldə etmə imkanını qazanır. Və aydındır ki, yaranmaqda olan problem nə qədər tez aşkarlanırsa, onun həlli nəticəsində əldə edilən effekt bir o qədər çox olur.

İnkişaf – proses olma etibarı ilə gələcəyə yönələndir. Gələcəyin «qurulması» prosesidir. Sosio-iqtisadi proseslərin dinamizmində qabarıq formada təzahür edən mürəkkəblik, çoxvariasiyalılıq və qeyri-müəyyənlik inkişafın proses olmaq etibarı ilə kəmiyyətcə qiymətləndirilməsində böyük çətinliklər doğurur. Yəni, prosesin ölçü proseduru, həqiqətdə «işləmir». Eyni zamanda dinamik proseslərə xas olan cəhət - zamanca yaxın və uzaq olan hərəkətlərin nəticələrinin prinsipcə əksyönümlü olması birmənalı dəyərləndirməni mümkünsüz edir. Yaxud, aşkar şəkildə həyata keçirilən fəaliyyətdən gözlənilməz nəticələr əldə edirik.(6;) Bu anlamda gələcək inkişafın proqnozlaşdırılmasında hansısa bir optimallığa nail olmaq imkanları, prinsipcə, mümkün olmur.

## NƏTİCƏLƏR

İnkişaf prosesinin nəzəri dərki ilə bağlı mövcud olan problemlər kompleksinin mühüm bir hissəsi gələcəklə bağlılıqda meydana çıxan anlaşılmazlıqlarla şərtlənir. İnkişaf – gələcəyə istiqamətlənən, gələcəkdə reallaşma prosesini başa çatdıran bir fenomendir. Bu anlamda, inkişaf siyasətinin, yaxud bütövlükdə, cari dövrdə həyata keçirilən iqtisadi siyasətin gələcəkdə nələrlə yekunlaşacağını əvvəlcədən birmənalı şəkildə dəyərləndirmək qeyri-mümkündür. Elmin araşdırdığı zaman kəsiyi keçmişi və «indi»nin bir parçasını ehtiva edir. Elm – gələcəyi araşdırmır. Və, elmin edə biləcəyi (öngörmə prizmasından) yeganə təsbit ondan ibarətdir ki, cari dövrdəki şərtlərin («oyun qaydalarının» və s.) sabit qalacağı təqdirdə gələcək situasiya bugünkündən elə də fərqlənməyəcəkdir. Problemi gəlizləşdirən əsas məsələ də məhz ondan ibarətdir ki, sözügedən sabitliyin gələcəkdə də davam edəcəyini öncədən müəyyənləşdirmək qeyri-mümkündür. Bu məqsədlə tətbiq edilən riyazi modelləşdirmə (statik modellər) gələcəyi «görə bilmir», yalnız «indi»nin hansısa bir intervalını əhatə edir və buna görə də gələcək inkişafı təmin edə biləcək resurslar haqqında «məlumatsız» olur. Bu aspektdən dinamik modellər daha üstün mövqedədir. Amma bu modellər zamanca dəyişməni diqqət mərkəzinə gətirsələr də, davranış tərzini və bütövlükdə prosesdə dominant olan subyektiv amilin rolunu, eləcə də digər sferaların (siyasi, mədəni, sosial və s.) təsir imkanlarını proqnozlaşdırmaqda acizdirlər.

Milli iqtisadiyyatın inkişaf tipi, yaxud inkişaf vektorlarını onun keçmişi ilə əlaqələndirmək, keçmişin müəyyən rol oynadığını əsas kimi ortalığa qoymaq müəyyən mənada anlaşılmazlıq doğur. İqtisadiyyatın təxminən (neolit inqilabından başlayaraq) 10 min ilə yaxın keçmişi var. Bu mənada, söhbətin hansı keçmişdən getdiyini dəqiq ifadə etmək lazımdır. Yaxud «keçmiş» dediyimiz zaman modusu nəyi ifadə edir: Adi xronologiyanımı, əvvəlki cəmiyyət tipinimi, yoxsa iqtisadiyyatın hal-hazırda olduğu dalğanın hansısa əvvəlki tsikllərindən birinimi?

Məsələn, Azərbaycana münasibətdə – milli iqtisadiyyatın cəmi 25 yaşı var. Bugünkü iqtisadi inkişaf sektorlarının seçimində sovet-sosialist «keçmişi» ilə bağlılığın mənası varmı? Ritorik xarakterli suallar problemin, hesab edirik ki, mahiyyətini anlamaq nöqteyi-nəzərindən yetərlidir. “Keçmiş”dən ibrət dərsi almaq nöqteyi-nəzərindən yalnız bir variant mövcuddur: Hal-hazırda gedən iqtisadi dalğanın əvvəlki tsikllərində buraxılan yanlışlıqlar! Məsələn, Azərbaycan üçün əsas ibrət dərsi (keçmişdən alınan) anklav

xarakterlilik, keyfiyyət→kəmiyyət dəyişikliklərinin sistemli xarakter almaması inkişaf prosesində problem yaradan amil kimi çıxış edir.

Digər tərəfdən, inkişaf prosesi keçmiş→gələcək bağlılığının mahiyyət özəlliklərindən yaranan hərəkət trayektoriyasıdır. «Keçmiş» – inkişafın, yəni gələcəyə istiqamətlənən, gələcəyi «quran» prosesin bir növ fiziki «sərhədləri», konkret məzmunlu məhdudiyyətlər sistemi kimi çıxış edir. «Məhdudiyyətlərin» fəaliyyətə keçdiyi nöqtə isə – bifurkasiya nöqtəsi, yaxud sərhəd situasiyasıdır. Məhz bu nöqtədən sonra inkişafa münasibətdə vektor seçimi baş verir. Eyni zamanda, seçim variantları sonsuz sayda olur və keçmişdəki inkişafın «indiki» dövrdə proyeksiyasının çərçivəsi daxilində seçim aparılır (yəni, inkişafın əldə olunan səviyyəsi, iqtisadi potensialın ölçüləri və s.).

Keçmişin aktuallaşdırılması aspektində konkret məzmunlu konseptual baxış da mövcuddur – inkişafın əvvəlki yolundan asılılığı konsepsiyası.(7;) Konsepsiyanın müəllifləri (artur–Devid) inkişafın əvvəlki yolundan, yəni keçmişdən asılılığını iki yönümdə interpretasiya edirdilər:

a) Pozitiv – keçmişdən asılılıq mənfi yüklüdür. Və daha çox bu qəbildən olan proseslərin istisnalar sinfinə aiddir.

b) Neqativ – «keçmişdən» azad olma imkansızlığı əvvəlki inkişaf yolundan asılılıq doğurur. İnkişafın nəzəri konstruksiyası, yaxud modeli dinamik proseslərin spesifikası ilə təsadüfi hadisələrin (proseslərin) simbiozuna istinadla konkret məhdudiyyətlər çərçivəsində qurulmalıdır.

**Tədqiqatın elmi yeniliyi:**Beləliklə, əvvəlki yoldan asılılıq konsepsiyası yalnız seçimin (qeyri-effektiv institut və texnologiyaların) önlənməsi və prosesdə «qapanma» yarada biləcək hadisələrin öngörümünün çox müşkül məsələ olduğunu ortalığa qoyur.

Sözügedən konsepsiyanın neoklassik(8;25) yozumu isə asılılıqla bağlı məzmun fərqləndirilməsinə istinadla üçlü pradasiyaya söykənir:

1) Seçilən yolun (keçmişlə bağlılıqda) keyfiyyət dərəcəsinin əvvəlcədən müəyyənləşdirilməsi qeyri-mümkündür. Qeyri-mümkünlük – öngörmənin anlaşılmazlığı ilə səbəbiyyət bağlılığındadır. Yol müxtəlifliyində məhz hansı variantın daha effektiv olduğu prosesin gedişi və yekununda, yəni gələcək zamanda aydınlaşır: düzdür, bu yanaşma qeyri-effektivliyin təbiəti ilə bağlı suala susmaqla cavab versə də, əlaqənin mövcudluğunu hər halda, təsbit edir.

2) İnformasiyanın yetərli olmadığı situasiyalarda yolun, eləcə də qəbul edilmiş qərarın effektivliyi retrospektiv aspektdən qeyri-effektivlik kimi səciyyələnə bilər.

Yəni neoklassiklər hesab edirlər və əmindirlər ki, zaman moduslararası effekt yanlışlığın miqyasını genişləndirmə gücündədir.

3) və nəhayət, qeyd olunur ki, texnologiya, yaxud institutların seçimində (səbəbin necəliyindən asılı olmayaraq) daha effektiv variantların olduğu şəraitdə belə daha az effektiv olanlar seçilə bilər.

İlkin şərtlərlə bağlı həssaslığın asılılıq anlamında doğurduğu seçimin qeyri, yaxud az effektli olması mümkündür, eyni zamanda həmin yanlışlıqdan qaçma imkanları da mövcuddur.

Keçmişdən asılılığı özünəməxsus tərzdə şərh edən digər bir yanaşma «cari epoxa» konsepsiyası adlanır.

Bu konsepsiyada zaman moduslarına spesifik baxış mövcuddur: ümumiyyətlə, «keçmiş» yox, «yaxın keçmiş»in «indi» ilə birliyi; Bu «birliyin» mənatutumu ziddiyyətlilikdən xali deyildir. Belə ki, «yaxın keçmiş» – hər halda keçmişdir, «indi» deyildir. Belə alınır ki, «indi» dediyimiz zaman kəsiyində mövcud olan münasibət və əlaqələr yaxın keçmişdən qalmadır! Başqa sözlə, hər iki modus – hər hansı bir prosesə (problemə, hadisəyə və s.) münasibətdə eyni şərtlərin eyni dərəcəli sabitliyini özündə ehtiva edir. L.Muzes yazırdı ki, buna görə də fəaliyyətin müxtəlif istiqamətlərində «indi»nin konsepsiyası müxtəlif cür təzahür edir. Digər tərəfdən, sözügedən sabitlik – gələcək üçün də keçərlidirmi, yaxud «yaxın»

gələcəyin hansı intervalını əhatə edəcək sualına hər hansı bir cavab verilmir. «…Biz başa düşməliyik ki, təmayüllər dəyişə bilərlər. Keçmişdə dəyişənlər gələcəkdə də dəyişmə iqtidarındadırlar».(9;97)

## ƏDƏBİYYAT

1. Дж.Стиглиу. Глобализация: тревожные тенденции. Пер. с англ. М., 2003, с.7
2. Г.Колодко. Мир в движении. Пер. с польск. М., 2009, с.160
3. И.Валлерстайн. Анализ мировых систем и ситуация в современном мире. Пер. с англ. М., 2001, с.14
4. D.Rodrik. The Globalization Paradox. Demokracy and the Future of the World Economy. №-4. London. 2011. p.243
5. В.Иноземцев. Глобализация национальных хозяйств и современный экономический кризис. М., 2010
6. П.Сенге. Пятая дисциплина: искусство и практика самообучающейся организации. М., 1999
7. Arthur W.B. Increasing Returus and Path Dependence in the Economy. Ann Arbor. The Inuversity of Michigan Press. 1994
8. S.Z.Liebowits, S.E.Marqolis. Path Dependense Lockin, and History//Journal of Law, Economics and Orqanization. VOL II NI 1995, p.205
9. Л.Музес. Человеческая деятельность. М., 1992, с.97.

**УДК338.1; 330.34/.35; 338.26/.27; 338.12; 330.34; 330.35;**

## ПРОБЛЕМНЫЕ СИТУАЦИИ В ПРОЦЕССЕ РАЗРАБОТКИ: МЕТОДОЛОГИЧЕСКИЙ АСПЕКТ

**Байрамов Вугар Автандил**

**Ключевые слова:** развитие, ситуация, теория, методология, открытость, колебания, синергетика.

**Резюме**В статье проводится сравнительное исследование концептуальных взглядов, создающих проблемные ситуации с точки зрения теоретического осмысления процесса экономического развития. Были предприняты попытки критически обобщить подходы, создающие путаницу и противоречие в теоретическом понимании процесса.

Основная цель - поддержать процесс формирования теоретической структуры, способной поддерживать плавный ход экономического развития.

**UDC338.1; 330.34/.35; 338.26/.27; 338.12; 330.34; 330.35**

## PROBLEM SITUATIONS IN THE DEVELOPMENT PROCESS: METHODOLOGICAL ASPECT

**VuqarAvtandilBayramov,**

**Keywords:** development, situation, theory, methodology, openness, fluctuations, synergetics.

**Summary**

The article provides a comparative study of conceptual views that create problematic situations in terms of theoretical understanding of the process of economic development. Attempts have been made to critically generalize approaches that create confusion and contradiction in the theoretical understanding of the process.

The main purpose is to support the process of formation of a theoretical structure that can support the smooth course of economic development.

**№ 1/2021** **səh.51- 56**

**UOT 339.137.22**

# İQTİSADİ SUBYEKTLƏRIN RƏQABƏTƏ DAVAMLILIĞININ TƏMIN OLUNMASI MEXANİZMİ

***Sultanova Günel Gündüz qızı***

Azərbaycan Texnologiya Universiteti
Gəncə şəh., Ş.İ.Xətai pr., 103

***e-mail:gunel.bayramova.91@list.ru***

***Açar sözlər: rəqabət, keyfiyyət, rəqabət üstünlüyü, mənfəət, bazar, qiymət, səmərə.***

***Xülasə:*** *Müasir şəraitdə iqtisadi subyektlərin rəqabət qabiliyyətliliyinin artırılmasını təmin edən elmi cəhətdən əsaslandırılmış inkişaf konsepsiyasının müəyyən edilməsi ən aktual iqtisadi problemlərdən hesab edilir. Bu prosesdə subyektlərin bazar mövqelərini qorumaqla rəqabət üstünlüyü yaratmaq əsas hədəflərdəndir. Bazar münasibətlərində rəqabət, iqtisadi mexanizmdəki ən vacib yerini qoruyaraq subyektlərin davamlı olaraq inkişafına zəmin yaradır. Deməli, hər hansı bir iqtisadi qurumun bazar şərtlərindəki dəyişikliyə qısa müddətdə cavab vermə qabiliyyəti onun rəqabətə davamlılığını şərtləndirən əsas amildir.*

**Giriş:** İqtisadiyyatın müxtəlif sferalarında subyektlərin rəqabət qabiliyyətinin qorunub saxlanması və artırılması zərurəti, istehlakçıların tələblərini ödəməklə müxtəlif bazar alətlərindən istifadənin zəruriliyini şərtləndirir.Bu prosesdə keyfiyyəti artırmaq, bazar mövqelərini qorumaq, istehlakçılarla qarşılıqlı fəaliyyətin effektivliyini təmin etmək, beləliklə rəqabət üstünlüyü yaratmaq əsas hədəflər olaraq qəbul edilir. Bu baxımdan müasir şəraitdə iqtisadi subyektlərin rəqabətqabiliyyətliliyinin və işgüzar fəaliyyətinin güclənməsini təmin edən elmi cəhətdən əsaslandırılmış inkişaf konsepsiyasının müəyyən edilməsiən aktual iqtisadi problemlərdəndir.

Rəqabət, subyektlərin rəqabətqabiliyyətliliyini, müstəqil hərəkətlərini, ümumi dövriyyə şərtlərinə birtərəfli şəkildə təsir etmək qabiliyyətini xarakterizə edir. Rəqabət ideyası, bazar iqtisadiyyatının uğurlu fəaliyyətini təmin edən ən vacib prinsiplərdəndir. Yeni məhsul, yeni texnologiya və yeni mənbələr rəqabət mübarizəsində vacib şərtlər kimi özünü göstərir. Ona görə iqtisadi subyektlərin fəaliyyəti bazarların fəaliyyət xüsusiyyətlərini nəzərə almağı tələb edir.Qeyd etmək lazımdır ki, rəqabət,iqtisadi ədəbiyyatlarda bazar münasibətlərinin əsas mexanizmi kimi qiymətləndirilir. Bazar iqtisadiyyatının səmərəliliyi məhz rəqabətin səviyyəsindən və rəqabət mühitindən asılıdır.

Ümumi formada rəqabət iqtisadi, texnoloji və sosial şərtlərin optimal əlaqəsini tələb edir. Rəqabət mühitinin olmaması, onun dağıdıcı və ya əksinə zəif təzahürü bazarda aşkar çətinliklərin, təhriflərin meydana çıxmasının və inkişafdakı ciddi fərqlərin bariz göstəricisidir. Rəqabət bu əsasda, mümkün olan maksimum gəlir əldə etmək üçün məhsul və xidmətləri istehsalı və satışında ən əlverişli şərtlərlə istehsalçılar arasında iqtisadi mübarizəni əks etdirir. Beləliklə, rəqabət təbii olaraq bazarda yaranır və bazar, rəqabətin mövcudluğu və inkişafı üçün əvəzolunmaz şərt kimi çıxış edir. Rəqabət özlüyündə müəyyən ziddiyyəti ehtiva edir ki, bu da onun təzahürü nəticəsində özünü inkar edən cəhətlərini çoxaldır [2, s.28]. Qeyd edilənlər göstərir ki, rəqabət iqtisadi qurumların inkişafına gətirib çıxarır. Reallıqda rəqabət kompleks bir mexanizmə görə formalaşır.

**Mövzunun aktuallığı.** Məlumdur ki, iqtisadi subyektlərin özünəməxsus xüsusiyyətləri və üstünlükləri mövcuddur: kiçik subyektlərin elastikliyi ilə seçilsədə, ixtisaslaşmış subyektlər xüsusi bazar seqmentlərinə çevik uyğunlaşma qabiliyyəti və yenilikləri daha tez mənimsəmə üstünlükləri ilə fərqlənir. Xüsusi bazar vəziyyətində üstünlük bu və ya digər keyfiyyətlə əldə edilir. Deməli, rəqabət bazar münasibətləri iştirakçıları və ilk növbədə istehsalçılar üçün obyektiv zərurət olub, subyektləri sistemli şəkildə yeni texnologiyalar tətbiq etməyə, əmək məhsuldarlığını yüksəltməyə, istehsal olunan məhsulların qiymətlərini davamlı olaraq tənzimləməyə məcbur edir. Başqa sözlə, rəqabət istehsal xərclərinə təsir edir, xərclərə qənaət etməyə, istifadə olunan istehsal resurslarından ən rasional şəkildə istifadəyəsövq edir.

Araşdırmalara göstərir ki, bir iqtisadi subyektlərin rəqabət mühitindəki fəaliyyəti ikiqat nəzarətə tabedir. Bu, bir tərəfdən subyekt daxilində birbaşa daxili nəzarət, digər tərəfdən bazar fəaliyyətinin son nəticələri ilə rəqabət edən subyektlər tərəfindən bazarda dolayı xarici nəzarətdir.Hər hansı bir subyektin imkanlarının qiymətləndirilməsinin obyektivliyi, bu və ya digər rəqibin məhsullarına və xidmətlərinə üstünlük verən alıcı tərəfindən müəyyən edilir. Rəqabət iqtisadi nəzarətin ən təsirli metodudur. Rəqabətin mürəkkəbliyi, çoxölçülü olması onun təzahürünün müxtəlif forma və metodlarında özünü biruzə verir. Rəqabətin təsnifatı birbaşa onun metodoloji prinsiplərindən asılıdır. Ümumi prinsipə görə rəqabət azad və inhisarçı formalara bölünür. Rəqabətin əsas təzahür formaları qiymət və qeyri-qiymət amilləri ilə bağlıdır. Bu iki forma nəinki yanaşı, hətta eyni zamanda təzahür edir, həm də proseslərə qarşılıqlı şəkildə təsir göstərir. Elmi və texnoloji tərəqqi qiymətdən kənar rəqabət üçün də geniş imkanlar yaradır: istehsalın texniki və texnoloji potensialını ölçüyəgəlməz dərəcədə genişləndirir, yeni məhsul növlərinin yaradılmasını təmin edir, mövcud məhsulların geniş miqyaslı yenilənməsini və fərqlənməsini təmin edir. Onun təsiri ilə xidmətin keyfiyyətinin sürətlə yaxşılaşdırılması, reklamın təşviqi, tələbin formalaşması və satışın stimullaşdırılması şərtləri ortaya çıxır. Qeyd edilənlər iqtisadi subyektlərin rəqabətə davamlılığı problemlərinin aktuallığını təsdiq edir.

**Tədqiqatın məqsədi.**Tədqiqatın məqsədi rəqabətin və rəqabət mühitinin formalaşması mexanizminin, iqtisadi subyektlərdə rəqabətə davamlılıq göstəricilərinin mövcud vəziyyətini araşdırmaqla onların yaxşılaşdırılması istiqamətlərinin müəyyənləşdirilməsindən ibarətdir.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

Tarixən rəqabət bazarla birlikdə əvvəlcə ayrı-ayrı bölgələrdə inkişaf etmiş və əhatə dairəsinigenişləndirərək tədricən milli və beynəlxalq xarakter almışdır. Qlobal miqyasda rəqabət, ölkələr daxilində rəqabət üçün əks amilləri müəyyən edir, təzahürünün mümkün məkan çərçivəsini genişləndirir, qlobal şərtlərin yaratdığı davranış standartlarınımüəyyən edir.

Bazar subyektlərinin davranışına uyğun rəqabətin təzahürünü nəzərə alaraq qeyd etmək lazımdır ki, alıcı üçün istehsalçılar arasındakı rəqabət ən vacib xarakter daşıyır. Məhz bu şərtlər daxilində mövcud olanların təkmilləşdirilməsini və yeni, daha səmərəli məhsulların meydana gəlməsini, nəticədə milli iqtisadiyyatın strukturunun dinamik şəkildə təkmilləşdirilməsini, səmərəliliyinin və rəqabət qabiliyyətinin artırılmasını təmin etmək mümkün olur. "Belə ki, yalnız tam rəqabət şəraitində iqtisadiyyata stimul verməklə yerli məhsul və xidmətlərin rəqabətqabiliyyətliliyini artırmaq olar. Rəqabət mühitinin təkmilləşdirilməsi sağlam və tam təkmil rəqabət qanunvericiliyinin olmasını, bu qanunvericiliyin effektiv və müstəqil fəaliyyət göstərən rəqabət qurumu tərəfindən tətbiqini və ümumilikdə rəqabət prinsiplərinə əməl edən, rəqabətin inkişafındakı əngəlləri aradan qaldıran və inhisarçılığa yol verməyən iqtisadi siyasətin gerçəkləşdirilməsini tələb edir" [1].

Rəqabət məhsulların yeniliyi və təkmilləşdirilməsi, yeni istehsal texnologiyasına keçdi şərtləndirir. Bu səbəbdən iqtisadi subyektlər səyləriniəsasən köhnə məhsulların bazarlarını ələ keçirməyə və rəqiblərini sıxışdırmağa deyil, alıcıya yeni məhsullar təklif etməyə yönəldir. Hazırda elmi və texnoloji yeniliklər istehsalçılar arasındakı rəqabətə təsirinin spesifikliyini ortaya qoyur. Göstərilənləri nəzərə alaraq, müasir bazar şəraitində rəqabət və onun mahiyyəti ilə bağlı aşağıdakı nəticələri ümumiləşdirmək olar: bazar iqtisadiyyatında rəqabət, iqtisadi mexanizmdəki ən vacib yerini qoruyaraq iqtisadi inkişafda xüsusi rol oynayırvə subyektlərin davamlı olaraq inkişafına zəmin yaradır.

Rəqabət öz-özünə tənzimləyən bir prinsipi təcəssüm etdirir, subyektlərin iqtisadi səmərəliliyinə təsirini artırmaq istiqamətində hərəkət edir, təkrar istehsal prosesinin effektivliyinin artması ilə tələb və təklifin dinamik tarazlığına gətirib çıxarır.

İqtisadi sahədə yaranan bütün rəqabət əlaqələri, müəyyən dərəcədə konvensiya ilə fərqlənir: mikro səviyyə (məhsulların, istehsalın, müəssisələrin spesifik növləri); mezo-səviyyə (müəyyən sahələr, müəssisələrin korporativ birlikləri); makro səviyyə (milli iqtisadi komplekslər). Məhsulların və xidmətlərin rəqabətqabiliyyətliliyi mikro rəqabət qabiliyyətini müəyyənləşdirir. O, ayrı-ayrı müəssisələr tərəfindən istehsal olunan konkret məhsulların və ya göstərilən xidmətlərin qiyməti və keyfiyyətinin nisbəti kimi başa düşülür. Mezo səviyyədə rəqabət qabiliyyəti milli iqtisadiyyatın ayrı-ayrı sahələrinin səmərəliliyini xarakterizə edir. Makro rəqabətlilik, bir ölkənin müstəqil olaraq inkişaf etməsi və digər ölkələrlə iqtisadi cəhətdən uğurla rəqabət etməsini əks etdirir. Beləliklə, makro rəqabət qabiliyyətinin aşağıdakı amillərlə müəyyən olunduğunu qeyd etmək olar: iqtisadi müstəqillik və təhlükəsizlik dərəcəsi; daxili siyasi və sosial sabitlik; siyasi və iqtisadi sahələrdə uyğunluq; əhalinin həyat səviyyəsi və digər ölkələrlə müqayisədə dinamik olaraq sosial qruplar tərəfindən fərqləndirilməsi.

Araşdırmalara əsaslanaraq qeyd etmək olar ki, rəqabət üstünlüyü və bütövlükdə rəqabət qabiliyyəti, daha çox uğur qazanan rəqib subyektlərin müvafiq göstəriciləri ilə müqayisə etməklə aşkar olunur. Bu baxımdan iqtisadi subyektlərin rəqabət üstünlükləri aşağıdakılrla özünü göstərir:

- qlobal bazarlarda təkmil strateji idarəetmə mexanizminin mövcudluğu;
- istehsalın, bazarın və subyektin bütün fəaliyyətinin əsas rəqibləri ilə müqayisədə gəlirliliyi;
-innovativ fəaliyyətin genişlənməsi;
- əmək məhsuldarlığının yüksəlməsi;
- müştəri məmnuniyyətinin ölçüsü;
- uyğunlaşma və bazarın, eləcə də istehlakçıların dəyişən tələblərinə sürətli reaksiya.

Təbii ki, iqtisadi subyektlərin rəqabət üstünlükləri nə qədər genişdirsə və rəqiblərlə müqayisədə keyfiyyət səviyyəsi nə qədər yüksəkdirsə, bazarlarda uğur qazanmağın obyektiv ilkin şərtləri o qədər əlverişlidir, o qədər sabit mövqe tuta bilərlər. Beynəlxalq rəqabət səviyyəsi, əmtəə istehsalçısı yalnız xarici bazarlara daxil olduqdaözünü göstərir. Subyekt üçün beynəlxalq rəqabət qabiliyyətinə ehtiyacın bu şəkildə başa düşülməsi, dünyanın əksər ölkələrinin iqtisadiyyatının beynəlxalq iqtisadi münasibətlərin vəziyyəti ilə müəyyən edilir.Deməli, milli bazar və onun tələbləri dünya bazarının və beynəlxalq rəqabətin aktiv təsiri altında formalaşır. Beləliklə, hər hansı bir iqtisadi obyektin beynəlxalq rəqabət qabiliyyəti mürəkkəb bir quruluşa malikdir və bir-biri ilə qarşılıqlı əlaqədə olan, beynəlxalq rəqabət səviyyəsini təşkil edən müxtəlif komponentlərdən ibarətdir.

Ayrı-ayrı subyektlərin və bütövlükdə milli iqtisadiyyatınrəqabət üstünlüyü həm daxili, həm də dünya bazarındakı vəziyyətdən asılıdır. Bu baxımdan işçi qüvvəsi, təbii ehtiyatlar, idarəetmə təcrübəsindəki mövcud fərqlər kimi amilləri nəzərə alsaq, rəqabət qabiliyyətini müəyyən edən bir çox amillərin mövcudluğunu qeyd edə bilərik [4,s.108]. Bunlar hamısı inkişaf prosesi üçün əsas iqtisadi şərtlərdir. Onların təsirini aşağıdakı amillər baxımından nəzərə almaq vacibdir: subyektlərin maliyyə

vəziyyəti, qabaqcıl texnologiyanın mövcudluğu, məhsul və qiymətlərlə manevretmə qabiliyyəti, satış şəbəkəsi və təcrübəli satış personalının mövcudluğu, texniki və ticarət xidmətlərinin keyfiyyəti, reklam və ictimaiyyətlə əlaqələr sistemlərinin effektivliyi, informasiya təhlükəsizliyi və s.

Bu amillərin çoxu, məhsulların istehsalçıdan istehlakçıya sürətli hərəkətini təmin edir və bu səbəbdən kapital dövriyyəsi prosesini sürətləndirir. Bu istiqamətdə şərti olaraq əsas amilləri aşağıdakı qruplara bölmək mümkündür:

- texnoloji:
- yüksək tədqiqat potensialı;
- istehsalın təşkili və yeniliklərdən istifadəetmə qabiliyyəti;
- istehsalın miqyası və innovativ iqtisadiyyatdan tam istifadə;
- istehsalın yüksək keyfiyyəti;
- istehsal sahələrindən optimal istifadə;
- təchizatçılara əlaqə;
- yüksək ixtisaslı kadrlarla təmin olunma;
- yüksək əmək məhsuldarlığı;
- tələb olunan istehsal elastikliyi;
-müasir marketinq sistemindən tam istifadə;
- təcrübəli satış heyəti;
- satış sonrası xidmətin yüksək səviyyəsi;
- geniş çeşid:
- cəlbedici qablaşdırma;
- yüksək peşəkarlıq səviyyəsi;
- keyfiyyətə diqqət;
- yüksək dizayn potensialı;
- məhsullarısürətli bazara çıxarmaq qabiliyyəti;
- xarici mühitdəki dəyişikliklərə çevik cavab vermək qabiliyyəti;
- idarəetmə təcrübəsinin mövcudluğu;
- güclü informasiya sistemi;
- maliyyə mənbələrinə çıxış;

əqli mülkiyyəti qorumaq bacarığı və s.

Bu təsnifat, əsas müvəffəqiyyət amillərinin sistemləşdirilməsini mümkün edir, bununla yanaşı əlavə yanaşmalar tələb edir. Çünki müvəffəqiyyət və subyektin rəqabətqabiliyyətliliyi mənfəət əldə etmək qabiliyyəti ilə müəyyən edilir və bütövlükdə onun fəaliyyətinin səmərəliliyini xarakterizə edir. Subyektin rəqabət qabiliyyətini müəyyən edən rəqabət mühitinin əsas amillərinə aşağıdakılar daxildir: insan resursları (kəmiyyət, keyfiyyət, əmək xərcləri və s); resurslar (torpaq, su, meşələr və s.); məlumat mənbəyi; maliyyəresursları, ölkənin və bölgənin infrastrukturu; siyasi amillər; iqtisadi resurslar; demoqrafik və mədəni amillər; mikro mühit və s. Qeyd etmək lazımdır ki, bütün əsas bazar qüvvələri zaman faktoru ilə əlaqələndirilir: istehlakçılar, təchizatçılar, mövcud və potensial rəqiblər, əvəzedici mal istehsalçıları. Vaxtın rəqabət amili kimi istifadə edilməsi həm subyektə, həm də istehlakçıya əlavə fayda gətirməlidir.

Vaxt amili, əsaslı rəqabətdə çox vaxt dolayı bir strategiya şəklində istifadə olunur. Yeni bir strategiyanın tətbiq edilməsində vaxt amili, ehtiyacların fərqləndirilməsinin təsiri ortadan qaldırır və subyekti yeni müştəri istəklərini təmin etməyə yönəldir. Son vaxtlar vaxt amili ilə sıx bağlı olan bazarların sayı artmaqdadır. Bu, təklif olunan rəqabət təcrübəsindən istifadə perspektivini genişləndirir.

Ona görə subyektlərin rəqabət qabiliyyətinin təmin edilməsində vaxt amilinin həlledici rolunun yüksək qiymətləndirildiyini qeyd etmək olar.

Mövcud şəraitdə marketinq mühitini öyrənmədən və bir sıra effektiv marketinq fəaliyyətini həyata keçirmədən istənilən səviyyədə rəqabət qabiliyyətinə çatmaq demək olar ki, mümkün deyil. Bazara yalnız rəqabətli məhsulla daxil olmaqla, iqtisadi inkişafa imkan yaranır. rəqabət mübarizəsini itirmək isə müəssisənin məhv edilməsinə bərabərdir. Qeyd edilənlərə əsaslanaraq demək olar ki, rəqabət qabiliyyətlilik dedikdə, iqtisadi bir qurumun bazar şərtlərindəki hər hansı bir dəyişikliyə qısa müddətdə cavab vermə qabiliyyəti və əhalinin ehtiyaclarını ödəmək qərarı kimi başa düşülür.

İqtisadi subyektin rəqabət qabiliyyətini qiymətləndirmək üçün təcrübədə tətbiq olunan bir çox metodlar mövcuddur [3, s.122].Lakin rəqabətqabiliyyətliliyin qiymətləndirilməsində bazar vəziyyətini təhlil edərkən minimum xərclər və etibarlı nəticələr verəcək vahid yanaşma mövcud deyil. İqtisadi subyektlərin rəqabət qabiliyyətinin qiymətləndirilməsi bir sıra mərhələlərindən ibarətdir:

- həll olunan problemlə əlaqəli məlumatların məqsədyönlü şəkildə toplanması və işlənməsi;
- rəqabət qabiliyyətliliyinin müəyyənləşdirilməsi, xüsusiyyətləri və mövcudluq şərtlərinin təsviri;
-subyektin rəqabət qabiliyyətinin təmin edilməsi mexanizminin dəqiqləşdirilməsi daxil olmaqla zəruri modellərdən və metodlardan istifadə edərək rəqabət qabiliyyətinin araşdırılması;
-subyektin rəqabət qabiliyyəti səviyyəsinin və nailiyyət dərəcəsinin göstəricilərinin və meyarlarının təhlili;
- rəqabətqabiliyyətlilik səviyyəsinin proqnozlaşdırılması.

Hazırkı iqtisadi şəraitdə subyektlərin potensial imkanlarını müəyyənləşdirmək və rəqabət qabiliyyətinə nail olmaq üçün aşağıdakı istiqamətlər məqbul hesab edilir:

- xərclərin azaldılması -istehsal və istehlak xərcləri nə qədər aşağı olarsa, subyektin rəqiblərə nisbətən daha çox üstünlükləri yaranır;
- rəqiblərdən daha yaxşı istifadə edilə bilən istehsal amillərininmüəyyənləşdirilməsi;
- xarici mühitdəki dəyişikliklərə daha çevik uyğunlaşmanın təmin edilməsi - yeniliklər, şaxələndirmə, bazar tutumunun artması ehtimalı və s.;
- rəqiblərin məhsulları və xidmətləri ilə müqayisədə istehlakçıların ehtiyaclarını daha yaxşı qarşılayan məhsul və ya xidmətlər üçün üstünlüklər yaratmaq bacarığının formalaşdırılması;
- ən təsirli strateji iqtisadi zonaları düzgün müəyyənləşdirmək bacarığının təmin edilməsi.

## Nəticələr

Araşdırmalar göstərir ki, hər hansı iqtisadi subyektin rəqabət qabiliyyətini təmin etmək üçün mövcud bütün mənbələrdən tam və səmərəli istifadə zəruridir. Bu səbəbdən ölkələrin bəzi məhsullar istehsalında ixtisaslaşması, bəzən isə idxalı daha məqsədəuyğundur. Həqiqətən də istehsal və xidmətlərin ixtisaslaşması məhsul və xidmətlərin keyfiyyətinin yüksəldilməsi üçün ən mühüm ehtiyatlardan biridir.

Deyilənləri ümumiləşdirərək iqtisadi subyektlərin xüsusiyyətlərinə və bazar vəziyyətinin inkişaf tendensiyalarına uyğun olaraq aşağıdakı istiqamətləri subyektlərin rəqabət qabiliyyətliliyinin yüksəldilməsində prioritetlər kimi qəbul etmək olar:

- rəqabət strategiyanın üstünlüklərinin və risklərin qiymətləndirilməsi;
- rəqabət strategiyanın həyata keçirilməsi üçün tələb olunan bazar şərtlərinin, real bazar vəziyyətinin uyğunluğunun təhlili;
- istehsalın və idarəetmənin təşkili xüsusiyyətlərinin tələblərə uyğunluğunun təhlili.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- rəqabət mexanizminin və mühitinin inkişafının nəzəri və praktiki aspektləri müəyyən edilmişdir;

- iqtisadi subyektlərinrəqabətə davamlılığına təsir edən amillər müəyyən edilmişdir;
- elmi-texniki yeniliklərin subyektlərin rəqabətə davamlılığına təsiri müəyyənləşdirilmişdir;
- iqtisadi subyektlərin rəqabət üstünlüyündə özünü biruzə verən beynəlxalq rəqabətin təsiri qiymətləndirilmişdir;
- rəqabət üstünlüyünü təmin edən göstəricilirən qiymətləndirilməsi əsasında iqtisadi subyektlərinrəqabətə davamlılığının yaxşılaşdırılması tədbirləri müəyyən edilmişdir.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti.** Tədqiqatın praktiki əhəmiyyəti iqtisadi subyektlərin rəqabət üstünlüyünü təmin etməklə iqtisadi cəhətdən daha səmərəli nəticələr və mənfəət əldə etmək imkanlarını müəyyən etməkdən ibarətdir.

**Tədqiqat işinin iqtisadi səmərəsi.** İqtisadi subyektlərin istehsal etdikləri məhsulların rəqabət qabiliyyəti və subyektin özünün rəqabət üstünlüyü onun fəaliyyətinin iqtisadi səmərəliliyinin əsasını təşkil edir. Bu baxımdan rəqabət mexanizminin və mühitinin inkişafı, subyektlərin rəqabətə davamlılığını yüksəltməklə ümumi iqtisadi faydanın artmasına müsbət təsir edə bilər.

## ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi". Azrəbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cü il tarixli sərncamı.
2. Портер, М. Конкуренция / М. Портер; пер. с англ. М.: Издательский дом «Вильяме», 2000. - 495 с.
3. Паршин В.Ф. Методические основы оценки конкурентоспособности предприятия на рынке: ценовой аспект / В.Ф. Паршин // Экономика и управление. – 2010. – № 1. – С. 121– 127.
4. Головачев А.С. Методические основы конкурентоспособности отрасли и показатели ее оценки. Экономика и управление. – 2010. – № 2. – С. 108–117.

**УДК 339.137.22**

# МЕХАНИЗМ ОБЕСПЕЧЕНИЯ КОНКУРЕНТОСПОСОБНОСТИ ЭКОНОМИЧЕСКИХ СУБЪЕКТОВ

**Султанова Гюнель Гюндуз кызы**

**Азербайджанский Технологический Университет**

***Ключевые слова:*** конкуренция, качество, конкурентное преимущество, прибыль, рынок, цена, выгода.

В современных условиях определение научно обоснованной концепции развития, обеспечивающей повышение конкурентоспособности экономических субъектов, считается одним из самых актуальных экономических проблем. В этом процессе одним из основных целей является создание конкурентного преимущества при сохранении рыночных позиций субъектов. Сохраняя свое важнейшее место в хозяйственном механизме, конкуренция в рыночных отношениях, создает основу для устойчивого развития субъектов. Таким образом, способность любого экономического института быстро реагировать на изменения рыночных условий является ключевым фактором, определяющим его конкурентоспособность.

**№ 1/2021** **səh.51- 56**

**UDC 339.137.22**

**MECHANISM OF ENSURING COMPETITIVENESS OF ECONOMIC ENTITIES**

**Sultanova Gunel Gunduz**

***Key words:*** competition, quality, competitive advantage, profit, market, price, benefit.

In modern conditions, the definition of a scientifically grounded development concept that ensures an increase in the competitiveness of economic entities is considered one of the most pressing economic problems. In this process, one of the main goals is to create a competitive advantage while maintaining the market positions of the subjects. While maintaining its most important place in the economic mechanism, competition in market relations creates the basis for sustainable development of entities. Thus, the ability of any economic institution to respond quickly to changes in market conditions is a key factor in determining its competitiveness.

Redaksiyaya daxilolma 22.04.2021
Çapa qəbul olunma 05.06.2021

**№ 1/2021** **səh.58 - 63**

*UOT 338.43*

# AQRAR SAHƏNİN MODERNLƏŞMƏSİ SƏVİYYƏSİ VƏ ONA TƏSİR EDƏN AMİLLƏR

***Məmmədli Yeganə Zakir qızı***

***Mingəçevir Dövlət Universiteti,***
***Dilarə Əliyeva küçəsi 21.***
***email: ferzeliyeva76@mail.ru***

**Xülasə: Məqalə aqrar sektorun modernləşmə problemlərinə həsr edilmişdir. Məqalədə aqrar sektorun modernləşlməsinin mühüm istiqamətləri və aktual problemləri ardıcıl olaraq tədqiq edilmiş, statistik məlumatlar əsasında təhlillər aparılmış və modernləşdirmənin ölkənin kənd təsərrüfatı istehsalının artırılmasına təsiri əsaslandırılmışdır. Aqrar sektorda maddi-texniki resurslardan səmərəli istifadənin təşkili və təkmilləşdirilməsi məsələlərinə də məqalədə geniş yer verilmiş və tədqiq olunan məsələlərə dair təkliflər irəli sürülmüşdür.**

**Açar sözlər:modernləşmə, aqrar sahə, innovasiya, investisiya, iqtisadi səmərəlilik, iqtisadi artım, idxal, ixrac.**

***Giriş.*** Modernləşmə iqtisadiyyatın əsas problemi olan minimum resurslarla maksimum nəticə əldə etməyə, başqa sözlə iqtisadi səmərəliliyi artırmağa xidmət etməli, daimi xarakter daşımalı, cəmiyyətin siyasi-ictimai, sosial-iqtisadi, mədəni və sivil həyatını əhatə etməli, tarixi inkişaf mərhələlərinə uyğun olaraq formasını dəyişməli, qlobal, regional, milli və lokal səviyyələri əhatə etməli, insan resurslarının kəmiyyət və keyfiyyət dəyişikliklərinə yol açmalıdır. Bu mənada, modernləşmə prosesi və onun genişləndirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Aqrar sahədə modernləşmənin əsas istiqamətlərini yeni aqrotexnologiyaların tətbiqi, yeni texnologiyalara əsaslanan aqroparkların təşkili, məhsuldar toxum və cins mal-qara bazasının yaradılması, kimyəvi gübrələrdən istifadə, yeni texnologiyalara əsaslanan emal sektorunun yaradılması, məhsuldarlığın yüksəldilməsini təmin edəcək yeni üsullardan istifadə təşkil edir. Modernləşmə prosesi eyni zamanda kənd təsərrüfatının inkişafını intensivləşdirir. Kənd təsərrüfatı məhsullarının artımının təmin edilməsində daha ixtisaslı əmək sərfinə investisiya qoyuluşunun daim artması mühüm rol oynayır.

**Mövzunun aktuallığı.**Ölkə iqtisadiyyatının digər sahələrində olduğu kimi, aqrar sahənin də modernləşməsi və dayanıqlı inkişafının təmin edilməsi – müasir dövrün ən aktual məsələlərindən hesab olunur. Aqrar sahədə formalaşam tələb-təklifin düzgün müəyyənləşdirilməsi və ona uyğun prioritet istiqamətlərin işlənib hazırlanaraq həyata keçirilməsi çox zəruridir. Aqrar sahənin dayanıqlı inkişafına əsaslanan modernləşmə tədbirləri – müasir şəraitdə iqtisadi subyektin maraq və mənafelərini özündə əks etdirməklə yanaşı, gələcəkdə də bu sahənin ardıcıl inkişafının başlıca məqamlarını birləşdirməlidir. Hazırda bu mühüm sahənin modernləşməsinin ən vacib istiqamətlərindən biri müasir və modern tələblərə uyğun aqrar sektorun inkişaf və investisiya strategiyasının işlənib hazırlanmasıdır. Nəticədə bu strategiyanın reallaşdırılması istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsinə təsirini daha da gücləndirəcəkdir.

Aqrar istehsalın səmərəliliyini artırmaqla yanaşı, modernləşmə siyasəti komplekslilik və mümkün risklərdən sığortalanma kimi prinsiplərin üzərində dayanmalıdır.

Araşdırmalara əsaslanaraq qeyd edə bilərik ki, aqrar sahənin modernləşməsi ölkənin tədiyyə balansına da öz təsirini göstərir. Belə ki, idxalda aqrar sahə üçün lazım olan əsas və dövriyyə vəsaitlərinin (aqrar texnika, toxum, gübrə, pestisidlər və s.) xüsusi çəkisi artdığı halda, ixracda modernləşmə

nəticəsində rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsullarının çəkisi yüksəlir. Digər tərəfdən aqrar sahənin modernləşdirilməsinin tətbiqi ölkədə ərzaq idxalından asılılığı azaldır və bu da öz növbəsində ixrac potensialının stimullaşdırılmasına şərait yaradır.

Qeyd etmək olar ki, aqrar sahənin inkişafında elm və texnikanın genişləndirilməsinə çəkilən xərclər daha üstünlük təşkil etməlidir. Kənd təsərrüfatının modernləşməsi zamanı, xüsusilə infrastrukturun təkmilləşdirilməsinə diqqət yetirmək və bu yolla kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətinin artırılmasının mümkün olduğunu qeyd etmək lazımdır.

**Tədqiqatın məqsədi.**Tədqiqatın məqsədiaqrar sahənin prioritet inkişaf istiqamətlərinə uyğun olaraq modernləşdirməni beynəlxalq təcrübəyə uyğun şəkildə təkmilləşdirilməklə və uyğun islahatları daha da intensivləşdirməklə qısa vaxtda yeni inkişaf mərhələsinə keçməyi təmin etmək vəölkənin özünü tam təmin edən və ərzaq təhlükəsizliyinə nail olunması imkanlarının müəyyən edilməsidir.

## MATERIALLAR VƏ MÜZAKIRƏLƏR

Hər bir ölkədə kənd təsərrüfatının modernləşdirilməsi iqtisadi resurslarla təminat, təbii, iqtisadi və sosial şərait nəzərə alınmaqla həyata keçirilir. İqtisadi inkişaf baxımından məqsədə çatmağın əsas vəzifələrindən biri olan kənd təsərrüfatının modernləşdirilməsi elmin, texnoloji yeniliklərin və informasiya texnologiyalarının istehsalata tətbiqini, bu proseslərin aqrar sferada dərinləşməsinin təşviqini özündə ehtiva edir. Beynəlxalq təcrübədə kənd təsərrüfatının modernləşdirilməsini təşviq edən tədbirlər təbii resurslardan səmərəli istifadə əsasında dayanıqlı inkişafa nail olmaqla yanaşı ətraf mühitin qorunmasına yönəldilir [3]. Ümumiyyətlə, kənd təsərrüfatı istehsalının sürətli inkişafı ənənəvi kənd təsərrüfatı sisteminin modernləşdirilməsindən və rəqabətli kənd təsərrüfatının formalaşdırılmasından keçir. Deməli, istehsalın modernləşdirilməsi ölkənin əsas kənd təsərrüfatı məhsulları ilə özünütəminetmə problemini həll etməklə istehsalçıların daxili və xarici bazarlarda mövqelərini gücləndirməyin və kənd təsərrüfatı istehsalçıları arasında rəqabət üstünlüklərinin formalaşdırılmasının əsas yoludur.

Qeyd edilənlər təbii olaraq özünü kənd təsərrüfatının maddi-texniki təminatında bilavasitə biruzə verir. Hesablamalara görə respublikada kənd təsərrüfatı istehsalçılarının traktorlarla, taxılyığan kombaynlar və başqa maşınlarla təchizatı 2019-cu ildə 2015-ci illə müqayisədə xeyli artmışdır.

**Cədvəl 1**

**Əsas növ kənd təsərrüfatı texnikalarının mövcudluğu, ədəd**

| Texnikalar | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2015-ci ilə nisbətən 2019-cu ildə, dəfə |
|---|---|---|---|---|---|---|
| Traktorlar | 12262 | 17043 | 21787 | 34829 | 34936 | 2,8 |
| Kotanlar | 570 | 1002 | 1624 | 4350 | 4413 | 7,7 |
| Kultivatorlar | 49 | 79 | 192 | 589 | 1094 | 22,3 |
| Taxıl-toxum səpənlər | 185 | 294 | 603 | 1697 | 1797 | 9,7 |
| Otbiçənlər | 90 | 128 | 440 | 660 | 755 | 8,4 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Ot presləyənlər | 476 | 683 | 824 | 1656 | 1580 | 3,3 |
| Taxılyığan kombaynlar | 658 | 1285 | 1621 | 3671 | 3817 | 5,8 |
| Qarğıdalı yığan kombaynlar | 2 | 2 | 2 | 10 | 8 | 4 |
| Pambıq yığan kombaynlar | 86 | 89 | 311 | 487 | 482 | 5,6 |
| Kartof yığan maşınlar | 4 | 5 | 12 | 39 | 43 | 10,6 |
| Bərk gübrə dağıdan maşınlar | 19 | 54 | 82 | 211 | 281 | 14,8 |
| Tozlayıcı və çiləyici maşınlar | 82 | 130 | 194 | 849 | 961 | 11,7 |

Qeyd: Cədvəl Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Əsas növ kənd təsərrüfatı texnikalarının dinamikasına nəzər saldıqda məlum olur ki, 2015-ci ilə nisbətən 2019-cu ildə traktorlarda 22674 ədəd, yaxud 2,8 dəfə, kotanlarda 3843 ədəd, yaxud 7,7 dəfə, kultivatorlarda 1045 ədəd, yaxud 22,3 dəfə, taxıl-toxum səpənlərdə 1612 ədəd, yaxud 9,7 dəfə, otbiçənlərdə 665, yaxud 8,4 dəfə, ot presləyənlərdə 1104 ədəd, yaxud 3,3 dəfə, taxılyığan kombaynlarda 3159, yaxud 5,8 dəfə, qarğıdalı yığan kombaynlarda 6 ədəd, yaxud 4 dəfə, pambıq yığan kombaynlarda 396 ədəd, yaxud 5,6 dəfə, kartof yığan kombaynlarda 39 ədəd, yaxud 10,6 dəfə, bərk gübrə dağıdan maşınlarda 262 ədəd, yaxud 14,8 dəfə, tozlayıcı və çiləyici maşınlarda isə 879 ədəd, yaxud 11, 7 dəfə artım baş vermişdir [cədvəl 1].

Texniki resurslarla təminat məlumdur ki, texnika ilə təmin olunma səviyyəsini formalaşdırır. Bu göstərici əsasən hər hektar əkin sahəsinə düşən texniki vasitələr və ya bunun əksi olan göstərici ilə müəyyənləşir.

Təhlil göstərir ki, kənd təsərrüfatında texnikadan daha səmərəli və məhsuldar istifadə etmək, onların məhsuldarlığını yüksəltmək, digər modernləşdirmə mexanizmlərindən istifadə etmək hesabına 2015-ci illə müqayisədə 2019-cu ildə kənd təsərrüfatında 1000 ha əkinə düşən traktorun sayı 12,7 ədəd, yaxud 2,6 dəfə çox, bir traktora düşən əkin 80 ha, yaxud 2,6 dəfə az olmuşdur. Müvafiq bitkilərin min hektar əkin sahəsinə düşən kombayn (maşın) üzrə – taxılyığan 3 ədəd, yaxud 5,2 dəfə çox; qarğıdalıyığan 0,1 ədəd, yaxud 2 dəfə çox; kartofyığan 0,7 ədəd, yaxud 8 dəfə çox; çuğunduryığan 3,6 ədəd yaxud 4 dəfə çox; pambıqyığan isə 0,2 ədəd, yaxud 4,3 faiz çox olmiş, bir kombayna (maşına) düşən müvafiq bitki əkinləri üzrə – taxılyığan 1097 ha, yaxud 5 dəfə; qarğıdalıyığan 14350 ha, yaxud 4,5 dəfə; kartofyığan 13920 ha, yaxud 11,5 dəfə; çuğunduryığan 9 ha, yaxud 3,9 dəfə, pambıqyığan isə 9 ha, yaxud 4,1 faiz az olmuş, o cümlədən, 100 traktora düşən kotan 8 ədəd, yaxud 2,6 dəfə; kultivator 2,6 ədəd, yaxud 7,5 dəfə; toxumsəpən 3 ədəd, yaxud 2,5 dəfə; ot biçən 1 ədəd, yaxud 2 dəfə çox olmuşdur [cədvəl 2].

**Cədvəl 2**

**Kənd təsərrüfatının texnika ilə təmin olunma**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2015-ci müqayisədə 2 ildə %-lə və ya |
|---|---|---|---|---|---|---|
| 1000 ha əkinə traktor düşür, əd | 7,7 | 10,5 | 13,1 | 20,0 | 20,4 | +2,6 dəfə |
| Bir traktora düşən əkin, ha | 129,0 | 96 | 76 | 50 | 49 | -2,6 dəfə |
| Müvafiq bitkilərin min hektar əkin sahəsinə kombayn (maşın) düşür, ədəd | | | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Taxilyığan | 0,7 | 1,4 | 1,8 | 3,5 | 3,7 | +5,3 dəfə |
| Qarğıdalıyığan | 0,1 | 0,1 | 0,1 | 0,3 | 0,2 | +2 dəfə |
| Kartofyığan | 0,1 | 0,1 | 0,2 | 0,7 | 0,8 | + 8 dəfə |
| Çuğunduryığan | 1,2 | 0,1 | 0,6 | 3,6 | 4,8 | +4 dəfə |
| Pambıqyığan | 4,6 | 1,7 | 2,3 | 3,7 | 4,8 | 104,3 |
| Bir kombayna (maşına) düşən müvafiq bitki əkinləri, ha | | | | | | |
| Taxilyığan | 1369 | 736 | 567 | 286 | 272 | -5 dəfə |
| Qarğıdalıyığan | 18455 | 17928 | 17845 | 3175 | 4105 | -4,5 dəfə |
| Kartofyığan | 15244 | 12558 | 4898 | 1521 | 1324 | -11,5 dəfə |
| Çuğunduryığan | 820 | 7061 | 1740 | 276 | 210 | -3,9 dəfə |
| Pambıqyığan | 217 | 577 | 439 | 272 | 208 | 95,9 faiz |
| 100 traktora düşür, ədəd | | | | | | |
| Kotan | 5 | 6 | 8 | 12 | 13 | +2,6 dəfə |
| Kultivator | 0,4 | 0,5 | 1 | 2 | 3 | +7,5 dəfə |
| Toxumsəpən | 2 | 2 | 3 | 5 | 5 | +2,5 dəfə |
| Ot biçən | 1 | 1 | 2 | 2 | 2 | +2 dəfə |

Qeyd: Cədvəl Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Məlumdur ki, kənd təsərrüfatının texniki bazasının yenilənmə dərəcəsi dövlət tərəfindən kənd təsərrüfatına dəstək tədbirləri ilə birbaşa bağlıdır. Bunu şərtləndirən başlıca amillərdən biri isə müəyyən fəaliyyət sahələrinin bir-biri ilə çoxşaxəli asılılığa malik olmasıdır. Bu onu göstərir ki, kənd təsərrüfatının inkişafının texniki və texnoloji komponentinin yenilənməsi modernləşmə prosesinin yalnız bir hissəsidir. Odur ki, istehsal texnologiyası və texniki avadanlıqların dəyişdirilməsi iqtisadi modernləşmədə daxili resurslar hesabına bütövlükdə aqrar sferanın rəqabət qabiliyyətinin artırılmasına yönəldilir.

## NƏTİCƏ

Araşdırmalara əsaslanaraq qeyd etmək olar ki, ölkənin inkişafının mövcud iqtisadi modelinin çatışmazlıqlarına səbəb olan amillər arasında istehsal prosesində elmin nəticələrinin tətbiqinin kifayət səviyyədə olmaması xüsusi yer tutur. Belə ki, inkişaf etmiş ölkələrdə elmin nəticələrinin tətbiqi hesabına yaradılan dəyərlər 50%-ə çatır. Respublikamızın kənd təsərrüfatında elmi inkişafın 3-4%-i tətbiq olunur. Göründüyü kimi, kənd təsərrüfatı istehsalçıları ilə elmi strukturlar arasında qarşılıqlı əlaqə kifayət qədər effektiv deyil və bu amil toxum sortlarının və damazlıq mal-qaranın tədarükünün xaricdən asılılığının artmasına səbəb olur. Aqrotexnoloji tədbirlər kompleksini vaxtında və minimum itki ilə həyata keçirmək üçün kənd təsərrüfatı məhsulları istehsalçıları lazımi miqdarda müasir texniki xüsusiyyətlərə malik kənd təsərrüfatı maşın və avadanlıqları ilə təmin etmək də modernləşdirmə siyasətinin prioritetlərindən hesab edilir.

Beləliklə, modernləşməni həyata keçirə biləcək xarici sərmayədarları cəlb etmək üçün aqrar sahədə bir sıra həvəsləndirmə təşəbbüslərinə ehtiyac vardır. Bu baxımdan aqrar sahədə modernləşməni sürətləndirmək üçün xüsusi iqtisadi zonaların inkişaf etdirilməsi və yaradılması zərurətə çevrilmişdir. Aqrar sahədə dəyər zənciri üzrə təkmilləşmələrin yaradılması modernləşdirmənin sürətlənməsi ilə nəticələnə bilər. Eyni zamanda xarici birbaşa investisiyaların cəlbi üçün təkmilləşdirilmiş inkişaf proqramlarının həyata keçirilməsi və ya xüsusi həvəsləndirmə siyasətinin reallaşdırılması nəzərə alınmalıdır.

**Tədqiqatın elmi yeniliyi.**Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- aqrar sferada modernləşmə tədbirlərinin tətbiqi meyarlarının məqsədəuyğunluğu əsaslandırılmışdır;
- aqrar sferanın texniki resurslarla təminatı ilə modernləşmənin zəruriliyi arasındakı əlaqə müəyyən edilmişdir;
- idxalın ixracla əvəzlənməsi siyasətində istehsalın modernləşməsinin əhəmiyyətliliyi qiymətləndirilmişdir;
- innovasiya tətbiqinin modernləmə siyasətinin vacib istiqaməti kimi iqtisadi səmərəliliyə təsiri müəyyənləşdirilmişdir;
- aqrar sahənin modernləşdirilməsi şəraitində isehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi istiqamətləri müəyyən edilmişdir.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti.**Tədqiqatın praktiki əhəmiyyəti aqrar sahədə modernləşmə və ona təsir edən amillərhesabına məhsul istehsalını artırmaq üçün istehsal prosesinə yeni ehtiyatları və resursları daxil etmək,maddi-texniki potensialdan istifadənin yaxşılaşdırılması hesabınadaha böyük iqtisadi səmərə əldəetmək imkanlarını müəyyən edən əsaslandırılmış təkliflər hazırlamaqdan ibarətdir

**Tədqiqat işinin iqtisadi səmərəsi.**Müasir iqtisadi şəraitdə kənd təsərrüfatının maddi-texniki potensialından səmərəli istifadənin istehsalın intensiv inkişafına təsirinin müəyyən edilməsi istehsalın iqtisadi səmərəliliyi ilə elmi-texniki resurslardan istifadə arasında qarşılıqlı əlaqələrin səviyyəsini müəyyənləşdirməyə imkan verir.

## Ədəbiyyat

1. Alıyev İ.H. və Soltanlı İ.Q. “Aqrar sahənin modernləşməsi və rəqabət qabiliyyətliliyinin təmin olunması problemləri”. Bakı; “Avropa” - 2017,428 s.
2. İbrahimov İ.H. “Aqrar sahənin iqtisadiyyatı”. (Monoqrafiya). Bakı, 2016, 655 səh.
3. Панин А.В. Экономический рост в сельском хозяйстве на основе модернизации производства: монография. - М.: Проспект, 2016. 239 с.
4. www/stat.com.az

## Уровень модернизации аграрного сектора и факторы, влияющие на него

**Мамедли Егана Закир кызы**

### Резюме

Статья посвящена проблемам модернизации аграрного сектора. В статье исследованы основные направлении и актуальные проблемы модернизации аграрного сектора, на основе статистических данных проведены различные анализы влияния модернизации на увеличение продукции сельского хозяйства. Исследованы также проблемы организации эффективного использование от материально – технологических ресурсов и ее влияния на увеличение производительности. На основе исследования выдвинуты некоторые авторские предложений.

**Ключевые слова:** модернизация, аграрный сектор, инновации, инвестиции, экономическая эффективность, экономический рост, импорт, экспорт.

№ 1/2021 səh.58 - 63

## The level of modernization of the agricultural sector and factors affecting it

**Mamedli Yegane Zakir kizi**

**Summary**

The article deals with the problems of modernization of the agricultural sector. In the article the basic direction and actual problems of the modernization of the agricultural sector, based on the statistics convoluted various analyzed the impact of modernization to increase agricultural production. Also studied the problem of the organization of effective use of the material – technological resources and its impact on the increase in productivity. On the basis of the study put forward some proposals author.

**Key words:** modernization, agriculture, innovation, investment, economic efficiency, economic growth, import, export.

Redaksiyaya daxilolma 18.01.2021
Çapa qəbul olunma 05.06.2021

**№ 1/2021** **səh.64-72**

**UOT 338.43**

# KLASTER TƏŞƏBBÜSLƏRİ VƏ AQRAR SAHƏDƏ SAHİBKARLIĞIN İNKİŞAFINA TƏSİRİ

*Mirzəyev Natiq Sərhad oğlu*
**Lənkəran Dövlət Universiteti**
**Lənkəran şəh., General Həzi Aslanov Xiyabanı, 50**
***mirzoev.n@mail.ru***

***Xülasə:** Təqdim olunan məqalədə respublikada, xüsəsən də regional səviyyədə aqrar sahədə klasterlərin yaradılması araşdırılır. Qeyd edilir ki, Azərbaycanda fəaliyyət göstərən aqrar sahə və onunla birbaşa əlaqəli olan sənaye kompleksinin tənzimlənməsi mexanizmlərinin mükəmməl olmaması kənd təsərrüfatında sabit iqtisadi vəziyyətin qorunmasına yönəlmiş tədbirlər sisteminin səmərəli olmamasında ifadə olunur.Nəzərə almaq lazımdır ki, Azərbaycan regionları qarşısında qısa müddətdə aqrar kompleksində kiçik və orta sahibkarlıq klasterlərin yaradılması vəzifəsi durur. Tədqiqat işində qeyd edilir ki, klaster yaratmağın ilkin mərhələsindədə ən çətin an, sahibkarlar arasında onların aktivlərinin formalaşdırılması barədə razılığa gəlməkdir.Araşdırma nəticəsində, klasterlər yaradılarkən kənd təsərrüfatı məhsulları istehsalçıları ilə tərəfdaşlıq edən təchizatçılar arasında mövcud iqtisadi əlaqələri nəzərə almaq və hazırlıq işlərini diqqətlə aparmaq lazım olduğu qənaətinə gəlinir.***

***Açar sözlər:** aqrar sahə, iqtisadi islahat, inkişaf, klaster, kooperasiya, müəssisə, sahibkarlıq, region*

**Giriş.** Respublikamızda aparılan iqtisadi islahatlar Azərbaycan Respublikasının milli iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasına və orada layiqli yer tutmağa yönəlib.Bunun üçün iki əsas şərtə əməl etmək lazımdır: ilk növbədə, bu islahatlar dünya iqtisadiyyatında hökm sürən prinsip və mexanizmlərə əsaslanmalıdır; ikincisi, islahatlar apararkən ölkə iqtisadiyyatının əvvəlki inkişafının və mövcud vəziyyətinin xüsusiyyətləri, milli mədəniyyət və davranış xüsusiyyətləri, burada yaşayan əhali, transformasiya dövrünün müddəti, ölkənin inkişafını formalaşdıran digər amillər nəzərə alınmalıdır. Bu prinsiplər ölkə regionlarında aqrar sahədə yeni idarəetmə sisteminin yaradılmasında həyata keçirilməlidir.

İqlim zonalarının müxtəlifliyi, aqrar sahədə istehsal ənənələri, iqtisadi inkişafın prioritet istiqaməti kimi aqrar biznes ilə əlaqəli dövlət siyasəti Azərbaycanda sahibkarlığın inkişafı üçün yeni və böyük imkanlar açmışdır. Sahibkarlıq, iş formasından asılı olmayaraq aqrar sahənin inkişafında mühüm rol oynayır.Aqrar sahə müəssisələrinin sürətli inkişafı kənd təsərrüfatında aparılan islahatlardan, kolxoz və sovxozların ləğvindən sonra başladı.Kənd təsərrüfatı məhsullarının əsas istehsalçıları özəl müəssisələrdir, yəni sahibkarlıq subyektləridir.Əksər müəssisələr strategiyalarını mənfəəti artırmaq məqsədilə qururlar. Bunun üçün daim investisiyalar cəlb olunur, kənd təsərrüfatı məhsullarının artırılması üçün yeni texnologiyalar tətbiq olunur.Aqrar sahədə fəaliyyət göstərən müəssisələrdə istehsalın həcminin və rentabelliyinin artırılması məqsədilə klasterlərin yaradılması mühüm məsələlərdən biridir və xüsusi **aktuallıq** kəsb edir.

Məqalənin işlənməsində əsas **məqsəd** bazar iqtisadiyyatı şəraitində kənd təsərrüfatında klasterləşmənin inkişafına əsaslanaraq, müəssisələrinin sahibkarlıq fəaliyyətlərinin səmərəliliyinin və istehsalın həcminin artması ilə bağlı bir sıra əsaslandırılmış təşkilati və iqtisadi təkliflər hazırlamaqdır.

Aqrar sahədə mövcud olan klasterlərdə rəqabət və kooperasiyanın kompleks birləşməsi formalaşır. Bazar sferasındakı dəyişikliklərə çevik reaksiya vermək bacarığı klasterə daxil olan kənd təsərrüfatı müəssisələrinin rəqabət üstünlüklərinin formalaşması üçün vacibdir. Qarşıya qoyulmuş məqsədlərə bütövlükdə nail olmaq yalnız konkret bir regionda resursların istifadəsi ilə bağlı fəaliyyətlərin davamlılığını təmin edən strateji idarəetmənin istifadəsini nəzərdə tuta bilər.

**Tədqiqatın obyektini** Azərbaycan reallığında aqrar sahədə fəaliyyət göstərən sahibkarlıq subyektləri təşkil edir.

**Tədqiqatın metodu.** Tədqiqat işində müxtəlif metodların birləşməsi tətbiq olunmuşdur. Sistemli yanaşma, müqayisəli təhlil, rəsmiləşdirmə metodu, analiz və sintez və digər elmi tədqiqat metodlarından istifadə edilmişdir ki, bu da işdə əldə edilmiş nəticələrin etibarlılığını təmin etmişdir.

Tədqiqatın əsasını xarici ölkələrin iqtisadçı alimlərinin klaster təşəbbüslərinin və aqrar sahədə sahibkarlığın inkişafı problemlərinə həsr olunmuş əsərləri, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, hökumətin qərarları və digər normativ sənədlər təşkil edir.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

Azərbaycan Respublikasının regionlarında iqtisadi vəziyyətin sabitləşməsi və iqtisadi artım ölkəmizdə son illərdə klasterlərin əmələ gəlməsi üçün real şərtlər yaradmışdır.

Klaster təşəbbüsü, müxtəlif maraqlı tərəflərin (fiziki şəxslər, təşəbbüskar qruplar və təşkilatlar) bir sahə və ya sahələrarası dəyər zənciri daxilində fəaliyyət göstərən və ya inkişaf etdirmək üçün klaster yaratmaq fəaliyyətidir (ortaq bir layihə, layihələr portfelinin və ya fəaliyyət proqramının).Klaster təşəbbüsü həm regionun və ölkənin klaster siyasəti çərçivəsində, həm də bir klasterin yaradılması və ya inkişafı üçün strateji prioritetləri formalaşdıran maraqlı tərəflərin faktiki fəaliyyətinə əsasən başlana bilər.

Bir ölkənin və ya regionun klaster siyasəti, reallaşdırmanın səmərəliliyi və riskləri baxımından optimallaşdırılmış klaster təşəbbüsləri portfeli kimi təqdim edilə bilər. Bundan başqa, klaster təşəbbüsü innovativ ərazi klasterinin inkişafı proqramı çərçivəsində həyata keçirilə bilər. Klaster inkişaf mərkəzləri klaster təşəbbüslərini dəstəkləyir.

Aqrar sahədə klaster, istehsal, emal, məhsul satışı, tədarük-satınalma, kredit və s. sahələri əhatə edən kooperasiya yolu ilə kənd təsərrüfatı istehsalçılarının birləşməsidir.İstehsalın təşkilinin klaster forması fermerlərə və digər sahibkarlıq subyektlərinə yüksək səmərəlilik əldə etməyə imkan verir.

İnkişaf etmiş bazar iqtisadiyyatı ölkələrində onilliklər ərzində klasterlər yaradılmışdır.Klasterinisə özəyi yüksək ixtisaslı idarəetmə və yüksək səviyyəli korporativ mədəniyyətə malik güclü müəssisələr idi. Eyni sinfə və eyni istiqamətli müəssisələrin klasterə daxil edilməsi, əsas şirkətin idarəetmə təcrübəsinin və korporativ mədəniyyətininin mənimsənilməsinə öz töhfəsini verdi- bu, klasterin əsasını (özəyini) təşkil edir.

Strateji idarəetmənin ən vacib vasitələrindən biri aqrar sahədə baş verən iqtisadi və sosial proseslərin dövlət tənzimlənməsidir. Məlumdur ki, Azərbaycan reallığında ümumilikdə, xüsusən də aqrar sahədə fəaliyyət göstərən sahibkarlıq subyektləri kiçik və orta sahibkarlıq müəssisələridir.Dövlətin aqrar sahədə KOS-un inkişafındakı rolu, aqrar müəssisələrin fəaliyyətinin dövlət tənzimlənməsinin formaları və metodları barədə suallar hələ də mübahisəlidir.

Xüsusi və elmi ədəbiyyatda ümumiyyətlə KOS-un, aqrobiznes müəssisələrinin dövlət tənzimlənməsi və dəstək imkanları və bunun iqtisadiyyat və cəmiyyət üçün nəticələri müzakirə olunur. KOS-ların inkişafına yönəlmiş fəaliyyətlərin (proqramların) əksəriyyəti kənd yerlərində yoxsulluğu azaltmaq, iş yerləri açmaq və ümumilikdə iqtisadi inkişaf məqsədi daşıyır [3].Bu şəkildə onlar KOS-un

üzləşdikləri problemləri həll etmək və fəaliyyət göstərdikləri ekosistemi formalaşdırmağa istiqamətlənmişlər.

Ədəbiyyatda aqrar sahədə KOS-un inkişafı üçün istifadə olunan dörd əsas yanaşma mövcuddur: bazarın inkişafı; ticarətin inkişafı; şəbəkə yanaşması və ya əlavə dəyər zəncirlərinin inkişaf etdirilməsi;KOS-ların maliyyələşdirmə mexanizmlərinin inkişafı; "Hədəf" yanaşması – aqrar və aqrar sahə ilə sırf əlaqədə olan sənaye sahələrində KOS-un inkişafı üçün konkret (spesifik) tədbirlər.Bəzi yanaşmalar (bazarın inkişafı, ticarətin inkişafı, KOS-lar üçün maliyyələşdirmə mexanizmlərinin inkişafı) müxtəlif səviyyələrdə tənzimləmə və bazar (ekosistem) problemlərini həll edir,digərləri isə (ya əlavə dəyər zəncirlərinin inkişaf etdirilməsi; "hədəfli" yanaşma) KOS-laıin istehsal qabiliyyətini gücləndirərək "aşağıdan yuxarıya" dəstək tədbirlərinin həyata keçirilməsini əhatə edir.Yeni bazar imkanları yarandıqca aqrar sektorda fəaliyyət göstərən KOS-lar hələ də onlardan yararlana bilmirlər,belə ki, bunun üçün daha yüksək keyfiyyətli məhsullar istehsal etmək, rəqabətli qiymətlər və yaxşı satış sonrası xidmətlər, artan istehsal həcmi, keyfiyyət standartlarına uyğunluq və mütəmadi tədarüklər tələb olunur. Bir çox KOS-lar miqyas səmərəliliyinə rəğmən qənaət yaratmaqda çətinlik çəkirlər, müvafiq təhsil və informasiya mənbələri, marketinq bacarıqları, logistika və texnoloji innovasiyaları yoxdur.Aqrar sahədə KOS-ların inkişafındakı şəbəkə yanaşması daha yaxşı qarşılıqlı əlaqənin təmin edilməsinə, müxtəlif iştirakçılar-təchizatçılar, istehsalçılar, emalçılar, alverçilər və logistika şirkətləri arasında biliklərin verilməsi, ticarətə, maliyyələşdirməyə və ortaqlıqlara yönəldilmişdir.Bu yanaşma çərçivəsində, aqrar sahədə KOS-ların inkişafı üçün müsbət potensial, məhsul satışını təmin etmək üçün kooperasiyanın dərinləşməsi və böyük biznes və KOS-ların inteqrasiyasını dərinləşdirməkdədir.Beləkooperasiyanın bir variantı klaster sistemlərinin formalaşmasıdır. Bir çox inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrin təcrübəsi göstərir ki, klasterlər çoxlu maneələri aşmaq və getdikcə rəqabət aparan bazar mühitində uğur qazanmaq üçün güclü bir vasitə ola bilər.

Eyni zamanda kənd təsərrüfatı istehsalında kiçik və orta sahibkarlıq klasterlərinin yaradılması vəzifələrindən biri də rəqabət mühitində və bazar tələbindəki davamlı dəyişikliklər uyğunlaşması, habelə kənd təsərrüfatı məhsulları idxalçılarının Azərbaycan regionlarının əmtəə bazarlarına təsirinin azaldılmasıdır.Klasterlərin yaradılması məhsulların (xüsusilə də qida məhsullarının) yeni xüsusiyyətlər ilə istehsalına öz töhvəsini verəcək.

Qeyd etmək lazımdır ki, klasterdə birləşən kiçik və orta müəssisələr rəqabət qabiliyyətlərini və məhsul bazarındakı mövqelərini gücləndirirlər.

Klasterlər inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrdə iqtisadi maraqlarının üst-üstə düşməsinə əsaslanan, eyni növ məhsular istehsal edən müəssisələrin əmtəə bazarlarında rəqabət qabiliyyətini artmaq məqsədilə yaradılmışdır.M.E.Porter "Rəqabət" adlı fundamental əsərində klasteri "coğrafi cəhətdən bitişik bir-birinə bağlı şirkətlər və əlaqəli təşkilatlar, müəyyən bir sahədə fəaliyyət göstərən və fəaliyyət birliyi ilə xarakterizə olunan, bir-birini tamamlayan əlaqəli təşkilatlar"[1]kimi təsvir edir.

Hər bir ölkənin aparıcı əmtəə bazarlarından biri kənd təsərrüfatı klasterlərinin aktiv inkişafını müəyyənləşdirən qida məhsulları bazarıdır.Kənd təsərrüfatı istehsalı sahəsindəki kiçik və orta sahibkarlıq klasterləri istehsalın təbii inteqrasiyası və kooperasiya nəticəsində, yaxud da regional və bələdiyyə orqanlarının özünütəşkili (süni şəkildə) əsasında formalaşa bilər.

Qeyd etmək lazımdır ki, ilkin kənd təsərrüfatı istehsalçıları aşağıdakı səbəblərdən rellaşdırılan məhsullar üçün vasitəçilərin və ticarət qiymətlərinin yüksək olması ilə maraqlanmırlar:

- hər hansı bir məhsulun qiymətindəki artım, bazarda tələbinin azalmasına səbəb olur ki, bu da gec-tez həddindən artıq məhsul istehsalına səbəb ola bilər;

- vasitəçi və ticarətçilərin yüksək qiymətləri, yenidən bölüşdürmə prosesləri səbəbindən ilkin kənd təsərrüfatı istehsalçılarının qazancnıı azaldır.

Yuxarıda sadalanan amillər kənd təsərrüfatı müəssisələrini klasterlərə daxil olmaq motivasiyasını artırır.

Şəkil 1-də aqrar sahədə klasterlərin təşkili nəzərə alınmaqla regionun sosial-iqtisadi inkişafı strategiyasının inkişafının mərhələlisxemi göstərilir.




**Şək. 1.** Aqrar sahədə klasterlərin təşkili nəzərə alınmaqla regionun sosial-iqtisadi inkişafı strategiyasının inkişafının mərhələli sxemi

Nəzərə almaq lazımdır ki, Azərbaycanın regionlarında qısa müddətdə aqrar sahədə kiçik və orta sahibkarlıq müəssisələrinin klasterlərini yaratmaq vəzifəsi durur.Bu baxımdan, klasterlərin təşkilinin sürətləndirilməsində kənd təsərrüfatı istehsalının ixtisaslaşması və məkanca yerləşdirilməsi, eləcə də, sahibkarlar arasında əlaqələin qurulmasını nəzərə alaraq klasterlərin formalaşdırılması proqnozunu hazırlaya bilən regionların və bələdiyyə müəssisələrinin rəhbərliyi mühüm rol bilər.Bu cür təşkilati iş eyni zamanda ehtimal olunan klaster üzvləri arasında inam yaratmağa kömək edəcəkdir.

Bu gün, şübhəsiz cəlbediciliyi - bilikləri, insanları, istehsalatı və bazarları səfərbər etmək qabiliyyətinə görə klasterləşmə ilə əhatə olunmayan bir iqtisadiyyat sahəsi yoxdur.Aqrar və emal sahəsi istisna deyil və müasr şəraitdə klasterlər biznes fəaliyyətinin üfüqi reinjinirinqi prosesində çox mühüm rol oynayır.Klaster modeli və sənaye rayonları (xüsusən də kənd təsərrüfatı və kənd təsərrüfatı məhsulları ilə bağlı olan), iqtisadi inkişafın üstünlüklərini həyata keçirən sənayeləşmiş ölkələr üçün təsirli rəqabət inkişafının iki formasıdır [4]. Sənaye rayonları, məssisə və şirkətlərin oxşar təşəbbüskarlıq fəaliyyətləri ilə əlaqələndirildiyi və dəyişən bazarlara daha uyğun olan daha çevik bir istehsal sisteminin meydana çıxdığı iqtisadi aqlomerasiya formasıdır.Yeni biliklərin yaradılmasına, innovasiyaya və mənfəət artımına əsaslanan iqtisadi aqlomerasiya modeli kimi klaster, iş və texniki məlumatların dəyər zənciri xaricində

mübadilə olunduğu konkret sahələr (regionlar) ilə əlaqələndirilir.Klasterlərin meydana gəlməsinin ən çox asılı olduğu üç xarici amil mövcuddur:

1. Tələb ilə əlaqəli miqyas effektii ilə giriş sahəsindəki paylanma;
2. Vəzifələr və işçilər arasında yaxşı koordinasiyanı təmin etmək üçün kifayət qədər ixtisaslaşmış işçi qüvvəsinin mövcudluğu;
3. yaxşı ideya axını və bilik mübadiləsi, texnoloji müxtəlifliyı və artımı dəstəkləmək.

Klasterləşmə yolu ilə aqrar sahədə KOS-lar, ölçüləri, istehsal prosesi, marketinq, materialların satın alınması, tələb və bazar informasiyalarının dəyişməsi ilə əlaqəli risklərlə bağlı mövcud problemləri həll edə, habelə rəqabət mövqelərini yüksəldə bilərlər. Belə olan halda, klaster sisteminin üstünlükləri danılmazdır. Klasterlərdə əməliyyat və nəqliyyat xərclərini, infrastruktur obyektlərinin yaradılması ilə bağlı xərcləri azaltmaq üçün şərait yaradılır. Bütün iştirakçılar üçün işçilərin ixtisas bazasının, informasiyaların, dövlət idarəetmə orqanlarının və ictimai rifahın əlçatan olması səviyyəsini artırmaq üçün şərait formalaşdılır.

Müəssisələrin klasterdəki kooperasiyası sayəsində xarici iqtisadi əlaqələrin səmərəliliyindən faydalana bilərlər: xammal, komplektləşdirici məmulatların, maşın və detal tədarükçülərinin mövcudluğu; xüsusi bacarıqlara malik işçilərin mövcudluğu; kənd təsərrüfatı texnikası istehsal edən müəssisələrin, həmçinin xidmət və təmir müəssisələrinin olması.

Klaster eyni zamanda, bir çox topdansatış alıcısını cəlb etməyə qadirdir və məhsulların uzaq bazarlarda satışına şərait yaradır.Bundan əlavə, klasterləşdirmə hökuməti, maliyyə qurumlarını, universitetləri və digər QHT-ləri KOS-ları dəstəkləmək və inkişaf etdirmək üçün hədəflənmiş tədbirlərin hazırlanmasını və həyata keçirilməsini asanlaşdırır.Klasterdəki hər bir müəssisə kollektiv səmərəlilik əldə edə bilərlər.Klaster əhəmiyyətli bir xərc olmadan yerli xüsusən kənd təsərrüfatı ilə bağlı sənaye əlaqələrinin yaradılmasına kömək edir.Lakin bu iqtisadi üstünlük yalnız klasterin yaxşı inkişaf etmiş daxili və xarici şəbəkələrinə sahib olduğu təqdirdə əldə edilə bilər.Daxili şəbəkələr, marketinq, paylama, istehsal, materialların satınalınması və işçilərin təhsili kimi müxtəlif formalarda ola bilən, bir klaster daxilindəki müəssisələr arasında iş birliyi (biznes-kooperasiya) və ya əlaqə kimi müəyyən edilə bilər.Xarici şəbəkələr, maliyyə qurumları, material və xidmətlərin tədarükçüləri, universitetlər və s. kimi klaster daxilindəki müəssisələr və onun xaricindəki subyektlər arasındakı işgüzar əlaqə və digər əlaqə formalarıdır [2].Aqrar sahədə və aqrar sahə ilə bibaşa bağlı olab sənaye klasterləri, kənd təsərrüfatı və ya aqrosənaye sahələri üzrə ixtisaslaşmış kiçik, iri və orta kənd təsərrüfatı istehsalçılarının və qurumlarının regional (üfüqi və şaquli) inteqrasiyası kimi başa düşülür.Bu klasterlər, XXI əsrdə qloballaşma, yüksək dəyərli istehsal, innovasiyanın yayılması və istifadəsi və istehsalın səmərəliliyinin yüksəldilməsi şəraitində kənd təsərrüfatında rəqabət faktoru kimiçıxış edirlər.

Klasterlər aqrar sahədə, eləcə də, aqrosənaye sahəsində kiçik və orta sahibkarlığın potensialını əlavə dəyər zəncirinə daxil etməyə, kənd yerlərini canlandırmağa, yalnız ölkənin ərzaq təhlükəsizliyini təmin etmək deyil; həm də ölkə əhalisinin sağlamlığını qorumaq üçün ekoloji cəhətdən təmiz məhsullar istehsal etməyə, investorlar üçün daha cəlbedici və münbit şərait qurmağa qadirdirlər. Bu baxımdan, aqrar və aqrar-sənaye biznesinə investisiya axınlarını məhdudlaşdıran və burada klasterlərin yaradılmasına və inkişafına mane olan amillərin təhlili aqrar və aqrar-sənaye sahibkarlığının investisiya cəlbediciliyinin artırılması mexanizmlərini və vasitələrini müəyyənləşdirən əsas vəzifədir.

Aqrar və aqrar-sənaye sahibkarlığı istiqamətində hələ də klaster strukturlarına əsaslanan inteqrasiya subyektlərinin inkişafına və onların investisiya cəlbediciliyinin artırılmasına mane olan problemlər mövcuddur.Şərti olaraq bu problemlər iki qrup faktorla əlaqələndirilə bilər:

1. Ölkədəki ümumi iqtisadi vəziyyətlə bağlı amillər;

2. Klaster strukturlarının inkişaf xüsusiyyətləri ilə bağlı amillər.

Birinci amil qrupuna aşağıdakılar daxildir:

- ölkə iqtisadiyyatında iqtisadiyyatın ən gəlirli sahələrinə (ticarət, maliyyə-kredit və yanacaq-energetika sahələri) kapital axınına səbəb olan əhəmiyyətli tərəddüdlər ilə xarakterizə olunan iqtisadi, maliyyə və hüquqi proseslərin dinamikası;
- ərazilərdə şəraitin və inkişaf səviyyəsinin, müəyyən fəaliyyət növlərinin və aqrar və eləcə də, aqrosənayedəsahibkarlıq müəssisələrininqeyri-bərabər olması;
- nəqliyyat infrastrukturu və rabitəsinin zəif inkişaf etdiyi geniş ərazilərdə təsərrüfatların səpələnmiş halda yerləşməsi;
- müxtəlif formaları və növlərini əhatə edən Azərbaycan kənd təsərrüfatının strukturunun xüsusiyyətləri: kənd təsərrüfatı müəssisələri, müxtəlif mülkiyyət növləri və istehsal miqyaslı kəndli, fermer və şəxsi (ailə) təsərrüfatları;
- əmək qabiliyyətli əhalinin, xüsusən də gənclərin kənd yerlərindən şəhərə axını, hansı ki, kənddə yüksək ixtisaslı mütəxəssis çatışmazlığına səbəb olur;
- nisbətən iri və kiçik kənd təsərrüfatı müəssisələrin sayında azalma və fermer təsərrüfatların və fərdi sahibkarlarklıq subyektlərinin sayının artması ilə özünü göstərən aqrar və aqrar-sənaye sahibkarlığındakı struktur dəyişiklikləri;
- son illərdə dəyişməyən əsas kapitala investisiya mənbələrinin strukturu. Bununla yanaşı, yüksək faiz dərəcələri, dövlət proqramlarının təsirinə baxmayaraq, sahibkarların kreditləri əsas investisiya mənbəyi hesab etmək istəklərini əhəmiyyətli dərəcədə azaldır. Bundan başqa, aqrar sahə istehsalının modernləşdirilməsi üçün bir vasitə kimi qəbul edilən kreditlər və hətta lizinq, yalnız maliyyə qurumlarının risklərini minimuma endirən istehsal-texniki sistemlərdə mövcuddur;
- kiçik müəssisələr tərəfindən aşağı səviyyədə innovasiyalarən tətbiq olunması;
- kənd yerlərində həyat şəraitinin son dərəcə aşağı olması aqrar sahibkarlığın inkişafına mane olur.

Aqrar sahədə sahibkarlığın inkişafı siyasətini müəyyənləşdirən və klaster strukturlarının inkişaf proseslərinə təsir göstərən ikinci qrup amillərə aşağıdakılar daxildir:

İnformasiya çatışmazlığı və statistik məlumatların aktual olmaması, eləcə də investorlar üçün ərazilərin perspektivləri və klaster strukturlarının inkişafı ilə bağlı analitik tədqiqatların aşağı olması.

Belə vəziyyət klaster strukturlarının irrasional yerləşdirilməsinə kömək edir. Bundan başqa, regional klasterin yaradılmasının iqtisadi effektini qiymətləndirmək üçün metodologiyanın olmaması klaster siyasətinin formalaşmasını çətinləşdirir və klaster strukturlarının inkişafı istiqamətində investisiya axınına mane olur.

Klaster strukturlarının yaradılmasına ehtiyacın müxtəlif ümumrespublika və regional proqramlarda qeyd olunduğuna və elmi ictimaiyyətlərin onları regional iqtisadiyyatın artım nöqtələri kimi qeyd etmələrinə baxmayaraq, Azərbaycan qanunvericiliyində klasterlər və klaster siyasəti haqqında vahid bir qanun yoxdur. Respublika səviyyəsində müxtəlif qanunvericilik aktlarında, nizamnamələrdə və müxtəlif səviyyəli dövlət orqanlarının sənədlərində bu müddəa mövcuddur. Buna misal olaraq, "Pambıqçılıq haqqında" Azərbaycan Respublikası Qanununu,"Yüksək Texnologiyalar Parkının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanını, Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsini (uyğun olaraq Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi və Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi), "KOB

klaster şirkəti”nin meyarları”nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının Qərarı və sairə normativ aktları göstərmək olar.

Məlum olduğu kimi, kənd təsərrüfatı müəssisələrinin idarə edilməsinin əsas vəzifəsi əsas istehsal fondlarını qorumaq və inkişaf etdirməkdir. Klasterlərin yaradılnası ilə bağlı aqrar sahədə fəaliyyət göstərən sahibkarlıq müəssisələrinin qarşısında, həm də sosial və məişət məsələləri ilə bağlı problemlərin həlli durur. Sosial məsələlər həmişə üç proqrama uyğun olaraq həll edilmiş və həll edilməlidir: federal, bələdiyyə və müəssisə səviyyəsində.

Həyat şəraitinin səviyyəsinə təsir göstərən əsas amillər bunlardır: əhalinin real gəlirləri, mənzil təminatı, balanslaşdırılmış qidalanma, səhiyyə, məktəbəqədər, ümumi təhsil və mədəniyyət səviyyəsi.

Yuxarıda qeyd olunan göstəricilərə görə yüksək səviyyədə təminat demoqrafik şəraitə, mənəvi vəziyyətə, psixoloji iqlimə, işçi məmnunluğuna müsbət təsir göstərir; onun məhsuldarlığını artıraraq işə vicdanlı münasibəti təmin edir. Qabaqcıl təsərrüfatların təcrübəsi göstərir ki, regionun sosial inkişaf səviyyəsi nə qədər yüksək olarsa, onda kənd təsərrüfatı istehsalının səviyyəsi də bir o qədər yüksək olacaqdır.

Klaster yaratmaq metodikasının mükəmməl olmamasını nəzərdən keçirərək görürük ki, hazırda klaster formasiyalarının formalaşması və inkişafı ilə bağlı dövlət siyasəti regional inkişaf siyasəti əsasında formalaşdırılması məqsədəuyğun sayılır. Bu, əksər hallarda dövlət dəstəyi tədbirlərinin və müvafiq qanunvericilik təşəbbüslərinin vəziyyətin real iqtisadi vəziyyət səviyyəsinə və ya sahibkarlıq dünyasının təcrübəsinə deyil, regionda mövcud olan hökumət orqanları (rəhbərlik) tərəfindən görüləcəyinə əsaslandığına gətirib çıxarır.

Kiçik və orta sahibkarlığın aqrar sahədə sahibkarlığın əlavə dəyər zəncirinə inteqrasiyasını təmin edən aqrar sahə üçün klasterlərin inkişafı proqramının olmamasını və aqrar sahibkarlıqda klaster strukturlarının geniş miqyaslı inkişafı üçün uyğun infrastrukturun olmamasını da bura aid etmək doğru olardı.

Sahibkarlıq baxımından ən vacib infrastruktur obyektləri nəqliyyat və logistika mərkəzləri, klasterin öz xüsusiyyətlərinə uyğun işləməsi üçün zəruri olan ixtisaslaşdırılmış infrastruktur obyektləri və enerji imkanlarıdır.Aqrar sahədə klasterlər üçün anbar komplekslərinin, kənd təsərrüfatı məhsullarının ilkin emalı və ərzaq istehsalı müəssisələrinin yaradılması problemi aktualdır.Belə müəssisələr çoxlu vaxt və maliyyə xərcləri tələb edir və bu səbəbdən kiçik və orta ölçülü aqrar sahədə fəaliyyət göstərən müəssisələr üçün onun tətbiqi çətin ola bilər. Burada nəqliyyat problemlərini qiymətləndirməmək olmaz, çünki istehsalçıların mərkəzi magistral yollardan, mərkəzi anbarlarından, emal və saxlama yerlərindən, eləcə də son istehlakçıdan uzaq olması pul və işçi qüvvəsi xərclərini və nəticədə istehsalın maya dəyərini əhəmiyyətli dərəcədə artıraraq rəqabət qabiliyyətini azaldır.

## Nəticələr

Aqrar sahədə sahibkarlığın inkişafındakı müəyyən uğurlara baxmayaraq, bu istiqamətdə investisiya cəlbediciliyinin artmasına mane olan ciddi problemlər var.Bir çox problem həm ölkədəki ümumi iqtisadi vəziyyətdən, həm də aqrar sahədə sahibkarlığın inkişafına hazırkı yanaşmalardan qaynaqlanır.Aqrar sahə klasterlərinin yaradılması və inkişafı müəyyən olunmuş problemlərin həllində böyük əhəmiyyətə malikdir. Klasterlər, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi proseslərinə kiçik və orta sahibkarlıq subyektlərini cəlb etmək üçün əhəmiyyətli bir potensiala malikdirlər. Bununla əlaqədar klaster strukturlarının investisiya cəlbediciliyini artırmaq üçün mexanizmlərin yaradılması və təkmilləşdirilməsi, yalnız iqtisadiyyatın aqrar sektoruna qoyulan investisiyalarla kifayətlənməmək və kənd təsərrüfatı təşkilatlarının strukturundakı emal və qida sənayelərinə diqqət yetirmək lazımdır. İnvestisiya siyasətinə çox variantlı, dəyişkən yanaşma istisna edilmədən, kiçik və orta sahibkarlığın

inteqrasiyasına, aqrar sənaye müəssisələrində kapital hərəkəti və artımı sisteminə daxil edilməsinə, investisiya institutlarının təkmilləşdirilməinə və inkişafına xüsusi diqqət yetirilməlidir.

**Tədqiqatın elmi yeniliyi:** Aparılan tədqiqat işinin elmi yenilikləri aşağıdakılardan ibarətdir:

- aqrar sahədə klastertəşəbüsləri və sahibkarlıq fəaliyyətinə təsiri ilə bağlı nəzəri baxışlar təhlil edilmiş və müvafiq ümumiləşdirmələr aparılmışdır;
- aqrar sahədə sahibkarlığıniqtisadi səmərəliliyinin artırılmasında klasterlərin rolu onun inkişafına göstərdiyi təsir müəyyən edilmişdir;
- Aqrar və aqrar-sənaye sahibkarlığı istiqamətində hələ də klaster strukturlarına əsaslanan inteqrasiya subyektlərinin inkişafına və onların investisiya cəlbediciliyinin artırılmasına mane olan problemlərmüəyyənləşdirilmişdir;
- aqrar və aqrar-sənaye sahibkarlığının investisiya cəlbediciliyinin artırılması mexanizmlərini və vasitələrini müəyyənləşdirilmişdir;
- Aqrar sahədə klasterlərin təşkili nəzərə alınmaqla regionun sosial-iqtisadi inkişafı strategiyasının mərhələli inkişafı müəyyən olunmuşdur.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti.**Aqrar və kənd təsərrüfatı ilə birbaşa əlaqədə olan müəssisələr sistemində fəaliyyətlərin klaster əsasında düzgün əlaqələndirilməsi, o cümlədən informasiya texnologiyalarından istifadə yolu ilə rəqabət üstünlüyü və dayanıqlığı təmin edir. Qeyd etmək lazımdır ki, informasiya inqilabı müxtəlif yollarla, o cümlədən, sahibkarların fəaliyyəti prosesindəki dəyişikliklərin istiqamətlərini və qaydasını, xüsusən kənd təsərrüfatı klasterlərinin təşkilinin müəyyənləşdirilməsi yolu ilə rəqabətə əhəmiyyətli dərəcədə təsir göstərir.

**Tədqiqat işinin iqtisadi səmərəsi.**Klaster daxilində hər bir sahibkarlıq subyekti kollektiv səmərəlilik əldə edə bilərlər.Klaster əhəmiyyətli bir xərc olmadan yerli, xüsusən də kənd təsərrüfatı ilə bağlı sənaye əlaqələrinin yaradılmasına kömək edir. Eyni zamanda, klasterləşmə investisiya cəlbediciliyini artırır vəaqrar sahədə sahibkarlıq müəssisələrinin xarici iqtisadi əlaqələrin səmərəliliyindən faydalanmasını təmin edəcəkdir.

## ƏDƏBIYYAT


1. Портер М. Э. Конкуренция. М.: Изд. дом «Вильямс», 2001. с. 207.
2. Ceglie G., Dini M. SME Cluster and Network Development in Developing Countries. The Experience of UNIDO. UNIDO PSD Technical Working Papers Series, Geneva, 1999.
3. Eskesen A., Agrawal R., Noopur D. Small and medium enterprises in agriculture value chain: Opportunities and Recommendations. Oxfam,2014.URL:
4. Sölvell Ö. Clusters. Balancing Evolutionary and Constructive Forces. Ivory Tower Publishers, Stockholm, 2008.


**УДК 338.43**

# КЛАСТЕРНЫЕ ИНИЦИАТИВЫ И ИХ ВЛИЯНИЕ НА РАЗВИТИЕ ПРЕДПРИНИМАТЕЛЬСТВА В АГРАРНОМ СЕКТОРЕ

**Мирзоев Натиг Сархадоглы**

**Резюме:** В представленной статье рассматривается создание кластеров в аграрном секторе страны, особенно на региональном уровне.Отмечается, что несовершенство механизмов

регулирования аграрного сектора и непосредственно связанного с ним промышленного комплекса в Азербайджане отражается в неэффективности системы мер, направленных на поддержание стабильной экономической ситуации в сельском хозяйстве. Следует отметить, что перед регионами Азербайджана стоит задача создания в краткосрочной перспективе кластеров малого и среднего бизнеса в аграрном секторе.В исследовании отмечается, что самым сложным моментом на начальном этапе создания кластера является достижение договоренности между предпринимателями о формировании своих активов.В результате исследования сделан вывод о том, что существующие экономические связи между сельхозпроизводителями и смежными поставщиками следует учитывать при создании кластеров.

***Ключевые слова:*** аграрный сектор,экономическая реформа, развитие, кластер, кооперация, предприятие, предпринимательство, регион

**UDC 338.43**

## CLUSTER INITIATIVES AND THEIR IMPACT ON THE DEVELOPMENT OF ENTREPRENEURSHIP IN THE AGRICULTURAL SECTOR

**MirzayevNatig Sarhad**

**Abstract:** The presented aricle examines the creation of clasters in the agricultural sector in the country, especially at the regional level. İt’s noted that the imperfection of the mechanisms regulating the agrarian sector and industrial complex directly related to it in Azerbaijan is reflected in the ineffectiveness of the system of measures aimed at maintainig a stable economic situation in agriculture. It should be noted that the regions of Azerbaijan task ahead creating small and medium business clusters in the short term in the agricultural sector. The study notes that the most difficult moment in the initial stage of creation of the cluster is to reach an agreement among entreprenaures on the formation of their assets. As a result of research, it concludes that the existing economic ties between agricultural producers and allied suppliers should be taken into account when creating clusters.

**Key words:** agrarian sector, economic reform, development, cluster, cooperation, enterprise, entrepreneurship, region

Redaksiyaya daxilolma 18.01.2021
Çapa qəbul olunma 05.06.2021

**№ 1/2021** **səh.73 - 77**

**UOT 336.741.28**

# AQRAR SAHƏDƏ MALİYYƏ-KREDİT MÜNASIBƏTLƏRİNİN İNKİŞAF MEXANİZMİ VƏ ONUN İNFRASTRUKTURU

**Anar Məhəmməd oğlu Hüseynov**
**Azərbaycan Dövlət Aqrar Universitet,**
**Gəncə şəhəri, Adil İskəndərov küç. 64**
**e-mail: h.anar094@mail.ru**

**Xülasə:***Aqrar sahənin iqtisadi inkişafı modernləşdirməyə əsaslanan istehsal prosesinin formalaşdırılmasından bilavasitə asılıdır. Çünki kənd təsərrüfatı iqtisadiyyatın digər sahələri ilə müqayisədə spesifik xüsusiyyətlərə malikdir və bu amil, kənd təsərrüfatı istehsalına kifayət səviyyədə maliyyə resursu tələb edir. Ona görə aqrar sahənin maliyyələşməsi siyasətinin təkmilləşdirilməsinə xüsusi diqqət yetirilməlidir ki, bu da istehsalçıları zəruri maliyyə resursları ilə təmin etməyə, sahəyə investisiya qoyuluşlarını stimullaşdırmağa imkan verə bilər.*

***Açar sözlər:****maliyyə, kredit, infrastruktur, gəlir, xərc, risk, rəqabət.*

**Giriş.**Müasir iqtisadi şəraitdə aqrar sahədə modernləşdirməyə əsaslanan geniş təkrar istehsal prosesi formalaşdırmadan rəqabətə davamlı məhsul istehsalını təmin etmək mümkün deyil. Bu prosesin reallaşdırılması, yeniliklərə əsaslanan aqrar siyasət kontekstində iqtisadi komponentlərin rolunu əhəmiyyətli dərəcədə artırır. Belə mühüm komponentlərə daxildir: müxtəlif təsərrüfatçılıq formaları üçün zəruri resursların mövcudluğu; optimal maliyyə-kredit sisteminin formalaşdırılması; istehsalın optimal strukturunun formalaşdırılması;iqtisadi sferalar üzrə gəlirlər arasındakı fərqin azaldılması, zəruri rəqabət mühitinin yaradılması və s. Qeyd edilən amillərin hər biri aqrar sahədə fəaliyyət göstərən subyektlərin inkişafında bilavasitə iştirak edir.Eyni zamanda iqtisadi komponentlər kənd təsərrüfatı istehsalının xüsusiyyətlərini də nəzərə almağı tələb edir.Çünki kənd təsərrüfatı digər iqtisadi fəaliyyət sahələrindən əhəmiyyətli dərəcədə fərqləndirən spesifik xüsusiyyətlərə malikdir.

Kənd təsərrüfatının əsas xüsusiyyətlərindən biriistehsalın bioloji və təbii proseslərlə əlaqəli olması, iqlim şəraitindən asılılığı ilə bağlıdır. Eyni zamanda, təbii-iqlim şəraiti canlı orqanizmlərin bioloji dövriyyəsini, bitki və heyvanların məhsuldarlığını, məhsulların maya dəyəri və rentabelliyinin fərqləndirilməsini, nəticədə kənd təsərrüfatı müəssisələrinin rentabelliyini və maliyyə mənbələrinin dövriyyəsini müəyyənləşdirir. Aqrar istehsalın mövsümü və dövri xarakteri, öz növbəsində, çəkilən xərclərlə əldə edilən gəlir arasındakı zaman fərqinə görə maddi və pul ehtiyatlarının ilin dövrlərinə görə konsentrasiyasını tələb edir. Bu xüsusiyyətlər, kənd təsərrüfatı istehsalının fasiləsiz maliyyələşdirilməsi üçün zəruri şərait yaratmağın zəruriliyini, maliyyə-kredit infrastrukturunun müvafiq səviyyədə fəaliyyəti və inkişafınışərtləndirir.

**Mövzunun aktuallığı.**Kənd təsərrüfatının maliyyə-kredit mexanizmi, onun elementlərinə sistemliyanaşmanın zəruriliyi ilə önə çıxır.Bu zaman xüsusilə maliyyə-kredit infrastrukturunun nəzərdən keçirilən elementlərin etibarlılığı ön plana çıxır. Çünki kənd təsərrüfatının maliyyə-kredit infrastrukturunun elementlərinin formalaşmasının xüsusiyyətləri onun əsas alt sistemlərinin mövcudluğunu müəyyənləşdirir.

Kənd təsərrüfatının maliyyə-kredit infrastrukturunun maliyyə alt sisteminin əsas xüsusiyyətlərindən biri, kənd təsərrüfatının inkişafına maliyyə dəstəyi üçün subyektlər arasında qarşılıqlı münasibətlər baxımından əlverişli şəraitin yaradılmasını təmin edən fondların formalaşması və istifadəsi ilə

əlaqədardır. İnfrastrukturun maliyyə alt sistemi büdcə maliyyələşdirilməsi, kredit, vergi və sığortanı əhatə edir.Kredit alt sistemi, kənd təsərrüfatı istehsalının spesifik xüsusiyyətlərinə görə müvəqqəti sərbəst vəsaitlərin toplanmasını və kənd təsərrüfatı istehsalçılarının ehtiyaclarına uyğun olaraq yenidən bölüşdürülməsini təmin edir. Kənd təsərrüfatının maliyyə-kredit infrastrukturunun kredit alt sistemi istehsalın mövsümi olaraq qeyri-bərabər paylanmasına uyğun olaraqkredit ehtiyaclarının ödənilməsinə imkan verir.Kredit alt sistemi bank təşkilatları tərəfindən kreditlərin verilməsi mexanizmini formalaşdırır[2, s.48]. Kənd təsərrüfatının maliyyə-kredit infrastrukturunun kredit alt sisteminin bütövlüyü ilə özünü biruzə veirir və bu onunla izah olunur ki, onu təşkil edən bütün struktur elementlər vahid hədəfə istiqamətlənir və oxşar funksiyaları ifadə edir. Məlumdur ki, kənd təsərrüfatı əmtəə istehsalçılarının normal fəaliyyəti qısamüddətli kreditləşmə olmadan mümkünsüzdür. Kənd təsərrüfatı məhsulları istehsalçıları üçün kredit əlçatanlığının artırılması dövlətin maliyyə dəstəyinin əsas tədbirlərindən biridir. Qeyd edilənlər aqrar sahədə maliyyə-kredit münasibətlərinin inkişaf mexanizmi və onu infrastrukturu ilə bağlı problemlərin aktuallığını təsdiq edir.

**Tədqiqatın məqsədi.**Tədqiqatın məqsədi aqrar sahənin inkişafında mühüm rol oynayan maliyyə-kreditkredit münasibətlərinin və onun elementlərinin, o cümlədən infrastrukturunun inkişaf mexanizminin araşdırılmasından, bu sahədə mövcud vəziyyəti təhlil etməklə maliyyə-kredit münasibətlərinin inkişafının əsas istiqamətlərinin müəyyənləşdirilməsindən ibarətdir.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

Aqrar sahənin maliyyə resursları ilə təminatı iqtisadi siyasətdə ən mühüm məsələlərdən hesab edilir. Bu baxımdan büdcə vəsaiti hesabına maliyyələşmənin həyata keçirilməsi spesifikliyi və əhəmiyyətliliyi ilə fərqlənir. Araşdırmalar göstərir ki, kənd təsərrüfatının büdcə maliyyələşdirmə mexanizmi birbaşa və dolayı metodlarla həyata keçirilən proqramların dövlət tərəfindən maliyyələşdirilməsini nəzərdə tutur. Birbaşa büdcə dəstəyi geri qaytarılmayan maliyyələşdirməni aşağıdakı formalarda həyata keçirir: subsidiyaların verilməsi; xərclərin müəyyən növləri üçün kompensasiyalar; kapital qoyuluşlarının maliyyələşdirilməsi; torpaq sahələrinin yaxşılaşdırılması üçün tədbirlər və s. Kənd təsərrüfatı istehsalına birbaşa dövlət büdcəsi dəstəyi, bazar subyektlərinə təsir yollarını təmin edən müxtəlif vasitələrlə həyata keçirilir. Təcrübədə dövlət büdcəsi dəstəyinin tətbiq olunan formalarının daim genişlənməsi baş verir. Beləliklə, kənd təsərrüfatına dövlət büdcəsindən dəstək formaları bir neçə istiqamətdə təsnifləşdirilir: subsidiyaların ayrılması; subsidiyaların verilməsi; kompensasiyalar; subvensiyalar.

Qeyd edilən istiqamətlərdə son illər kənd təsərrüfatının maliyyələşdirilməsi məqsədilə dövlət tərəfindən əhəmiyyətli tədbirlər görülməkdədir. Belə ki, 2019-cu ildə kənd təsərrüfatına dövlət dəstəyi çərçivəsində bu sahənin inkişafı məqsədilə 21167,1 min manat məbləğində güzəştli kreditlər verilmişdir. 2019-cu ildə 383,7 min istehsalçıya 1214,3 min hektar əkin sahəsinin becərilməsində istifadə etdikləri yanacaq və motor yağlarına, habelə buğda və çəltik əkininə görə dövlət büdcəsinin vəsaiti hesabına 83240,6 min manat, 7179 istehsalçıya 37,8 min hektar təkrar əkin sahəsinin becərilməsində istifadə etdikləri yanacaq və motor yağlarına görə 1887,7 min manat məbləğində yardım verilmişdir [5].

Dolayı metodlar daha çox dövlətin istifadə etdiyi kənd təsərrüfatı kredit tənzimləmə üsulları ilə əlaqələndirilir və mərkəzləşdirilmiş bankların güzəştli kreditləri, investisiya kreditləri, vergi kreditləri və s. hesabına formalaşdırılır. Qeyd edilən istiqamətlər xüsusi kredit alətlərinin istifadəsi ilə həyata keçirilir.

Maliyyə alt sistemi kontekstində kənd təsərrüfatının maliyyə-kredit infrastrukturunun əsas elementlərindən bir də vergidir. Hazırda kənd təsərrüfatı istehsalçıları torpaq vergisindən başqa digər vergi növlərindən azad edilmişdir. Ümumiyyətlə, vergi sisteminin tətbiqində nəzərə alması vacib olan kənd təsərrüfatı istehsalının ən vacib xüsusiyyəti istehsalın mövsümi xarakter daşıması, xərclər və gəlirlərin istehsal dövründən asılı olaraq uyğunsuzluğuilə bağlıdır. İnkişaf etmiş ölkələrdə kənd

təsərrüfatına vergilər fərdi gəlir vergisi rejimində - ilin sonunda hissə-hissə ödənilməklə həyata keçirilir. Bu vergi ödəmə mexanizmi istehsalın stimullaşdırılmasına ciddi şəkildə təsir edə bilir.Belə ölkələrdə kənd təsərrüfatına vergi tətbiqində ortaq bir xüsusiyyət güzəştli vergi üsulu kimi tamamlanır. Bu prinsip müasir vergitutma mexanizminin əsasını təşkil edir.

Kənd təsərrüfatının maliyyə alt sisteminin maliyyə-kredit infrastrukturunun növbəti elementi sığortadır. Sığorta bazarında milli gəlirin bir hissəsi olan fondlar toplandığı üçün vəsaitin bölüşdürülməsi məqsədilə müəyyən fondlar kənd təsərrüfatının maliyyə alt sisteminə yönəldilir. Bunu aşağıdakılar təsdiq edir: sığorta şirkətləri müəyyən edilmiş vergilər ödəyir, digər təşkilatların və şəxslərin resurslarıriskli hadisələrdən sığortaya yönəldilir.Eləcə də sığortaçı sığorta haqqı şəklində maliyyə vəsaiti alır və sığorta hadisəsi baş verdikdə müəyyən qədər vəsait ödənilir. Qeyd etmək lazımdır ki, sığorta kredit forması kimi də çıxış edir, lakin kredit münasibətlərinin məcburi əlamətləri ilə xarakterizə olunmur.

Kənd təsərrüfatı sığortası riskli sığorta növüdür, çünki bu sferada istehsal birbaşa təbii-iqlim şəraitindən asılıdır. Məlumdur ki, hər bir istehsal sahəsi təbii fəlakətlər zamanı müəyyən itkilərə məruz qalır, bu səbəbdən kənd təsərrüfatında sığortanın rolu son dərəcə əhəmiyyətlidir. Bu istiqamətdə şəffaf rəqabət mühitinin yaradılmasını, dövlət dəstəyi ilə kənd təsərrüfatı sığortası əməliyyatları həyata keçirən sığortaçıların, həm də digər iri sığorta şirkətlərinin fəaliyyəti çərçivəsində təkrarsığorta sistemininгenişləndirilməsini ən mühüm tədbirlər kimi göstərmək olar. Qeyd edilənlərlə yanaşı “maliyyə resurslarına çıxış imkanlarının artırılmasının effektiv vasitələrindən biri kənd təsərrüfatı sahəsinə xas olan risklərin sığorta alətləri vasitəsilə azaldılmasıdır. Kənd təsərrüfatı sığortası bir tərəfdən hava şəraiti və qiymətlərin dəyişkənliyi səbəbindən fermerlərin məhsuldarlıq və mənfəətliliklə bağlı risklərini azaldır, digər tərəfdən isə kredit öhdəliklərinə xidmət imkanlarını artırmaqla sektorun kreditləşməsi potensialını yüksəldir” [1].

Kənd təsərrüfatının maliyyə-kredit infrastrukturunun alt sisteminin növbəti elementi kənd təsərrüfatı texnikasının alınması üçün məhdud maliyyə imkanları ilə əlaqəli olan lizinq mexanizmidir. Kənd təsərrüfatı lizinqinin iqtisadi mahiyyəti kənd təsərrüfatı sektorunda lizinqin təbii-bioloji amillərin istehsal prosesinə cəlb olunması ilə bağlı olan xüsusiyyətləri müəyyənləşdirməyə imkan verir. Kənd təsərrüfatında lizinqin xüsusiyyəti ilk növbədə onunla bağlıdır ki, ənənəvi lizinq əməliyyatlarında yalnız daşınar və daşınmaz əmlak əməliyyatın obyekti ola bilər və aqrolizinqdə, onlarla birlikdə damazlıq heyvandarlıq şəklində bioloji obyektlər, elit toxumlar və s. də aqrolizinq obyektləri kimi üstünlük təşkil edir. Kənd təsərrüfatında təbii-bioloji amillərin üstünlük təşkil etdiyindən icarəyə götürülən obyektlərin istifadəsi, torpağın xüsusiyyətləri, ərazi bölgüsünün mövsümi xarakteri iqtisadi riski və istehsalın nəticələrinin obyektiv şəraitdən asılılığını artırır. Aqrolizinqin inkişafının əsas istiqamətlərinə aşağıdakılar daxildir:

- kənd təsərrüfatı istehsalçılarına lizinq müqavilələri ilə təchiz olunan avadanlıqların əldə edilməsi üçün dövlət sifarişinin formalaşdırılması;
- yeni kənd təsərrüfatı texnikalarının, məhsuldar bitki növləri və heyvan cinslərininistehsalçılara əlverişli şərtlərlə çatdırılması;
- aqrolizinqin tənzimləmə bazasının təkmilləşdirilməsi.

Qeyd edilənlər baxımından kənd təsərrüfatı məhsulları istehsalçılarının kənd təsərrüfatı texnikası, texnoloji avadanlıqlar, mineral gübrələr, pestisidlər və cins damazlıq heyvanlarla təmin olunması istiqamətində dövlət tərəfindənmühüm işlər görülmüşdür. 2019-cu ildə 4117 ədəd kənd təsərrüfatı texnikası, o cümlədən 135 ədəd taxılyığan kombayn, 749 ədəd traktor, 3233 ədəd traktora qoşulan və digər kənd təsərrüfatı texnikalarının 2205 nəfər hüquqi və fiziki şəxslərə lizinqə verilməsi və satışı güzəştli şərtlərlə maliyyələşdirilmişdir. 2019-cu ildə Kənd Təsərrüfatı Nazirliyinin yanında Aqrar Kredit

və İnkişaf Agentliyi tərəfindən 2606 baş iri və xırdabuynuzlu cins damazlıq heyvanın 60 faiz güzəşt tətbiq edilməklə fiziki və hüquqi şəxslərə 3 il müddətinə lizinqə verilməsi və satışı güzəştli şərtlərlə maliyyələşdirilmişdir. Bu ildə "Aqrolizinq" ASC-nin tərəfindən 1767 baş cins damazlıq heyvan güzəştli şərtlərlə heyvandarlıqla məşğul olan hüquqi və fiziki şəxslərə satılmışdır [5].

Kənd təsərrüfatında kreditləşmə sisteminin inkişafı ilə yanaşı onu məhdudlaşdıran amillər də mövcuddur. Belə amillərdən biri bankların kredit verərkən qarşılaşdıqları xüsusi risklərdir. Bunlara aşağıdakılar daxildir: maliyyə vəziyyətindəki qeyri-sabitliyin artması, müəssisələrin uzunmüddətli ehtiyacları, bankın qısamüddətli mənbələri arasındakı uyğunsuzluq, büdcənin qeyri-sabitliyi, kənd təsərrüfatı istehsalının mövsümi xüsusiyyətləri, təbii amillərdən asılılığı, satışdan əldə olunan gəlirlərin vaxtında ödənilməməsi və ya gecikmələr, borcalanlar üçün kreditlərin likvidlik təminatının olmaması, borc vermə əməliyyatlarının aşağı gəlirliliyi və s [4, s.69]. Qeyd etdiyimiz kimi bu cür mənfi təsirlərin minimuma endirilməsi və ya aradan qaldırılması məqsədilə bir sıra tədbirlər həyata keçirilmişdir. Ümumiyyətlə, bu sahədə müsbət nəticələr əldə edilməsi əsasən kənd təsərrüfatı müəssisələrinin kreditləşdirilməsi sahəsində dövlət siyasətinin yaxşılaşdırılması ilə əlaqədardır ki, bu da istehsalçıları üçün kreditləşmə bazarını canlandırmağa, bankların bu sahəyə investisiya qoyma marağını stimullaşdırmağa imkan verir [3, s.31].

## Nəticələr

Araşdırmalara göstərir ki, aqrar sahədə maliyyə-kredit münasibətlərinin inkişafındadövlətin zəmanət sistemi mühüm rol oynayır. Belə ki, bu sahədə dövlətin zəmanət sistemini genişləndirmədən bank və ya maliyyə strukturu öz vəsaitlərindən layihələrə borc verməyə maraqlı olmur. Belə bir sistemə keçid aqrar sahəyə kredit vermə ilə məşğul olan bankların sayının artmasına imkan verə və müştərilərin maliyyə vəziyyətinin daha dərindən təhlil edilməsinə olan marağı artıra bilər. Beynəlxalq təcrübədə kredit faizi dərəcəsinə və kreditin bir hissəsinə subsidiya verilmə mexanizmi kreditləşmə siyasətində xüsusi yer tutur.Deməli, kreditin qaytarılmasına qismən və ya tam dövlət zəmanəti mexanizmi öz əhəmiyyəti ilə səciyyələnir. Bank krediti üçün zəmanətlərin verilməsi kənd təsərrüfatı istehsalçılarını kreditlərlə təmin etmək baxımındanxüsusilə vacibdir. Zəmanət sistemi tətbiq edən dövlət,eyni zamanda bir neçə problemi həll etməyə çalışır: kredit üçün qismən təhlükəsizliyi təmin edir; kreditlər üzrə kommersiya risklərinin bir hissəsini öz üzərinə götürərək maliyyə qurumlarını borc verməyə cəlb etməyə çalışır; borc vermək məqsədilə xərclənən büdcə vəsaitlərinin həcminin azaldılmasını təmin edir və s. Ona görə zəmanət sistemi birbaşa ödəmələrdən daha müsbətdir, çünki banklar və digər qurumlar borcalanlarla daha səmərəli işləmək, onun kredit qabiliyyətini qiymətləndirmək və kreditin qaytarılmasını təmin etmək imkanına malik olurlar. Bu sistem kredit və maliyyə xidmətləri bazarında rəqabət mühitinin inkişafına da zəmin yarada bilər.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- aqrar sahədə maliyyə-kredit münasibətlərinin inkişafına təsir edən amillərmüəyyən edilmişdir;
- maliyyə-kredit resurslardan səmərəli istifadə imkanları müəyyən olunmuşdur;
- maliyyə-kredit münasibətlərinin və onun infrastrukturunun inkişafında dövlət siyasətinin rolu müəyyən edilmişdir;
- investisiya cəlbediciliyinin stimullaşdırılması tədbirləri müəyyənləşdirilmişdir;
- aqrar sahədə maliyyə-kredit münasibətlərinin inkişafı və infrstrukturun yaxşılaşdırılması istiqamətləri müəyyənləşdirilmişdir.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti.** Tədqiqatın praktiki əhəmiyyəti aqrar sahədə maliyyə-kredit resurslarından səmərəli istifadə və infrastrukturun yaxşılaşdırılması hesabına iqtisadi cəhətdən daha səmərəli nəticələr əldə etmək imkanlarını müəyyən etməkdən ibarətdir.

**Tədqiqat işinin iqtisadi səmərəsi.**Aqrar sahəninmaliyyə resurslarına tələbatının ödənilməsi bu sahənin iqtisadi səmərəliliyinin əsasını təşkil edir. Bu baxımdan maliyyə-kredit mexanizminin inkişafı və onun infrastrukturun yaxşılaşdırılması bu sahənin maddi-texniki resurslarla təminatına, istehsalın innovativ və intensiv inkişafına, beləlikləümumi iqtisadi faydanın yüksəlməsinə ciddi təsir edə bilər.

Ədəbiyyat

1. "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi". 2016-cı il 6 dekabr.
2. Дворецкая А. Е. Деньги, кредит, банки: учебник для академического бакалавриата. УМО. - М.: Юрайт, 2014. 636 с.
3. Никулин Н.Н. Инвестиционная политика в условиях цифровизации: учебник. М.: ЮНИТИ, 2020. 471 с.
4. Лаврушин О. И. Банковское дело. Учебник. - УМО, 10-е изд. перераб. и доп. - М. : КНОРУС, 2013. 800 с.
5. www.agro.gov.az

**Механизм развития финансово-кредитных отношений**
**в аграрной сфере и его инфраструктура**
**Аннотация**

**Анар Мухаммад оглы Гусейнов**

***Аннотация:*** Экономическое развитие аграрного сектора зависит от формирования производственного процесса, основанного на модернизацию. Потому что сельское хозяйство имеет специфические особенности по сравнению с другими секторами экономики, и этот фактор требует достаточных финансовых ресурсов для сельскохозяйственного производства. Поэтому особое внимание следует уделять совершенствованию финансовой политики аграрного сектора, которая предоставит производителям необходимые финансовые ресурсыдля стимулирования инвестиционных вложений.

***Ключевые слова:*** *финансы, кредит, инфраструктура, доход, расход, риск, конкуренция.*

**The development mechanism of financial and credit relations**
**in the agrarian sector and its infrastructure**

**Anar Mahammad Huseynov**

**Annotation**

The economic development of the agricultural sector depends on the formation of a production process based on modernization. Because agriculture has specific characteristics compared to other sectors of the economy, and this factor requires sufficient financial resources for agricultural production. Therefore, special attention should be paid to improving the financial policy of the agricultural sector, which will provide producers with the necessary financial resources to stimulate investment.

***Key words:*** *finance, credit, infrastructure, income, expense, risk, competition.*

Redaksiyaya daxilolma 25.12.2020
Çapa qəbul olunma 05.06.2021

**№ 1/2021** **səh.78 - 81**

**UOT55:101.1**

# AQRAR SAHƏDƏ İXRAC POTENSİALININ YAXŞILAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

**Nəsibova Çinarə Nizami qızı**
**Azərbaycan Dövlət Aqrar Universitet,**
**Gəncə şəhəri, Adil İskəndərov küç. 64**
**email: xalsa_nesibova@mail.ru**

***Xülasə:Aqrar sahənin ixrac potensialının yaxşılaşdırılmasında idxalın əvəzlənməsi istiqamətindəki tədbirlər - yerli kənd təsərrüfatı xammalının və ərzaq məhsullarının istehsalının artırılması, müxtəlif mülkiyyətli təsərrüfatların fəaliyyətinin səmərəliliyi üçün əlverişli şəraitin yaradılması, istehsalın şaxələndirilməsi mühüm əhəmiyyət kəsb edir. Kənd təsərrüfatının mövcud potensialı ölkənin ərzaq təhlükəsizliyini təmin etmək üçün əlverişli şərait yaratmaqla yanaşı, bir sıra kənd təsərrüfatı məhsulları istehsalçılarını aparıcı ixracatçılardan birinə çevrilmək imkanı yaratdığından ixracın iqtisadi mexanizminin təkmilləşdirilməsi aktuallığı ilə şərtlənir.***

***Açar sözlər: ixrac, rəqabət, stimullaşdırma, səmərə, ərzaq təhlükəsizliyi, tənzimlənmə.***

***Giriş.***Beynəlxalq iqtisadi münasibətlərin genişləndiyimövcud şəraitdə kənd təsərrüfatının rolu daha da artır. İqtisadiyyatın bu mühüm sferası həm ölkənin ərzaq təhlükəsizliyini təmin etmək, həm də ixrac potensialını müəyyənləşdirmək baxımından əhəmiyyətililiyi ilə seçilir. Deməli, daxili tələbatın yerli istehsal hesabına ödənilməsi səviyyəsi ilə yanaşı aqrara ixrac potensialının qiymətləndirilməsi ən aktual məsələlərdəndir.

Aqrar sahənin ixrac potensialının yaxşılaşdırılmasında idxalın əvəzlənməsi siyasəti mühüm yer tutur. İdxalın əvəzlənməsi istiqamətindəki tədbirlər yerli kənd təsərrüfatı xammalının və ərzaq məhsullarının istehsalının artırılması, yeni kənd təsərrüfatı müəssisələrinin yaradılması, müxtəlif mülkiyyətli təsərrüfatlarınfəaliyyətinin səmərəliliyi üçün əlverişli şərait yaradır.

Aqrar sahənin ixrac potensialının yaxşılaşdırılması və idxalın əvəzlənməsi siyasəti ixrac fəaliyyətinə beynəlxalq keyfiyyət standartlarına uyğun kənd təsərrüfatı məhsullarının istehsalı, xərclərin minimuma endirilməsi məqsədilə istehsal proseslərinin təkmilləşdiriməsi və bütövlükdə aqrar biznes iştirakçısılarının rəqabət qabiliyyətinin artırılması daxildir. Qeyd etmək lazımdır ki, ixrac potensialı ilk növbədə yerliməhsullar hesabına daxili bazarı doldurmalı və ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsinə zəmin yaratmalıdır.

***Tədqiqatın metodikası.*** Tədqiqat işinin nəzəri-metodoloji əsasını iqtisadçı alimlərin ixrac potensialından səmərəli istifadə ilə bağlı apardıqları tədqiqatlar, bu sahədə Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qanunlar, müvafiq normativ-hüquqi sənədlər təşkil edir.

***Tədqiqatın praktiki dəyəri.***İşin praktiki əhəmiyyəti əldə olunan nəticələrin istehsal və biznes strukturları tərəfindən ixrac potensialından daha səmərəli istifadətədbirlərinin hazırlanmasında istifadə edilə bilməsi ilə müəyyən edilir.

**№ 1/2021** **səh.78 - 81**

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

Son illər ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi tendensiyalarını nəzərə alaraq kənd təsərrüfatı sektorunun ixrac potensialının artırılmasında yerli təşkilatlar və kənd təsərrüfatı müəssisələrinin sfera daxilində istehlak səviyyəsini təmin edəcək miqdarda xammal və ərzaq məhsulu istehsalı əsas görülür. Lakin iqtisadiyyatın qloballaşması şəraitində ölkənin kənd təsərrüfatı sektorunun ixrac potensialı yerli müəssisələrin daxili istehlak üçün zəruri kənd təsərrüfatı məhsulları istehsal etmək qabiliyyətini deyil, həm də xarici bazarlara rəqabət qabiliyyətli məhsul ixrac etmək imkanlarını, habelə kənd təsərrüfatı müəssisələrinin xarici bazara çıxması üçün effektiv bir prosesin mövcudluğunuəhatə edir.

Araşdırmalara əsaslanaraq qeyd etmək olar ki, kənd təsərrüfatı sektorunun ixrac potensialının formalaşmasına bir çox amillər təsir göstərir:

-aqrar iqtisadiyyatda istehsalın əsas amillərinin əmək, torpaq və kapital olması;

-kənd təsərrüfatı istehsalına birbaşa təsir edən və yalnız ona xas olan xüsusi amillərin əhatə edə bilənamillərin - kənd təsərrüfatının fəaliyyətinin iqlim xüsusiyyətləri, aqrobiznesə dövlət dəstəyi,ərzaq təhlükəsizliyi siyasətinin və s. mövcudluğu;

- kənd təsərrüfatı müəssisələrinin xarici bazarlara çıxışı, kənd təsərrüfatı xammalının və yerli istehsalın ərzaq yönümlü məhsullarının xarici bazarlarda təşviqi ilə əlaqəli mexanizmlər.

İdxalın əvəzlənməsi siyasəti müasir şəraitdə aqrar müəssisələrin ixrac potensialının reallaşdırılması prosesinə yeni yanaşma tələb edir. Çünki xarici bazarların təhlili, xarici bazarlara çıxışın təşviqi, beynəlxalq sertifikatlaşdırma, gömrük mexanizmi, ixrac logistikası kimi məsələlər ixrac fəaliyyətinin əsası olmaqla, xarici iqtisadi fəaliyyətin potensial iştirakçıları üçün ənəzərə alınması ən vacib olanlardır.

Araşdırmalar göstərir ki, aqrar iqtisadiyyatın inkişafının hazırkı mərhələsindəidxalı əvəzetmə konsepsiyası ixrac potensialına çevrilməkdədir. Ölkənin ərzaq təhlükəsizliyinin cari tendensiyalarını nəzərə alsaq, dünya iqtisadiyyatının qloballaşması şəraitində kənd təsərrüfatınınixrac potensialının yüksəldilməsinə ehtiyacın olduğunu görmək mümkündür (1, s.84).Bütün bunlarla yanaşı qeyd etmək lazımdır ki, iqtisadiyyatın aqrar sektorunun ixrac potensialı istehsal amilləri də daxil olmaqla çoxamilli bir modeli xarakterizə edir.Eyni zamanda kənd təsərrüfatının spesifik xüsusiyyətləri, kənd təsərrüfatı sektorunun özünün ixrac mexanizmini təşkil edən xarici ixrac fəaliyyətinin təşkili amilləri ixrac potensialının ayrılmaz elementləri olmaqla yanaşı, həm də onun həyata keçirilməsinin mühüm bir vasitəsidir.

İdxalın əvəzlənməsi siyasətinin reallaşdırılması aqrar biznes subyektləri üçün iqtisadiyyatın xarici amillərdən asılılığını azaltmaq, idxal əvəzedici sahələr yaratmaq və kənd təsərrüfatının inkişafını sürətləndirmək üçün zəruri mexanizmlərin hazırlanmasını tələb edir. Bu baxımdan idxalın əvəz edilməsinin əsas vəzifələri mövcud məhsulların istifadəsi, eyni zamanda tətbiqetmələr əsasında oxşar məhsulların idxalınınyerli məhsullarla ilə əvəz olunması üçün nəzərdə tutulmuş istehsal növlərinin inkişafına yönəldilir.Deməli, ixrac siyasətinin prioritetləri nəzərə alınmaqla daxili bazarda rəqabət qabiliyyətini artırmaq və kənd təsərrüfatının ixrac yönümlü sahələrinin inkişafı üçün müəyyən növ stimulun yaradılması hazırda ən aktual məsələlərdəndir.

Araşdırmaya əsaslanaraq qeyd etmək olar ki, hazırda kənd təsərrüfatı sektorunun resurs potensialı onun istifadəsinin nəticələrinə tam olaraq uyğun gəlmir. Bunun nəticəsidir ki, son beş ildə bəzi növ bitkiçilik məhsulları üzrə idxaldan asılılıq azaldığı halda bəzi məhsullar üzrə isə əks hal müşahidə edilir. Konkret desək 2014-cü illə müqayisədə 2017-ci ildə dənli və dənli paxlalılar üzrə idxaldan asılılıq səviyyəsi 39,4%-dən 26,9%-ə, buğda üzrə 45,9 -%-dən 35,2%-ə, arpa üzrə 15,4%-dən 1,7%-ə, qarğıdalı üzrə 43,3%-dən 17,3%-ə s. növ dənlilələr üzrə 98,9%-dən 17,7%-ə geriləmişdir. Müqayisə aparılan

dövrdə paxlalılar üzrə idxaldan asılılıq səviyyəsi 24%-dən 30,2%-ə, kartof üzrə 15,7%-dən 16%-ə, meyvə və giləmeyvə üzrə 3,6-%-dən 16,8%-ə yüksəlmişdir.

Əksər heyvandarlıq məhsullarından bütün növ mal-qara və quş əti üzrə 8,1% olan idxaldan asılılıq səviyyəsi 2018-ci ildə 7,4 bənd yüksələrək 17,5%-ə, mal əti və ət məhsulları üzrə 1,2%-dən 15%-ə, quş əti və ət məhsulları üzrə 2,1%-dən 24,4%-ə, yumurta üzrə isə 0,3%-dən 1,1%-ə yüksəlmişdir. Müqayisə olunan dövrdə süd və süd məhsulları üzrə idxaldan asılılıq səviyyəsi 23,9%-dən 13,8%-ə, balıq məhsulları üzrə 27,2%-dən 17,6%-ə geriləmişdir (4).

Qeyd edilənlərdən görünür ki, kənd təsərrüfatı sektorunun mövcud potensialı ölkənin ərzaq təhlükəsizliyini təmin etmək üçün əlverişli şərait yaratmaqla yanaşı, bir sıra kənd təsərrüfatı məhsulları istehsalçılarını aparıcı ixracatçılardan birinə çevrilmək imkanı yaradır. Belə istiqamətdə əsas şərtlərdən biri də iqtisadi mexanizmin köklü şəkildə təkmilləşdirilməsinə optimal dövlət dəstəyi ilə bağlıdır (2, s.61). Dövlət dəstəyi imkanlarını nəzərə almaqlakənd təsərrüfatı yönümlü tədqiqatların genişləndirilməsini stimullaşdırmaq, zərərvericilərə və xəstəliklərə qarşı mübarizə, təlim, kənd təsərrüfatı müəssisələri üçün məsləhət xidmətləri, sığorta, infrastrukturun inkişafı və s. qeyd edilən istiqamətdə ən vacib məsələlər hesab edilir.

Hazırda maliyyə dəstəyinin həyata keçirilməsi kənd təsərrüfatı müəssisələri üçün ən vacib stimullaşdırıcı tədbir kimi özünü göstərir. Kənd təsərrüfatına dövlət maliyyə dəstəyinin əsas istiqamətlərinə daxildir: dövlət fondlarına tədarük olunan heyvandarlıq məhsullarının subsidiyası; quşçuluqda subsidiyalaşdırma; elit toxum istehsalını dəstəkləmək üçün kompensasiya ödənişləri; heyvandarlıq kompleksləri və quşçuluq təsərrüfatları tərəfindən alınan yemlərin dəyərinin müəyyən hissəsi üçün kompensasiya; mineral gübrələrin və kimyəvi qoruyucu vasitələrin, yanacaq və sürtkü materiallarının alınması, torpaq münbitliyinin yaxşılaşdırılması, təbii fəlakətlərin zərərlərini sığorta sistemi və digər formalarda ödəməklə bağlı xərclərinin bir hissəsinin kompensasiyası; mərkəzi və yerli mənbələrdən istehsalçılara güzəştli kredit verilməsi; torpaqların istifadəsinə və istehsalın səmərəliliyinə görədigər stimullaşdırıcı mexanizmlərin tətbiqi (4, s.61).

Büdcə vəsaiti məhdud olduğu şərtlər daxilində kənd təsərrüfatı məhsulları istehsalçıları üçün əlavə mənbələrdən istifadə səmərəli nəticələr verə bilər:ehtiyacı olanlara ərzaq yardımı fondunda yerli məhsulların alınması ilə əlaqədar kənd təsərrüfatı istehsalçılarının qiymətlərində artım; dövlətin kənd təsərrüfatına nəzarət etdiyi təbii inhisar qiymətlərini və tariflərini "dondurmaq" yolu ilə inflyasiyanın və ondan gələn zərərlərin azalması; aşağı inflyasiya səbəbindən faiz dərəcəsinin bir hissəsinin subsidiyasından imtina; alınmış məhsulların maya dəyərində əlavə dəyər vergisi daxil olmayan mexanizmlərin tətbiqi və s.

## NƏTİCƏ

Qeyd etmək lazımdır ki, kənd təsərrüfatında ixrac potensialından istifadənin yaxşılaşdırılmasınıstimullaşdırmaq mexanizmlərinin hazırlanmasında kənd təsərrüfatına investisiyaların təsirini maksimum dərəcədə artırmaq ən geniş yayılmış tədbirlərdəndir. Göstərilənlərdən aydın olur ki, idxalın əvəzlənməsi strategiyası ixrac potensialının artırılması siyasətinin tərkib hssəsidir və hazırkı mərhələdə bu, kənd təsərrüfatının inkişafı üçün ən çox ehtimal olunan və əsaslandırılmış strategiyalardan biridir.Ümumiyyətlə, ixrac potensialını artırmadan ərzaq təhlükəsizliyinə nail olmaq demək olar ki, mümkün deyil. Odur ki, dövlət dəstəyinin lazımi səviyyədə olacağı təqdirdə idxalın əvəzlənməsi hesabına kənd təsərrüfatının kompleks inkişafını təmin etmək və ixrac imkanlarını yüksəltmək mümkündür.

**Tədqiqatın elmi yeniliyi:** Aparılan tədqiqat işinin elmi yenilikləri aşağıdakılardan ibarətdir:

- kənd təsərrüfatında ixrac potensialının formalaşmasının əsas aspektləri araşdırılmışdır;
- kənd təsərrüfatında ixrac potensialının idxalın əvəzlənməsi strtegiyasındarolu müəyyən edilmişdir;

- ixrac potensialı ilə ölkənin ərzaq təhlükəsizliyi arasındakı əlaqə müəyyən olunmuşdur;
- kənd təsərrüfatının spesifik xüsusiyyətləri nəzərə alınmaqla ixraca təsir edən amillər və ixrac potensialının elementləri müəyyən edilmişdir;
- kənd təsərrüfatında ixrac potensialının yaxşılaşdılması üzrə prioritetlər müəyyənləşdirilmişdir.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti.**Tədqiqatın tətbiqi əhəmiyyəti kənd təsərrüfatında ixrac potensialının yaxşılaşdırılması hesabına ölkənin ərzaq təhlükəsizliyini təmin etmək istiqamətlərini və kənd təsərrüfatı məhsulları istehsalçılarının ixracdakı rolununartırılması imkanlarını müəyyən etməkdən ibarətdir.

**Tədqiqat işinin iqtisadi səmərəsi.**Kənd təsərrüfatında ixrac potensialının yaxşılaşdırılması ölkənin idxaldan asılılığını aradan qaldırmaqla valyuta daxilolmalarının artmasına, yerli məhsullar hesabına kənd təsərrüfatı məhsullarına tələbatın ödənilməsi səviyyəsinin yüksəldilməsinə, təkrar istehsalın genişləndirilməsinə və beləliklə istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsinə əhəmiyyətlitəsir göstərə bilər.

**Ədəbiyyat**

1. Kərimli İ.A. Beynəlxalq İqtisadi münasibətlərin müasir problemləri. Bakı, "Çaşıoğlu", 2006. 304
2. Гордиенко Д.В. Основы экономической безопасности государства. М, «Финансы и статистика», ИНФРА-М, 2009, 224с.
3. Касьянова Г. Экспорт и импорт. Издательство АБАК: 2011. 448 с.
4. www.stat.gov.az

**УДК 55:101.1**

**НАПРАВЛЕНИЯ СОВЕРШЕНСТВОВАНИЯ СЕЛЬСКОХОЗЯЙСТВЕННОГО ЭКСПОРТНОГО ПОТЕНЦИАЛА**

**Насибова Чинара Низами кызы**

Для повышения экспортного потенциала аграрного сектора важны меры по замене импорта - увеличение производства местного сельскохозяйственного сырья и продуктов питания, создание благоприятных условий для эффективности различных хозяйств, диверсификация производства. Нынешний потенциал сельского хозяйства, наряду с созданием благоприятных условий для продовольственной безопасности в стране, позволяет ряду производителей сельскохозяйственной продукции стать одним из ведущих экспортеров, что связано с необходимостью совершенствования экономического механизма экспорта.

**UDC 55:101.1**

**DEPARTMENT OF AGRICULTURAL ECONOMIC POTENTIAL**

NasibovaChinaraNizamikyzy

To increase the export potential of the agricultural sector, measures to replace imports are important - increasing the production of local agricultural raw materials and food products, creating favorable conditions for the efficiency of various farms, and diversifying production. The current potential of agriculture, along with the creation of favorable conditions for food security in the country, allows a number of agricultural producers to become one of the leading exporters, due to the need to improve the economic mechanism of exports.

**№ 1/2021** **səh.82- 88**

***UOT338.518***

# AQRAR SAHƏNİN MADDİ – TEXNİKİ BAZASININ FƏALIYYƏT MEXANİZMİ VƏ XÜSUSİYYƏTLƏRİ

**Mahir Tahir oğlu Qarayev**
**Azərbaycan Dövlət Aqrar Universitet,**
**Gəncə şəhəri, Adil İskəndərov küç. 64**
**mahir.qarayev@gmail.com**

***Xülasə:****Aqrar sahənin maddi-texniki bazasının formalaşması mexanizmində iştirak edən hər bir elementinin qarşılıqlı əlaqəsi, onların maddi-texniki bazanın obyektlərinə optimal şəkildə daxil edilməsini tələb edir.Bu proses kənd təsərrüfatı istehsalının tələbatına uyğun olaraq maliyyə, məlumat və idarəetmə prinsiplərinin mütənasib şəkildə paylanması vəzifəsinə əsaslanır. Ona görə aqrar sahənin inkişaf konsepsiyası çərçivəsində kənd təsərrüfatının maddi-texniki bazasının formalaşdırılması və inkişafı üçün optimal bir mexanizmin formalaşdırılması başlıca hədəflərdən hesab edilir.*

***Açar sözlər:****maddi-texniki resurs, logistika, rəqabət qabiliyyəti, keyfiyyət, səmərə, infrastruktur.*

**Giriş.**Aqrar sahənin maddi-texniki bazasının formalaşması iqtisadiyyatın bu mühüm sferasınındaxili və xarici mühitlə qarşılıqlı əlaqəsi və idarə olunmasının metod və üsullar sistemindən əhəmiyyətli dərəcədə asılılığı ilə xarakterizə olunur. Kənd təsərrüfatının maddi-texniki bazası bu baxımdan resurs istehsal edən müəssisələr, bütün səviyyələrdə informasiya strukturları, logistika şirkətləri, nəqliyyat müəssisələri, maddi-texniki bazanın elementləri üçün saxlama və texniki xidmət təminatçıları, bütövlükdə maddi-texniki bazanın obyektləri iləmövcud reallığı xarakterizə edən vəiqtisadi mexanizmin fəaliyyət göstərməsi üçün zəruri olan iqtisadi, elmi, texniki və digər elementlərin uyğunlaşmasını nəzərdə tutur[2, s.26]. Qeyd edilənlər aqrar sferada qarşılıqlı iqtisadi əlaqələrin təbiətini, kənd təsərrüfatı ilə inteqrasiya şəraitində fəaliyyət göstərən sənayenin bu və digər sahələrində istehsalın texniki inkişaf səviyyəsini, elmi-texniki tərəqqiqnin vəziyyətini, həyata keçirilən iqtisadi siyasəti, müəssisənin rəqabət qabiliyyətini və s. müəyyənləşdirməyə və qiymətləndirməyə imkan verir.

Kənd təsərrüfatının maddi-texniki bazasının formalaşması mexanizminin hər bir elementinin qarşılıqlı əlaqəsi, maddi-texniki bazanın obyektlərinə optimal şəkildə daxil edilməsi və kənd təsərrüfatı istehsalının tələbatına uyğunluğu üçün maliyyə, məlumat və idarəetmə prinsiplərinin bu prosesə təsirini mütənasib şəkildə paylamaq vəzifəsinə əsaslanır. Beləliklə, maddi-texniki bazasının formalaşmasına struktur, təşkilati, məlumat və s. kimi vacib mexanizmlərin tərkib hissələrinin ciddi təsir xüsusiyyətinə malik olduğunu qeyd etmək olar.Belə təsirlərin əsas təbiəti iqtisadi və stimullaşdırıcıamillərin xüsusiyyətlərinə əsaslanır. Bütün bunlarkənd təsərrüfatının maddi-texniki bazasının formalaşmasının spesifik xüsusiyyətlərə və fəaliyyət mexanizminə malik olduğunu təsdiq edir.

**Mövzunun aktuallığı.**Kənd təsərrüfatının maddi-texniki bazasının formalaşması və inkişafında istehsal vasitələrinin istehsalı və satışı prosesində iştirak edən maddi-texniki ehtiyatların istehlakçıları, informasiya və konsaltinq təşkilatları, birliklər və istehsalçılarla qarşılıqlı əlaqədə olan dövlət strukturları iştirak edir. Aqrar sahənin davamlı inkişaf konsepsiyası çərçivəsində qarşıya qoyulmuş vəzifələr əsasında kənd təsərrüfatının maddi-texniki bazasının formalaşdırılması və inkişafı üçün optimal bir mexanizminformalaşdırılması başlıca hədəflərdən hesab edilir. Əlbəttə ki, kənd təsərrüfatının maddi-texniki bazasının keyfiyyətcə dəyişdirilməsi ən qısa müddətdə dövlətin iştirakı olmadan həyata keçirilə

bilməz. Bu baxımdan, kənd təsərrüfatı məhsullarının istehlakçı tələbində dəyişikliklərlə bağlı proqnozları, məhsullar və ehtiyatlar üçün qiymət və keyfiyyət parametrlərini, habelə sektordakı yeni texnologiyalar haqqında məlumatları formalaşdırmaqla mərkəzləşdirilmiş baza məlumatlarını kənd təsərrüfatı məhsulları istehsalçılarına çatdırmaq zəruridir. Təbii ki, iqtisadi proseslərdəki dəyişikliklər nəzərə alınmaqla kənd təsərrüfatı əmtəə istehsalçılarının maddi-texniki bazasının inkişaf etdirilməsi və bu baxımdan müəssisələrin daxili istehsal proqramının yenidən qurulması istehsal prosesinə başlanmazdan gec olmayaraq təmin edilməlidir. Təsadüfi deyil ki, “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”ndə kənd təsərrüfatı sahəsi üzrə istehsal vasitələri bazarının inkişafı və xidmətlərlə təminatın, o cümlədən kənd təsərrüfatı məhsulları istehsalçılarının texnika, maşın və avadanlıqlarla təmin olunmasının yaxşılaşdırılması və aqroservis xidmətləri bazarının inkişaf etdirilməsi, gübrə və bitki mühafizə vasitələri ilə təminatın yaxşılaşdırılması tədbirlərinə xüsusi yer verilir [1].

Aqrar sahənin maddi-texniki bazasında, müxtəlif fəaliyyət və istiqamətləndirmə prosesləri davamlı olaraq inkişaf edir, struktur komponentləri formalaşdırılır.Eyni zamanda maddi-texniki ehtiyatların axınları nəzərə alınaraq, kənd təsərrüfatı istehsalçılarının maddi-texniki təchizatı prosesinə yeni yanaşma müəyyən edilir və hər şeydən əvvəl sistemin, onun elementlərinin və ya birləşmələrinindaha müasir formaları, əlavə funksiyaları, xüsusiyyətləri, vəzifələri və fəaliyyət prinsipləri bir-birilə əlaqələndirilir.Deməli, maddi-texniki resurslarla təminatın yaxşılaşdırılması aqrar sahənin inkişafının əsas təminatçısına çevrilir.Bütün bunlar aqrar sahədə fəaliyyət göstərən strukturların maddi-texniki bazasının fəaliyyət mexanizmi və xüsusiyyətlərinin araşdırılması ilə bağlı tədqiqatın aktuallığını təsdiq edir.

**Tədqiqatın məqsədi.**Tədqiqatın məqsədi aqrar sahənin dayanıqlı inkişafında mühüm rol oynayan maddi-texniki potensialdan daha səmərəli istifadənin elmi və praktiki əsaslarının araşdırılmasından, bu sahədə mövcud vəziyyəti təhlil etməklə maddi-texniki resurslarla təminatınyaxşılaşdırılması istiqamətlərinin müəyyənləşdirilməsindən ibarətdir.

## MATERIALLAR VƏ MÜZAKIRƏLƏR

Araşdırmalar göstərir ki, bazar münasibətləri şəraitində aqrar sahənin maddi-texniki bazasının strukturlaşdırılması yeni mahiyyət kəsb edir. Belə ki, kənd təsərrüfatının maddi-texniki bazasının fəaliyyət istiqamətinə və yerinə yetirdiyi vəzifələrə əsaslanaraq onun formalaşması və inkişaf etdirilməsinin aşağıdakı prinsiplər əsasında həyata keçirilməsinin məqsədəuyğunluğunu qeyd etmək olar: uyğunlaşma; elastiklik; mərkəzsizləşdirmə; inteqrasiya; səmərəlilik; ehtiyatların formalaşması; rəqabət qabiliyyətlilik; resurslardan istifadədə maksimum effektivliyin təmin edilməsi.

Uyğunlaşma prinsipi kənd təsərrüfatı istehsal üçün zəruri olan maddi və texniki ehtiyatları artırma üsullarından, formalarından, yollarından və ehtiyaclarından irəli gələn mexanizmin formalaşmasını nəzərdə tutur. Bu prinsip kənd təsərrüfatı istehsalının xarici və daxili mühitinin dəyişən amillərinə çevik şəkildə reaksiya vermə şərtlərinə riayət etməyi tələb edir. Belə vəziyyətdə mövcud mexanizm monolit halına gəlməməli, əksinə maksimum hərəkətliliyi qoruyaraq ən kiçik vasitələrdən və hissələrdən istifadə edərək asanlıqla tələb olunan şərtlərin texniki və iqtisadi aspektlərinə çevrilməlidir.Uyğunlaşma prinsipi aqrar sferanın maddi və texniki təminatı prosesində iştirakçılar arasındakı əlaqələrin elastikliyi ilə ayrılmaz şəkildə bağlıdır və bu, maddi-texniki bazanın fəaliyyət mexanizminin qeyd olunan hərəkətliliyini qorumağa imkan verir.

Kənd təsərrüfatında iqtisadi subyektlərin fəaliyyəti üçün şərtlər, resurs tədarükçüləri arasında yüksək rəqabətlə və istehlakçılarının aşağı ödəmə qabiliyyəti ilə müşayət olunduğundan, müəyyən funksiyaların bir-birindən digərinə ötürülməsi və ya bölüşdürülməsi prosesi baş verir. Bu, elastiklik prinsipinin təzahürüdür.

Funksiyaların mərkəzsizləşdirilməsi prinsipi reallığın və daxili iqtisadiyyatın inkişafı mərhələsində müəssisələrin idarəetmə növlərinin spesifikliyinixarakterizə edir.Bundan fərqli olaraq inteqrasiya prinsipi kənd təsərrüfatının maddi-texniki təminatı prosesinin təşkili üçün hüquq və məsuliyyətin dövlət orqanlarından maddi-texniki ehtiyatlar bazarının (bu bazar növü əsasən tələb və təklif qanununun təsiri altında özünü tənzimləmə mexanizmi əsasında fəaliyyət göstərir) iştirakçıları olan təsərrüfat subyektləri səviyyəsinə ötürülməsidir[3, s.56]. İnteqrasiya prinsipinin əsas xüsusiyyətlərindən biri də kənd təsərrüfatının maddi-texniki bazasının fəaliyyət mexanizmində bazar iştirakçılarının davranışını məhdudlaşdıran dövlət tənzimləyici vasitələrinin olmamasıdır ki, bu da istehsal vasitələri və kənd təsərrüfatı məhsullarının qiymətlərində tarazlığın pozulmasına səbəb olur.

Kənd təsərrüfatı müəssisələrinin maddi-texniki bazasını təşkil edən istehsal vasitələri və əmək obyektlərinin məcmusu geniş quruluşu, keyfiyyəti, xüsusiyyətləri, dəyəri və digər parametrləri baxımından kifayət qədər mürəkkəbdir.Belə mürəkkəblikqeyd edilən parametrlərin yaradılması, saxlanması, modernləşdirilməsi imkanlarını istisna edir və ya müəyyən ehtimalları əhəmiyyətli dərəcədə çətinləşdirir. Bu səbəbdən maddi-texniki təchizat, enerji, məlumat və hüquq sistemləri prosesinin subyektlərinin davamlı və güclü qarşılıqlı əlaqəsi tələb olunur.

Səmərəlilik prinsipi, ümumi tələbata cavab vermə ehtiyacı və ehtiyatların əmələ gəlməsi, aqrotexniki işlərin vaxtında həyata keçirilməsi, müəyyən bir keyfiyyət mənbələrindən istifadə edilməsi,istehsal parametrləri texnologiyasına uyğun maşın və avadanlıqlardan istifadə ilə nəticələnən kənd təsərrüfatı fəaliyyətinin xüsusiyyətləri ilə əlaqədardır. Göstərilən prinsiplərdən birinin pozulması digər prinsiplərə əməl etməyin təsirini minimuma endirir.

Rəqabətlilik və resurslardan istifadədə maksimum effektivliyin təmin edilməsi prinsipi ehtiyatların formalaşması prinsipini şərtləndirir. Burada başlıca məsələ maddi və texniki resursların istehlakçılarının, yəni kənd təsərrüfatı istehsalçılarının maraqlarına əsaslanan bazar tələbidir. Kənd təsərrüfatının maddi-texniki bazasının fəaliyyət prinsipləri iş və xidmətlərin həyata keçirilməsini təmin etməklə, maddi-texniki ehtiyatların elementlərini yaratmaq, modernləşdirmək, xidmət göstərmək, satmaq və onları keyfiyyətli şəkildə saxlamaq prosesində iştirakçılar arasında daimi fəaliyyətə əsas verir.

Araşdırmalar nəticəsində məlum olur ki, maddi-texniki təchizat prosesi onun strukturunun ayrılması ilə yanaşı təşkilati proseslərə uyğun infrastrukturun yaradılmasını tələb edir. Maddi-texniki təchizat prosesinin təşkili üçün infrastruktur toxum, gübrə, ehtiyat hissələri üçün anbarlar, kənd təsərrüfatı maşın və avadanlıqlarına xidmət üçün emalatxanalar, nəqliyyat, alətlər, qablaşdırma, tədarük müəssisələri, habelə resursların keyfiyyətinə nəzarət laboratoriyaları və şöbələrini əhatə edir[4, s.32].Kənd təsərrüfatının maddi-texniki təminatının infrastruktur obyektləri müxtəlif təşkilati və hüquqi əsaslara söykənməklə qarşılıqlı fəaliyyətin müxtəlif iyerarxik səviyyələrində təşkil oluna bilər. İnfrastrukturun əsas səviyyələrinə daxildir:

- avadanlıqların təmiri və istismarı üzrə müəssisələr, meliorasiya təşkilatları, tədqiqat təşkilatları, dövlətstrukturları;
- texnoloji müəssisələr, tədarük və marketinq fəaliyyəti göstərən strukturlar, təchizat, xidmət, tədarük, satış təşkilatları, saxlama müəssisələri, avadanlıqlara xidmət, ticarət müəssisələri, kənd təsərrüfatı üçün maddi-texniki resursların mənbələri;

- təmir qrupları, emalatxanalar, kənd təsərrüfatı müəssisələrinin maşın-traktor parkları, anbarlar və s.

Kənd təsərrüfatının maddi-texniki təminatı üzrə dövlət strukturlarının fəaliyyəti vahid bir koordinasiya, tənzimləmə və nəzarət sistemi ilə xarakterizə olunur. Bu prosesdə torpaqların meliorasiyası və istifadəsi, texniki və aqrokimyəvi dəstək üzrə ixtisaslaşmış strukturlar və müxtəlif xidmətlərhəyata keçirən bölmələr mövcud olur[5, s.73]. Kənd təsərrüfatı istehsalçılarının maddi-texniki resurslarla təmin olunması və onlara xidmət göstərilməsi prosesi bir neçə formada həyata keçirilir:

- resursların istehsalı və səmərəli şəkildə saxlanılması;
- maddi-texniki resurslarla təminatda texnoloji zəncirin hər bir həlqəsi üzrə iştirakçıların fəaliyyətinin əlaqələndirilməsi;
- maddi-texniki resursların birbaşa istehsalçılardan alınması;
- topdan və pərakəndə ticarət şəbəkəsi vasitəsi ilə resurs satışını həyata keçirən vasitəçilərlə əlaqələrdən istifadə;
- müxtəlif müsabiqələrin xidmətindən istifadə edilməsi;
- maşın və avadanlıqların lizinqinə geniş yer verilməsi;
- istehsal vasitələri və torpaq kirayəsindən istifadə olunması;
- kənd təsərrüfatı müəssisələrinin maddi-texniki bazasının istifadəsi və saxlanılması üçün birgə müəssisələrin və ya kooperativlərin yaradılması.

Araşdırmalar göstərir ki, qeyd edilən məsələlər maddi-texniki təchizatın və resurslardan səmərəli istifadənin ən vacib cəhətləridir. Aqrar sferada dövlət tərəfindən bu istiqamətlərdə həyata keçirilən tədbirlərin nəticəsidir ki, son illər kənd təsərrüfatının maddi-texniki ehtiyatlarının yaradılması və inkişaf etdirilməsində müsbət tendensiyalar baş vermişdir. Təhlil göstərir ki, 2015-ci ilə nisbətən 2019-cu ildə maddi-texniki resursların daxil olduğu kənd təsərrüfatında əsas fondların dəyəri 1962,2 milyon manat, yaxud 30,9 faiz artmışdır.Fondlardan istifadənin iqtisadi səmərəliliyini xarakterizə edənfondverimi göstəricisi 0,05 manat, yaxud 5,6 faiz, əməyin fondla silahlanması 936 man/adam, yaxud 25,0 faiz, fondla təminolunma 407,7 man/ha, yaxud 30,6 faiz artmış, fondtutumu 6,8 manat, yaxud 6,0 faiz azalmışdır [6]. Alımış nəticələr onu deməyə əsas verir ki, 2015-2019-cu illərdə respublikanın aqrar sahəsində nəinki maddi-texniki resurslarla təminat yaxşılaşmış, eyni zamanda ondan istifadənin iqtisadi səmərəliliyi də əhəmiyyətli dərəcədə yüksəlmişdir.

Qeyd etmək lazımdır ki, göstərilən müzbət meyllərlə yanaşı kənd təsərrüfatının inkişafının hazırkı mərhələsində yüksək məhsuldar və innovativ əmək vasitələri ilə təminatda çatışmazlıqlar mövcuddur. Şübhəsiz ki, maddi-texniki resurslarla təminat baxımından problemlərin mövcudluğu özünü təkrar istehsal prosesində əhəmiyyətli şəkildə biruzə verir.Bu baxımdan kənd təsərrüfatının maddi-texniki bazasının inkişafını ləngidən və ya ona mənfi təsir göstərən amillərə daxildir:

- kənd təsərrüfatının maddi-texniki bazasının fəaliyyət mexanizminin subyektləri arasında sistemli qarşılıqlı əlaqənin kifayət səviyyədə olmaması;
- aqrar sahənin maddi-texniki təminatı prosesinin subyektləri ilə istehsalçılar arasında qarşılıqlı əlaqələndirmənin zəifsəviyyəsi. Kəndin maddi-texniki təchizatı sistemində bu cür problemin mövcudluğu tələb olunan məhsuldarlığa nail olunmamasına, istehsal prosesində istifadə olunan istehsal vasitələrinin çatışmazlığına səbəb olur. Bu baxımdan müqayisə etmək və seçmək imkanına malik olmayan kənd təsərrüfatı məhsulları istehsalçıları, əksər hallarda bazarda mövcud olan çeşidlərdən istifadə etmək məcburiyyətində qalır. Deməli, kənd təsərrüfatı üçün maddi-texniki ehtiyatlar bazarının praktik olaraq alternativi yoxdur;

- kənd təsərrüfatının maddi-texniki təminatına nəzarət və tənzimləmə mexanizmi, bəzi hallarda kənd təsərrüfatının maddi-texniki bazasının formalaşması və səmərəli istifadəsi prosesinə əhəmiyyətli dərəcədə müsbət təsir göstərmədən müşahidəçi rolunu oynayır;
- kənd təsərrüfatının maddi-texniki ehtiyatlarının istifadəsi və saxlanılması üçün zəruri strukturların yaradılması prosesi zəif inkişaf edir. Xüsusilə qeyd etmək olar ki, aqrar sahəni maddi-texniki resurslar və iş və xidmətlərlə təmin edən yeganə struktur hazırda "Aqrolizinq" ASC-dir. Bu da təbii ki, aqrar sahənin həm istehsal, həm də maddi-texniki potensialından daha səmərəli istifadə üçün yetərli deyil;
- maddi-texniki bazanın strukturunda onun elementlərinin təmiri, bərpası və saxlanılması üçün subyektlərin, habelə resurslara qənaət və digər xidmətlər göstərənmüəssisələrin fəaliyyətində kompleslik müşahidə edilmir və s.

Bütün bunlar, aqrar sahənin maddi-texniki bazasının fəaliyyət prinsiplərinin, habelə dövlətin tənzimləmə strukturlarının və kənd təsərrüfatının maddi-texniki təminatı baxımından bütün iştirakçıların münasibətlərinin optimallaşdırılması zərurətini yaradır.

**Nəticələr**

Araşdırmaların nəticələrini ümumiləşdirərək kənd təsərrüfatının inkişafında maddi-texniki resursların rolunu artırmaqvə maddi-texniki bazanın fəaliyyətininsəmərəliliyini təmin etmək üçü aşağıdakı tədbirlərin məqsədəuyğunluğunu qeyd etmək olar:

- kənd təsərrüfatı müəssisələrinin texnoloji zəncirə daxil edilməsi ilə kənd təsərrüfatı istehsalçılarının maddi-texniki resurslarla təchizatı prosesində iştirak edən müəssisə və təşkilatlarınqarşılıqlı əlaqələrinin yaradılması;
- innovativ texnologiyaların birgə alınması və istifadəsi üçün xidmət strukturlarının təşkili və genişləndirilməsi proseslərinin stimullaşdırılması;
- pul axınının optimallaşdırılması və onların təkcə kənd təsərrüfatı texnikalarının deyil, həm də ehtiyat hissələrinin, yanacaq-sürtkü materiallarının, gübrələrin, toxumların, aqrokimyəvi vasitələrin birgə alınmasına, əlverişli qiymətlərə, çatdırılma şərtlərinə və zəmanətə çatdıqdan sonra qeyd edilən resursların böyük həcmdə alınmasına yönəldilməsi;
- kənd təsərrüfatı məhsulları, ehtiyatları və avadanlıqları üçün anbarlar tikintisinin, suvarma sistemlərinin genişləndirilməsi;
- kənd təsərrüfatı müəssisələrin səylərinin birləşdirilməsi ilə təmin olunan imkanlar hesabına maddi-texniki bazanın yenilənməsi və modernləşdirilməsi üçün bank kreditlərinin birgə cəlb edilməsi;
- kənd təsərrüfatının səmərəli maddi-texniki təminatı üçün müəssisə və təşkilatların ən optimal birliyinin(gübrələr və bitki mühafizə məhsulları istehsalçıları, kənd üçün kənd təsərrüfatı maşın və avadanlıqları istehsalçıları, aqrotexniki xidmət müəssisələri, aqrokimyəvi xidmət və s.) müəyyən edilməsi və s.

**Tədqiqatın elmi yeniliyi.**Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- aqrar sahədə maddi-texniki resurslardan səmərəli istifadə edilməsinə iqtisadi, elmi, texniki və digər amillərin təsiri müəyyənləşdirilmişdir;
- kənd təsərrüfatında maddi-texniki resurslardan səmərəli istifadə ilə istehsalın səmərəliliyi arasında qarşılıqlı əlaqələr müəyyən olunmuşdur;
- maddi-texniki resurslardan səmərəli istifadəninkənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətinə təsiri müəyyən edilmişdir;
- maddi-texniki resurslardanistifadəni yaxşılaşdırmağa xidmət edən stimullaşdırma tədbirləri müəyyənləşdirilmişdir;

- aqrar sahənin maddi-texniki bazasının yaxşılaşdırılması və ondan dahasəmərəli istifadə edilməsi yolları müəyyənləşdirilmişdir.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti.**Tədqiqatın praktiki əhəmiyyəti aqrar sahədə intensiv amillər hesabına məhsul istehsalını artırmaq üçün istehsal prosesinə yeni ehtiyatları və resursları daxil etmək, maddi-texniki potensialdan istifadənin yaxşılaşdırılması hesabınadaha böyük iqtisadi səmərə əldə etmək imkanlarını müəyyən edən əsaslandırılmış təkliflər hazırlamaqdan ibarətdir.

**Tədqiqat işinin iqtisadi səmərəsi.**Müasir iqtisadi şəraitdə kənd təsərrüfatının maddi-texniki potensialından səmərəli istifadənin istehsalın intensiv inkişafına təsirinin müəyyən edilməsiistehsalın iqtisadi səmərəliliyi ilə elmi-texniki resurslardan istifadə arasında qarşılıqlı əlaqələrinsəviyyəsini müəyyənləşdirməyə imkan verir.

Ədəbiyyat

1. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi". Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı.
2. Алесинская Т.В. Основы логистики. Функциональные области логистического управления Таганрог: Изд-во ТТИ ЮФУ, 2011. 79 с.
3. Алферьев В. Совершенствование рынка материально-технических ресурсов: моногр./Владимир Алферьев/. - М.: Palmarium Academic Publishing, 2012. - 902 с.
4. Степанов В.И. Материально-техническое снабжение /В.И. Степанов/. - М.: Академия, 2009. - 192 с.
5. Кормаков Л. Рынки материально-технических ресурсов для села: проблемы и решения /Леонид Кормаков/. - М.: LAP. Lambert Academic Publishing, 2014. - 196 с.
6. www.stat.gov.az

**УДК**

## ОСОБЕННОСТИИ МЕХАНИЗМ ДЕЯТЕЛЬНОСТИ МАТЕРИАЛЬНО-ТЕХНИЧЕСКОЙ БАЗЫ АГРАРНОЙ СФЕРЫ

**Махир Тахир оглы Гараев**

**Аннотация**: Взаимодействие каждого элемента, задействованного в механизме формирования материально-технической базы аграрного сектора, требует их оптимального включения в объекты материально-технической базы. В основе этого процесса лежит задача пропорционального распределения финансовых, информационных и управленческих принципов, соответствующих требованию сельскохозяйственного производства. Поэтому формирование оптимального механизма формирования и развития материально-технической базы сельского хозяйства в рамках концепции развития аграрного сектора считается одной из основных целей.

**Ключевые слова:**материально-технический ресурс, логистика, конкурентоспособность, качество, эффективность, инфраструктура.

**№ 1/2021** **səh.82- 88**

**UDC**

**FEATURES AND MECHANISM OF ACTIVITY OF MATERIAL AND TECHNICAL BASES OF THE AGRARIAN SECTOR**

**Garayev Mahir Tahir**

**Annotation:** The interaction of each element involved in the formation of the material and technical base of the agricultural sector requires their optimal inclusion in the objects of the material and technical base. This process is based on the task of proportional distribution of financial, informational and management principles that meet the requirements of agricultural production. Therefore, the formation of an optimal mechanism for the formation and development of the material and technical base of agriculture within the framework of the concept of the development of the agricultural sector is considered one of the main goals.

**Key words:** material and technical resource, logistics, competitiveness, quality, efficiency, infrastructure.

Redaksiyaya daxilolma 25.02.2021
Çapa qəbul olunma 05.06.2021

**№ 1/2021** **səh.89 - 94**

**UOT 338.4.62**

# MÜALİCƏ-SAĞLAMLIQ TURİZMİNİN, TURİZM SƏNAYESİNİN İNKİŞAFINA TƏSİRİ İSTİQAMƏTLƏRİ

***Hümbətov Yusif Əbülfət oğlu***

***Qapaqov Vüqar Faiq oğlu***

Azərbaycan Texnologiya Universiteti

Gəncə şəh., Ş.İ.Xətai pr., 103

**1humbetov-1964@mail.ru,**

***Xülasə:** Məqalədə ölkəmizdə turizm sənayesi və onun inkişafına təsir göstərən amillər, onun inkişafında ayr-ayrı turizm müəssisələrinin birgə fəaliyyətinin zəruriliyi, ölkəmizin turizm potensialından səmərəli istifadə, mineral və termal turizm əhəmiyyətli sərvətlərdən yararlanmaq və müalicə - sağlamlıq turizminin inkişaf etdirilməsi məsələlərinə baxılmışdır.*

***Sağlamlıq turizminin ölkə iqtisadiyyatında, ölkə əhalisinin yaşayış səviyyəsində, beynəlxalq səviyyədə tanıdılmasında, bu sektorla əlaqəsi olan digər sektorların da inkişafında təşviqedici rolunun artması təjlil edilmişdir.***

***Açar sözlər:** turizm sənaye,si, müalicə-sağlamlıq turizmi, sanatoriyalar və kurortlar, təbii resurslar, təsir edən amillər, turizm potensialı.*

**Mövzunun aktuallığı** Ölkədə turizmin inkişaf etdirilməsi və turizm potensialımdan düzgün istifadə edilməsi, sağlamlıq turizmi sahəsində Azərbaycanda mövcud olan Naftalan neftinin və beynəlxalq səviyyədə tanınan mineral suların analoqu olan turizm ehtiyatlarının inkişafının təmin edilməsi əsas məsələlərindəndir. Odur ki, müalicə - sağlamlıq turizminin inkişafəna zəmin yaradan təbii sərvətlərdən yararlanaraq turizm sənayesinin inkişaf etdirilməsi aktual problemlərdən biri olaraq qalır.

**Tədqiqatın məqsədi.** Tədqiqatın məqsədi müasir şəraitdə Azərbaycanda müalicə - sağlamlıq turizminin müasir vəziyyətinin qiymətləndirilməsi, onun inkişaf istiqamətlərinin, həyata keçiriləcək tədbirlərin müəyyənləş-dirilməsi, müalicə tipli kurort və sanatoriyaların yaradılması və turizmin sənaye əsasında inkişafının təhlil edilməsi əsasında ölkəyə turist axınının artırılması məsələlərindən ibarətdir.

**Tədqiqatın vəzifələri aşağıdakılardır:**

- müalicə -sağlamlıq tyrizminin müasir vəziyyətinin təhlil olunması;
- müalicə-sağlamlıq turizminin inkişafına təsir edən amillərin araşdırılması;
- kurort və sanatoriyaların bir sağlamlıq obyekti olaraq müxtəlif xəstəliklərin müalicəsinin həyata keçirilməsin üçün vasitə rolununun oynamasının müəyyən edilməsi və elmi əsaslandırılması;
- Respublikamızda müalicə-sağlamlıq turizminin, turizmin sənaye əsasında təşkili tədbirlərinin həyata keçirilməsi üçün əsaslandırılmış təkliflərin işlənib hazırlanması.

**Tədqiqat obyekti.** Azərbaycan Respublikasında turizm sektorunda aparılan islahatlar və müalicə - sağlamlıq turizminin inkişafı məsələləri seçilmişdir.

**Tədqiqat metodları.** Tədqiqat prosesində iqtisadi - statistik, statistik qruplaşdırma, müqayisəli iqtisadi təhlil və müşahidə metodlarından istifadə olunmuşdur.

Ölkəmizin əlverişli coğrafi mövqedə yerləşməsi, turizm ehtiyatları ilə zənginliyi, iqlim tiplərinin müxtəlifliyi rəqabətə davamlı və uzunmüddətli inkişafa malik turizm sektorunun davamlı olaraq təşkilinə şərait yaradır. Azərbaycan dövləti ölkənin neft sektorundan asılılığını azaltmaq və qeyri-neft sektorunun inkişafını təmin etməyi qarşısına məqsəd qoymuşdur.

Turizm sektoru ölkənin iqtisadi inkişafında önəmli rol oynayır. Son dövrlərdə yerli və xarici ölkə alimlərinin əsərlərində sağlamlıq turizminin ölkə iqtisadiyyatında rolu və turizm potensialından istifadənin səmərəli şəkildə təşkili ilə bağlı araşdırmalara rast gəlmək mümkündür.

Müalicə-sağlamlıq turizminin mahiyyəti və Azərbaycan turizmində yeri, sənayeləşmə və kəndləşmə nəticəsində meydana gələn problemlər insan və cəmiyyət sağlamlığı üzərində mənfi təsirlər yaradır. Sağlam olmayan cəmiyyətdə əmək qabiliyyəti və istehsal gücünün azalması müşahidə edilir.

Sağlamlıq turizmi təbii mənbələrə, insanlar (turistlər, mütəxəssislər və s.) və maliyə mənbələrinə söykənən önəmli bir turizm sahəsidir.. Azərbaycanda sağlamlıq turizminin inkişafı və ona göstəriləcək dəstəyin düzgün planlaşdırılmasına bağlıdır. Sağlamlıq turizmi ilin hər mövsümündə fəaliyyət göstərir. Çünki insanların xəstə olmasının, xəstəlikdən qurtulmasınının mövsümü olmaz və sağlamlıq turizmi yay aylarına xas mövsümü turistik fəaliyyətlərdən ayrılır.

Sağlamlıq turizminin 2 əsas məqsədi vardır:

- insanları yaşadığı gərginlikdən və müxtəlif sağlamlıq problemlərdən qurtarılmasına vasitəçilik etmək;
- ölkənin xarici və daxili turizmini canlandıraraq ölkə iqtisadiyyatında önəmli paya sahib olmaq [34, səh. 126].

Sağlamlıq turizmi sağlamlıq xidməti almaq üçün başqa bir ölkəyə səyahət etmək olaraq bilinir. Xəstələrə öz ölkəsində istədikləri müalicənin edilməməsi, təqdim edilən müalicə xərclərinin yüksək olması, xidmət almaq üçün uzun müddət gözləmələri lazım olduğuna görə fərqli ölkələrdə sağlamlıq xidməti alırlar.

Sağlamlıq turizmi, cərrahi və ya xüsusi müalicə alması eyni zamanda, lazım olan digər müdaxilələrin də daxil olduğu müalicəyə ehtiyac duyan xəstələrə xüsusi tibbi müalicə verilməsi məqsədi ilə turizm şirkəti ilə işbirliyi qurulmasıdır.

Hazırda sağlamlıq turizmi çox sürətlə inkişaf edərək, əhəmiyyətli turizm növünə çevrilib. İnsanlar çalışırlar ki, sağlamlıqla bağlı müalicə alarkən ən yaxşı seçimi etsinlər. Müalicə və tətil məqsədi ilə şəhərlərarası və ölkələr arası reallaşan səyahətlər sağlamlıq turizmi adlanır.

Müalicə-sağlamlıq turizmində əsas fikir turistin gündəlik həyatdan uzaqlaşaraq fərqli bir məkanda müalicə almasıdır.

Statistik göstəricilərə əsasən müəyyən edilmişdir ki, sağlamlıq turizminə tələbat hər il artır. Sağlamlıq turizm məkanları müalicə ilə yanaşı, xüsusi qulluq və gözəllik yönümlü digər xidmətlər də təklif edir. Ümumiyyətlə, sağlamlıq üçün səyahət edən turistlər daha çox həftəsonları və digər vaxtlarda müxtəlif təbii üsullarla müalicələr almağa üstünlük verirlər.

İnsanların müalicə olunmaq məqsədi ilə həyata keçirdikləri səhayətlər sağlamlıq turizmini formalaşdırır. Bu turizm növü əsasən fərdi turizm növüdür. Müalicə - sağlamlıq turizmini həyata keçirən insanlar daha çox kurortlar, sanatoriya, müxtəlif sağlamlıq mərkəzlərinin mövcud olduğu ərazilərə üstünlük verir.

Müalicə-sağlamlıq turizminin digər turizm növlərindən bir fərqi də vardır ki, bu turizm növünün 21-24 gün davam etmə müddəti vardır. Bu turizm növü sanatoriya və kurortlarda müxtəlif təbii vasitələr ilə müalicəyə əsaslanır.

Qeyd olunan vasitələrə iqlim, mineral sular, palçıq vannalarını aid etmək lazımdır. Eyni zamanda müalicə tədbirləri müasir tibbi avadanlıqlarla və yeni texnologiyalar ilə ixtisaslaşdırılmış sağlamlıq mərkəzlərində həyata keçirilir.

Müalicə-sağlamlıq turizminin ümumi olaraq ölkə iqtisadiyyatı baxımından əhəmiyyətini aşağıdakı kimi göstərmək mümkündür:

- Sağlamlıq turizmi, iqtisadiyyatın inkişafına dəstək verən önəmli bir xidmət sektorudur;

- Sağlamlıq turizmi, milli gəlirə böyük miqdarda kömək edən bir fəaliyyətdir;
- Sağlamlıq turizmi, dövlət və özəl sektorun inkişafına və rəqabət gücünün artmasına təsir göstərir;
- Sağlamlıq turizminin inkişafı əhalinin işlə təmin olunmasına dəstəyi böyükdür;
- Turizmin inkişafı ölkənin coğrafiyasının və mədəniyyətinin tanınmasına əlverişli şərait yaradır

Sağlamlıq məqsədli turizm hərəkəti son on ildə aktiv olaraq xəstəxana xidmətlərindən faydalanmaq üçün həyata keçirilən ölkə xarici səyahətləri, reabilitasiya xidmətlərini və yaşlı-əngəlli müalicəsini əhatə etmişdir. Bu dəyişmə sağlamlıq turizmindən yaranan iqtisadi gücün sürətlə artmasına səbəb olmuşdur.

Sağlamlıq turizminin inkişafının əsas səbəblərini müəyyən etmək məsqəsdi ilə edilən tətqiqatlar beynəlxalq ədəbiyyatlarda olduqca genişyer alır.

Sağlamlıq turizminin inkişafındakı amillər yüksək əlavə dəyərə sahib bir sənaye, az maliyə xərcləri və yüksək keyfiyyətli xidmət axtaran ehtiyacları, valyuta qazancı ilə gəlirlərini artırmağı məqsəd qoyan destinasiyaların varlığı, daima inkişaf edən turizm kimi faktorlar görülməkdədir.

Sağlamlıq turizminin inkişafında ən böyük əngəllər sığorta polisində göstərilən hüquqların sərhəddən kənarda önəmsiz olması, sağlamlıq xidmətinin keyfiyyət problemi, müalicə turizmi mütəxəssislərin təhsil vəziyyəti, xəstə qeydlərinin elektronik şəkildə lazım olduğu kimi qeyd olunmaması, qanuna zidd qanunların ölkələrarası tətbiq olunması çətinliyidir. Əlavə digər problemlər isə viza problemi, mədəni fəqrliliklər, müalicə sonrası komplikasyon-ların idarə edilməsi kimi problemlərdir.

Sağlamlıq turizminin inkişafına nail olub iqtisadiyyata təsir edəcək hala gətirmək istəyiriksə bu problemlərin aradan qaldırılması lazımdır.

Müalicə turizminin inkişafına təsir edən amilləri qısaca dəyərləndirək:
- Sağlamlıq-müalicə xidməti təqdim edən fərdlərin bərabərlik problemi.
- Ölkələr arasında tətbiq edilmiş viza qanunları sağlamlıq turizminin qarşısındakı əngəllərdən biridir.
- Xəstələrin qeydiyyatının digital ortamda tutulmasında çatışmazlıq
- Çox vaxt sağlamlıq turizmi çərçivisindəki xəstəliklərin çıxış nöqtələri inkişaf etmiş ölkələrdir. Bu ölkələrdə xəstə məlumatları elektronik şəkildə saxlanılır. Xüsusən ABŞ-dan sağlamlıq turizmi ilə əlaqəli xəstə transfer etmək istəyən ölkələr xəstə ilə əlaqəli hər cür doğru məlumatı qorumalı bir şəkildə tutmaq məcburiyyətindədirlər.

1987-ci il statistikasına görə Azərbaycana gələn turistlərin 60%- sağlamlıq məqsədi ilə gəlmişdir. Lakin sonrakı illərdə SSRİ-nin dağılması, Dağlıq Qarabağ münaqişəsi zamanı yaranan çətinliklər və müharibə zamanı qaçqınların sanatoriyalarda məskunlaşması sağlamlıq turizmin inkişafında ləngimələrə, əngəllərə səbəb olmuşdur.

Azərbaycanda sağlamlıq turizmi ən prioritet istiqamətdir. Belə ki, öz nefti iə məşhur Naftalanin inkişafina şərait yaradan amil neftin yerindəcə istifadə edilməsidir. Çünki müalicəvi nefti öz məkanından kənara apardıqda təsiri zəifləyir. Eləcə də mineral sular eyni xassəyə malikdir. Buna görə də turistlər həmin müalicənin olduğu əraziyə gəlməklə yaxşı nəticə əldə edə bilərlər.

Sağlamlıq turizminin ölkəmiz üçün digər müsbət cəhəti onun mövsümü olmamasıdır.

Ölkəmizdə sağlamlıq turizminin təşkili zamanı bu sektorun inkişaf etdiyi ölkələrə infoturların təşkil olunması mühüm rol oynayır. Buna Naftalan, Qalaaltı və başqa turizm mərkəzlərinə təşkil edilən infoturları misal göstərmək olar.

Respublikamız təbii mineral sularla zəngindir. Belə ki səkkiz qrup mineral suyun dünyada qəbul edilməsi və bu mineral suların hər birinin Azərbaycanda olması balneoloji kurortların sayının artmasına şərait yaradır. Masazırda və Zığda müalicəvi palçıq vannaları ilə müalicə kursları təşkil olunur. Naftalan kurortunda isə öz aktuallığı ilə seçilən Naftalan nefti ilə müalicə aparılır.

**№ 1/2021** **səh.89 - 94**

"Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı" nda qeyd edilmişdir ki, kurortlar elə bir ərazidir ki, həmin ərazidə müxtəlif təbii müalicə ehtiyatları mövcuddur. Bu ehtiyatlardan müayinə və müalicə məqsədi ilə istifadə edilir. Azərbaycanda bir neçə belə kurortlar mövcuddur. Bu kurortlarda kurort poliklinikaları, sanatoriyalar, pansionatlar, palçıq müalicə ocaqları və s. təşkil olunur. Eləcə də digər kurort infrastrukturu yaradılır.

Respublikamızda kurortların bir neçə növü mövcuddur ki, bunlara aiddir: İqlim, palçıqla müalicə, balneoloji və öz müalicəvi xüsusiyyətlərinə görə nəinki ölkəmizdə, eyni zamanda ölkə xaricindən kənarda tanınan Naftalan nefti.

Təbii müalicə kurortları - müalicəvi məqsədlərdə istifadəsi üçün lazım şəraiti olan bir ərazidir. Təbii mineral sular, terapevtik və ya xüsusi iqlim şəraiti (dəniz, göl, dağ mənzərəsi, meşələr və s.) ilə müalicəsi üçün əlverişli qiymətli təbii xüsusiyyətləri olan bir regiondur. Kurortlarda aşağıdakı tələblərə cavab verilir:

- Kurortun normal fəaliyyətini təmin edən təbii amillərin olması;
- Lazımı texniki avadanlıq və qurğuların (üzgüçülük hovuzu, palçıq vannaları və s.) olması;
- Müalicə üçün xüsusi hazırlanmış mənzil və binalar (sanatoriyalar, istirahət evləri);
- Xəstələrə və turistlərə tibbi yardım göstərən tibbi profilaktik obkeyktlərin mövcudluğu;
- Səhiyyə müəsssələrinin, idman sahələrinin mövcudluğu;
- İctimai obyektlərin, ictimai iaşə müəssisələrinin, ticarət və istehlakçı xidmətlərinin, mədəniyyət və təhsil müəssisələrinin mövcudluğu;
- Uyğun giriş və kommunikasiya vasitələri;
- Elektrik, su və kanalizasiya təhcizatı, mühəndis texnikasının mövcudluğu.

Kurort və sanatoriyalar bir sağlamlıq obyekti olaraq müxtəlif xəstəliklərin müalicəsi zamanı müxtəlif üsullardan istifadə edərək əsas vasitə rolunu oynayır. Dünya təcrübəsində 4 növ kurort qeyd olunur:

- Balneoliji kurortlar, hansı ki, mineral sularla müalicəni əhatə edir;
- Müalicəvi əhəmiyyətə malik olan palçıqla müalicəsi həyata keçirən palçıq kurortları;
- Təbiət qoynunda, dənizin sahilində insanlara müalicə xidməti göstərən iqlim kurortları;
- Keçid kurortlar-bu kurortlar əsasən müalicə üsullarından kompleks şəkildə istifadə edərək sağlamlıq tədbirlərini həyata keçirir.

Sanatoriya və kurortların məqsədi sağlamlıq xidmətlərinin və müştərinin sağlam yaşam tərzinin yüksək səviyyədə təşkil edilməsidir. Xidmətin xüsusiyyətləri ilə əlaqədar olaraq sanatoriya və kurortlarda istirahətin müəyyən formaları hazırlanmışdır. Əlavə gəzintilər, kinoteatr, hovuzlar və s. Sağlamlıq baxımından bir məhsulun inkişaf etdiirilməsi kompleks və çoxsəviyyəli bir prosesdir.

## *Nəticələr*

Tədqiqtlardam belə nəticəyə gəlmək olar ki, turizmin sənaye əsasında təşkili, bir çox amillərlə yanaşı, əsasən Respublikamızda turizmin inkişafında xüsusi əhəmiyyətə malik olan müalicə - sağlamlıq turizmindən bilavasitə asılıdır.

Müalicə-sağlamlıq turizminin mahiyyəti və Azərbaycan turizmində yeri, sənayeləşmə və kəndləşmə nəticəsində meydana gələn problemlər insan və cəmiyyət sağlamlığı üzərində mənfi təsirlər yaradır. Sağlam olmayan cəmiyyətdə əmək qabiliyyəti və istehsal gücünün azalması müşahidə edilir.

Azərbaycanda sağlamlıq turizmi ən prioritet istiqamətdir. Belə ki, öz nefti iə məşhur Naftalanin inkişafina şərait yaradan amil neftin yerindəcə istifadə edilməsidir. Çünki müalicəvi nefti öz məkanından kənara apardıqda təsiri zəifləyir. Eləcə də mineral sular eyni xassəyə malikdir. Buna görə də turistlər həmin müalicənin olduğu əraziyə gəlməklə yaxşı nəticə əldə edə bilərlər.

Ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi" ölkəmizdə turizm sənayesinin təşkili və inkişaf etdirilməsi üçün geniş imkanlar açmışdır. Yaxın gələcəkdə turizm sənayesinin inkişafının sürətlənməsi gözlənilir.

Tədqiqatın vəzifələri aşağıdakılardır:

- müalicə -sağlamlıq tyrizminin müasir vəziyyətinin təhlil olunmuşdur;
- müalicə-sağlamlıq turizminin inkişafına təsir edən amillər müəyyənləşdirilmişdir
- kurort və sanatoriyaların bir sağlamlıq obyekti olaraq müxtəlif xəstəliklərin müalicəsinin həyata keçirilməsin üçün vasitə rolunu oynaması müəyyən edilmişdir;
- müalicə - sağlamlıq turizminin inkişaf etdirilməsinin ölkədə turizm sənayesinin inkişafına təsiri istiqamətləri müəyyən edilmiş və təkliflər verilmişdir.
-

## - ƏDƏBİYYAT

- 1. "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi". Azərbaycan Respublikası prezidentinin 2016-cı il 6dekabr tarixli fərmanı.
- 2. Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6fevral tarixli 125 nömrəli sərəncamı.
- 3. Əlirzayev.Ə.Q. "Turizmin iqtisadiyyatı və idarə edilməsi". Bakı, "İqtisadiyyat Universiteti" nəşriyyatı, 2010.
- 4. Mirzəyev Anar. "Azərbaycanda turizm potensialından istifadənin səçərəliliyinin artırılması istiqamətləri". ATMU. Bakı-2016.
- 5. Prof.Dr. Sezer Akarcalı. "Tüm yönleriyle sağlık turizmi. Azerbeycan ülke raporu". Ankara 2010.

## Направления влияния медицинского туризма на развитие туристической индустрии

**Гумбатов Юсиф Абульфат оглы, Гапагов Вугар Фаиг оглы**

**humbetov-1964@mail.ru,**

**Ключевые слова :** *индустрия туризма, оздоровительный туризм, санатории и курорты, природные ресурсы, влияющие факторы, туристический потенциал.*

**Резюме**

В статье рассматриваются факторы, влияющие на туристическую отрасль и ее развитие в нашей стране, необходимость совместной деятельности отдельных туристских предприятий в ее развитии, эффективное использование туристического потенциала страны, использование минеральных и термальных ресурсов туризма и развитие оздоровительного туризма.

Проанализирована возрастающая роль оздоровительного туризма в экономике страны, в уровне жизни населения страны, в продвижении на международный уровень, в развитии других секторов, связанных с этим сектором.

**№ 1/2021** **səh.89 - 94**

**Directions of the impact of medical tourism on the development of the tourism industry**

**Humbatov Yusif Abulfat, Qapaqov Vuqar Faiq**
**humbetov-1964@mail.ru,**

**Key words**: *tourism industry, health tourism, sanatoriums and resorts, natural resources, influencing factors, tourism potential.*

**Summary**

The article considers the factors affecting the tourism industry and its development in our country, the need for joint activities of individual tourism enterprises in its development, the effective use of the country's tourism potential, the use of mineral and thermal tourism resources and the development of health tourism.

The increasing role of health tourism in the country's economy, in the living standards of the country's population, in the promotion of the international level, in the development of other sectors related to this sector was analyzed.

**№ 1/2021** **səh.95 - 100**

**UOT 631.14**

# AQRAR SAHƏNİN İNNOVASİYA POTENSİALININ FORMALAŞMASINA TƏSİR EDƏN AMİLLƏR

**Rəhimova Məlahət Firqət qızı**
Mingəçevir Dövlət Universiteti,
D.Əliyeva küçəsi 21
email:rehimova77@list.ru

***Xülasə:****Aqrar sahədə innovasiya potensialının formalaşması innovasiya tətbiqinin ən vacib istiqamətlərindən olub istehsal sahələrinin və kənd təsərrüfatı müəssisələrinin inkişaf imkanlarını müəyyənləşdirir. Kənd təsərrüfatının innovasiya potensialı ilk növbədə yeniliklərlə bağlı dəyişikliklərə səbəb olan innovativ fəaliyyətin həyata keçirilməsini xarakterizə edir. Bu baxlmdan innovasiya potensialının qiymətləndirilməsində innovasiya fəaliyyətini formalaşdıran komponentlər və ona təsir edən amillərə xüsusi diqqət yetirilməsi vacibdir.*

***Açar sözlər: innovasiya potensialı, tələbat, keyfiyyət, infrastruktur, modernləşdirmə, səmərə.***

***Giriş.***Aqrar sferanın iqtisadi inkişafının təmin edilməsi bu sahənin innovativ resurslarla səmərəli şəkildə təmin olunması və innovasiya potensialının gücləndirilməsi strategiyasının hazırlanmasını tələb edir. Bu baxımdan texniki yeniliklərin yaradılması və istehsalatda geniş istifadəsi, elmi potensialın inkişafı, o cümlədən elmi-tədqiqatların genişləndirilməsi və nəticələrinin istehsalata tətbiqi prioritet təşkil edir. Qeyd edilən istiqamətlər hesabına kənd təsərrüfatı müəssisələrinin keyfiyyətcə modernləşdirilməsi və innovativ inkişaf yoluna keçməsi bütövlükdə aqrar sferanın strateji inkişaf perspektivlərini müəyyənləşdirir.

Araşdırmalar göstərir ki, yüksək texnologiyalara və elmi təcrübəyə əsaslanan innovativ fəaliyyət kənd təsərrüfatının iqtisadi dayanıqlığının əsasını təşkil edir və kənd təsərrüfatı istehsalının artım tempi bu sahədə elmi və texnoloji nailiyyətlərin tətbiqi səviyyəsindən bilavasitə asılıdır. Bunlar onu deməyə əsas verir ki, ölkənin ərzaq məhsullarına tələbatının səmərəli şəkildə ödənilməsi və ərzaq təhlükəsizliyinin təmin olunması kənd təsərrüfatındakı innovativ qaynaqlar hesabına mümkündür və kənd təsərrüfatı texnologiyalarının texniki-iqtisadi parametrlərinin yaxşılaşdırılması istehsalın artırılmasının təməlində durur.

İnnovativ potensialdan istifadə imkanı sosial-iqtisadi sistemin əsas institutları tərəfindən müəyyən edilir. Məhsuldar qüvvələrin, o cümlədən elmin aparıcı qüvvə kimi təbiətinə uyğunluğundan asılı olaraq iqtisadi münasibətlər müxtəlif istiqamətlərdə inkişaf edə bilər. Bu baxımdan elm, innovasiya və istehsalın vəziyyəti iqtisadi əlaqələrin məhsuldar qüvvələrə təsir etmək qabiliyyətindən asılı olur.

Dünya ölkələrində baş verən sosial-iqtisadi dəyişikliklər təcrübəsi göstərir ki, məhsuldar qüvvələrin innovativ potensialı yalnız istehsal münasibətləri şəraitində reallaşa bilməz və əksinə, müasir bazar iqtisadiyyatının mexanizmlərinə əsaslanan istehsal münasibətlərini ənənəvi sosial strukturlarda tətbiq etmək həmişə müsbət nəticələr vermir. Bazar iqtisadiyyatı şəraitində formalaşan istehsal münasibətləri təsərrüfat subyektlərinin rəqabət qabiliyyətliliyini, istehsalın müəyyən istehlak ehtiyaclarını ödəməyə yönəldilməsini, xərclərin azaldılmasını stimullaşdırır və yeniliklərdən istifadə üçün geniş imkan yaradır.

**Mövzunun aktuallığı.**Aqrar sferanın innovasiya potensialı sosial-iqtisadi inkişaf məqsədlərinin həyata keçirilməsi imkanlarını xarakterizə etməklə, əmək, kapital qoyuluşları və təbii sərvətlərə qənaəti şərtləndirir. İnnovativ potensialın effektiv tətbiqi, onun tərkib hissələrinin vəziyyətindən və qarşılıqlı

təsirindən asılıdır. Yeni istehsal, idarəetmə, sosial texnologiyalar və iqtisadi inkişafın innovativ mərhələsində yenilik anlayışı yeni bir dəyərin, yeni bir faydanın yaradılması kimi şərh olunur. Bunu nəzərə alsaq innovativ potensialı resurs və daxili komponentlərin birləşməsi kimi müəyyənləşdirmək olar. İnnovativ potensialın mövcud strukturunu qiymətləndirərək belə qənaətə gəlmək olar ki, yüksək texnoloji və ya intellektual məhsulun, həmçinin elmi bir strukturun inkişafı baxımından innovativ fəaliyyətin müasir əsaslarla təşkili və idarə olunması innovativ potensialın təşkilati komponentlərini formalaşdırır. Deməli, innovativ potensialın əsasını kadr, təşkilati, maddi-texniki, informasiya, idarəetmə, maliyyə və elmi-texniki komponentlər təşkil edir.

İqtisadi sistemin inkişafının resurs imkanlarını əks etdirən innovativ potensial eyni zamanda onu formalaşdıran istehsal münasibətlərinin potensialını əks etdirir. Bu, xüsusən də innovativ və elmi-texniki potensialın qarşılıqlı əlaqəsində özünü göstərir. İnnovativ potensialın inkişafını və innovativ fəaliyyətini stimullaşdıran əsas iqtisadi amil rəqabət mühtiti hesab edilir. Bazar iqtisadiyyatı şəraitində innovativ potensialın səmərəli istifadəsi rəqabət şəraitində mümkün olur, bu da istehsalçıları yenilik etməyə məcbur edir. Qeyd etmək lazımdır ki, istehsalçılar arasındakı rəqabət innovasiya potensialının özünü gücləndirmək sürətinə elə də ciddi təsir göstərmir. Məlumdur ki, istehlakçı seçiminin genişlənməsi məhsulları keyfiyyətcə yeniləməyə məcbur edir. Rəqabət bazarı innovativ potensialın inkişafı üçün bu baxımdan ən əlverişli amildir, çünki ixtiraların patentləşdirilməsi səbəbindən bazarın inhisarlanması onların tətbiq dairəsini məhdudlaşdırır. İnnovativ potensialın formalaşmasında bazarın rolu məhsulun keyfiyyətini yaxşılaşdırmaq, xərcləri azaltmaq, strukturunu dəyişdirmək və məhsul çeşidini artırmaq üçün istehsalçıların aktivləşməsi ilə əlaqələndirilir.

Beləliklə, innovativ potensialın formalaşması istehsal vasitələrinin və istehlak məhsullarının son istifadəçilərinə təsir edir, çünki son istehlakçıların tələbi istehsalçılar arasında tələbatı formalaşdırır və yeniliklərin tətbiqi üçün maliyyə bazası yaradır. Elmi ideyaların istehsal sferasında praktik tətbiqetməyə keçməsini təmin edən dövlətin idarəetmə siyasətinin bir sıra elmi, texniki və innovativ proqramları idarəetmə üçün bazar şəraitinə uyğun yaradılan innovativ strukturların fəaliyyəti üçün məhz innovativ potensial mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan aqrar sahənin innovasiya potensialının formalaşması ilə bağlı məsələlərin tədqiqi aktuallıq kəsb edir.

**Tədqiqatın məqsədi.**Tədqiqatın məqsədi aqrar sahədə innovasiya fəaliyyətinin təşkilinin və innovasiya potensialından istifadə səviyyəsinin kənd təsərrüfatı müəssisələrinin fəaliyyətinə təsirinin tədqiqi, onun yaxşılaşdırılması imkanlarının müəyyən edilməsidir.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

Kənd təsərrüfatının dayanıqlı inkişafının təmin edilməsində ən təsirli formalardan biri innovasiyalara maliyyə qoyuluşlarının gücləndirilməsidir. Bununla birlikdə, vəsait qoyuluşunun tez bir zamanda özünü ödəməsi əksər hallarda mümkün olmur, investisiyalar yalnız uzunmüddətli perspektivdə yüksək gəlir gətirir. Bu isə aqrar sahəyə investisiya qoyuluşlarına olan marağı azldan başlıca amil kimi özünü göstərir. Deməli, innovasiyaların yaradılması və istehsalata tətbiqinin genişləndirilməsinə dövlət dəstəyinin həyata keçirilməsi kənd təsərrüfatı istehsalının artımının və rəqabətə davamlılığının başlıca şərtinə çevrilir.

Qeyd etmək lazımdır ki, kənd təsərrüfatı istehsalçılarının özləri də müəyyən hallarda innovasiyalara ciddi maraq göstərmir. İnnovasiya tətbiqinə marağının azlığı məlumat qıtlığı, yeniliklərin tətbiqinə stimul olmaması, kənd təsərrüfatı sahəsində zəruri məsləhət xidməti göstərən mərkəzlərin azlığı, innovativ infrastrukturun kifayət səviyyədə inkişaf etməməsi, maliyyə çatışmazlığı və s. ilə bilavasitə bağlıdır[2,

s.41]. Bütün bunlar müasir texnologiyaların istehsalata gtətbiqini çətinləşdirir və kənd təsərrüfatında texnoloji səviyyənin aşağı olmasını şərtləndirir.

İnnovasiya fəaliyyətində kənd təsərrüfatı müəssisələrinin texniki təchizatı çox əhəmiyyətlidir. Kənd təsərrüfatında texniki resurslarla təminatın yaxşılaşdırılması, texniki parametrləri yüksək olan resursların istehsalata tətbiqinin genişləndirilməsi dövlətin aqrar siyasətində də mühüm yer tutur. Araşdırmalar göstərir ki, kənd təsərrüfatı istehsalçılarının texniki resurslara olan tələbatının ödənilməsi istiqamətində zəruri tədbirlər görülsə də hələ də texnikaya olan tələbat tam şəkildə ödənməmiş qalır. Hesablamalardan məlum olur ki, ən vacib kənd təsərrüfatı texnikası hesab edilən traktorlara olan tələbat hər 1000 ha-a görə 2014-cü ildə 58,4%, 2015-ci ildə 31,4%, 2017-ci ildə 53,5%, 2018 və 2019-cu ildə əhəmiyyətli dərəcədə artaraq müvafiq olaraq 81,6% və83,4% təşkil etmişdir. Eyni göstərici taxıl yığanlarda müvafiq illərdə 25%, 7,6%, 19,6%, 38% və 41,2% səviyyəsində qeydə alınmışdır. Pambıq yığanlara tələbatın ödənilməsi səviyyəsini də qənaətbəxş hesab etmək mümkün deyil. Belə ki, bu texnika üzrə göstərici 2014-cü ildə 33,6%, 2015-ci ildə 41,8%, 2017-ci ildə 20,9%, 2018-ci ildə 33,6% və 2019-cu ildə 34,8% səviyyəsində olmuşdur [4].




**Qrafik 1. 1000 ha əkin sahəsinə görə kənd təsərrüfatı texnikasına tələbatın ödənilməsi səviyyəsi, %-lə**

Tədqiqat göstərir ki, kənd təsərrüfatı istehsalının iqtisadi səmərəliliyini artırmaq və iqtisadiyyatın bu mühüm sferası üçün innovativ inkişaf strategiyasını dəstəkləmək istiqamətlərindən biri elmin və elmi tədqiqatların stimullaşdırılması tədbirləridir. Statistik məlumatların təhlili göstərir ki, 2019-cu ildə elmin sahələri, işlərin növləri və sektorlar üzrə tədqiqat və işləmələrə çəkilən daxili cari xərclərin strukturu göstərir ki, ümumi xərclərin tərkibində kənd təsərrüfatı elmlərinin xüsusi çəkisi 9% təşkil edir. Kənd təsərrüfatı üçün də əhəmiyyətli olan texniki elmlərin payı 37% səviyyəsində olmuşdur. Təbiət elmləri 25%, tibb elmləri 11%, ictimai elmlər 5%, humanitar elmlər 13% xüsusi çəkiyə malik olmuşdur. Oxşar vəziyyət fundamental tədqiqatlarda və tədbiqi tədqiqatlara yönəldilən xərclərdə və s. müşahidə edilir [4].




**Qrafik 2. 2019-cu ildə elmin sahələri, işlərin növləri və sektorlar üzrə tədqiqat və işləmələrə çəkilən daxili cari xərclərin strukturu, %-lə**

Qeyd edilənlərlə yanaşı, aqrar sferada əmək və kadr potensialından lazımi səviyyədə istifadə edilməməsi, xüsusən innovativ ehtiyaclar üçün kadr potensialının keyfiyyəti və strukturu arasındakı uyğunsuzluq özünü istehsalın nəticəsində əhəmiyyətli dərəcədə göstərir.Bu problem kənd təsərrüfatı istehsalçılarının əhəmiyyətli bir hissəsi üçün innovasiyalardan istifadəni hələ də əlçatmaz edir, istehsalın yenilənməsinə və modernləşdirilməsinə ciddi ziyan vurur. Bütün bunlar hazırkı mərhələdə kənd təsərrüfatının innovativ inkişafına daha təkmil meyarların müəyyənləşdirilməsini tələb edir. Göstərilənlərə əsaslanaraq kənd təsərrüfatında dayanıqlı inkişafın əsas hədəflərini özündə cəmləşdirən sosial-iqtisadi strategiyasının aşağıdakıları meyarlarını qeyd etmək olar:

- aqrar sferada institusional mühitin, ərzaq bazarının fəaliyyətinin təşkilati və iqtisadi mexanizminin təkmilləşdirilməsi;
- kənd təsərrüfatı sahəsində təhsil və elmi potensialın inteqrasiyasının gücləndirilməsi[1, s.26];
- yeni texnologiyaların və innovasiyaların sürətlə tətbiqi üçün sistem və mexanizmlərin formalaşdırılması;
- kənd təsərrüfatının infrastrukturunu modernləşdirilməsi, kənd əhalisinin yaşayışı üçün əlverişli şəraitin yaradılması və istehsalçıların gəlir səviyyəsinin yüksəldilməsi;
- istehsal texnologiyalarının yeniləndirilməsi və təkmilləşdirilməsi, kənd təsərrüfatı məhsulları istehsalçılarının zəruri gəlirlilik səviyyəsi üçün iqtisadi şəraitin yaradılması;
- məhsulların rəqabət qabiliyyətinin artırılması məqsədilə innovativ kənd təsərrüfatının inkişafı modeli üçün elmi-tədqiqat istiqamətli layihələrin işlənib hazırlanması və dəstəklənməsi;kənd təsərrüfatının innovativ kadr potensialının formalaşdırılması;

- ekoloji cəhətdən təmiz kənd təsərrüfatı məhsulları istehsal etmək məqsədi ilə torpağın münbitliyinin qorunması və keyfiyyətinin yaxşılaşdırılması;əhalinin bütün qruplarının tam və sağlam qidalanması üçün zəruri olan məhsullarla təmin edilməsi, uyğun keyfiyyətə və quruluşa malik olan kənd təsərrüfatı məhsullarının ixrac potensialının artırılması.

## NƏTİCƏ

Araşdırmanın nəticəsinə əsaslanaraq qeyd etmək olar ki, innovasiya potensialı innovasiya tətbiqinin ən vacib xüsusiyyətlərindən biri olub konikret istehsal sahələrinin və müəssisələrin inkişaf imkanlarını müəyyənləşdirir. Kənd təsərrüfatı müəssisələrinin innovasiya potensialı ilk növbədə yeniliklərlə bağlı dəyişikliklərə səbəb olan innovativ fəaliyyətin həyata keçirilməsini xarakterizə edir. Bu baxımdan, innovasiya potensialının qiymətləndirilməsində müəssisələrin innovasiya fəaliyyətini formalaşdıran komponentlər və ona təsir edən amillər diqqətdən yayınmamalıdır[3, s.54]. Beləliklə, bütövlükdə aqrar sferada innovasiyaların tətbiqində aşağıdakı istiqamətlər üzrə müsbət nəticələr əldə etmək olar:

- elmi-texniki tərəqqinin səmərəli şəkildə idarə olunması, dövlət və sahibkarlıq subyektləri arasında sıx qarşılıqlı əlaqənin yaradılması;
- kənd təsərrüfatı elminin təcrübəvi istiqamətlərinin genişləndirilməsi;
- innovasiya tətbiqinə tələbatın və təklifin öyrənilməsi məqsədilə innovasiya məhsulları bazarının marketinq tədqiqinin aparılması;
- kənd təsərrüfatında innovasiya prosesinin inkişafını stimullaşdıran mexanizmlərin hazırlanması;
- yeniliklərə olan bazar tələbinin ödənilməsi və innovasiyalara daha həssas bazarların dəstəklənməsi;
- innovasiya fəaliyyətinin stimullaşdırılması;
- innovasiya siyasətinin davamlı olaraq təkmilləşdirilməsi.

**Tədqiqatın elmi yeniliyi.**Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- innovasiya fəaliyyətinin təşkilində innovativ potensialın inkişaf etdirilməsinə diqqətin artırılması zərurəti əsaslandırılmışdır;
- innovasiyalardan müasir tələblərə uyğun daha səmərəli istifadəimkanları müəyyən edilmişdir;
- müəssisələrdə innovasiya fəaliyyətinin maliyyələşməsinin inkişaf istiqamətləri müəyyən edilir;
- innovasiyativ potensialından istifadəyə dövlət dəstəyinin zəruriliyi əsaslandırılmışdır;
- innovasiya fəaliyyətinin səmərəli təşkili ilə bağlı əsaslandırılmalaraparılmışdır;
- innovasiya fəaliyyətinin stimullaşdırılması istiqamətləri müəyyən edilmişdir.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti.**Dissertasiyanın praktiki əhəmiyyəti ondan ibarətdir ki, aparılan araşdırmalar və ümumiləşdirmələr innovasiya fəaliyyətinin təşkili və innovasiya potensialının inkişaf etdirilməsi istiqamətlərinin müəyyən edilməsində kənd təsərrüfatı istehsalçılarına əməli kömək edə bilər.

**Tədqiqat işinin iqtisadi səmərəsi.**Müasir iqtisadi şəraitdə innovativ potensialdan istifadənin aqrar sahənin inkişafına təsirinivə iqtisadi səmərəliliyinimüəyyənləşdirməyə imkan verir.

Ədəbiyyat

1. İsgəndərov R.K. Elmi-texniki tərəqqi: sosial-iqtisadi aspektlər. Elm və təhsil, 2010, 636 s.
2. Трибушная В. Х. Инновационная инфраструктура как необходимость поддержки наукоемкого предпринимательства. Технопарки и стратегическое управление. - Ижевск: Ижевский государственный технический университет, 2011. - 240 с.
3. Пахомова Н.В. Экономика инновационных изменений и ее организационно-институциональная поддержка: монография. Издательский Дом СПбГУ, 2013. - 453 с.

www.stat.gov.az

**№ 1/2021** **səh.95 - 100**

**УДК**

# ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА ФОРМИРОВАНИЕ ИННОВАЦИОННОГО ПОТЕНЦИАЛА СЕЛЬСКОГО ХОЗЯЙСТВА

Рахимова Малахат Фиргат кызы

Резюме: Формирование инновационного потенциала в аграрном секторе является одним из важнейших направлений применения инноваций и определяет возможности развития производственных площадей и сельскохозяйственных предприятий. Инновационный потенциал сельского хозяйства в первую очередь характеризует реализацию инновационной деятельности, которая приводит к изменениям, связанным с инновациями. С этой точки зрения при оценке инновационного потенциала важно уделять особое внимание компонентам, которые формируют инновационную деятельность, и факторам, которые на нее влияют.

Ключевые слова: инновационный потенциал, спрос, качество, инфраструктура, модернизация, эффективность.

## FACTORS AFFECTING THE FORMATION OF INNOVATIVE POTENTIAL OF AGRICULTURAL ECONOMY

Rahimova Malahat Firgat

***Resume**: The formation of innovative potential in the agricultural sector is one of the most important areas for the application of innovations and determines the development opportunities for production facilities and agricultural enterprises. The innovative potential of agriculture primarily characterizes the implementation of innovative activities, which leads to changes associated with innovation. From this point of view, when assessing innovative potential, it is important to pay special attention to the components that form the innovative activity and the factors that influence it.*

***Key words: innovative potential, demand, quality, infrastructure, modernization, efficiency.***

**№ 1/2021** **səh.101- 106**

**UOT 330.8.33.005**

# YÜNGÜL SƏNAYE MÜƏSSİSƏLƏRİNİN İDARƏETMƏ STRUKTURUNUN İNKİŞAF İSTİQAMƏTLƏRİ

**Gülgün Zeynal qızı Abdiyeva**
**Azərbaycan Texnologiya Universiteti**
**Gəncə şəh., Ş.İ.Xətai pr., 103**

**g.abdiyeva@mail.ru**

***Xülasə:****Hər bir müəssisənin davamlı inkişafı onun struktur və funksional olaraq idarəetmə qabiliyyətinin formalaşmasından əhəmiyyətli dərəcədə asılıdır. Bu baxımdan idarəetmə strukturlarının inkişafı özünü idarəetmənin səmərəliliyinin yüksəldilməsinin ən vacib amillərindən hesab edilən özünütəşkiletmə qabiliyyətinin formalaşmasında əhəmiyyətli şəkildə göstərir.*

***Açar sözlər:*** *idarəetmə, rəqabət, bazar, keyfiyyət, struktur, səmərə.*

**Giriş:**Qloballaşma və artan rəqabət şəraitində hər bir müəssisənin davamlı inkişafı onun struktur və funksional olaraq dəyişmə qabiliyyətindən asılıdır. Bu baxımdan təşkilati idarəetmə strukturlarının dinamik inkişafı bazar mühitinə vaxtında uyğunlaşma ehtiyacı ilə əlaqədar olaraq köklü dəyişikliklərə məruz qalır. Dəyişikliklərin istiqaməti idarəetmə üzərində qurulmuş əsas məqsədlərə çatmanın effektivlik dərəcəsinə təsir edən şərtlərlə müəyyənləşdirildiyindənmüəssisələrin idarə olunmasının əsas məsələlərinin inkişafı ilə xarakterizə olunurlar.Ümumiyyətlə, idarəetmə müəssisələrinin inkişaf səviyyəsi, onun istehsal quruluşu, ictimai istehsalın artımının sürətləndirilməsi və iqtisadi səmərəliliyinin yüksəldilməsi üçün son dərəcə mühüm əhəmiyyətə malikdir (1). Qeyd edilənləri iqtisadiyyatın bütün sferalarında, o cümlədən yüngül sənayedə fəaliyyət göstərən müəssisələrə aid etmək olar.

Yüngül sənaye müəssisələrinin idarə edilməsi ayrı-ayrı hərəkətlər və qərarlardan ibarət deyil, eyni zamanda davamlı çox yönümlü bir prosesi xarakterizə edir. İdarəetmənin bu xüsusiyyəti yüngül sənaye üzrə proses yanaşmalarında nəzərə alınır. Bu istiqamətdə aşağıdakı prosesləri fərqləndirmək olar:

- müəssisələrin əsas məhsulunun istehsalına birbaşa yönəlmiş əsas proseslər;
- istehsalla birbaşa əlaqəli olmayan, lakin digər proseslərin inkişafının təmin edilməsinə yönəldilmiş köməkçi proseslər;
- birbaşa müəssisələrin əsas hesab edilməyən məhsulunun istehsalına yönəldilmiş müəssisə prosesləri;
- müəssisələri əhatə edən bütün birləşdirici proseslər.

Ümumiyyətlə, idarəetmənin əsas vəzifəsi müəssisələriniqtisadi və sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəldilmiş idarəetmə sistemlərinin ən səmərəli mexanizmlərini formalaşdırmaqdır.

Bu nöqteyi nəzərdən yüngül sənaye müəssisələrinin idarəetmə strukturunun inkişaf istiqamətlərinə tədqiqat sahəsi kimi önəm verilmiş və bu aspektdə araşdırmalar aparılmışdır. Buna görə də tədqiq olunan bu sahə öz aktuallığı ilə diqqəti cəlb edir.

**Mövzunun aktuallığı:** Bazarın tələb və təklifindən, istehsaldaxili və beynəlxalq əlaqələrin genişlənib daha da mürəkkəbləşməsindən asılı olaraq, səmərəli idarəetmə qərarlarının qəbul edilməsi yüngül sənaye müəssisəlrinin inkişafının başlıca amilidir. Ümumiyyətlə, yüngül sənaye müəssisələrinin inkişafı onların idarə edilməsi mexanizmi ilə bilavasitə bağlıdır. Yüngül sənaye müəssisələrində heyətin

və proseslərin idarə edilməsi idarəetmənin səmərəliliyini şərtləndirir. İdarəetmənin strukturunun formalaşmasına bir çox amillər, ilk növbədə məhsuldar qüvvələrin və iqtisadi münasibətlərin inkişafında baş verən dəyişikliklər təsir göstərir. Qeyd edilənlər iqtisadiyyatın bütün sferalarında, o cümlədən yüngül sənayedə idarəetmə mexanizminə yeni aspektdən yanaşmasını tələb edir. Bu isə tədqiqat mövzusunun aktuallığını şərtləndirir.

**Tədqiqatın məqsədi:**Tədqiqat işinin məqsədi yüngül sənaye müəsissisələrinin idarə edilməsi mexanizminin formalaşmasının nəzəri-metodoloji məsələlərini araşdırmaqdan və idarəetmə strukturunun inkişaf istiqamətlərini müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqatın obyekti:** Yüngül sənaye müəssisələrinin idarəetmə strukturunun inkişaf istiqamətləridir.

**Tədqiqat metodları:** Tədqiqatın əsasını yüngül sənaye müəssisələrinin davamlı inkişafında onun struktur və funksional olaraq idarəetmə qabiliyyətinin formalaşması təşkil edir.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

Yüngül sənaye sferasının müəssisələri ən mürəkkəb fəaliyyət mexanizminə malik olan strukturlardan hesab edilir. Onların mürəkkəbliyi təşkilati proseslərin və nəzarətin idarəetmə sahəsində sadələşdirilməsini tələb edir. Bubaxımdan aşağıdakı məsələlərə diqqət yetirilməsi vacib hesab edilir:

- həm müəssisələrin, həm də onun müxtəlif struktur bölmələrinin vəziyyətini müəyyən edən hüquqi amillər;
- iqtisadi göstəricilərin, o cümlədən maliyyə imkanlarının yaxşlıaşdırılmasının təşviqi metodları;
- texnoloji proseslərin ardıcıllığı və iş mühiti;
- müəssisələrin səmərəliliyini müəyyən edən sistemli məlumat axını və qərar qəbuletmə prosesləri;
- davranışlara təsiretmə üsulları;
- sosial-mədəni davranış və münasibət normaları;
- müəssisələrin strukturunda əks olunan psixoloji mühit və s.

Araşdırmalar göstərir ki, yüngül sənayedə idarəetmə strukturlarının elementlərinin iki istiqamətdəixtisaslaşmasına diqqət yetirilir:

- müəssisələrin struktur bölmələrinin tərkibindən asılı olaraq istehsalın idarə edilməsini, elmi və texnoloji tərəqqini həyata keçirən idarəetmə strukturunun əlaqələri müəyyən edilir;
- idarəetmə prosesində yerinə yetirilən ümumi funksiyaların təbiətinə əsaslanaraq bütün proseslərə nəzarət edən, həmçinin istehsal, əmək və idarəetmə işlərini təşkil edən strukturlar formalaşdırılır.

Beynəlxalq təcrübə göstərir ki, müəssisələrin strukturundakı əsas məsələ idarəetmə münasibətləri ilə bağlıdır. İdarəetmə münasibətləri maraqlar, davranışlar, onların çoxölçülü təbiət müxtəlifliyini əks etdirməkləmüəssisələrin idarəetmə qabiliyyətinin formalaşmasında əsaslı rol oynayır (2). İdarəetmədə prosesləri asanlaşdırmaq və mürəkkəbliyi azaltmaq üçün müxtəlif üsullardan istifadə olunur. Bununla belə, idarəetmə sahəsindəki araşdırmalar göstərir ki, formal və həqiqi quruluş arasındakı uyğunsuzluqlar daim dəyişkənliyi şərtləndirən başlıca amillər kimi özünü göstərir. Bu da öz növbəsində qəbul edilən qərarların keyfiyyətinə və idarəetmənin səmərəliliyinə əhəmiyyətli dərəcədə təsir edir.

Müəssiələrin idarə olunmasının yaxşılaşdırılması idarəetmənin peşəkarlığı ilə xarakterizə olunur və bununla belə idarəetmənin səmərəliliyinin yüksəldilməsinin vacib amili kimi özünütəşkiletmə

qabiliyyətinin inkişafı özünü əhəmiyyətli şəkildə göstərir. Özünütəşkiletmə mexanizmi müəssisələrin sosial təbiətinə xas olan böyük potensialı səfərbər etməyə, məhdudiyyətlərini dəf etməyə, işçilərin təşkilati problemlərin həllində iştirakını artırmağa imkan verir. Təbii ki, idarəetmə qərarlarının etibarlılığı və məqsədəuyğunluğu nə qədər yüksəkdirsə, onların inkişafının labüdlüyü bir o qədər əhəmiyyətlidir. İdarəetmə imkanlarının genişləndirilməsi ehtiyatları qarşılıqlı əlaqələndirməni və qərarların iştirakçıların özləri tərəfindən icra edilməsini nəzərdə tutan birgə qərarların müxtəlif variantlarında mövcud olur.

Beləliklə, idarəetmə qərarlarının səmərəliliyi ümumi effektivliyə və yaradıcı potensiala yönəldilir. Bununla əlaqədar olaraq təşkilatçılıq fəaliyyətinin fərdi və formal amilləri arasındakı təşkilati münasibətlərin ziddiyyətini azaltmaq mümkün olur. Qeyd edilənlər idarəetmə sisteminin müxtəlif səviyyələrində qarşılıqlı əlaqədə ola bilən digər mənbələrə də aiddir.

Araşdırmalara əsaslanaraq qeyd etmək olar ki, struktur elementlərinin müxtəlifliyi və onların informasiya əlaqələri bütövlükdə müəssisələrin idarəetmə sistemini xarakterizə edir və onun fəaliyyətinin səmərəliliyinə təsir göstərir (3). Bu elementlərin təsir gücündəki fərqlər müəssisənin ümumiləşdirici meyarına təsir dərəcəsini müəyyənləşdirmək vəzifəsini çətinləşdirir ki, bu da təşkilati strukturların elementlərini optimallaşdırmağın zəruriliyini ortaya qoyur.

Göstərilənləri ümumiləşdirərək yüngül sənaye müəssiələrində idarəetmənin səmərəliliyini və onun strukturunu yaxşılaşdırmaq üçün aşağıdakı tədbirləri məqsədəuyğun hesab etmək olar:

- müəssisənin struktur baxımından təşkilinin səmərəliliyini təmin etmək;
- idarəetmə funksiyalarının səmərəliliyinin yüksəldilməsi tədbirlərini hazırlamaq və həyata keçirmək;
- müəssiələrin kompleks inkişafı üçün idarəetmə strategiyası hazırlamaq və həyata keçirmək;
- müəssiələrin struktur elementləri arasında əlaqələrinsəmərəliliyi baxımından idarəetmə və istehsal prosesinə müasir informasiya texnologiyalarını tətbiq etmək.

Məlumdur ki, yüngül sənaye müəssisələrinin əsas məqsədi cəmiyyətin istehlak məhsullarına olan tələbatını tam şəkildə ödəməklə insanların yaşayış səviyyəsinin yüksəldilməsi, maksimum istehlak və çeşidə nail olmaqdan ibarətdir. Bu baxımdan istehlakçıların zövqünə ən uyğun olan və həyat keyfiyyətini yaxşılaşdıran rəqabətqabiliyyətli məhsullar istehsalının həyata keçirilməsi yüngül sənaye sferasının başlıca vəzifələrindəndir. Rəqabətqabiliyyətli istehsala nail olmağın əsas istiqamətlərinə daxildir: xərclərin minimuma endirilməsi; məhsulun xüsusiyyətlərini, etibarlılığını, keyfiyyətini və sifarişlərin yerinə yetirilmə sürətini nəzərə alaraq müştərilərin tələblərinə uyğunluğunun təmin olunması; məhsulların bazara çıxma müddətinin azaldılması; istehsal həcminin çevik şəkildə tənzimlənməsi və s.

Hazırkı iqtisadi vəziyyətdə həll edilməsi vacib olan və yüngül sənayenin inkişaf perspektivlərini müəyyənləşdirən başlıca istiqamətlərə daxildir:

- keyfiyyətli xammaldan istifadə etməklə rəqabətqabiliyyətli məhsulların çeşidini artırmaq və dünya bazarlarına çıxışı genişləndirmək;
- rəqabətqabiliyyətli istehsalın artırılması hesabına ölkənin yüngül sənaye məhsullarına olan tələbatının ödənilməsində yerli məhsulların xüsusi çəkisini artırmaq;
- yeni istehlak xüsusiyyətləri ilə ekoloji təmiz və innovativ məhsullar istehsalının artırılmaq;
- müəssisələrin fəaliyyətində yeni idarəetmə texnologiyalarından istifadəyə geniş yer vermək və s.

Araşdırmalar göstərir ki, hazırda xarici amillər, xüsusilə idxal olunan məhsulların keyfiyyəti və qiymətlərinin səviyyəsi yerli müəssisələri öz istehsallarını daim yeniləməyə, məhsullarının rəqabət qabiliyyətini yüksəltməyə və bazar mövqeyini möhkəmlətməyə məcbur edir. Göstərilənlərə uyğun olaraq, son illər istehlak malları bazarının bütün seqmentlərinin inkişafı baş verməkdədir. Bazar rəqabəti

kontekstində təbii ki, yüngül sənaye müəssisələrinin özlərinin rəqabət mövqeyini də gücləndirməsi lazımdır ki, bu da səmərəli idarəetmə strategiyasının hazırlanmasında öz əksini tapmalıdır (4).

Əslində son illər bazarların qloballaşması ölkələr və iqtisadiyyatın müxtəlif sferaları arasında bazarlar uğrunda rəqabət mübarizəsinin kəskinləşməsinə, bu mübarizənin yeni forma və metodlarının meydana çıxmasına səbəb olur. Bu baxımdan beynəlxalq rəqabət demək olar ki, qlobal xarakter almışdır. Belə ki, rəqabət dünya təsərrüfatı sistemində yer tutmaq üçün iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsi mexanizminin formalaşdırılmasına istiqamətlənir. Rəqabətqabiliyyətlilik isə dünya təsərrüfat sistemində konkret müəssisənin, sahənin və məhsulun vəziyyətini müəyyən edən mühüm göstərici kimi özünü göstərir.

İdarəetmə strukturunun optimallaşdırılmasında müasir iqtisadiyyatın innovativ komponentini nəzərə almaq vacibdir. Yüngül sənaye məhsulları bazarında xarici istehsalçılarla yüksək rəqabət innovativ inkişaf yoluna keçməni tələb edən başlıca amillərdəndir. Ona görə də ənənəvi texnoloji quruluşun əhəmiyyətli bir hissəsi olan yüngül sənaye müəssisələrinin innovativ inkişafı üçün yeni inkişaf modelləri subyektlərin innovativ fəaliyyətə həssaslığını müəyyənləşdirir. Təhlillər göstərir ki, innovasiyalar istehsal subyektlərini mövcud bazar vəziyyətinə uyğunlaşdırmaq üçün çevik fəaliyyətə təşviq edir. Müasir sosial-iqtisadi şəraitdə yüngül sənaye müəssisələrinin belə vəziyyətə uyğunlaşma strategiyası onların istehsal potensialına əsaslanaraq məqsədlərə çatmağa yönəlmiş iqtisadi fəaliyyət metodlarının hərtərəfli proqramı kimi müəyyən edilə bilər.

Araşdırmaların da göstərdiyi kimi, yüngül sənayenin innovasiya səviyyəsinin aşağı olması müəssisələri daha aktiv rejimə keçməyə və iqtisadiyyatdakı innovativ dəyişikliklərə uyğunlaşmağa məcbur edir. Bu baxımdan müəssisələrin rəqabətqabiliyyətliliyini və investisiya cəlbediciliyini artırmaq, istehsal prosesini intensivləşdirmək, texniki yenidən qurmanı həyata keçirmək, resurs təminatını köklü şəkildə yaxşılaşdırmaq və özəl investisiyaların cəlb edilməsini təmin etmək məqsədi daşıyan hərtərəfli inkişaf planlarının hazırlanması və həyata keçirilməsi vacibdir.

Göstərilənlərə əsaslanaraq, yüngül sənaye müəssisələrinin strateji inkişafı məqsədilə struktur təkmilləşdirmələrinin zəruriliyini xüsusi vurğulamaq vacibdir. Bu baxımdan müəssisələrin yeni idarəetmə quruluşunu formalaşdırarkən nəzərə almaq lazımdır ki, yeni quruluşun bütün əlaqələri bir-birinə qarşılıqlı təsir göstərir və müəssisənin ümumi siyasətində müəyyənləşdirilmiş işlərin və hər bir işçiyə ətraflı şəkildə məlumat verilməli olan vəzifələrin yerinə yetirilməsinə xidmət edir. Təbii olaraq hər bir işçi müəssisənin quruluşunu, fəaliyyətinin əsas müddəalarını və müəyyən tapşırıqların yerinə yetirilməsi ilə bağlı digər məsələləri ətraflı şəkildə bilməlidir.

Beləliklə, yüngül sənaye müüəssisələrinin idarəetmə strukturunun təkmilləşdirilməsinin ümumi müddəalarını aşağıdakı kimi formalaşdırmaq olar:

- mövcud funksional idarəetmə strukturunun strateji inkişaf məqsədlərinə yönləndirilməsi, istehsal, marketinq və satış xidmətlərinin formalaşdırılması və inkişaf etdirilməsi;
- idarəetmə prosesinin təşkili və tənzimlənməsi üzrə vəzifələrin optimallaşdırılması;
- müəssisələrin ümumi fəaliyyətini yaxşılaşdıracaq marketinq komponentlərinin gücləndilməsi;
- yeni idarəetmə quruluşunun fəaliyyət mexanizminin dəqiqləşdirilməsi və kadrların funksiyalarının dəqiqi təsviri.

**Nəticələr:**

İqtisadi inkişaf məqsədilə hazırlanan tədbirlərin səmərəliliyi daha müasir idarəetmə mexanizmindən bilavasitə asılıdır. Bu istiqamətdə zəruri idarəetmə strukturlarının formalaşdırılması aşağıdakı tədbirlərlə öz müsbət nəticələrini verə bilər:

- kadr və texniki yardım göstərən funksional xidmətin yaradılması;
- idarəetmə prosesini həyata keçirmək üçün layihə və ya hədəf proqramlarının hazırlanması;
- layihənin və ya proqramın məqsəd və vəzifələrinə idarəetmənin daha təkmil istiqamətləndirilməsi;
- innovasiya tədbirləri ilə bağlı düzgül idarəetmə qərarlarının qəbul edilməsi imkanlarının formalaşdırılması;
- daha effektiv idarəetmənin tətbiqi, xərclərin azaldılması və resurslardan istifadənin səmərəliliyinin artırılması;
- müəssisələrin işçi heyətindən daha çevik və səmərəli istifadə, işçilərin xüsusi bilik və səriştəsinin artırılması;
- idarəetmə mədəniyyətinin yüksəldilməsi və işçilər arasında peşəkar bacarıqların inkişafına kömək edilməsi;
- layihənin və ya hədəf proqramlarının yerinə yetirilməsinə nəzarətin gücləndirilməsi və s.

**Tədqiqatın elmi yeniliyi:** Yüngül sənaye müəssisələrinin idarə edilməsinə daxili və xarici amillərin təsiri və təşkilati strukturu ilə idarəetmə mexanizmi arasındakı əlaqənin müəyyənləşdirilməsini, eləcə də yüngül sənaye müəssisələrinin idarə edilməsi prosesinin mərhələlərinin tədqiqi əsasında təkmilləşdirmə istiqamətlərinin hazırlanmasını qeyd etmək olar.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti:** Tədqiqat işində əldə olunacaq nəticələr tədbiqi xarakter daşımaqla praktiki əhəmiyyət kəsb edir və yüngül sənaye müəsisələrinin daha təkmil idarəetmə mexanizminin müəyyənləşdirilməsinə imkan verə bilər. Nəticələrdən həmçinin yüngül sənaye müəssisələrinin inkişafı ilə bağlı iqtisadi proqnozların hazırlanmasında istifadə oluna bilər.

## Ədəbiyyat

1. Hüseynova İ.M. Müəssisənin iqtisadiyyatı. Dərs vəsaiti. Bakı, 2013. 304 s.
2. Черняк Ю.И. Системный анализ в управлении экономикой. – М.: Экономика, 2005. – 311 с.
3. Румянцев З. П. Саломатин Н.А. Управление организацией: Учебник. М.: Юнити – Дана, 2004. – 590 с.
4. Горбашко Е. А. Управление конкурентоспособностью : учебник и практикум для бакалавриата и магистратуры / под редакцией Е. А. Горбашко, И. А. Максимцева. Москва : Издательство Юрайт, 2019. –447 с.

**УДК330.8.33.005**

## Направления развития структуры управления предприятий легкой промышленности

**Абдиева Гюльгюн Зейнал кызы**
**Азербайджанский Технологический Университет**

***Ключевые слова:*** управление, конкуренция, рынок, качество, структура, эффективность.

Устойчивое развитие каждого предприятия как структура и функциональность в значительной степени зависит от формирования егоуправленческой способности. С данной точки зрения развитие структур управления показывает себя в формировании способности самоорганизации, который считается важным элементом повышения эффективности управления.

**UDC 330.8.33.005**

**Directions for the development of the management structure of light industry enterprises**

**Abdiyeva Gulgun Zeynal**
**Azerbaijan Technological University**

***Keywords:*** management, competition, market, quality, structure, efficiency

The sustainable development of each enterprise as a structure and functionality largely depends on the formation of its managerial ability.From this point of view, the development of management structures shows itself in the formation of the ability of self-organization, which is considered an important element in improving management efficiency.

Redaksiyaya daxilolma 19.12.2019
Çapa qəbul olunma 05.04.2020

№ 1/2021 səh.107- 112

UOT 338.109.6

# KƏND TƏSƏRRÜFATINDA BİZNES MÜNASİBƏTLƏRİNİN FORMALAŞMASI ILƏ BAĞLI ELMİ BAXIŞLAR

**Gülnarə Adil qızı Tağıyeva**
**Azərbaycan Dövlət Aqrar Universiteti**
**Gəncə ş., Atatürk prospektu, 450**
**gulutagyeva@mail.ru**

***Xülasə:*** *İqtisadi nəzəriyyədə kənd təsərrüfatında biznes münasibətlərinin öyrənilməsinə müxtəlif tədqiqat yanaşmaları vardır. Məqalədə kənd təsərrüfatında biznes mühitinin və biznes münasibətlərinin formalaşması ilə bağlı elmi nəzəri baxışlar öz əksini tapmışdır.Təhlil zamanı müəyyənləşdirilmişdir ki, kənd təsərrüfatında biznes münasibətlərinin formalaşması ideyasının əsasında məhsul istehsalından satışına qədər fəaliyyət düşünülməlidir.Elmi araşdırmalara, aparıcı alimlərin düşüncələrinə və baxışlarına əsaslanaraq məlum olmuşdur ki, hazırda kənd təsərrüfatında rəqabətə davamlı biznes strukturlarının formalaşması mümkün sayılır.*

***Açar sözlər****:biznes mühiti, biznes münasibətləri, kənd təsərrüfatı, biznes struktur, tədqiqat*

**Giriş**:İnsanın həyat fəaliyyətinin və bütövlükdə cəmiyyətin digər sahələrindən fərqli olaraq, biznesdə həm rəqabət, həm də tərəfdaşlıq münasibətlərin normasıdır. Səmərəli biznes münasibətləri iqtisadi fəaliyyətin inkişafında müxtəlif funksiyaları yerinə yetirir.Tədqiqatın nəzəri əsasını iqtisadi kateqoriyalar, iqtisadi qanunlar və onların fəaliyyət mexanizmləri, ictimai istehsalın, bazarın, sahibkarlığın təşkili sahəsində yerli və xarici fundamental irs, informasiya texnologiyaları, və Azərbaycanın kənd təsərrüfatında tətbiq olunan biznes münasibətləri təşkil edir.

**Tədqiqatın metodikası:** Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikası Prezidentinin biznesin inkişafı ilə bağlı təsdiq etdiyi sərəncam və proqramlar, imzalanmış fərmanları, Azərbaycan Respublikasının Milli Məclisinin, biznesin inkişafına dair qəbul etdiyi digər qanun və normativ-hüquqi sənədlər təşkil etməkdədir.

**Mövzunun aktuallığı:**Biznes mühiti ərzaq bazarında özəl təşəbbüsün və sağlam rəqabətin inkişafına təkan verir. Müasir dünyanın qabaqcıl ölkələrinin təcrübəsi və eləcə də tanınmış alimlərin biznes münasibətlərinin inkişafı ilə bağlı nəzəri fikirləri açıq şəkildə sübut edir ki, istənilən milli iqtisadiyyatda yüksək səviyyədə inkişaf etmiş və effektiv olan biznes sektoruna ehtiyac vardır. Bütün bunlar tədqiqat mövzusunun aktuallığını müəyyənləşdirdi.

**Tədqiqatın məqsədi və vəzifələri:**Tədqiqatın məqsədi kənd təsərrüfatında biznes münasibətlərinin inkişaf tendensiyalarını və problemlərini müəyyənləşdirmək, onun inkişafı üçün praktik prinsipləri regional səviyyədə aşkar etdirmək və bir sıra alimlərin bu sahədə fikirlərinə istinad etməkdir.

Hədəfə uyğun olaraq qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:müasir şəraitdə kənd təsərrüfatında biznes münasibətlərinin inkişafının mahiyyətini və xüsusiyyətlərini öyrənmək və ümumiləşdirmək; kənd təsərrüfatında biznes münasibətlərinin inkişafındakı problemlərə nəzəri baxışları müəyyənləşdirmək; müxtəlif xarici alimlərin biznes münasibətlərinin formalaşması ilə bağlı tədqiqatlarını təhlil etmək.

## MATERIALLAR VƏ MÜZAKIRƏLƏR

Kənd təsərrüfatında biznes münasibətləri sistemi XX əsrin ikinci yarısından formalaşmağa başlamışdır. Aqrobiznes nəzəriyyəsinin təkamülü Azərbaycanın kənd təsərrüfatında biznesin inkişaf perspektivini anlamaqda əhəmiyyətlidir. Azərbaycanın kənd təsərrüfatında biznesin inkişafı institusional səviyyədə başlanğıc mərhələsindədir. Kənd təsərrüfatında biznes anlayışı və konsepsiyası ilk dəfə İkinci Dünya müharibəsindən sonra elmi dövriyyəyə daxil edilmişdir. 1957-ci ildə bir qrup Harvard Bizness məktəbinin nümayəndələri, J.Davis və R.Goldbergin "Aqrobiznes konsepsiyası. Tədqiqatların

bölünməsi", əsəri nəşr olunmuşdur. Burada kənd təsərrüfatında biznesin formalaşması ilk dəfə müstəqil tədqiqat sahəsi olaraq qəbul edilir [1]. Harvard məktəbində kənd təsərrüfatı sahəsində aparılan biznes tədqiqatları makroiqtisadi xarakter daşıyırdı (Leontyevin sektorlararası modelinə əsaslanırdı) ABŞ-da kənd təsərrüfatının quruluşunun təhlili ikinci Dünya müharibəsindən əvvəl və sonrakı dövrdə iqtisadi qarşılıqlı asılılığın artdığını göstərdi. Statistik ölçmələrdən istifadə edərək, müəlliflər kənd təsərrüfatında biznesin milli iqtisadiyyatın mühüm komponentlərindən biri olduğu qənaətinə gəldilər.

İqtisadi sistemlərin tədqiqat metodologiyasında vacib bir komponent iqtisadi nizam nəzəriyyəsinin inteqrasiyası və sistem nəzəriyyəsinin ortaya çıxmasına səbəb olan sistem təhlili nəzəriyyəsi alt sistemlərin vurğulandığı iqtisadi qayda: qərar qəbul etmə, informasiya və motivasiyadır.

1970-ci illərdə “sektorial bazarların təşkili nəzəriyyə"si adlandırılan yeni bir iqtisadi istiqamət ortaya çıxmışdır (industrial organization – Yu). Bildiyimiz kimi, paradiqma daxilində struktur - davranış – performans (S-C-P)bazar quruluşuna görə təyin olunan müştərilər və alıcıların davranışından asılıdır.Yuxarıda qeyd etdiyimiz nəzəriyyə firmaların davranışını xarici iqtisadi, və texnologiyaya tələb kimi bəzi şərtlərlə izah edir. Burada təhlilin əsası müvafiq bazarın olmasıdır. Qeyd etməliyik ki, kənd təsərrüfatı məhsullarının effektivliyi dövlət, ev təsərrüfatı və firma birlikləri də daxil olmaqla könüllü təşkilatların davranışından asılıdır. Daha sonra bu konsepsiya əsasında kənd təsərrüfatında biznes münasibətləri sistemində koordinasiya analizinə yeni nəzəri yanaşmalar formalaşmışdır [2]. Eyni zamanda ortaya çıxan Fransız "Reallaşma kanalı" ("filiere") anlayışı və Amerika "alt sektor" termini sonralar daha da formalaşaraq üfüqi yönümlü yanaşma “struktur- davranış - performans”a uyğun daha dinamik bir paradiqmaya çevrilmişdir. Tədqiqat proqramının məqsədi kənd təsərrüfatı məhsullarının xüsusiyyətlərini: tələb və təklif, institusional münasibətlər, dövlətin kənd təsərrüfatında biznes münasibətlərinə təsirinin müəyyənləşdirilməsi olmuşdur. Miçiqan Universitetindən James Schaeffer S-C-P biznesin konseptual quruluşunu genişləndirməyə cəhd etdi ki, bu da kənd təsərrüfatının idarə edilməsi və koordinasiyası, effektivlik problemini kifayət qədər geniş izah edərək, kənd təsərrüfatında biznes tədqiqatlarına dinamik xarakter verdi. O asılılıq dəstini genişləndirdi, təhlilə üç əlavə xüsusiyyət daxil etdi:xarici mühit, davranış reaksiyası və performan[3]. O dövrdə mikroiqtisadiyyat çərçivəsində şaquli inteqrasiya konsepsiyası geniş müzakirə edilirdi. Fikir birliyinə baxmayaraq istehsal mərhələsində ortaq bir anlayış yox idi. Beləliklə, inteqrasiya kənd təsərrüfatı müəssisələrinin marketinq kanalları daxilində birləşmə prosesi deyil müəyyən bir vəziyyət demək idi. İqtisadçı alim M.V. Redkina, biznes münasibətlərinin spesifikliyini qarşılıqlı əlaqədə olan tərəflərin maraqlarının ziddiyyətli olmasında görürdü. Fikrimizcə, bu ziddiyyətin səbəbi, əsas məqsədi, fayda əldə etmək, işgüzar qarşılıqlı əlaqədə tərəfdaşların qarşılıqlı məsuliyyətinə əsaslanaraq konkret məqsədə nail olunmasıdır[4].

T.S. Vavakina tərəfindən aparılan işgüzar qarşılıqlı təhlilin nəzəri əsasları, müxtəlif elm sahələri çərçivəsində hazırlanmış qarşılıqlı təsir modelləridir[5]. V.V.Radayev isə öz növbəsində qeyd edirdi ki, biznes münasibətlərinin formalaşmasına sosial-iqtisadi yanaşmalar- iqtisadi tarazlıq, nizam və sosial sistem qanunlarına əsaslanır (Radaev, 2002). Bu sahədə V. Paretonun iqtisadi tarazlıq konsepsiyası isə bütövlükdə marginalizm məktəbinin nümayəndələri W. Jevons, F. Edjuort və L. Valrasın iqtisadi nəzəri fikirlərini genişləndirirdi. Rəqabət və tərəfdaşlıq münasibətləri, biznes mühitində müxtəlif münasibətlər və bu münasibətlərin həyata keçirilməsi və biznes nümayəndələri arasında qarşılıqlı əlaqə üçün əsasdır [6].

Rəqabət sahibkarlıq fəaliyyətinin əsasını təşkil edir və biznes tərəfdaşlığı sahibkarın iqtisadi fəaliyyətində rəqabət münasibətləri üzərində qurulur. Rəqabət və tərəfdaşlıq münasibətləri, biznesdəki əsas münasibətlərdir və təmsilçilərinin qarşılıqlı əlaqəsinin əsasıdır.

Qərb iqtisadçıları A. Brandenburqer və B. Neilbuffun müşahidələrinə görə, bəzi şirkətlər rəqabətçi bir yanaşmaya sadiq qalaraq, biznes münasibətlərini hərbi əməliyyat kimi qiymətləndirir və nəticələri

qazanan və uduzanlar baxımından qiymətləndirirlər; digərləri komanda yanaşmasına və ortaqlığa etibar edirlər.Bu iki yanaşmanın kombinasiyasını onlar "ortaq seçim" - rəqiblərin (kooperasiyası)əməkdaşlığı adlandırdılar[5]. Biznes münasibətlərinin inkişafında firmalar arasındakı qarşılıqlı əlaqənin öyrənilməsinə dair bu fikirlər bir sıra xarici tədqiqatçılar tərəfindən dəstəklənir. J. Dajnino və Dj. Padulasobo, müstəqil iqtisadi subyektlər arasındakı qarşılıqlı əlaqənin öyrənilməsinə sərbəst bir yanaşma olaraq "ortaq seçim" anlayışının daha ətraflı inkişaf etdirilməsinin vacibliyini vurğulayırlar[5].

T. S. Vavakina tərəfindən aparılan kənd təsərrüfatında müasir biznes təcrübəsinin tədqiqatına həsr olunmuş nəşrlərin təhlili göstərdi ki, tərəfdaşlıq və rəqabət arasındakı əlaqələr özünəməxsus xüsusiyyətlərə malikdir. Tərəfdaşlıq (işbirliyi, əməkdaşlıq) və rəqabət, biznesdə bir-birini istisna etmir və işgüzar münasibətlərdə də mövcud ola bilər.

Təcrübədə şirkətlər hədəflərə çatmaq üçün eyni vaxtda bir sıra layihələrdə səylərini birləşdirə bilərlər, digər layihələrdə isə rəqib ola bilərlər. Bu vəziyyətdə şirkətlər və fərdlər arasındakı münasibət yalnız rəqabət və ya yalnız əməkdaşlıq kimi xarakterizə edilə bilməz.

İnkişaf etmiş ölkələrdə olduğu kimi Respublikamızda da biznes münasibətləri inkişaf etdirilir və bir sıra iqtisadçıların əsərləri bu mövzuya həsr olunmuşdur: (T. S. Vavakina, I. V. Veretennikova, M. B. Glotov, R. Jay, M. B. Kanovskaya, M. V. Krymchaninova, S.P. Maltsev, V.P. Poznyakov, E.M. Sabat, V.I. Solomukin, L.D. Stolyarenko, O.I. Titova, E.B. Filinkova və başqaları).

Kənd təsərrüfatında biznes tərəfdaşlığı, nisbi iqtisadi azadlığa və qərar qəbul edilməsində alternativə sahib olan müstəqil, bərabərhüquqlu iqtisadi qurumların sosial qarşılıqlı əlaqəsidir[5]. Kənd təsərrüfatında biznes ortaqlığı, iştirakçıların qarşılıqlı asılılığına əsaslanan fəaliyyətlərin kollektiv bir təşkili formasıdır, yəni, iş maraqlarının kəsişməsi; qeyri-rəsmi münasibətlərə əsaslanan qarşılıqlı dəstək və yardım, subyektlər tərəfindən qeyri-rəsmi norma və dəyərlərin qəbul edilməsi ilə xarakterizə olunur.

Ən ümumi şəkildə kənd təsərrüfatında biznes tərəfdaşlıq, bazar iqtisadiyyatı subyektləri arasında tərəflərin birgə səylərinə əsaslanan, bəzi ortaq maraq (mənfəət) ilə birləşdirilmiş, iqtisadi məqsədlərə çatmağa yönəlmiş biznes münasibətləri kimi başa düşülə bilər.

Kənd təsərrüfatında biznes tərəfdaşlığının iqtisadi funksiyası, təsərrüfat subyektlərinin davamlı inkişafını və iqtisadi problemlərin və tərəfdaşların tapşırıqlarının birgə həlli ilə həyata keçirilən iqtisadi fəaliyyətin məqsədlərinə daha effektiv nail olunmasını təmin etmək üçün əlaqələrin qurulması, təşkili və möhkəmləndirilməsidir.

E.B.Filinkova tərəfindən aparılan araşdırmalar, sahibkarların ortaqları haqqında fikirlərinin kifayət qədər aydın olmadığını göstərdi. Onun tərəfindən iki sahibkar qrupu təyin edildi. Birinci qrupda (30%), ortağın dəqiq bir identifikasiyası yox idi. Sadəcə "dürüst və layiqli insanlar", "peşəkarlar", "etibarlı, ağıllı və layiqli insanlar" və eyni zamanda işin çiçəklənməsinə töhfə verən hər kəsi tərəfdaşlar adlanırdılar. İkinci qrup (70%) biznes ortağının müəyyən identifikasiyası ilə xarakterizə olunur: "təchizatçılar", "dostlar", "ortaq sahiblər", "firmaların rəhbərləri", "müştərilər və s".

V. V. Radayev öz nəzəri mülahizələrində, biznes münasibətlərində sahibkarların üstünlük verdikləri biznes ortağını təsvir etmək üçün xüsusiyyətləri təqdim edir[7]. Hər şeydən əvvəl bunlar mənəvi keyfiyyətlərdir: ədəb, dürüstlük, vicdanlılıq.

İkinci qrup keyfiyyətlər (29% ) öz öhdəliklərini yerinə yetirmək bacarığıdır: aydınlıq, məsuliyyət, etibarlılıq, sözə düzgünlük. Üçüncü qrup keyfiyyətlər peşəkarlıqdır: səriştəlilik, aydınlıq, dəqiqlikdir. Kənd təsərrüfatında biznes tərəfdaşlığı üçün daha az vacib olanlar: təşəbbüs, fədakarlıq, müstəqillik, ünsiyyət bacarıqları və sairədir.

E.B.Filinkova və V. V. Radayevin nəzəri mülahizələrindən belə nəticəyə gəlmək olar ki, kənd təsərrüfatında biznes münasibətləri qurmaq, hər iki tərəf üçün müəyyən hazırlıq və səy tələb edir.

Təsadüfi deyil ki, Qərb ölkələrində kənd təsərrüfatında biznes münasibətlərinin formalaşması və onun davam etdirilmə mədəniyyəti zəngin bir tarixə malikdir. Eyni zamanda kənd təsərrüfatında biznes münasibətləri fərqli məzmun və istiqamətdə ola bilər. O.İ.Titovaya görə isə, sahibkarların biznes münasibətləri, yeni bazarlara çıxışa, pul qazanmağa yönəlmiş texniki və iqtisadi tərəfdaşlığa bölünür [8].İqtisadçıların fikirlərinə görə, rəqabət tərəqqinin, cəmiyyətin davamlı inkişafının və kənd təsərrüfatında biznes mühitinin formalaşmasının əsasını təşkil edir və iqtisadiyyatda durğunluğa qarşı olan əsas şərtdir. Ancaq eyni zamanda, rəqabət, bir qayda olaraq, münaqişə və qeyri-sabitlik ilə müşayiət olunur.

Kənd təsərrüfatında biznes münasibətlərinin formalaşmasında rəqabətin sərtliyinə əsaslanan qarşılıqlı əlaqəni şərh etmək cəhdi A.G. Şmelyov tərəfindən həyata keçirilmişdir.Müəllif "məhsuldar rəqabət" anlayışını təqdim edir - bu, yalnız qaliblər arasında deyil, həm də rəqiblərin əhəmiyyətli bir hissəsi arasında öz potensialının böyüməsinə gətirib çıxaran ən təsirli qarşılıqlı rəqabət növü kimi qəbul edilə bilər. Müəllif rəqabətdən yayınmanın iki növünü müəyyənləşdirir:
1) passivlik və ya çalışqanlıq, konformizmilə xarakterizə olunur; 2) güclü rəqibləriməhvetməkvə özinhisarını tətbiqetməkistəyininolması[9].V.I.Yaroçkinin konsepsiyası, kənd təsərrüfatında biznes münasibətlərinin formalaşmasında rəqiblərin mövcud vəziyyətlə barışmaları və rəqiblərin sərt bir mübarizəyə girdiyi zaman rəqabətin şiddətinin fərqli ola biləcəyini göstərir[10].

Günümüzün obyektiv reallıqlarının təsiri altında kooperativ fəaliyyətin mahiyyəti malların istehsalından son istehlakçıya satışına qədər hər hansı bir layihənin icrası xüsusiyyəti, komponenti, istehlakçı ehtiyaclarının, tələbinin və motivlərinin öyrənilməsi prioritetinə və bu əsasda onların hazır məhsula çevrilməsinə əsaslanır. Bu, malların istehsalının yeni bir konsepsiyası, kənd təsərrüfatı müəssisələrində biznes münasibətlərinin inkişafı üçün stimul və bugünkü böhrandan çıxmaq üçün təsirli bir amil rolunu oynayacaq metodoloji təməldir. Nəticədə mövcud biznes münasibətlərində idarəetmə forması obyektiv olaraq öz iqtisadi potensialını tam həyata keçirmək fürsəti əldə edəcəkdir. Kənd təsərrüfatı müəssisələrində biznes münasibətlərinin qurulmasının metodoloji əhəmiyyəti aşağıdakı kimi göstərə bilərik(şəkil1).

**Şəkil. 1.**

**Kənd təsərrüfatı müəssisələrində biznes münasibətlərinin qurulmasının metodoloji əhəmiyyəti**

| Kooperativ Müəssisələr | Metodoloji mahiyyət |
|---|---|
| -fərdi sahibkarlığın dəstəklənməsi amili<br>-təşəbbüskarlıq fəaliyyətinin ortaqlıq formasının elementi<br>-vasitəçi işinin genişlənməsinə qarşı təsir göstərə | - məhsul istehsal etmək, effektiv satış kanalları yaratmaq və uzunmüddətli müqa bağlamaq üçün kiçik biznes formalarını birləş bacarığı<br>-qarşılıqlı faydalı şərtlərlə uzunmüddətli iqtisadi əlaqələrin qurulması<br>-kənd yerlərində yeni inteqrasiya və əlaqəli əmə formalarının istifadəsi |

Şəkildən göründüyü kimi kənd təsərrüfatı istehsalçılarının fəaliyyətlərində biznes münasibətlərinin metodoloji əhəmiyyəti böyükdür. Aparılan elmi ümumiləşdirmələr göstərir ki, iqtisadiyyatın kənd təsərrüfatı sektorunda biznes mühitinin üstünlüklərinin reallaşdırılması idarəetmə formasından asılı

olmayaraq biznes münasibətlərinin səmərəliliyini və effektivliyini artıracaqdır ki, bu da onların fəaliyyətini stimullaşdıracaq və bir sıra əhəmiyyətli rəqabətə kömək edəcəkdir.

**Nəticə**.İqtisadşı alimlərin biznes münasibətlərinin inkişafı ideyasına əsaslanaraq istehsalçıların səylərinin birləşdirilməsi həm kənd təsərrüfatı xidmətləri kooperativlərinin, həm də faydalarının sinxronlaşdırılması olacaqdır. Belə fəaliyyət, müstəqillik üzərində qurulacaq prinsipcə yeni idarəetmə formalarının yaranmasına səbəb olacaqdır.

**Tədqiqatın elmi yeniliyi.**Kənd təsərrüfatında biznes münasibətlərinin xüsusiyyətlərinin iqtisadçı alimlərin fikirlərini nəzərə alaraq aşkara çıxarılması və elmi cəhətdən əsaslandırılması, kənd təsərrüfatında biznes münasibətlərinin inkişafının əsas problemlərinin sistemləşdirilməsi.

**Ədəbiyyat**

1.Davis J.H. Kənd təsərrüfatından aqrobiznes // Harvard Business Review. 1956.34 (1). S. 107-115;

2.Marion B. IV. ABŞ Qida Sisteminin Təşkilatı və Fəaliyyəti. Lexington, MA: Leksinqton Kitabları, 1986.

3.Shaffer J.D. Alt sektor tədqiqatları konsepsiyası haqqında // American Journal of Agriculture Economics. 1973. No 55. S. 333-335.

4.https://studme.org/52798/psihologiya/vzaimootnosheniya_subektov_biznesa_konkurentsiya_partnerstvo_doverie_nedoverie

5.Вавакина Т. С. Типы психологического отношения российских предпринимателей к деловому партнерству: дис. ... канд. психол. наук. М., 2011.

6.Позняков В. П. Психологические отношения и деловая активность российских предпринимателей. М.: Изд-во ИП РАН, 2001;

7.Радаев В.В. Институциональная динамика рынков и формирование новых концепций контроля (на примере рынков электробытовой техники) / Высшая школа экономики. Серия WP4 "Социология рынков". 2002. № 01

8.Титова О. И. Гендерные особенности отношения российских предпринимателей к конкуренции и партнерству: дис. ... канд. психол. наук. М., 2007.

9.Шмелев А. Г. Продуктивная конкуренция. Опыт конструирования объединительной концепции. М.: Магистр, 1997.

10.Ярочкин В. И., Бузанова Я. В. Системы защиты предпринимательства: защита от недобросовестной конкуренции. М.: Академический проект, 2005.

## НАУЧНЫЕ ВЗГЛЯДЫ НА ФОРМИРОВАНИЕ ДЕЛОВЫХ ОТНОШЕНИЙ В СЕЛЬСКОМ ХОЗЯЙСТВЕ

**Тагиева Г.А.**

**Резюме:** В экономической теории существуют различные исследовательские подходы к изучению деловых отношений в сельском хозяйстве. В статье отражены научно-теоретические взгляды на формирование деловой среды и деловых отношений в сельском хозяйстве.В ходе анализа было определено, что в сельском хозяйстве деятельность от производства до продаж следует рассматривать на основе идеи формирования деловых отношений. На основании научных исследований, размышлений и взглядов ведущих ученых стало ясно, что формирование конкурентоспособных бизнес-структур в сельском хозяйстве стало возможным.

**Ключевые слова:** бизнес-среда, деловые отношения, сельское хозяйство, бизнес-структура, исследования

**№ 1/2021** **səh.107- 112**

## SCIENTIFIC VIEWS ON THE FORMATION OF BUSINESS RELATIONS IN AGRICULTURE

**Tagiyeva G.A.**

**Summary:** There are various research approaches to the study of business relations in agriculture in economic theory. The article reflects the scientific and theoretical views on the formation of the business environment and business relations in agriculture.During the analysis, it was determined that activities from production to sales should be considered on the basis of the idea of forming business relations in agriculture. Based on scientific research, thoughts and views of leading scientists, it has become clear that the formation of competitive business structures in agriculture is now possible.

**Keywords:** business environment, business relations, agriculture, business structure, research

**№ 3/2020** **səh.113-118**

**UOT338.43.02**

# Aqrar sferada istehsalın şaxələndirilməsinətəsir edən amillər

**Eldarlı Cavidan Azər oğlu**
**Azərbaycan Dövlət Aqrar Universiteti**
**Atatürk prospekti 450**
**javidan.eldarli@outlook.com**

**Xülasə:***Kənd təsərrüfatının inkişaf perspektivləri əsasən müxtəlif istehsal sahələrində baş verən struktur dəyişikliklərinin vəziyyəti ilə müəyyən edilir. Bu prosesdə resurs potensialının qiymətləndirilməsi kənd təsərrüfatı istehsalının şaxələndirilməsi isitiqamətlərini formalaşdırmağa imkan verir. Aqrar sahənin innovativ inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi də istehsalın şaxələndirilməsi prosesində başlıca vasitələrdən hesab edilir. Ona görə aqrar sahənin mümkün inkişafı amillərini nəzərə alaraq kənd təsərrüfatı məhsullarının müəyyən növləri üçün ixtisaslaşdırılmış istehsal ərazilərinin müəyyənləşdirilməsi, istehsalın yerləşdirilməsinin təmin edilməsi, istehsalın şaxələndirilməsi üzrə əsas prinsiplərin müəyyən edilməsi ən vacib məsələlərdir.*

**Açar sözlər:***şaxələndirmə, resurs potensialı, modernləşdirmə, idxal, ixrac, istehlak.*

**Giriş.**Aqrar sahənin inkişaf perspektivləri əsasən kənd təsərrüfatı istehsalının vəziyyəti ilə müəyyən edilir. Kənd təsərrüfatının resurs potensialının qiymətləndirilməsi kənd təsərrüfatı istehsalının əhəmiyyətli dərəcədə artmasına, daxili və beynəlxalq bazarlarında rəqabət qabiliyyətinin artırılmasına zəmin yaradır. Kənd təsərrüfatındaresurs potensialından daha səmərəli istifadəni müəyyən edən əsas amillərə aiddir: modernləşdirmə və daha müasir inkişaf modelinin formalaşdırılması; əmək məhsuldarlığının yüksəldilməsinə, istehsal olunan məhsulların resurs intensivliyinin azaldılmasına və innovativ texnologiyaları mənimsəyə bilən insan potensialının formalaşmasına imkan verən elm və texnikanın nailiyyətlərinin istehsalata tətbiqi; istehsalın artırılması, ixrac resurslarının formalaşdırılması və kənd təsərrüfatı torpaqlarının təkrar dövriyyəyəsi; geniştəkrar istehsal üçün şərait yaratmaq məqsədilə kənd təsərrüfatı istehsalçılarının gəlirinin artırılması, kənd təsərrüfatında çalışan işçilərin əmək haqqı səviyyəsinin yüksəldilməsi, habelə kənd təsərrüfatı əməyinin nüfuzunun artırılması; istehsal və qeyri-istehsal infrastrukturunun inkişafı, ərazinin və ayrı-ayrı istehsal sahələrininehtiyatlarının çoxaldılması;istehsalının şaxələndirilməsi.

Əslində innovativ texnologiyalara hesabına istehsalın modernləşdirilməsi, ilk növbədə çoxşaxəli istehsal strukturunun formalaşdırılmasına istiqamətlənir. Deməli, kənd təsərrüfatı istehsalının şaxələndirilməsi aqrar iqtisadiyyatın inkişafında əsas amillərdən biri kimi çıxış edir.

**Mövzunun aktuallığı.**Elmi və texnoloji yeniliklər əsasında aqrar sahənin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi istehsalın şaxələndirilməsi prosesində başlıca vasitələrdən hesab edilir. Kənd təsərrüfatının təbii və iqtisadi müxtəlifliyi,istehsalda ərazi, sahə və əmək bölgüsünün rolunu və yerini müəyyənləşdirir. Bu prosesdə dövlətin vəzifəsi, məhz aqrar istehsalın rasional yerləşdirilməsi, ixtisaslaşması və təmərküzləşməsinin gücləndirilməsi, bölgələrarası mübadilə prosesinin dərinləşməsi və müəyyən kənd təsərrüfatı məhsulları üçün ixtisaslaşmış zonaların yaradılması, habelə aqrar ərzaq bazarının iştirakçıları üçün informasiya dəstəyi və maliyyə mənbələrinin ayrılmasına fərqli yanaşma tədbirləri sisteminin həyata keçirilməsini əhatə edir. Qeyd edilənlər sosial-iqtisadi inkişaf səviyyəsindən asılı olaraq hər bir bölgədə kənd təsərrüfatı məhsullarının və əlaqədar sahələrin şaxələndirilməsində aşağıdakı məsələlərə xüsusi diqqət yetirilməsinin vacibliyini təsdiq edir: aqrar sektorun inkişafının özünəməxsus xüsusiyyətlərinin nəzərə alınması; müəyyən növ kənd təsərrüfatı məhsulları və xammal

istehsalı üçün bölgələrarası və regional innovasiya və investisiya layihələrindən istifadə imkanlarının müəyyənləşdirilməsi[2, s.189]; intensiv və rəqabətli istehsalın həyata keçirilməsi üçün əlverişli iqtisadi stimullaşdırma tədbirlərinin müəyyən edilməsi.

Araşdırmalar göstərir ki, aqrar sahənin mümkün inkişafı amillərini nəzərə alaraq kənd təsərrüfatı məhsullarının müəyyən növləri üçün ixtisaslaşdırılmış istehsal ərazilərinin müəyyənləşdirilməsi və formalaşdırılması, kənd təsərrüfatı məhsullarının bölgələrarası bölgüsünün həyata keçirilməsi, istehsalın yerləşdirilməsinin təmin edilməsi, nəhayət istehsalın şaxələndirilməsi üzrə əsas prinsiplərin müəyyən edilməsi xüsusilə vacibdir. Bunlar, ölkənin aqrar sferasınıda əsas istehsal sahələrinin iqtisadi parametrlərinin inkişafına, infrastruktur və ən vacib istehsal ehtiyatlarının təmin edilməsinə, istehsalının yerləşməsinin rasionallaşmasına, ixtisaslaşdırmanın dərinləşməsinə əlverişli zəmin yarada bilər. İnkişaf etmiş ölkələrdə dəmübadilə və ixracın inkişafı üçün müəyyən məhsul növlərinin istehsalında ixtisaslaşmalarının dərinləşdirilməsi əsasında aqrar istehsalda ərazi-sahə əmək bölgüsünün ümumi mexanizmini hazırlamaq və istehsalı elmi cəhətdən əsaslandırılmış şəkildə şaxələndirmək aqrar siyasətin prioritetlərini təşkil edir. Bu baxımdan şaxələndirmə strategiyasıın əsas məqsədlərinə daxildir: aqrar istehsalda ərazi və sahə əmək bölgüsünün yaxşılaşdırılması, ölkənin və onun bölgələrinin bioiqlim potensialından daha yaxşı istifadənin təmin edilməsi, resursların qorunması, kənd təsərrüfatı məhsullarının, xammal və ərzaq məhsullarının səmərəliliyinin və davamlılığının artırılması, idxalın əvəzlənməsi və ixracın inkişafı üçün zəruri təşkilati və iqtisadi şəraitin yaradılması; kənd təsərrüfatı istehsalının inkişafına dövlət dəstəyinin daha təsirli mexanizmlərindən istifadə edilməsi.

Qeyd edilənlər aqrar istehsalın şaxələndirilməsi və prosesdə dövlətin rolunun müəyyənləşdirilməsi ilə bağlı araşdırmaların aktuallığını və əhəmiyyətini təsdiq edir.

**Tədqiqatın məqsədi.**Tədqiqatın məqsədi aqrar sahənin inkişafında mühüm rol oynayan istehsalın şaxələndirilməsininiqtisadi əsaslarını araşdırmaqdan, bu sahədə mövcud vəziyyəti təhlil etməkdən və kənd təsərrüfatı istehsalının şaxələndirilməsi üzrə perspektivləri müəyyənləşdirməkdən ibarətdir.

## MATERIALLAR VƏ MÜZAKIRƏLƏR

Aqrar istehsalın inkişafı və rasional şəkildə yerləşdirilməsi kənd təsərrüfatında istehsalın şaxələndirilməsinin genişləndirilməsinə şərait yaratmaqlanəzərdə tutulan tədbirlərin səmərəliliyini əhəmiyyətli dərəcədə artırmağa, kənd yerlərinin hərtərəfli inkişafına, məhsul istehsalının ekoloji standartlara uyğunlaşmasına, vahid iqtisadi məkanın formalaşmasına, kənd təsərrüfatında iş və yaşayış şəraitinin yaxşılaşmasına və əhalinin gəlirlərinin artmasına xidmət edir.

Kənd təsərrüfatı istehsalının şaxələndirilməsi kənd məşğulluğundakı struktur dəyişiklikləri, kiçik və orta sahibkarlığın dəstəklənməsi, habelə qeyri-kənd təsərrüfatı fəaliyyətinin inkişafına təkan verilməsi üçün əlavə tədbirlərin görülməsini tələb edir. Bu baxımdan kənd yerlərində məşğulluğun artırılması və əmək bazarının tənzimlənməsi sahəsində tədbirlərə aşağıdakıları aid etmək olar: kənd təsərrüfatı müəssisələrində istehsalın innovativ texnologiyalara əsaslanan modernləşdirilmiş iş yerlərinin yaradılması; fərdi yardımçı təsərrüfatlar və istehlakçı kooperasiyalar bazasında sahibkarlığın, ev təsərrüfatlarının, özünüməşğulluq və ailə məşğulluq formalarının inkişafının stimullaşdırılması; iri, orta və kiçik müəssisələrin inteqrasiyasının təşviq edilməsi; kənd yerlərində ixtisaslı mütəxəssislərin istehsalata cəlb edilməsi və bu məqsədlə zəruri şəraitin yaradılması.

Məlumdur ki, qeyri-kənd təsərrüfatı fəaliyyətinin inkişafı və kənd əhalisi üçün vacib məşğulluq və gəlir mənbəyidir.Bu sahələrin əhəmiyyəti kənd təsərrüfatı əməyinin mövsümi olması və əhalinin kənd təsərrüfatı istehsalında il boyu intensiv məşğulluğunun təmin edilməsinin mümkünsüzlüyü səbəbindən daim xüsusi əhəmiyyət kəsb edir. Qeyri-kənd təsərrüfatı fəaliyyətinin inkişafının əsas istiqamətlərinə daxildir: tikinti materiallarının istehsalı; ağac emalı; ticarət və sənətkarlıq; əhali üçün sosial və mədəni

xidmətlər; yabanı meyvə və giləmeyvə, dərman bitkiləri və digər təbii xammalın yığılması və emalı; kənd turizmi və s.

Qeyd edilənlər göstərir ki, şaxələndirmə siyasətində yalnız kənd təsərrüfatı sahələri deyil,qeyri-kənd təsərrüfatı fəaliyyətinin də genişləndirilməsinə diqqət yetrilməlidir. Ümumiyyətlə, şaxələndirmə baxımından geniş çeşidli kənd təsərrüfatı məhsullarının istehsalı üçün texniki cəhətdən yenidən qurulma və təchizat məsələləri daxil olmaqla bir sıra tədbirlər həyata keçirilməlidir. Bu baxımdan istehsalın intensivləşdirilməsini təmin etmək, istehsalı artırmaq, kənd təsərrüfatının ixrac potensialını formalaşdırmaq zəruridir. Araşdırmalara göstərir ki, son illər əksər məhsul növləri istehsalında dinamik artım qeydə alınmışdır. Belə ki, 2015-ci ilə nisbətən 2019-cu ildə bütün məhsullar üzrə (bostan məhsulları və şəkər çuğunduru istisna olmaqla) istehsalın həcmi artmışdır. Dənli və dənli paxlalılar üzrə istehsalın artımı 11%, tütünçülükdə 76,5%, kartof məhsulu üzrə19,6%, tərəvəzçilikdə 31,7%, dən üçün günəbaxanda 83,5%, meyvə və giləmeyvədə 23,8%, üzümçülükdə 28,5% təşkil etmişdir. Heyvandarlıq məhsulları istehsalında da oxşar vəziyyət müşahihidə edilmişdir. 2019-cu ildə diri çəkidə 335,7 min ton ət, o cümlədən mal əti 137,9 min ton, qoyun əti 85,3 min ton, quş əti 112,0 min ton, 2150,8 min ton süd, 1827,1 milyon ədəd yumurta, 16.1 min ton yun, 643,7 min ton barama və 5,8 min ton bal istehsal olunmuşdur. 2015-ci illə müqayisədə 2019-cu ildə ət istehsalı diri çəkidə 37,1 min ton və ya 12,4 faiz, o cümlədən mal əti 8,1 min ton və ya 6,2 faiz, qoyun əti 14,4 min ton və ya 20,3 faiz, quş əti 14,8 min ton və ya 15,2 faiz, süd istehsalı 226,3 min ton və ya 11,8 faiz, yumurta istehsalı 274,2 milyon ədəd və ya 17,7 faiz, barama istehsalı 27 dəfə, bal istehsalı 2,2 dəfə artmışdır [5].

Araşdırmalar göstərir ki, kənd təsərrüfatında istehsalın şaxələndirilməsinin nəticələri təbii, iqtisadi və sosial amillərin təsiri ilə formalaşır. Elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin istehsalda tətbiqinin genişlənməsi və kənd təsərrüfatında sənaye sahələrinin inkişaf səviyyəsinin yüksəlməsi hallarında belə kənd təsərrüfatında təbii amillər kifayət qədər hakim mövqe tutmaqdadır. Təbii amillər kənd təsərrüfatında istehsalın istehsalın şaxələndirilməsini şərtləndirməklə məhsul istehsalının həcminə və kənd təsərrüfatında çalışan əmtəə istehsalçılarının gəlirlərinin səviyyəsinə təsirsiz ötüşmür. Bu baxımdan kənd təsərrüfatı istehsalının şaxələndirilməsini şərtləndirən amilləri ümumi şəkildə aşağıdakı kimi qiymətləndirmək mümkündür: bioloji və iqtisadi proseslərin qarşılıqlı əlaqəyə malik olması həm bitkiçilik, həm də heyvandarlıqda təsərrüfat fəaliyyətinin nəticələrinə obyektiv surətdə təsir göstərmək imkanlarını şərtləndirir;çoxsaylı amillər və onların spesifikliyi kənd təsərrüfatı istehsalının nəticələrinə əhəmiyyətli təsir göstərməklə istehsal potensialının elementlərindən səmərəli istifadə edilməsini özündə birləşdirir;təbii-iqlim amillərinın mövcudluğu kənd təsərrüfatı istehsalının yerləşməsində və ixtisaslaşmasında həlledici təsirə malikdir;iş müddəti ilə istehsal dövrü arasındakı əlaqənin fərqli xarakter daşıması istehsalda mövsümlük amilinin üstünlük təşkil etməsinə gətirib çıxarır;kənd təsərrüfatında bioloji amillər mühüm rol oynamaqla heyvandarlıqda canlı orqanizmlər, istehsalın hərəkətverici qüvvəsi kimi çıxış edir.

Göründüyü kimi təbii amillər - iqlim, torpağın münbitliyi, relyef və s. kənd təsərrüfatında sistem formalaşdıran amillər kimi çıxış edir. Həmin amillər kifayət qədər aşağı dinamikliyə malikdir, istehsal və satış prosesində risklərin yaranmasını şərtləndirən əsas amillərdən biri kimi çıxış edir, onların müxtəlifliyi və istifadə dərəcəsi kənd təsərrüfatı istehsalında, bütövlükdə aqrar-sənaye sferasında struktur dəyişikliklərinin əsasını təşkil edir[1, s.38]. Kənd təsərrüfatının inkişafına təbii-iqlim şəraitinin təsiri bölgələr və sahələr üçün fərqli xarakter daşıyır. Qeyd etmək lazımdır ki, təbii, iqtisadi və sosial amillərin kifayət qədər diferensial xarakter daşıması istehsalın şaxələndirilməsinın sahə strukturuna təsirini şərtləndirir.

Kənd təsərrüfatı istehsalının şaxələndirilməsinin elmi cəhətdən əsaslandırılması xüsusi əhəmiyyət kəsb edən məsələlərdəndir və bu, nəticə etibarilə təbii amillərin təsiri fonunda dəyişən iqtisadi amillərə

kifayət qədər dinamik reaksiya göstərilməsini şərtləndirir. Ümumiyyətlə, təbii amillərin təsiri ilə istehsalın strukturunda köklü dəyişikliklər baş verir. Bu, öz növbəsində əsas növ kənd təsərrüfatı məhsullarının istehsalı üzrə ixtisaslaşdırılmış bölgələrin formalaşdırılmasına gətirib çıxarır. Konkret təbii şərait daxilində kənd təsərrüfatı istehsalının şaxələndirilməsinin dərinləşməsi, yüksək rentabelli fəaliyyət göstərən sahələrin və təsərrüfatların inkişafında əhəmiyyətli rol oynayır.

Beləliklə, aqrar sferada istehsalın şaxələndirilməsi özünü bir-biri ilə əlaqəli istehsal proseslərinin birləşməsində, iqtisadi cəhətdən istehsalın sabitləşməsinə və risklərin azalmasına imkan verən istehsal forması kimi göstərir. Şaxələndirmənin təşkilati cəhəti müəssisələrin genişlənməsi, geniş məhsul çeşidi ilə tək məhsullu məhsuldan çox məhsullu istehsala keçilməsi kimi xüsusiyyətlərlə xarakterizə olunur[4, s.24]. Qeyd edilənlərdən aydın olur ki, kənd təsərrüfatında istehsalın şaxələndirilməsi özünü daha çox iqtisadi cəhətdən daha səmərəli və yeni istehsal sahələrinə keçidlə şərtləndirir. Bu proses istehsalçıların davamlı olaraq eyni məhsul istehsalından imtina etmələrini, bazarın tələbi nəzərə alınmaqla zəruri hallarda ənənəvi istehsaldan imtina etmələrini önə çəkir.

**Nəticələr**

Araşdırmalara əsaslanaraq kənd təsərrüfatının davamlı inkişafı sahəsində dövlət siyasətinin məqsədlərinə nail olmaq üçün aşağıdakı vəzifələri qeyd etmək olar: kənd təsərrüfatında iqtisadiyyatının şaxələndirilməsi və kənd əhalisi üçün gəlir mənbələrinin genişləndirilməsi; kənd əhalisinin yaşayış şəraitinin yaxşılaşdırılması; kənd yerlərində müasir istehsal və sosial infrastrukturunun yaradılması, məşğulluğun yüksəldilməsinin təmin edilməsi. Təbii ki, bu vəzifələr kənd təsərrüfatında istehsalın şaxələndirilməsi və ayrı-ayrı istehsal sahələrinin texnoloji yenilənməsi ilə həll edilə bilər.Aqrar sferda rəqabət qabiliyyətli istehsalı artırmaq baxımından da istehsalın şaxələndirilməsi vacibdir.Bu baxımdan iqtisadi şaxələndirmə sahəsində tədbirlərəaşağıdakıları aid etmək olar:

● istehsalıninnovativtexnologiyalar əsasda inkişafının təmin edilməsi;

● sosial və istehsal sahələrində, eləcə də logistikada - kənd təsərrüfatı məhsullarının saxlanması, daşınması, marketinqi və s. modernləşmə tədbirlərinin genişləndirilməsi;

● bütün istehsal sahələrindəstimullaşdırıcı tədbirlərin genişləndirilməsi;

● kənd təsərrüfatı müəssisələrində özünüməşğulluğun səmərəliliyinin yüksəldilməsi.

Qeyd etmək lazımdır ki, bu tədbirlər yalnız istehsalın şaxələndirilməsinə deyil, həmçinin kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsini nəzərdə tutur. Məlumdur ki, bütün istehsal sahələrinin şaxələndirilməsinə ehtiyac duyulmur, bəzi ərazilərdə iqtisadi cəhətdən zəif inkişaf sahələrə rast gəlinir ki, xüsusilə həmin sahələrdə yeni iqtisadi fəaliyyət növləri inkişaf etdirmək, kənd təsərrüfatı istehsalını yeniləmək zərurəti yaranır[3, s.81]. Bütün bunlar kənd təsərrüfatı istehsalınınşaxələndirilməsinə yönəlmiş stimullaşdırma siyasətininəsas istiqamətlərinin hazırlanmasını və həyata keçirilməsini tələb edir.

**Tədqiqatın elmi yeniliyi.**Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- aqrar sahədə istehsalın modernləşdirilməsi ilə şaxələndirmə siyasəti arasındakı əlaqə müəyyənləşdirilmişdir;

- istehsalın şaxələndirilməsinin əmək məhsuldarlığının və məşğulluğun yüksəldilməsinə təsiri əsaslandırılmışdır;

- innovativ texnologiyaları mənimsəyə bilən insan potensialınınəməyinin şaxələndirməyə təsiri müəyyən edilmişdir;

-istehsalın şaxələndirilməsinin kənd təsərrüfatı torpaqlarının təkrar dövriyyəyəsinə təsiri müəyyən edilmişdir;

- istehsalın şaxələndirilməsinin genişləndirilməsinə təsir edən dövlət dəstəyi tədbirlərinin əsas istiqamətləri müəyyən edilmişdir.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti.** Tədqiqat işində əldə edilən nəticələrin istehsalata tətbiqi, az gəlirli sahələrin daha effektiv və rəqabət qabiliyyətli istehsalla əvəzlənməsinə şərait yaratmaqla,resurs potensialından daha səmərəli istifadə olunmasında və ixrac yönümlü istehsalın stimullaşdırılmasında mühüm rol oynaya bilər.

**Tədqiqat işinin iqtisadi səmərəsi.** Aqrar sahədə istehsalınşaxələndirilməsinin dəstəklənməsi siyasəti istehsalın son nəticəsinə marağı stimullaşdırmaqla, istehsal fəaliyyəti nəticəsində əldə edilən gəlirlərin artmasını və hər hektar torpaq sahəsindən daha böyük iqtisadisəmərə əldə edilməsini təmin edə bilər.

## Ədəbiyyat

1. M.C.Hüseynov, V.T.Əmrahov və b. Aqrar istehsal strukturunun diversifikasiyası. Bakı 2016. 151 s.
2. Добрянская Н. А. Диверсификация производства как фактор развития регионального продовольственного рынка / Н.А. Добрянская В.В. Попович. Текст: непосредственный // Молодой ученый. 2013. № 8 (55). С. 188-190.
3. Солдаткин В.А. Развитие диверсификационной деятельности предприятий аграрной сферы экономики – Экономист, 2009.156 с.
4. Жулина Е.Г., Мягкова Т. Л., Кацуба О. Б. Диверсификация деятельности предприятия. М. 2008. 310 с.
5. www.stat.gov.az

### *The influencing factors to the diversification of production in the agricultural sector*

***Eldarli Javidan Azer***
*Azerbaijan State Agrarian University*
*Atatürk Avenue 450*
*e-mail: javidan.eldarli@outlook.com*

***Summary**: The prospects for agricultural development are largely determined by the state of structural changes in various industries. In this process, the assessment of resource potential allows to form directions for the diversification of agricultural production. Identification of innovative directions of development of the agrarian sector is also one of the main tools in the process of diversification of production. Therefore, by taking into account the factors of possible development of the agricultural sector, the most important issues are the definition of specialized production areas for certain types of agricultural products, ensuring the location of production, the basic principles of diversification of production.*

***Keywords**: diversification, resource potential, modernization, import, export, consumption.*

### *Факторы, влияющие на диверсификацию производства в аграрном секторе*

*Эльдарлы Джавидан Азер оглу*
*Азербайджанский Государственный Аграрный Университет*
*Проспект Ататюрка, 450*
*Эл. почта: javidan.eldarli@outlook.com*

***Резюме**: Перспективы развития сельского хозяйства во многом определяются состоянием структурных изменений в различных отраслях. При этом оценка ресурсного потенциала*

*позволяет формировать направления диверсификации сельскохозяйственного производства. Выявление инновационных направлений развития аграрного сектора также является одним из основных инструментов в процессе диверсификации производства. Поэтому с учетом факторов возможного развития аграрного сектора наиболее важными вопросами являются определение специализированных производственных площадей для отдельных видов сельскохозяйственной продукции, обеспечение размещения производства, основные принципы диверсификации производства.*

***Ключевые слова:*** *диверсификация, ресурсный потенциал, модернизация, импорт, экспорт, потребление.*

Redaksiyaya daxilolma 10.01.2021
Çapa qəbul olunma 05.06.2021

**№ 3/2020** **səh.113-118**

**№ 3/2020** **səh.119-125**

**UOT657.8:337**

# TİCARƏT MÜƏSSİSƏLƏRİNDƏ SEQMENT UÇOTUNUN TƏŞKİLİNİN VƏ GƏLİRLƏRİN ARTIRILMASININ BƏZİ MƏSƏLƏLƏRİ

**Aynur Əsgər qızı Adıgözəlova**
Azərbaycan Kooperasiya Universiteti
**aynur_adigozalova.58@mail.ru**

***Xülasə:** Məqalədə ticarət müəssisələrində seqmentar idarəetmənin ayrılmaz tərkib hissəsi olan seqment uçotunun təşkilinin bir sıra məsələləri araşdırılaraq, bunların nəticəsində müəssisənin kommersiya fəaliyyətinin genişləndirilməsi və gəlirlərin artırılması yolları göstərilir. Burada mal ehtiyatlarının seqmentlər üzrə bölüşdürülməsi prosesində baş qərar qəbul edicinin və seqment menecerinin funksiyaları, müəssisənin kommersiya fəaliyyətinə yeni investisiyaların cəlb edilməsi və gəlirlərinin artırılması üçün onun qiymətli kağızlarının və borc alətlərinin fond birjasında dövriyyəyə bulaxılması məsələləri araşdırılmaqla, bu konteksdə gəlirlərin artırılması üçün müvafiq təkliflər verilir.*

***Açar sözlər:** seqment uçotu, seqmentar idarəetmə, vəsaitlərin bölgüsü, qiymətli kağızlar, borc alətləri, gəlirlər.*

**Giriş.** Ticarət müəssisələrində seqment uçotunun təşkil edilməsi müəssisənin təsərrüfat-maliyyə fəaliyyətinin xarakterik xüsusiyyətləri ilə sıx bağlıdır. Kommersiya təşkilatı prinsipləri ilə fəaliyyət göstərən bütün müəssisələrdə seqment uçotunun təşkilində ierarxik tabeçilik prinsipi ilə müstəqil maliyyə vahidliyi prinsipi qarşılıqlı vəhdət şəklində mövcud olur. Bu prinsiplərin hər ikisinə eyni dərəcəli prioritet verilir və onların hər ikisinə əməl edilməsi vacib hesab edilir. Ticarət müəssisələrində seqment idarəetməsinin təşkilində baş qərar qəbuledici şəxs və seqment menecerlərinin qarşılıqlı fəaliyyəti əsas götürülür. Müəssisədə seqmentar idarəetmənin optimal təşkilinə cavabdeh olan bu şəxslər seqment uçotunun təqdim etdiyi informasiyalardan yararlanmaqla, müəssisənin gəlirlərinin artırılması istiqamətində bir sıra əlverişli qərarlar qəbul edirlər.

**Mövzunun aktuallığı.** Ölkəmizdə mühasibat uçotunun yeni iqtisadi inkişaf hədəflərinə uyğun təkmilləşdirilməsi məqsədi ilə 4 may 2018-ci ildə “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikası Qanununa edilmiş dəyişikliklər mühasibat uçotunun inkişafında yeni istiqamətlərin açılmasına və onun iqtisadi inkişafın prioritet hədəflərinə uyğun harmonikləşdirilməsinə xidmət edir [2;s.4]. Mühasibat uçotunun inkişafında belə istiqamətlərdən biri də iqtisadiyyatın müxtəlif sahələrində seqment uçotunun tətbiq edilməsindən ibarətdir. Seqment uçotu müəssisənin və ya bütövlükdə təşkilatın seqmentar idarə edilməsi sisteminin təminedici tərkib hissəsi olub, özü ilə yanaşı olaraq, seqmentar hesabatlılıq sistemini meydana gətirir. Bütün bunlar kompleks şəkildə maliyyə və idarəetmə uçotunun bir-biri ilə əlaqəli formada inkişaf etdirilməsinə və bununla da maliyyə və idarəetmə informasiyalarının əlverişli şəkildə formalaşdırılmasına, həmçinin gəlirlərin artırılmasına, xərclərin optimallaşdırılmasına və səmərəliliyin yüksəldilməsinə gətirib çıxardır. Tədqiqat mövzusunun aktuallığı mühasibat uçotunun müasir inkişafı dövründə ticarət müəssisələrində idarəetmə uçotunun daha əsaslı şəkildə tədqiq edilməsinin və onun tərkib elementlərindən biri olan seqment uçotu və hesabatının informasiya imkanlarından faydalanmağın yüksək əhəmiyyətə malik olması ilə əlaqədardır.

**Tədqiqatın məqsədi.** Tədqiqatın əsas məqsədi ticarət müəssisələrinin biznes-kommersiya fəaliyyətinin əsas xüsusiyyətləri konteksində seqment uçotunun tətbiqi istiqamətlərinin araşdırılması, ondan istifadə etməklə, müəssisəni kommersiya fəaliyyətinin genişləndirilməsi və gəlirlərinin artırılması istiqamətlərinin müəyyənləşdirilməsindən ibarətdir.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

Seqment uçotu şəraitində "Baş qərar qəbul edici" dedikdə, müəssisənin idarə edilməsi ierarxiyasında son qərarın qəbul edilməsi səlahiyyətinə malik olan şəxs başa düşülür. Kollegial idarəetmə şəraitində baş qərar qəbul edici funksiyasını eyni zamanda bir neçə şəxs yerinə yetirə bilər. Buna misal olaraq, müəssisədə direktorlar şurasının fəaliyyətini göstərmək olar. Direktorlar şurasının mövcud olduğu şəraitdə vəsaitlərin seqmentlər üzrə bölüşdürülməsinə və seqmentlərin fəaliyyətinin nəticələrinin qiymətləndirilməsinə dair qərarlar şuranın iclaslarında səsvermə yolu ilə qəbul edilir. Bu halda açıq və ya gizli səsvermə təşkil oluna bilər. Məsələlərin səsə qoyulması Azərbaycan Respublikası Mülki Məcəlləsinin tələblərinə uyğun təşkil edilir [1; m.107-5].

Müəssisədə seqment uçotunun tətbiqi şəraititndə baş qərar qəbul edici tərəfindən 2 əsas funksiya yerinə yetirilir: 1) vəsaitlərin müəssisənin əməliyyat seqmentlərinə paylaşdırılması; 2) müəssisənin fəaliyyətinin nəticələrinin qiymətləndirilməsi [3; s.A3].

Ticarət müəssisələrində baş qərar qəbul edici tərəfindən yerinə yetirilən funksiyaların bir sıra özünəməxsus xüsusiyyətləri vardır. Bu, hər şeydən əvvəl, ticarət fəaliyyətinin iqtisadi mahiyyəti və orada baş verən kütləvi kommersiya əməliyyatlarının xarakterik xüsusiyyətləri ilə bağlıdır. Belə ki, iqtisadiyyatın digər sektorlarında fəaliyyət göstərən müəssisələrdən fərqli olaraq, ticarət müəssisələrinin kommersiya fəaliyyətində əsas yeri malların alqı-satqısı əməliyyatları (mal əməliyyatları) tutur. Əgər mal əməliyyatları düzgün, optimal və səmərəli təşkil edilərsə, onda ticarət müəssisələrinin kommersiya fəaliyyətinin uğurlu və effektiv olacağı şübhəsizdir. Ticarət müəssisələrində mal əməliyyatları aşağıda göstərilən qruplara bölünür:

1. Malların tədarük edilməsi (satın alınması və daşınıb gətirilməsi) əməliyyatları;
2. Malların anbarlanıb saxlanılması əməliyyatları;
3. Malların bölüşdürülməsi əməliyyatları;
4. Malların alıcı müəssisələr və pərakəndə ticarət obyektləri üzrə paylaşdırılması, nəqliyyat-ekspedisiya əməliyyatları;
5. Malların topdansatışı əməliyyatları;
6. Malların pərakəndə satışı əməliyyatları;
7. Topdansatış qaydasında satılmış mallara aid olan satışpullarının banka daxil olması əməliyyatları;
8. Pərakəndə satış qaydasında satılmış mallara aid olan satışpullarının toplanması (təhvil verilməsi) əməliyyatları və s.

Bütövlükdə götürüldükdə mal əməliyyatlarının burada göstərilən hər bir komponenti baş qərar qəbul edicinin nəzarəti dairəsinə daxildir, lakin malların bölüşdürülməsi əməliyyatları bilavasitə seqment uçotunun təsir dairəsinə düşür. Çünki mallar ticarət müəssisəsinin aktivləri içərisində əsas mövqe tutan aktiv növüdür.

Ticarət müəssisələrində seqment uçotunun tətbiqi şəraititndə mal bölgüsü geniş məfhum olub, mal ehtiyatlarının bir tərəfdən seqmentlər üzrə, digər tərəfdən isə hər bir seqmentin daxilində mövcud olan komponentlər üzrə bölüşdürülməsini özündə ehtiva edir. Mal ehtiyatlarının müəssisənin seqmentləri üzrə bölüşdürülməsi prosesində hər bir seqmentə aid olan mal ehtiyatlarının həcmi təyin edilir. Malların bölüşdürülməsi prosesləri müəssisənin ümumi marketinq və bazarlama işinin tərkib hissəsi olmaqla, geniş analitik prosedurlara əsaslanan bir sıra iqtisadi-ekonometrik işlərin kompleksindən ibarətdir. Mal

ehtiyatlarının seqmentlər arasında bölgüsü marketinq və kommersiya şöbəsinin menecerləri tərəfindən əsaslandırılmış şəkildə hazırlanaraq, baş qərar qəbul ediciyə təqdim olunur. Həmin bölgü baş qərar qəbul edici tərəfindən təsdiq edildiyi halda qüvvəyə minir və icra edilir. Mal bölgüsünün bu qaydada təşkil edilməsi "Əməliyyat seqmentləri" adlı 8№-li MHBS-nın 7-ci maddəsinin təsiri altına düşür. Standartın həmin maddəsində vəsaitlərin baş qərar qəbul edici tərəfindən müəssisənin əməliyyat seqmentlərinə paylaşdırılması haqqında belə qeyd edilmişdir: ""Baş qərar qəbul edici" termini mütləq xüsusi vəzifə daşıyan idarəetmə işçisini deyil, funksiyanı bildirir. Bu funksiyanın vəzifəsi vəsaitləri müəssisənin əməliyyat seqmentlərinə paylaşdırmaq və müəssisənin fəaliyyətinin nəticələrinin qiymətləndirməkdən ibarətdir. Çox zaman müəssisənin baş qərar qəbul edici şəxsi onun baş icraçı direktoru və ya baş əməliyyat direktorudur, lakin bu, məsələn, icraçı direktorlar qrupu və başqaları da ola bilər" [3; s.A2].

Ticarət müəssisələrində mal ehtiyatlarının bölgüsü malların tədarükü prosesi ilə ticarət şəbəkəsinin mal təchizatı prosesləri arasında əlaqələndirici halqa rolunu oynamaqla, topdanticarət, pərakəndə ticarət və ictimai iaşə seqmentlərində fəaliyyət göstərən ticarət və ictimai iaşə obyektlərinin fasiləsiz olaraq mal ehtiyatlatı ilə təchiz edilməsi proseslərinin, bu sahənin hər biri üçün xarakterik olan logistika işlərinin təşkilində hərəkətverici impuls rolunu oynayır. Belə ki, tədarük edilərək ticarət müəssisəsinin bölüşdürücü anbarlarında saxlanılan mal ehtiyatları adları çəkilən hər bir əməliyyat seqmentinin təyin olunmuş obyektləri üzrə nəqliyyat-ekspedisiya və logistika tədbirlərinin yerinə yetirilməsi ilə təyinat yerlərinə çatdırılır.

Mal ehtiyatlarının əməliyyat seqmentləri üzrə bölüşdürülməsi prosesləri başa çatdırıldıqdan sonra, marketinq və kommersiya şöbəsinin əməkdaşları tərəfindən mal bölgüsü cədvəlləri tərtib edilir və hər bir bölgü cədvəli müvafiq seqment üçün cavabdeh olan menecer tərəfindən imzalanır, baş qərar qəbul edici və ya onun təyin etdiyi bu iş üçün məsul vəzifəli şəxs tərəfindən təsdiq edildikdən sonra seqmentlər üzrə mal təchizatı və mal yeridilməsi proseslərinin təşkil edilməsinə dair müvafiq sənədlərin hazırlanması üçün ticarət müəssisəsinin marketinq və kommersiya şöbəsinin müvafiq operativ qrupuna təqdim edilir. Bununla yanaşı, bölüşdürülən malların çeşidləri üzrə satış qiymətləri həmin malların satışının təşkilinə cavabdeh olan müvafiq mütəxəssis-menecerlər tərəfindən müəyyən edilir. Bunların əsasında operativ qrup tərəfindən malların satışına və əməliyyat seqmentlərinin müvafiq obyektlərinə göndərilməsinə dair sənədlər, əsasən, hesab-fakturalar və nəqliyyat-ekspedisiya sənədləri hazırlanır.

Ticarət müəssisəsi üçün əsas aktiv növlərindən biri olan mal ehtiyatlarının müəssisənin əməliyyat seqmentləri üzrə baş qərar qəbul edicinin rəhbərliyi ilə seqment menecerləri tərəfindən bölüşdürülməsi prosesi burada göstərilən ardıcıllığa əməl etməklə, mütəmadi qaydada və fasiləsiz olaraq, yeni daxil olan hər bir mal partiyası üzrə davam etdirilir. Bu proses ticarət və ictimai iaşə obyektlərində mal satışı proseslərinin zəruri mal ehtiyatları ilə fasiləsiz təchiz olunmasında mühüm rol oynayır. Ticarət müəssisələrində seqment uçotunun xarakterik xüsusiyyətlərindən biri odur ki, burada mal ehtiyatlarının əməliyyat seqmentləri üzrə bölüşdürülməsi və bunun əsasında çoxsaylı ticarət obyektlərinin mal təchizatı prosesinin mütəmadi qaydada və optimal şəkildə yerinə yetirilməsi informasiyaları seqment uçotunun əsas obyektlərindən biri hesab olunur.

Vəsaitlərin seqmentlər üzrə bölüşdürülməsi və seqmentlərin fəaliyyət nəticələrinin qiymətləndirilməsində müəssisənin idarə aparatının fəaliyyəti mühüm rol oynayır. İdarə aparatında çalışan bir qrup menecerlər vəsaitlərin seqmentlər üzrə bölüşdürülməsinə dair əsaslandırılmış smeta sənədləri hazırlayır, hər bir seqmentin illik büdcəsini tərtib edir və onları müəssisənin baş qərar qəbul edicisinin təsdiqinə təqdim edir. Digər qrup mütəxəssis-menecerlər isə hər bir seqmentin maliyyə və idarəetmə hesabatlarını nəzərdən keçirərək, onları analitik işləmə proseslərinə cəlb edir və bunun nəticəsində seqmentlərin fəaliyyət nəticələrinin qiymətləndirilməsinə dair lazımi informasiyaları

hazırlayır. Bu informasiyalar seqmentlərin fəaliyyət nəticələrinin qiymətləndirilməsi məqsədilə müəssisənin baş qərar qəbul edicisinə təqdim edilir. Həm vəsaitlərin seqmentlər üzrə bölüşdürülməsi, həm də seqmentin fəaliyyətinin qiymətləndirilməsinə dair qərar baş qərar qəbul edici tərəfindən qəbul edilir. Lakin bu prosesdə müəssisənin idarə aparatının mütəxəssis-menecerləri tərəfindən yerinə yetirilən informasiyaların analitik işlənməsi prosesindən geniş istifadə edilir. Seqment informasiyalarının analitik işlənməsi prosesində analitik uçot materialları mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, müəssisənin müxtəlif çeşidli idarəetmə uçotu informasiyalarından da istifadə etmək məqsədəuyğundur. Bizim fikrimizcə, müəssisədə seqment idarəetməsinin təşkil olunduğu şəraitdə mühasibat uçotu elə aparılmalıdır ki, həm maliyyə uçotu, həm də idarəetmə uçotu informasiyalarını seqmentlər üzrə ayrıd etmək, eləcə də ayrı-ayrı seqmentlərə dair analitik uçot informasiyalarını formalaşdırmaq mümkün olsun.

Ölkəmizin iqtisadi inkişafının müasir dövründə Azərbaycanın beynəlxalq miqyaslı nəqliyyat qovşaqlarına malik olması, dünya əhəmiyyətli nəqliyyat marşrutlarının buradan keçməsi, əlverişli yükdaşıma tariflərinin tətbiq edilməsi və digər bu kimi müsbət iqtisadi meylli amillər ölkəmizdə fəaliyyət göstərən ticarət müəssisələri üçün öz dövriyyəsinə yaxın və uzaq xarici ölkələrdən daha çox mal ehtiyatları cəlb etməyə əlverişli şərait yaradır. Məsələn, bizim fikrimizcə, müasir dövrdə Azərbaycanda fəaliyyət göstərən ticarət müəssisələrinin Çin istehsalçı müəssisələri ilə birbaşa alqı-satqı əlaqələri yaratması çox vacibdir. Hal-hazırda Azərbaycanın ticarət müəssisələrində Çin istehsalı olan çoxçeşidli gündəlik tələbat malları, məişət əşyaları, elektrik cihazları və digər mallar satılır. Bunların keyfiyyəti barədə alıcılar arasında mənfi rəy formalaşmışdır. Həqiqətən də, müstəqilliyimizin əldə olunduğu ilk illərdən hal-hazıradək keçən dövrdə Çindən ölkəmizə külli miqdarda aşağı keyfiyyətli istehlak malları daşınmış və belə mallar Azərbaycanın ticarət müəssisələrində mövcud olan mal ehtiyatları içərisində yüksək xüsusi çəkiyə malik olmuşdur. Lakin hər bir iqtisadçıya Çin iqtisadiyyatının yüksək səviyyədə inkişaf etmiş olması məlumdur. Müasir dövrdə Çində dünyanın ən yaxşı məhsulları istehsal olunur. Çin istehsalçıları öz məhsullarının keyfiyyətinə görə inkişaf etmiş Qərb ölkələrinin istehsalçıları ilə güclü rəqabət apara bilirlər. Çində iş qüvvəsinin bol və daha ucuz olması isə orada istehsal olunmuş məhsulların anoloji Avropa və Amerika məhsullarından ucuz başa gəlməsinə səbəb olur. Bununla da yüksək keyfiyyətli Çin məhsullarının topdansatış qiymətləri eyni keyfiyyətə malik olan Avropa və Amerika məhsullarının topdansatış qiymətlərindən xeyli aşağı olur. Azərbaycana aşağı keyfiyyətli Çin məhsullarının gətirilməsi isə heç də bütövlükdə Çin istehsalı məhsulların hamısının keyfiyyətinin aşağı olması səbəbindən deyil, başqa səbəblərdən irəli gəlir. Bu səbəblər içərisində möhtəkirlik, alıcıların kütləvi aldadılması, əyri yollarla külli miqdarda pul qazanmaq hərisliyi və digər bu kimi subyektiv amillər üstünlük təşkil edir. Xarici ölkələrə səfər edən həmvətənlərimiz oralardakı mağazalarda yüksək keyfiyyətə malik olan Çin mallarının satıldığının tez-tez şahidi olur və həmin malları məmnuniyyətlə alırlar.

Bizim fikrimizcə, Azərbaycanın ticarət müəssisələri özlərinin borc alətlərini Çin birjalarında dövriyyəyə buraxmaqla, Çinin yüksək keyfiyyətli və nisbətən ucuz məhsullarının Azərbaycana axınını təşkil edə bilərlər. Eləcə də borc alətlərinin digər xarici ölkələrin fond birjalarında dövriyyəyə buraxılması Azərbaycanın ticarət müəssisələrinin yaxın gələcəkdə yüksək səviyyəli inkişafa nail olmalarında mühüm rol oynaya bilər. Bu yolla yüksək faiz ödəməklə bank krediti almaqdan tədricən imtina etmək və eyni zamanda ticarət dövriyyəsinə külli miqdarda yeni mal ehtiyatları cəlb etmək olar. Bütün bunlara görə Azərbaycanda fəaliyyət göstərən ticarət müəssisələri tərəfindən özlərinin qiymətli kağızlarının və digər borc alətlərinin həm ölkə daxilində, həm də genişmiqyaslı əhatə dairəsinə malik olan beynəlxalq fond birjalarında dövriyyəyə buraxması məqsədəuyğun hesab edilir.

Ticarət müəssisələrinə əlverişli şərtlərlə investisiya cəlb edilməsinin məğbul hesab edilən yollarından biri də öz kapital alətlərinin yerli və xarici bazarlarda dövriyyəyə buraxmasından ibarətdir [4;s.259]. Ticarət müəssisələrinin kommersiya fəaliyyətinin genişləndirilməsində kapital alətlərindən istifadə edilməsi müəssisənin uzunmüddətli aktivlərinin artırılması üçün əlverişli maliyyə mənbəyi hesab edilir. Kapital alətlərini yerli və ya xarici fond birjalarında dövriyyəyə buraxmış olan ticarət müəssisəsi maliyyə hesabatlarının beynəlxalq standatrlarının tələbləri üzrə seqment uçotu təşkil etməyə və seqmentar maliyyə hesabatı təqdim etməyə, eləcə də öz maliyyə hesabatlarında seqment məlumatlarını açıqlamağa borcludur [3; s.A9]. İqtisadi inkişafın müasir dövründə ölkəmizdə fəaliyyət göstərən ticarət müəssisələrinin zamanın tələbləri ilə ayaqlaşa bilmələri üçün onlar müasir maddi-texniki bazaya, yəni gözəl və yaraşıqlı binalara, geniş və müasir texnikası olan anbar şəbəkəsinə, elektron ticarət və çəki-ölçü cihazlarına, müasir informasiya proqramları ilə çalışan kassa-hesablama sistemlərinə, yüksək keyfiyyətli kompüter texnologiyaları şəbəkəsinə, çevik nəqliyyat-ekspedisiya qurğularına malik olmalıdırlar. Bütün bunlara malik olmaq üçün külli miqdarda maliyyə vəsaiti tələb olunur ki, bunun da əldə edilməsinin əlverişli yollarından biri kapital alətlərini fond birjalarında dövriyyəyə buraxmasından ibarətdir. Öz kapital alətlərini yerli və ya xarici fond birjalarında dövriyyəyə buraxan ticarət müəssisəsi bununla külli miqdarda investisiya cəlb edə bilər ki, bunun da hesabına öz maddi-texniki bazasını müasir səviyyədə inkişaf etdirərək, kommersiya fəaliyyətini daha da genişləndirər, mal dövriyyəsinin həcmini qat-qat artıraraq, daha çox gəlir əldə edər, öz mənfəətini əhəmiyyətli dərəcədə artırar və rentabelliyini yüksəldər.

Seqmentin idarə edilməsi və onun kommersiya fəaliyyətinin nəticələrinin formalaşmasında seqment meneceri mühüm rola malikdir. Seqment meneceri seqmentin kommersiya fəaliyyətinin düzgün təşkil edilməsinə və məqsədəuyğun şəkildə yönləndirilməsinə cavabdeh olan şəxsdir. İstər əməliyyat seqmenti olsun, istərsə də coğrafi seqment olsun, hər bir seqmentin öz seqment meneceri olur. Seqment meneceri seqmentin bütün idarəetmə məsələlərinə dair baş qərar qəbul edici şəxs qarşısında birbaşa hesabat verir. Bununla yanaşı, seqment meneceri seqmentin əməliyyat fəaliyyətlərini, maliyyə nəticələrini, proqnozları və seqment üzrə planları baş qərar qəbul edici ilə müzakirə edir və bunun üçün onunla müntəzəm əlaqə saxlayır. Seqmentin idarə edilməsinin bu konteksində onun kommersiya fəaliyyətinin operativ şəkildə yönləndirilməsi və inkişaf etdirilməsinə dair vacib qərarlar qəbul edilir. Həmin qərarların yerinə yetirilməsi seqment menecerinin daimi diqqət mərkəzində və nəzarəti altında olur.

"“Seqment meneceri” termini mütləq xüsusi vəzifəli şəxsi deyil, funksiyanı bildirir" [3; s.A5]. Bir qayda olaraq, seqment meneceri funksiyasını icra etmək bir və ya bir neçə şəxsə həvalə edilə bilər. Seqment meneceri funksiyasını icra edən həmin şəxslər baş qərar qəbul edici şəxs tərəfindən müəyyən edilir. Ticarət müəssisələrinin əməliyyat seqmentlərində seqmentin kommersiya fəaliyyətinin ayrı-ayrı sahələri üzrə seqment meneceri təyin edilə bilər. Bu halda bütövlükdə əməliyyat seqmentinin kommersiya fəaliyyətinə və onun nəticələrinə görə baş qərar qəbul edici qarşısında məsuliyyət daşıyan və bütün məsələlərə tam cavabdeh olan seqment meneceri təyin olunur. Məsələn, əməliyyat seqmentlərində mal ehtiyatlarının bölüşdürülməsi və ticarət obyektlərinin mallarla vaxtlı-vaxtında təchizatı bir seqment menecerinə, mal satışı proseslərinin idarə edilməsi digər bir seqment menecerinə, malların qorunub saxlanması və seqment üzrə maliyyə informasiyalarının düzgün formalaşdırılması başqa bir seqment menecerinə həvalə oluna bilər. Həmin əməliyyat seqmenti üzrə bu sahələrin hamısına və bütövlükdə seqmentin bütün fəaliyyətinə nəzarət və cavabdehlik funksiyasını başqa bir seqment meneceri yerinə yetirə bilər. Bütün hallarda baş qərar qəbul edici ilə müntəzəm qarşılıqlı əlaqənin saxlanmasına əsas seqment meneceri cavabdehdir. O, digər seqment menecerlərinin yerunə yetirdikləri funksiyaların hamısını koordinasiya edir və baş qərar qəbul edici şəxsə cari və operativ məsələlər barəsində müntəzəm məlumatlar verir.

**№ 3/2020** **səh.119-125**

## Nəticə

Tədqiqat nəticəsində aydın olur ki, ticarət müəssisəsində seqment uçotunun qurulması və seqmentar maliyyə hesabatının tətbiq edilməsi onun optimal və səmərəli fəaliyyəti üçün lazım olan mal ehtiyatlarının yaradılmasına qeyri-bank borc alətlərinin cəlb edilməsi imkanı yaradır. Bank kreditlərindən istifadənin baha başa gəldiyi müasir dövr üçün qeyri-bank mənşəli borc alətlərindən istifadə edilməsinin əlverişli olması əsaslandırılır. Bu əsasda yaxın və uzaq xarici ölkələrdən daha çox mal ehtiyatlarının cəlb edilməsinin seqment uçotu ilə qarşılıqlı əlaqəyə malik olduğu göstərilir. Ticarət müəssisələri öz qiymətli kağızlarını və borc alətlərini xarici ölkələrin fond birjalarında dövriyyəyə buraxmaqla, yaxın gələcəkdə yüksək səviyyəli inkişafa nail ola bilərlər və bu istiqamətdə ölkəmizin sosial-iqtisadi inkişafına mühüm təkan verə bilərlər. Ona görə də ölkəmizdə fəaliyyət göstərən ticarət müəssisələri tərəfindən özlərinin qiymətli kağızlarının və digər borc alətlərinin həm ölkə daxilində, həm də genişmiqyaslı əhatə dairəsinə malik olan beynəlxalq fond birjalarında dövriyyəyə buraxması məqsədəuyğun hesab edilir. Bununla onlar külli miqdarda investisiya cəlb edə bilərək, öz maddi-texniki bazasını müasir səviyyədə inkişaf etdirmək, kommersiya fəaliyyətini daha da genişləndirmək, mal dövriyyəsinin həcmini artırmaq, daha çox gəlir əldə etmək, öz mənfəətini və rentabelliyini yüksəltmək imkanı qazanarlar. Belə imkanların reallaşdırılması nəticəsində ticarət müəssisələri daha çox inkişaf edər, onlarda çalışan işçilərin maddi vəziyyəti yaxşılaşar, yeni iş yerləri yaradılar və büdcəyə daha çox vergilər verilər.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi ticarət müəssisələrində seqment uçotunun və seqmentar idarəetmənin bəzi nəzəri və metodoloji məsələlərinin ilk dəfə araşdırılması və onların tətbiqinin ticarət müəssisələrinin biznes fəaliyyətinin xüsusiyyətlərinə uyğun olaraq tədqiq edilməsindən, bu konteksdə mal ehtiyatlarının artırılması və maddi-texniki bazanın genişləndirilməsinə yeni investisiyaların cəlb edilməsi üçün öz qiymətli kağızlarının, borc və kapital alətlərinin yerli və xarici fond birjalarında dövriyyəyə buraxılması məsələlərinin əsaslandırılmasından ibarətdir.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti.** Məqaqlədə verilmiş nəzəri və metodiki xarakterli müddəalar, araşdırmaların nəticələri və tövsiyələr ticarət müəssisələrində seqment uçotunun tətbiq edilməsi üçün mühüm əhəmiyyətə malikdir. Araşdırma nəticələrindən təkcə ticarət müəssisələrində deyil, eləcə də iqtisadiyyatın digər sahələrinə aid olan müəssisə və təşkilatlarda onların öz təsərrüfat fəaliyyətinin xarakterik xüsusiyyətlərinə uyğun şəkildə istifadə oluna bilər.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin internet saytı. www.e-qanun.az/code/8. 7 s.

2. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2018. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin internet saytı. www.maliyye.gov.az. 17 s.

3. 8№-li Maliyyə Hesabatlarının Beynəlxalq Standartı. "Əməliyyat seqmentləri". Azərbaycan Respublikası Maliyyə Nazirliyinin internet saytı. www.maliyye.gov.az. 12 s.

4. Paul Mladjenoviç. Fond birjasında investisiya. İngilis dilindən tərcümə. Bakı, "Headstart İnternational" Nəşriyyatı, 2011. 408 s.

**№ 3/2020** **səh.119-125**

***Aynur Adıgozalova***

**Some issues of organizing segment accounting and increasing income in trade enterprises**

**Summary:** The article examines a number of issues in the organization of segment accounting, which is an integral part of segment management in trade enterprises, and shows ways to expand the commercial activities of the enterprise and increase revenues as a result. It examines the functions of the chief decision-maker and segment manager in the process of allocating inventories by segments, the introduction of new investments in the commercial activities of the enterprise and the circulation of its securities and debt instruments on the stock exchange to increase revenues.

**Keywords:** segment accounting, segment management, distribution of funds, securities, debt instruments, income.

***Айнур Аскер кызы Адыгезалова***

**Некоторые вопросы организации сегментного учета и увеличения доходов в предприятиях торговли**

**Резюме:** В статье исследуются ряд вопросов организации сегментного учета, являющегося неотъемлемой частью сегментарного управления в предприятиях торговли, и показаны пути расширения коммерческой деятельности предприятия и, как следствие, увеличения выручки. В нем рассматриваются функции главного лица, принимающего решения, и менеджера сегмента в процессе распределения запасов по сегментам, введения новых инвестиций в коммерческую деятельность предприятия и обращения его ценных бумаг и долговых инструментов на фондовой бирже для увеличения доходов.

**Ключевые слова:** сегментный учет, сегментное управление, распределение средств, ценные бумаги, долговые инструменты, доходы.

Redaksiyaya daxilolma 19.12.2020
Çapa qəbul olunma 05.06.2021

**№ 1/2021** **səh.127-131**

**UOT 338**

# AQRAR SFERADA İQTİSADİ SUBYEKTLƏRİN QARŞILIQLI ƏLAQƏLƏRİNİN İNKİŞAF MEXANİZMİ

**Osmanova Günel Rəhim qızı**
**Azərbaycan Dövlət Aqrar Universitet,**
**Gəncə şəhəri, Adil İskəndərov küç. 64**
**gunsham@mail.ru**

**Xülasə:***Aqrar sferada iqtisadi subyektlərin qarşılıqlı əlaqəsi, onların iqtisadi dəyişikliklərə uyğunlaşma səviyyəsini xarakterizə etməklə iqtisadi proseslərin səmərəli şəkildə koordinasiyasına istiqamətlənirş prosesi kimi xarakterizə edilir. Aqrar sferada iqtisadi əlaqələrin inkişafı həm subyektlər arasındakı qarşılıqlı maraqların gözlənilməsini, həm dəyerinə yetirilən funksiyaların uyğunlaşdırılmasını tələb edir. Bu baxımdan iqtisadi subyektlərin qarşılıqlı əlaqəsi qarşıya qoyulmuş məqsədlərə çatmağa, daha səmərəli nəticələr əldə etməyə,subyektlərin institusional dəyişikliklərə uyğunlaşmasını təmin etməyə və əməkdaşlıq münasibətlərini inkişaf etdirməyə hədəflənir.*

***Açar sözlər:****səmərə, əməkdaşlıq, rəqabət, koordinasiya, inteqrasiya, institusional mexanizm.*

**Giriş.**Aqrar sferada iqtisadi subyektlərin qarşılıqlı əlaqəsi, onların qarşılıqlı təsirini və iqtisadi dəyişikliklərə uyğunlaşma səviyyəsini özündə cəmləşdirən proseslərin koordinasiyası prosesi kimi xarakterizə edilir. Qarşılıqlı əlaqələrin inkişafı dinamik bir proses olaraq iqtisadi münasibətlərin genişləndirilməsi əsasında reallaşdırılan və inkişaf etdirilən maraqların gözlənilməsi və təmin edilməsini tələb edir. Bu baxımdan aqrar sferada iqtisadi subyektlər arasındakı qarşılıqlı əlaqələrbir tərəfdən biri digərindən asılı olan və bir-birinə çevrilən hadisələr arasındakı əlaqə kimi qəbul edilir, digər tərəfdən subyektlərin funksiyalarının uyğunlaşdırılması və ortaya çıxan fəaliyyətlərin müəyyənləşdirilməsi prosesini əhatə edir [5, s.9]. Beləliklə, iqtisadi subyektlərin qarşılıqlı əlaqəsi məqsədlərə çatmaq, mənfəət əldə etmək və müəssisələrin institusional dəyişikliklərə uyğunlaşmasını təmin etmək üçün fəaliyyətlərin əlaqələndirilməsi, əməkdaşlıq münasibətlərinin inkişafı prosesidir.

Müasir iqtisadi şəraitdə aqrar sferada fəaliyyət göstərərən iqtisadi subyektlər arasındakı qarşılıqlı münasibətlər əməkdaşlıq, rəqabət və tərəflərin maraqlarının əlaqələndirilməsi prinsiplərinə əsaslanır. Bu kontekstdə qarşılıqlı əlaqələrə aşağıdakı mövqedən baxmaq zəruridir:

- subyektlər arasında fəaliyyət mübadiləsi;
- subyektlərin qarşılıqlı təsiri;
- institusional dəyişikliklərə uyğunlaşma;
- iqtisadi maraqların əlaqələndirilməsi.

Aqrar subyektlər arasında qarşılıqlı əlaqələrin inkişafının mürəkkəbliyi ondadır ki, bu sahədə müxtəlif mülkiyyətli təsərrüfatçılıq və çox strukturlu aqrar münasibətlər formalşmışdır.Ona görə də aqrar sferada istənilən iatisadi fəaliyyətin səmərəliliyi əsasən koordinasiya, əməkdaşlıq və inteqrasiya prinsiplərinin həyata keçirilməsindən asılı olur. Bu vəziyyətdə, iqtisadi münasibətlərin inkişafı müxtəlif subyektlərin idarəetmə maraqlarının təmsil edilməsinə istiqamətlənir.

**Mövzunun aktuallığı.**Hazırda aqrar sahədə müəyyən problemlər, o cümlədən kənd təsərrüfatı və bu sahədə istifadə olunan sənaye təyinatlı məhsulların qiymətləri arasındakı qeyr-tarazlıq vəziyyəti, istehlakçıların müəyyən hissəsinin gəlirlərinin aşağı olması səbəbindənalıcılıq qabiliyyətli tələbin tam

şəkildə formalaşmaması, emal və xidmət sferası müəssisələri ilə qarşılıqlı münasibətlərdəki qarşılıqlı maraqları təmin etməyən bəzi mənfi meyllər və s.iqtisadi subyektlərin fəaliyyətinə mənfi təsir edir. Həmçinin "ölkədə emal sənayesi müəssisələri ilə kənd təsərrüfatı istehsalçıları arasında məqbul səviyyədə qarşılıqlı əlaqələrin qurulmaması, emal sənayesinin kənd təsərrüfatı istehsalı ilə inteqrasiyasında müəyyən problemlərin olması da sahənin inkişafına mane olur." [1].Belə şəraitdə kənd təsərrüfatı məhsulları istehsalçılarının, emal müəssisələrinin və təchizat strukturlarının maraqları üst-üstə düşmür. İdarəetmə formalarının müxtəlifliyi, istehsal münasibətləri arasındakı funksional fərqlər kənd təsərrüfatı müəssisələri ilə qeyd edilən iqtisadi strukturlar arasındakı əlaqələrəciddi şəkildə təsir göstərir[2, s.39]. Eləcə də biznes və dövlət subyektləri arasındakı qarşılıqlı təsisatların lazımi səviyyədə olmaması, iqtisadi subyektlər arasında qeyri-sabitliyin artmasına və iqtisadiyyatın kənd təsərrüfatı sektorundainkişaf səviyyəsinin azalmasına səbəb olur. Bu, öz növbəsində əmtəə istehsalçıları üçün idarəetmənin iqtisadi və institusional mexanizmlərinin təsirsiz olması ilə izah olunur. Qeyd edilənlər, aqrar sektorda mövcud idarəetmə münasibətləri modelinin yenidən nəzərdən keçirilməsini tələb edir.

Araşdırmalar göstərir ki, aqrar-sənaye sferasında mövcud olan institusional münasibətlər iqtisadi subyektlərin qarşılıqlı fəaliyyəti prosesində formalaşır və cəmiyyətin tələblərinə əsaslanaraq tərəflərin maraqlarını təmin etmək və əlaqələndirmək funksiyasını yerinə yetirir. Beləliklə qarşılıqlı fəaliyyət, subyektlər arasında razılaşma prosedurları, əməkdaşlıq müqavilələri və aqrar sektorda iqtisadi əlaqələrin inkişafı üçün balanslaşdırılmış prioritetlərin formalaşdırılması prioritetlərini əhatə edir. Təbii ki, mənafelərin yüksək səviyyədə qorunması ilə subyektlərin iqtisadi fəaliyyəti daha səmərəli olur, çünki onların bir-biri ilə qarşılıqlı əlaqəsi nəticəsində yaranan fəaliyyət xərclərin azalmasına gətirib çıxarır.

Aqrar iqtisadiyyatda subyektlərinqarşılıqlı fəaliyyətinin inkişaf tendensiyalarından biri də müəssisələrin özlərinin müxtəlif əməkdaşlıq və tərəfdaşlıq formaları yaratmaq, kənd təsərrüfatı məhsullarının istehsaldan pərakəndə ticarətə qədər hərəkət zəncirini yenidən qurmaq istəkləri ilə bağlıdır[3, s.71].Bütün bunlar aqrar sahə subyektlərinin qarşılıqlı iqtisadi əlaqələrinininkişafı ilə bağlı problemlərin aktuallığını göstərir.

**Tədqiqatın məqsədi.** Tədqiqatın məqsədiaqrar sferada fəaliyyət göstərəniqtisadi subyektlərin qarşılıqlı əlaqələrinin formalaşması mexanizmini tədqiq etməklə bu sahədə əməkdaşlığın inkişaf perspektivlərini müəyyənləşdirməkdən ibarətdir.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

Hazırdakənd təsərrüfatı məhsulları istehsalçıları, tədarük və təchizatçılar, eləcə də emalı strukturları və istehlakçılar arasında inkişaf edən qarşılıqlı əlaqələr müəyyən dərəcədə ölkənin iqtisadi vəziyyətini, cəmiyyətin sosial səviyyəsini müəyyənləşdirir [4, s. 57]. Beləliklə, kənd təsərrüfatında inteqrasiya münasibətləri qarşılıqlı maraqların reallaşdırılmasını həyata keçirir, bazar iştirakçıları üçün yeni institusional şəraitin inkişafına kömək edir. Bu isə birgə strategiyaların inkişaf edən qarşılıqlı münasibətlərə söykəndiyini deməyə əsas verir. Qeyd etmək lazımdır ki, iqtisadiyyatın subyektləri kimi kənd təsərrüfatı müəssisələri əməkdaşlıq əlaqələrində daha fəal iştirak edir və institusional qarşılıqlı münasibətlərdə daha effektivdir. Eyni zamanda digər inteqrasiya olunmuş strukturlar da qarşılıqlı əlaqələrin həyata keçirilməsi baxımından müəyyən sabitləşdirici rol oynayır və onlar yüksək dərəcədə proseslərə çevik uyğunlaşma qabiliyyətinə sahibdirlər. Müxtəlif qtisadi fəaliyyətlər həyata keçirən bu qurumlar iqtisadi, institusional və bazar dəyişikliklərinə çevik və sürətli cavab vermək qabiliyyətinə də malik olurlar. İnteqrasiya olunmuş strukturlar çoxfunksiyalıdır və ortaq şəkildə rəqabət münasibətlərini inkişaf etdirməyə qadirdir[4, s.26].

**№ 1/2021** **səh.127-131**

Bunlar onu göstərir ki, aqrar iqtisadiyyatın inkişaf konsepsiyasında çoxölçülü aqrar subyektlərin bir-biri ilə əlaqəli fəaliyyəti əsas vəzifələrdən biri kimi müəyyənləşir. Beləliklə, bu konsepsiya daxili maraqlarla yanaşı ətraf mühitin qorunması və ekoloji təmiz məhsul istehsalı üçün mühüm mənbəyə çevrilən innovativ texnologiyaların istehsalata tətbiqini önə çəkir.

Araşdırmalara əsaslanaraq demək olar ki, inteqrasiya edilmiş strukturlarda subyektlərin fəaliyyətinin effektivliyi qarşılıqlı münasibətlər və prinsiplər modelinin –(institusional və iqtisadi) seçimindən asılıdır. Qarşılıqlı fəaliyyətin institusional prinsipləri tarazlı ortaqlıqların qurulması və kənd təsərrüfatı sektorunda sosial məsuliyyətinin artırılması üçün stimullaşdırıcı şəraitin yaradılması məqsədi güdür. Razılaşmaların əsasında tərəflərin mənafelərinin və maraqlarının uyğunluğunda qarşılıqlı məqbul səviyyəsinə nail olmağa yönəlmiş tədbirlərin hazırlanması durur. İnstitusional prinsiplərə aşağıdakılar daxildir:

- davranış strategiyası;
- bütün subyektlər üçün müqavilə münasibətləri;
- uyğunlaşma və sosial məsuliyyət baxımından qarşılıqlı təsisatların formalaşması.

İqtisadi prinsiplər qarşılıqlı tərəfdaşlıq,həmçinin iqtisadi subyektlər arasında sosial tərəfdaşlıq sisteminə əsaslanır vəmübadilə şəklində həyata keçirilir. Mübadilə modelinin fərqli xüsusiyyətlərinəaşağıdakılar aid edilir: qarşılıqlı münasibətlər əsasında reursların mübadiləsi; dövlətin və cəmiyyətin maraqlarının əlaqələndirilməsinə əsaslanan kənd təsərrüfatı istehsalının yüksək səmərəliliyinə nail olunması; sosial və iqtisadi sahədə qarşılıqlı əlaqələrin inkişafına xidmət edən geniş strateji proqramların hazırlanması. Mübadilə sisteminə əsaslanan qarşılıqlı əlaqələrdə bu prosesə cəlb edilmiş paralel olaraq iki qrup müəssisə mövcuddur. Birinci qrup müəssisələr,dövlət orqanlarına yaxın və onlardan dotasiya almaq imkanı olan böyük sosial öhdəliklərlə müəyyənləşdirilir. İkinci qrupbir qayda olaraq, dövlətdən dəstək almırlar, lakin əlavə xərclərə də məruz qalmırlar.

Bununla birlikdə, sosial tərəfdaşlığın təməli, qarşılıqlı əlaqə müddətində iqtisadiyyatın bütün subyektlərinin bərabər maraqlarına əsaslanır.Tərəfdaşlıq üçün onlarla maraqlanan subyekt, təklif olunan qarşılıqlı münasibətlərin həyata keçirilməsi mexanizmi xüsusilə vacibdir. Beləliklə, sosial tərəfdaşlıq sistemi aqrar sferanın inkişafının prioritet istiqamətlərinin, o cümlədən qarşılıqlı əlaqə prosesi iştirakçılarının təminatlarının və iqtisadi maraqlarının qorunması sistemidir. Tərəfdaşlığın həyata keçirilməsinə əsaslanan qarşılıqlı təsir effektinə nail olmaq üçün əsas istiqamətlər aşağıdakılar hesab edilir:

- subyektlərarası münasibətlərin inkişafına əsaslanan qarşılıqlı təsir institutunun formalaşması;
- dövlət sifarişi, sosial-iqtisadi layihələr və qrant proqramlarının həyata keçirilməsi üçün rəqabət mexanizmi əsasında yerli institusional mexanizmin inkişafının stimullaşdırılması;
- sosial tərəfdaşlıq sistemində müxtəlif stimullaşdırıcı metodların (sosial məsuliyyət reytinqləri, müsabiqələr, sosial məsuliyyət indeksləri, qanunvericilik tənzimləməsi, standartlar və normalar, subsidiyalar və s.) istifadəsi;
- tərəflərin məsuliyyəti altında öhdəliklərin yerinə yetirilməsinə nəzarət və tərəfdaşlığın səmərəliliyinə nəzarət (layihələr və proqramların qiymətləndirilməsi üçün müxtəlif texnologiyalar, sosial hesabatlar, sosial audit, sosial investisiyaların göstəriciləri, qrantlar, dövlət sifarişləri və s.

Tərəfdaşlığın inkişafı prosesinin təşkili aşağıda qeyd edilən obyektiv tələblərə və həyata keçirilmə prinsiplərinə əsaslanır:

- qanunçuluq, könüllülük, tərəflərin bərabərliyi;
- humanizm, sosial həmrəylik, sosial ədalət, iqtisadi fəaliyyətdə azadlıq, etibarlı münasibətlər;
- əməkdaşlıq, lazımi məlumat mübadiləsi, razılaşma və müqavilələrin icrası üçün öhdəlik və məsuliyyət;

- uzlaşma, konsensus.

Beləliklə, iqtisadi subyektlərin tərəfdaşlıq münasibətləri aqrar sferada fəaliyyət göstərən strukturların səmərəli fəaliyyətinin əsasına çevrilir.

**Nəticələr**

Araşdırmanın nəticələri, aqrar sferada fəaliyyət göstərən subyektlər arasındaqarşılıqlı fəaliyyətin səmərəliliyinin təmin edilməsi üçün aşağıdakı tədbirlərin həyata keçirilməsini zəruri edir:

- əlaqəli fəaliyyət göstərərən subyektlər arasında məqsəd və imkanlar nəzərə alınaraq qarşılıqlı əlaqə mexanizmi üçün strategiyanın yaradılması;
- orta və uzunmüddətli müqavilələrin bağlanması;
- qarşılıqlı əlaqə prosesi iştirakçılarının iqtisadi və institusional dəyişikliklər şərtlərinə uyğunlaşdırılması mexanizminin hazırlanması.

Təbii ki, bu tədbirlər iqtisadi subyektlərin qarşılıqlı maraqlarının təmin olunmasında, bütövlükdə aqrar iqtisadiyyatın sosial-iqtisadi və institusional inkişafında mühüm rol oynaya bilər.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- aqrar sahədə iqtisadi subyektlərin qarşılıqlı iqtisadi münasibətlərinin inkişafına təsir edən amillər müəyyən edilmişdir;
- iqtisadi münasibətlərdə sosial tərəfdaşlığın əsas aspektləri tədqiq edilmişdir;
- aqrar subyektlərin əməkdaşlıq münasibətlərində dövlət siyasətinin rolu əsaslandırılmışdır;
- inteqrasiya edilmiş strukturlarda subyektlərin fəaliyyətinin effektivlik meyarlarımüəyyənləşdirilmişdir;
- aqrar sahədə iqtisadi subyektlərin tərəfdaşlıq münasibətlərinin inkişaf istiqamətləri müəyyənləşdirilmişdir.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti.**Tədqiqatın praktiki əhəmiyyəti aqrar subyektlərin iqtisadi fəaliyyətində qarşılqlı maraqlar baxımından daha səmərəli nəticələr əldə etmək imkanlarını müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqat işinin iqtisadi səmərəsi.**Aqrar sahədə və onunla əlaqəli şəkildə fəaliyyət göstərən subyektlərin qarşılıqlı iqtisadi münasibətləri daha səmərəli əməkdaşlığın formalaşdırılmasının əsasını təşkil edir. Bu baxımdan subyektlərin qarşılqlı maraqlarının təmin olunması şərtilə inteqrasiya edilmiş strukturların fəaliyyətinin effektivliyinə yönəlmiş tədbirlər aqrar sahədə hər bir subyektin iqtisadi mənfəətinin yüksəlməsinə təsir edə bilər.

Ədəbiyyat

1. “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı.

2. Ataşov B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika). Monoqrafiya. Bakı-2017. 536 s.

3. Abbasov V.H. Aqrar iqtisadiyyat. “Ecopint nəşriyyatı”. Bakı 2017. 468 s.

4. Alıyev İ.H, Soltanlı İ.Q. Aqrar sahənin modernləşməsi və rəqabətqabiliyyətliliyin təmin olunması. Bakı: Avropa – 2017. 428 s.

5. Микрюков В.Ю. Теория взаимодействия экономических субъектов. В.Ю. Микрюков. - М.: Вузовская книга, 2004. - С. 9.

**№ 1/2021** **səh.127-131**

## Механизм развития взаимодействия экономических субъектов в аграрной сфере

**ОсмановаГюнельРахимгызы**

**Аннотация**: Взаимодействие экономических субъектов в аграрной сфере характеризуется как процесс, направленный на эффективную координацию экономических процессов, характеризуя уровень их адаптации к экономическим изменениям. Развитие экономических отношений в аграрной сфере требует как учета взаимных интересов субъектов, так и соответствие выполняемых функций. С этой точки зрения взаимодействие экономических субъектов направлено на достижение поставленных целей, достижение более эффективных результатов, обеспечение адаптации субъектов к институциональным изменениям и развитие сотруднических отношений.

**Ключевые слова:** эффективность, сотрудничество, конкуренция, координация, интеграция, институциональный механизм.

## Mechanism for the development of interaction between economic entities in the agricultural sector

**OsmanovaGunel Rahim**

**Resume**: The interaction of economic entities in the agricultural sector is characterized as a process aimed at the effective coordination of economic processes, characterizing the level of their adaptation to economic changes. The development of economic relations in the agrarian sphere requires both taking into account the mutual interests of the subjects and the correspondence of the functions performed. From this point of view, the interaction of economic entities is aimed at achieving the set goals, achieving more effective results, ensuring the adaptation of entities to institutional changes and the development of collaboration relations.

**Key words**: efficiency, collaboration, competition, coordination, integration, institutional mechanism.

Redaksiyaya daxilolma 25.02.2021
Çapa qəbul olunma 05.06.2021

**№ 1/2021** **səh.132-140**

**UOT: 338**

# ƏNƏNƏVİ OLMAYAN VƏ SON DÖVRLƏR İXRACINA BAŞLANILAN BİTKİÇİLİK MƏHSULLARININ TƏHLİLİ

**Vəliyeva Səbinə İzzət qızı**
**Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Aqrar Tədqiqatlar Mərkəzi**
**sabina_valiyeva@mail.ru**

***Xülasə:****Azərbaycan Respublikasınınqeyri-neft sektoru üzrə ixracında kənd təsərrüfatı məhsulları mühüm paya malikdir. Xüsusən də aqrar islahatlardan sonra kənd təsərrüfatının inkişafı nəticəsində bu sahə üzrə məhsulların ixracı həm həcm, həm də dəyər baxımından artmışdır. Buna paralel olaraq son illər ölkəmizin aqrar ixracında indiyə kimi ixracda ənənəvi olmayan məhsullarda yer almağa başlamışdır. Bunlardan arpa, soğan, təbii bal, cins heyvanlar, süd məhsulları, ət konservləri, biyan ekstraktı və s. məhsulları göstərmək olar. Bu məqalədə ixracına yeni başlanılan iki kənd təsərrüfatı məhsulu ilə bağlı mövcud vəziyyət araşdırılır və bu məhsulların ixrac potensialının reallaşması ilə bağlı təkliflər verilir.*

***Açar sözlər:****kənd təsərrüfatı, bitkiçilik, arpa, soğan, ixrac, idxal.*

## Giriş

Azərbaycan Respublikasının qeyri-neft ixracı 2019-cu ildə 1954,4 milyon ABŞ dolları təşkil etmiş və 2018-ci ilə nisbətən faktiki qiymətlərlə 13,9 faiz, real ifadədə isə 7,8 faiz artmışdır(11).2019-cu ildə 2018-ci illə müqayisədə mühüm məhsul növlərindən təzə meyvə ixracı 5,4 faiz, şəkər - 40,8 faiz, tütün – 1,6 dəfə, meyvə və tərəvəz şirələri - 31,8 faiz, çay - 10,2 faiz, meyvə və tərəvəz konservləri -3,6 faiz, marqarin, qida üçün yararlı digər qarışıqlar – 21,3 faiz, pambıq lifi - 1,6 dəfə, pambıq ipliyi – 34,9 faiz artmışdır. Bu artıma paralel olaraq Azərbaycanın qeyri-neft ixracının strukturunda indiyə kimi ixracında ənənəvi olmayan məhsulları da görmək olar. Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilən "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə (tədbir 2.1.7) ixracda ənənəvi olmayan və son dövrdə ixracına başlanılan məhsulların (cins heyvanlar, süd məhsulları, ət konservləri, arpa və s.), eləcə də ixrac potensiallı hesab edilən digər məhsullar (zəfəran, yun, gön-dəri, təbii bal, çaytikanı yağı, qoz yağı, biyan kökü və s.) üzrə ixrac imkanlarının dəyərləndirilməsi ilə bağlı tədbir əksini tapmışdır(1). Bu tədbirin icrası nəticəsində ixracına yeni başlanılan məhsulların ixracnın artırılması stimullaşdırılacaqdır.Artıq Azərbaycandan ixrac edilən məhsulların siyahısında arpa, soğan və ixracda ənənəvi olmayan digər bitkiçilik məhsulları vardır.

Bu məqalədə iki kənd təsərrüfatı məhsulunun - arpa və soğanın ixrac imkanları araşdırılır. Müəllif arpa və soğan istehsalının mövcud vəziyyətini öyrənir, onlarınixracının artırılması imkanlarını qiymətləndirir. Daha sonra ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı həyata keçirilən siyasəti nəzərə almaqla bu məhsulların ixrac potensialının reallaşması ilə bağlı müvafiq təkliflər verir.

## 1.Azərbaycandan arpa ixracının mövcud vəziyyəti

Azərbaycan Respublikası taxıl məhsulları üzrə əsasən idxalçı ölkə olsada, son on il ərzində bu sahədə ciddi irəliləyişə nail olunmuşdur. Xüsusən də Azərbaycanda arpa istehsalındaəsasən artım trendi müşahidə olunmuş və istehsalda ən yüksək göstərici 2015-ci ildə (1064 min ton) qeydə alınmışdır. 2019-ci ildə Azərbaycanda arpa istehsalı 1015 min ton olmuş və 2018-ci illə müqayisədə istehsal 7,7 faiz artmışdır(4). 2019-cu ildə Azərbaycanda istehsal olunmuş taxıl məhsulunun 61,4 faizini (2171,5 min ton)

buğda və 28,7 faizini (1015,5 min ton) arpa təşkil etmişdir.Ümumiyyətlə isə 2000-ci illə müqayisədə 2019-cu ildə arpa istehsalı 4,5 dəfə artmışdır.




**Şəkil 1.Azərbaycanda payızlıq və yazlıq arpanın istehsalı, min.ton** (2;4; 6; 11**)**

Azərbaycanda arpa istehsalının artmasına paralel olaraq onun ixracına da başlanılmışdır. 2016-cı ildə ölkədən az həcmdə arpa ixracına başlanılmış və 2018-ci ildə isə arpa ixracı 42,8 min ton, 2019-cu ildə isə 16,1 min ton olmuşdur(3; 12).




| | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| idxal | 53899 | 1279 | 46814 | 15068 | 14160 |
| ixrac | 0 | 16566 | 0 | 42810 | 16121 |

idxal ixrac Linear (idxal) Linear (ixrac)

**Şəkil 2. Azərbaycandan arpa idxal-ixracının dinamikası, ton** (3; 12)

Qeyd edək ki, son illər ölkəmizə arpa idxalında azalmalar müşahidə edilmişdir. Belə ki, 2018-ci ildə Azərbaycan 15 min ton və ya 2,6 milyon ABŞ dolları, 2019-cu ildə isə 14 min ton və ya 3 milyon ABŞ dolları dəyərində arpa idxal olunmuşdur (3; 12).Arpa ixracımızın dəyəri isə 2018-ci ildə 7,7 milyon ABŞ dolları və 2019-cu ildə 2,7 milyon ABŞ dolları təşkil etmişdir.

**№ 1/2021** **səh.132-140**




| | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| idxal | 6066 | 306 | 7401 | 2560 | 3047 |
| ixrac | 0 | 2571 | 0 | 7744 | 2698 |

**Şəkil 3. Azərbaycanın arpa idxal-ixracının dinamikası, min ABŞ dolları** (3; 12)

2018-ci ildə arpa Azərbaycandan İraq və İrana ixrac olunmuşdur. Məlumat üçün bildirək ki, 2018-ci ildə dünyada 35 milyon tondan çox arpa ixrac edilib. Fransa, Avstraliya və Rusiya əsas ixrac edən ölkələr sırasındadır.2018-ci ildə dünyada idxal olunan arpanın 26 faizi Çin, 10,1 faizi İran, 8,3 faizi Niderland, 6,7 faizi isə Belçikanın payına düşür(14).Arpa idxalında Azərbaycanın əsas tərəfdaşı 97 faiz ilə Rusiyadır. Qeyd edək ki, son 3 ildə ölkədə arpa ehtiyatlarının həcmi ortalama olaraq1,2 milyon ton təşkil etmişdir. İxrac edilən məhsul isə ölkə üzrə cəmi istehsalın 4,5 faizini təşkil etmişdir.

**2.Azərbaycandan soğanixracının qiymətləndirilməsi**

Azərbaycanda soğan istehsalı son 20 ildə dinamik olaraq artmışdır. Belə ki, 2019-cu ildə Azərbaycanda soğan istehsalı 2000-cı ilə nisbətən 3 dəfə artaraq 267,2 min ton olmuşdur.




| | 2000 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Series1 | 88.8 | 171.6 | 182.4 | 166.2 | 157.7 | 169.1 | 179 | 178.2 | 207.5 | 235.5 | 267.2 |

**Şəkil 4. Azərbaycanda soğan istehsalı, minton (2; 11)**

Xüsusən də son illər soğanın məhsuldarlığının artırılması istiqamətində ciddi irəliləyişə nail olunmuşdur. 2003-cü illə müqayisədə 2018-ci ildə soğanın məhsuldarlığı 64 faiz artaraq 184 sent/ha təşkil etmişdir(11). Qeyd edək ki, yerli sortların (yerli yaxşılaşdırılmış Hövsan, Sabir, Yerli Masallı, Yerli

№ 1/2021 səh.132-140

Xaçmaz) sortların orta məhsuldarlığı 200 sen/ha-dır (13). Təəssüf ki, hazırda ölkə üzrə yerli sortların orta məhsuldarlıq göstəricisinə tam nail olunmayıb.

Azərbaycanda soğan ixracı 2017-ci ildə 2016-cı illə müqayisədə 18 dəfə artaraq 56,6 min ton təşkil etsədə, 2018 və 2019-cu illərdə bu sahədə azalma qeyd alınmışdır. Buna baxmayaraq, 2019-cu ildə Azərbaycandan soğanın ixrac həcmi 2015-ci ildə nəzərən 3 dəfə artaraq 26,2 min ton təşkil etmişdir(11; 12).




**Şəkil 5. 2015-2019-cu illər ərzində soğanın idxal və ixrac dinamikası, ton(3; 11;12)**

Təhlillər göstərir ki, Azərbaycanın müstəqilliyi tarixində ən çox soğan ixracı 2017-ci ilə təsadüf etmişdir. 2018-ci illə müqayisədə 2019-cu ildə soğan ixracının azalmasında isə Nazirlər Kabinetinin daxili bazarda məhsul bolluğu yaratmaq üçün 2 ay müddətində ixrac edilən soğanın 1 kq-sı üçün 2 ABŞ dolları məbləğində gömrük rüsumi tətbiq etməsi ilə bağlı qərarı rol oynamışdır.

Bununla yanaşı, 2018-ci ildə 8,5 milyon ABŞ dolları və 2019-cu ildə 7,9 milyon ABŞ dolları dəyərində soğan ixracı reallaşdırılmışdır(11). Son illər Azərbaycanda soğan idxalı isə həm həcm, həm də dəyər baxımından cüzi olmuşdur. Belə ki, 2018-ci ildə ölkəyə 64 min ABŞ dolları və 2019-cu ildə 1,5 milyon ABŞ dolları dəyərində soğan idxal edilmişdir.




**Şəkil 6. 2015-2019-cu illər ərzində soğanın idxal və ixrac dinamikası, min ABŞ dolları(3; 11;12)**

2018-ci ildə ixrac olunan soğanın 41,8 faizi Gürcüstana, 17,3 faiziRusiyaya, 15,8 faiziisə Ukraynaya göndərilmişdir. 2019-cu ildə isə ixrac olunan soğanın 56,7 faizi Rusiyanın, 17,9faizi Türkiyə, 13,5 faiziGürcüstanın, 5,7faizi isə Ukraynanın payına düşmüşdür.

2017-2019-cu illərdə isə həm yerli istehsal həcminin artımı, həm də sahibkarların ixrac bazarlarına aktiv daxil olmaları hesabına ixracın həcmi artmış, eyni zamanda ixracın coğrafiyasıda genişlənmişdir. Hazırda Azərbaycan soğanı Avropa ölkələri də daxil olmaqla, 20 yaxın ölkəyə ixrac edilir.

Məlumat üçün qeyd edək ki, 2019-cu ildə dünya üzrə soğan ixracı natura ifadəsində əvvəlki il ilə müqayisədə 5,7faiz artaraq9016 min ton səviyyəsində qərarlaşmışdır. 2019-cu ildə ən çox soğan ixrac edən ölkələr Niderland (1634 min ton), Hindistan (11461 min ton) və Çin (984 min ton) olmuşdur(14).

Dünyada 2015-2019-cu illər ərzində soğan idxalında əsasən artım müşahidə olunmuşdur. 2019-cu ildə ən çox soğan idxal edən ölkələr ABŞ (543 min ton), Malayziya (505 min ton) və Birləşmiş Krallıq (457 min ton) olmuşdur(14).

2018-ci ildə Azərbaycan ümumilikdə 147 ton soğan idxal edib, bunun da 61,3 faiziRusiyadan olmuşdur. Amma 2019-cu ildə soğan idxalı 2018-ci illə müqayisədə 26 dəfə artaraq 3767 ton təşkil etmişdir. 2019-cu ildə də Azərbaycanaidxal edilən soğanın 65 faizi Rusiya Federasiyasının payına düşmüşdür.

**3. Arpa və soğan ixracının artırılması imkanları**

Azərbaycan Respublikasında aqrar sektorun inkişafı və ərzaq təhlükəsizliyinin təmini istiqamətində həyata keçirilən kompleks dövlət dəstəyi tədbirləri qarşıdakı illərdə də davam edəcəkdir. Eyni zamanda ərzaq təhlükəsizliyinin təmin istiqamətində həyata keçirilən siyasət aqrar ixracın artırılması ilə bağlı görülən tədbirlələ əlaqələndiriləcəkdir. Məhz Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı çıxışındaPrezident İlham Əliyevdə bununla bağlı istiqamətləri açıqlamışdır:“Ərzaq təhlükəsizliyi o demək deyil ki, biz bütün ərzaq məhsullarını, yaxud da kənd təsərrüfatı məhsullarını Azərbaycanda tam həcmdə istehsal etməliyik. Biz gərək ərzaq təhlükəsizliyinə, necə deyərlər, düşünülmüş şəkildə yanaşaq. Bu ərzaq təhlükəsizliyinin böyük hissəsi, təbii ki, Azərbaycanda formalaşmalıdır və əgər indi buğda istehsalını istisna etsək, bütün digər əsas ərzaq qida məhsulları ilə özümüzü böyük dərəcədə təmin edirik. Ancaq, eyni zamanda, bu, bizim ixrac imkanlarımıza da maneçilik törətməməlidir”(7;10).

Qeyd edək ki, ölkə rəhbərliyinin müəyyənləşdirdiyi bu siyasətə uyğun olaraq qarşıdakı illərdə Azərbaycanın aqrar ixracının strukturunda yeniliyin olacağını proqnozlaşdıra bilərik. Arpa və soğan məhsulunun aqrar ixracda tutacağı mövqeyə gəlincə isə hesablamalarımız göstərir ki, əhalinin artımı, heyvandarlığın inkişafı və digər amillərin təsiri ilə 2030-cu ilə qədər ölkədə arpaya olan tələbat təqribən 150 min ton artacaq. Bu isə ondan xəbər verir ki, hazırda arpa ilə özünütəminetmə səviyyəsi 100 faiz olsada, növbəti illərdə arpanın ixrac həcminin əhəmiyyətli artımı gözlənilmir. Yeri gəlmişkən qeyd edək ki, FAO-nun məlumatına əsasən 2018-ci ildə dünya üzrə arpanın orta məhsuldarlığı 29,5 sent/ha olub(15). Nəzərdən keçirilən dövrdə Azərbaycanda bu göstərici 27,9 sent/ha təşkil edib. Əsas istehsalçı ölkələr arasında arpa üzrə ən yüksək məhsuldarlıq 69,3 sent/ha olmaqla Almaniyanın payına düşüb. Təhlillər göstərir ki, Azərbaycanda da arpanın məhsuldarlığını artırmaq potensialı mövcuddur. Xüsusən yeni formalaşdırılan iri təsərrüfatlarda arpanın məhsuldarlığının suvarılan torpaqlarda 35-45 sent/ha təşkil edir.

Soğan ixracının artırılması imkanlarına gəlincə isə Azərbaycanda bir ildə adambaşına 18 kq-dan çox soğan işlədilir(13). Amma istehsal daxili tələbatdan daha çoxdur və hazırda soğan ilə özünütəminetmə səviyyəsi 120 faizdən artıqdır(5;11). Dünya üzrə soğana olan tələbatın həcmini və ölkədə istehsalın artırılması imkanlarının yüksək olduğunu nəzərə alaraq sektorun inkişafının davamlılığının təmin edilməsi, ixrac coğrafiyasının və ixrac həcminin genişləndirilməsi imkanları kifayət qədər yüksək

qiymətləndirilir. Çünki təhlillərimiz göstərir ki, hazırda Azərbaycanın soğan ixracı qiymət rəqabətqabiliyyətliliyinə malikdir.

Məlumat üçün qeyd edək ki, 2018-ci ildə dünyada idxal olunan 1 ton soğanın orta qiyməti 409 ABŞ dolları, 2019-cu ildə isə 477 ABŞ dolları təşkil edir(14). Əsas soğan idxal edən ölkələr arasında ən yüksək qiymət ABŞ-ın, ən aşağı qiymət isə Banqladeşin idxalında qeydə alınmışdır.

Azərbaycanın soğan ixracı qlobal soğan ixracının dəyər ifadəsində 0,2 faizinə bərabdir(14). 2018-ci ildən Azərbaycandan ixrac olunan soğanın 1 tonunun orta qiyməti 208,7 ABŞ dolları, 2019-cu ildə isə 302ABŞ dolları olmuşdur. Bu isə onun göstərir ki, Azərbaycanın ixrac etdiyi soğanın orta qiyməti dünya üzrə idxal olunan soğanın orta qiymətindən aşağıdır.

*Cədvəl 1*

Azərbaycandan ixrac edilən soğanın qiyməti, ABŞ dolları/ton

| **İxracedilənölkə** | **2016** | **2017** | **2018** | **2019** |
|---|---|---|---|---|
| Rusiya | 526 | 410 | 416 | 419,5 |
| Türkmənistan | 46 | 175 | 194 | |
| Gürcüstan | 92 | 123 | 161 | 212 |
| İraq | 132 | 187 | 161 | 170 |
| İran | 179 | 200 | - | - |
| Türkiyə | - | - | 195 | 227 |
| Ukrayna | - | 357 | 159 | 237 |
| BƏƏ | - | 171 | 205 | 186 |
| Əfqanıstan | - | 200 | - | - |
| Küveyt | - | 200 | - | 517 |
| Qətər | - | 204 | 474 | 225 |
| Pakistan | - | 160 | - | - |
| Moldova | - | - | 167 | 271 |
| Bolqarıstan | - | - | 184 | 190 |
| ÇexRespublikası | - | - | 137 | - |
| Estoniya | - | - | 200 | - |
| İsrail | - | - | 200 | - |
| Makedoniya | - | - | 252 | 180 |
| Polşa | - | - | 160 | 227 |
| Rumıniya | - | - | 222 | - |
| Yunanıstan | - | - | 200 | - |
| Belarus | | | | 302 |
| *Ortaqiymət* | ***309*** | ***277*** | ***209*** | ***302*** |

***Mənbə:***(11; 12)

Cədvəldən də görüdüyü kimi, Azərbaycanın soğan ixracının coğrafiyası genişlənir və qarşıdakı illərdə onun ixracının artırılması imkanları da mövcuddur. Soğan ixracının artması isə həm də fermerlərin gəlirlərinin artmasına xidmət edəcəkdir. Tədqiqatlar göstərir ki, soğanın 2015-2018-ci illər ərzində ən yüksək satış qiyməti 2017-ci ildə müşahidə edilmişdir(8). Məhz 2017-ci ildə də müstəqil Azərbaycanının tarixində rekord miqdarda 56,6 min ton soğan ixracı reallaşmışdır.

**№ 1/2021** **səh.132-140**

Bir faktı da qeyd edək ki, dünyanın bir çox ölkəsi ilə müqayisədə hazırda Azərbaycanda soğanın məhsuldarlığı aşağıdır(184 sent/ha). FAO-nun məlumatlarına görə isə 2018-ci ildə soğanın məhsuldarlığı İranda 394, Türkiyədə 326, Rusiyada 271, İspaniyada 535, Fransada 358, Almaniyada 360, Niderlandda 367, Çində 221, Kanadada 443, Avstraliyada 541sent/ha olmuşdur(15). Göründüyü kimi qarşıdakı illərdə Azərbaycanda soğanın məhsuldarlığını TürkiyəRespublikasındakı səviyyəyə çatdırmaqla ixrac potensialını ciddi şəkildə artıra bilər. Bu isə öz növbəmizdə Azərbaycanın qeyri-neft sektoru üzrə ixracının artmasına töhfə verər. Araşdırmalar göstərir ki, müasir dövrdə Azərbaycanın qeyri-neft sektorunun ixrac potensialından istifadənin yüksəldilməsi yolunda hələlik dayanıqlı mövqeyə malik olmadığı özünü biruzə verir. Bu sahədə xeyli mütərəqqi strateji tədbirlərin görülməsi, dövlət proqramların icrası və birçoxlarının hazırda icra prosesində olması isə bu qənaətə gəlməyə imkan verir ki, yaxın gələcəkdə Azərbaycanda qeyri-neft sektorunun ixrac potensialından istifadənin daha səmərəli, məhsuldar yollarının formalaşdırılması tədbirləri intensivləşə bilər(9). Məhz aqrar sahə üzrə məhsuldarlığın yüksəldilməsi ixrac potensialından istifadədə səmərəliliyinin artırılmasına xidmət edəcəkdir.

**Nəticə**

Yekunda qeyd edə bilərik ki, Azərbaycanda ərzaq təhlükəsizliyinə düşünülmüş şəkildə yanaşılması və aqrar ixracın artılması istiqamətində həayta keçirilən siyasət öz müsbət nəticələrini verir. Artıq ölkəmizdə aqrar ixracında ənənəvi olmayan məhsullarının da ixracına başlanılmışvə bu sahədə potensiallar aşkara çıxarılmışdır. Arpa və soğan ixracının artırılmasına gəlincə isə təhlilimiz göstərir ki, ölkəmizdə heyvandarlığın inkişafı ilə bağlı qarşıya qoyulan hədəfləri nəzərə alındığı təqdirdəarpanın ixrac potensialı aşağı olacaqdır. Çünki 2030-cu ilə qədər Azərbaycanda arpaya olan daxili tələbatın təqribən 150 min ton artacağı proqnozlaşdırılır.Belə ki, 2018-ci ildə 337180 hektar, 2019-cu ildə isə 342215 hektar sahədə arpa əkilmişdir. Yəni Azərbaycanda arpa əkin sahələrinin genişləndirilməsi imkanları məhduddur. Lakin ölkəmizdə arpanın məhsuldarlığını artırmaq üçün potensialın olduğunu da nəzərə almalıyıq.DSK-nın məlumatına əsasən2018-ci ildə arpanın məhsuldarlığı27,9sent/ha, 2019-cu ildə isə 29,7 sent/ha təşkil etmişdir. Məhsuldarlığı artırmaq hesabına 2030-cu ilə kimi artan tələbi ödəmək və az miqdarda da olsa arpa ixracı da həyata keçirmək mümkündür.

Arpa ilə müqayisədə soğan ixracında imkanlar daha böyük olduğu aydınlaşır. Qeyd edək ki, 2016-cı ildə daxili bazarda qiymətlərin kəskin düşməsi ilə sahibkarlar ixrac bazarlarında yeni satış kanalları qurmağa başladılar ki, nəticədə soğanın da ixracında artım dinamikası müşahidə olundu. 2017-2019-cu illərdə isə soğan ixracının coğrafiyası genişlənmişdir. Həmçinin 2019-cu ildə ölkədə istehsal olunun soğanın 10 faizi ixraca yönəlmişdir. Soğanla özünütəminat səviyyəsi 120 faizdən çox olduğu üçün hazırkı ixrac səviyyəsi daxili bazar üçün də təhdid yaratmır.

Dünya üzrə soğana olan tələbatın həcmini və ölkədə istehsalın artırılması imkanlarının yüksək olduğunu nəzərə alaraq soğanın ixrac həcminin genişləndirilməsi imkanları yüksək qiymətləndirilir. Azərbaycan soğanın məhsuldarlığını yüksəltmək hesabına bu sahədə ixrac potensialını ciddi şəkildə artıra bilər. Bu səbəbdən də dövlət tərəfindən növbəti illərdən soğanın məhsuldarlığının yüksəlməsinə xidmət edən stimullaşdırıcı tədbirlərin həyata keçirilməsini təklif edirik.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. /Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir/- http://www.president.az/articles/22110
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. "Azərbaycanın kənd təsərrüfatı" Statistik məcmuə 2019. Bakı: 2019, 644 s.

3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.Azərbaycanın xarici ticarətiStatistik məcmuə /2020, Bakı: 2020, 220 s.
4. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Sosial, İqtisadi İnkişaf. Yanvar-Dekabr.Bakı: 2020, 196 s.
5. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.Azərbaycanın ərzaq balansları. Statistik məcmuə/2019. Bakı: 2019, 94 s.
6. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin İllik Hesabatı. Bakı: 2020, 20 s. https://www.agro.gov.az/az/nazirlik/hesabatlar
7. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib/- https://azertag.az/xeber/Prezident_Ilham_Aliyevin_sedrliyi_ile_Nazirler_Kabinetinin_2020_ci_ilin_birinci_yarisinin_sosial_iqtisadi_inkisafinin_yekunlarina_ve_qarsida_duran_vezifelere_hesr_olunan_iclasi_kechirilib_YENILANIB_2_VIDEO-1537441
8. Hacıyeva S.İ. Aqrar sahədə qiymət paritetliyinin istehsalçıların gəlirlərinə təsiri. Kənd təsərrüfatının iqtisadiyyatı 2020, № 1 (31) Bakı: 2020, səh.43-51
9. Şəkərəliyeva Z.A. Qeyri-neft sektorunda ixrac potensialından istifadənin tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri.AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası 2019 (sentyabr-oktyabr) Bakı, səh.44-49.

**İnternet mənbələri:**

10. https://president.az/(10.07.2020)
11. https://www.stat.gov.az/ (15.07.2020)
12. http://customs.gov.az/ (22.07.2020)
13. https://www.agro.gov.az/az/bitkicilik/terevezcilik/bas-sogan (01.08.2020)
14. www.trademap.org (01.08.2020)
15. http://www.fao.org/faostat/en/#data (05.08.2020)

**UDC 338**

## Analysis of the non-traditional and recently exported plant growing products

**Valiyeva Sabina İzzat**

**Summary**

Agricultural products have a significant share in the non-oil export of the Republic of Azerbaijan. Especially, after the agrarian reforms exports of agrarian products have increased in both volume and value in Azerbaijan. At the same time, non-traditional products have begun to make part of the country's agricultural exports. These include barley, onions, natural honey, pedigree animals, dairy products, canned meat, an extract of licorice and etc. This article analyzes current situation of 2 important agricultural products, which are newly added to export goods, and offers suggestions for the realization of the export potential of these products in the country.

**Keywords:** agriculture, plant growing products, barley, onion, export, import.

**№ 1/2021** **səh.132-140**

**УДК 338**

**Анализ нетрадиционных и недавно экспортированных продуктов растениеводства**

**Велиева Сабина**

**Резюме**

Сельскохозяйственная продукция занимает значительную долю в ненефтяном экспорте Азербайджанской Республики. Особенно после аграрных реформ экспорт аграрной продукции в Азербайджане увеличился как в натуральном, так и в стоимостном выражении. В то же время нетрадиционные продукты стали составлять часть сельскохозяйственного экспорта страны. К ним относятся ячмень, лук, натуральный мед, племенные животные, молочные продукты, мясные консервы, экстракт солодки и т.д. В этой статье анализируется текущая ситуация с двумя важными сельскохозяйственными продуктами, которые недавно начали экспортироваться и предлагаются предложения по реализации экспортного потенциала этих продуктов.

**Ключевые слова:** сельское хозяйство, растениеводства, ячмень, лук, экспорт, импорт.

Redaksiyaya daxilolma 15.12.2020
Çapa qəbul olunma 05.06.2021